# بسم الله الرحمن الرحيم

# Bismillahir-Rəhmanir-Rəhim

***SİDDİQEYİ-TAHİRƏ (Ə)***

**Böyük İslam xanımı Fatimə (ə)**

**Əqiqi Bəxşayeşi**

Tərcüməçi: Möhsün Nağısoylu

Mehriban və bağışlayan Allahın adı ilə

## Fatimə...

Bu yalnız adi bir addır. Bu lüğəvi qəlibdə, hərf və yazıların bu şəklində - bu hərflər yan-yana düzüldükdə hamısı birlikdə yalnız bir adı təşkil edir. İslama məxsus adı, qadınlığa aid adı, müsəlman qadınlarına xas adı...

Bu ad yalnız adi bir ad kimi xatırlanarsa, burada fövqəladə heç bir şey yoxdur. Onu təşkil edən hərflər – istər tək olsun, istərsə də bütövlükdə - heç bir alilik və müqəddəslik, heç bir qeyri-adi parlaqlıq və hətta heç bir səciyyəvi xüsusiyyət daşımır. Məgər adı Fatimə olan azmı qadın və qızı görmüş, tanımışıq?.. Uşaqlıqda adı ilə çağırılan azmı qadın və qız görmüşük ki, böyüyəndə başdan-başa sürtülmüş Qərbə qərq olmuş ictimai həyatda, Qərbi və qərbliləri özləri üçün nümunə edənlərin məclis və yığıncaqlarında müstəmləkə dünyasının kino ulduzlarının adları ilə çağırılan dost və tanışlarının yanında uşaqlıq zamanının adından – Fatimə adından bezərək bu addan üz döndərmiş və öz adlarını “Fifi” və “Fati” ilə əvəz etmişlər!..

“Fatiməlik” yolundan, “Fatiməlik” adətindən fərsənglərlə uzaqda olan çoxlu elə fırıldaqçılar da olmuşlar ki, sadəlövhləri aldatmaq və İslam cəmiyyətində gözə yaxşı görünmək üçün riyakarlıq və ikiüzlülük edərək Fatimə adına pənah gətirmişlər!.. Və hətta şeytanlar, “pəhləvilər” kimi diktatorlar da öz qızlarına zahirən “Fatimə” adı qoymuş və onları xalqa bu adla tanıtmış, lakin sadəlövh adamlardan uzaq xudmani məclislərində qızlarını başqa adla çağırmış və özlərinin bu riyakarlığı ilə fəxr etmişlər.

Bəli, əgər “Fatimə” adı yalnız bir ad kimi qeyd olunsa, yalnız və yalnız bir neçə adi hərfin birləşməsindən ibarət sadə bir addır, vəssəlam... Lakin bizim İslam mədəniyyətində, onun geniş və ilhamverici aləmində bu ad artıq adi bir ad deyil, müqəddəslik və paklıq camalının aynası, əzəmət pərdəsinin və saflığın inikası, bu dünyanın əvəzsiz müsəlman qadınları üçün bir örnək və nümunədir. Ruh ucalığı və ululuğun, can gözəlliyinin canlı təcəssümüdür. Qaranlıq gecədə parlayan günəşdir, qadın həyatının əzabla, həqarətlə dolu tarixində işıqlı ulduzdur. Bir qızın öz atası üçün fədakarlığının, candan keçməsinin ən yüksək nümunəsidir. Bir qadının öz əri ilə bir yol sahibliyinin, qoşa addımlamanın, həmrəylik və həmdərdliyin nümunəsidir, səbr və dözümün nümunəsidir. Bütün əsrlər və yüzilliklər boyu atasının, rəhbərinin, Peyğəmbərinin ümməti üçün misilsiz bir müsəlman qızının, müsəlman qadınının nümunəsidir! Çalışqan və işgüzar, vəfalı və səliqəli qadının nümunəsidir. İnqilabi mübarizəyə qalxmış qadının nümunəsidir. Qəhrəman qadının, qəhrəman ananın nümunəsidir. Ən əziz və əvəzsiz şəhidləri tərbiyə etmənin nümunəsidir. Bütün tarix boyu, yüzilliklər ərzində, insan varlığının bütün mərhələləri ərzində tarixə şəhidlik şücaətini bəxş etməyin nümunəsidir.

Bütün bunlara görə də bu ad sadə bir ad qəlibindən çıxaraq İslam məktəbi, İslam mədəniyyəti çərçivəsində elə müqəddəs və ali bir ada çevrilir ki, onu yalnız pak bir qəlblə yad etmək, adını yalnız pak bir ağızla dilə gətirmək olar. Bəli, Fatimə əleyhassəlam (Allahın ona salamı olsun)!

İndi isə bu söhbətlər silsiləsindən belə bir qadın (Allahın və Onun pak bəndələrinin ona salamı olsun) haqqında söz açmaq istəyirik. Onun qısa və canlara od salan, lakin səmərəli və parlaq, insansevər və ali həyatından, Allah yolunda və Allah üçün sürdüyü mənalı ömründən bəhs etmək niyyətindəyik.

### İslamın bərəkətli məktəbində

İslamın bərəkətli məktəbində hər şey qəribə və heyrətləndiricidir. Hər şeydən daha heyrətli və qəribəsi də bu İlahi məktəbin saf və əvəzsiz insan tərbiyə etmək xüsusiyyətidir. Bu məktəbdə adı insan və bəşər olan bu varlıq üçün bütün hədd və sərhədləri birdəfəlik dağıdır, cismin qəlibindən bir vəhşi sifətində çıxır ki, can qəlbinin İlahi gözəlliyi qəlbinin içinə girsin və özünü bu mübarək – “Allah insanı özünə bənzər şəkildə yaratdı” – səma kəlamının ən düzgün təsdiqi surətinə sala bilsin. Yalnız bu bərəkətli məktəbin düzgünlüyünə görə belə bir qəribə və heyrətli şey baş verir. Və torpaqdan və qurumuş gildən yaranmış insan – İslamdan qabaq ruhu fitnə-fəsadla yoğrulan murdan şeyləri, meyidi yeyən, qanı içən, öz övladlarını diri-diri torpağa basdıran, qadınını pozğunluğa, fahişəliyə vadar edən, qardaşını öldürən, başqalarının mal və namusuna meyl salan, nəfsinin, şəhvətinin üzündən günahsızların qanını axıdan insan – bəli, belə bir zülm və cəhalət varlığı – İslam məktəbində birdəfəlik dəyişir. Həmin insan elə alilik qazanır, elə bir yüksəklik və ucalıqlara baş vurur, elə canlarla bir canda olur ki, zillət və alçaqlıq dibindən şərəf və iftixar zirvəsinə yüksələrək elə bir yerə çatır ki, Allahdan başqa heç nəyi düşünmür...

Bütün bunlar ona görədir ki, İslamın insan tərbiyələndirici məktəbi təkcə adi və yüksək qaydaları tərtib edən, fərdi və ictimai səadət yolunda misilsiz dəyərlərin bünövrəsini qoyan məktəb deyil, həm də həmin qaydalar və dəyərlər əsasında insanları da tərbiyə edən məktəbdir. Belə bir tərbiyə nəticəsində insanların özləri bəşər cəmiyyətində yüksək İlahi dəyərlərin nümunəsi ola bilərlər.

### Canlı nümunə

Belə şəxslərin ən açıq-aşkar nümunəsi, bu canlı dəyərlərin ən parlaq təcəssümü İslam və imanın qəhrəman qadını, əbədi qəhrəmanlar anası Fatimeyi-Zəhradır (ə). O həzrət sözün əsl mənasında tam İslam tərbiyəsi almış insanlığın kamil və yetkin nümunəsi olan bir qadındır.

Fatimeyi-Zəhra (ə) bir qız kimi, yəni İslam Peyğəmbərinin (s) əziz qızı kimi ismət və qənaət, möminlik və paklıq, iman və fəzilət nümunəsidir. Bir həyat yoldaşı kimi, yəni İmam Əlinin (ə) həyat yoldaşı kimi səbr və uzaqgörənliyin, xoşrəftarlıq və dözümlülüyün, mehribanlıq və fədakarlığın nümunəsidir. Və bir ana kimi üsyan məktəbinin banisi olan Həsənin (ə) anasıdır. Qırmızı və qanlı inqilab bayrağını qaldıran, qanla suvarılmış şəhidlik qöncəsi əbədiyyətə qədər solmayan Hüseynin (ə) anasıdır. Sözdə üsyan məktəbinin sahibidir. Əzəmətli və təsirli kəlamı ilə, yüzlərlə qılınc kəsərində olan atəşin çıxışları ilə peyğəmbərliyin Quran inqilabını davam etdirən, Zeynəbin anasıdır. Ümm Gülsümün anasıdır. İlahi bir dinin dönməz imamları və rəhbərlərinin anasıdır.

Elə bir döyüşkən və şücaətli insanların tərbiyəçisidir ki, hər biri bəşər cəmiyyətinə rəhbərlik üçün böyümüş və hər birinin varlığı bu qorxulu iş üçün kifayətdir.

Həmçinin bir müsəlman qadının, əxlaq müəlliminin, fərdi və ictimai həyat müəlliminin, İslam cəmiyyətinin tale yolunu quran bir şəxsin nümunəsidir. Axı cəmiyyətin taleyi onun fərdlərinin rəftar qaydasından, iş tərzindən, əməl və əxlaqlarının keyfiyyətindən asılıdır və fərdlər də bu xüsusiyyətlərin yaxşı və pisini ana qoynunda, onun yanında öyrənir, onları öz ruhlarına qarışdırır və ana südü ilə içlərinə daxil edirlər ki, canlarına hopsun. Bu səbəbdən də, əgər cəmiyyətin anaları Fatimeyi-Zəhra (ə) kimi yüksək və ali keyfiyyətlərə malik olsalar və onlardan öyrənib, öyrəndiklərini təbliğ etsələr, onda bəşər cəmiyyyəti bu dünyada xoşbəxtliyə çatmaq yolunda, o dünyada isə nicat tapmaq yolunda öz taleyinin istiqamətini dəyişdirə bilərlər.

Bütün bunlara da yalnız bir vasitə ilə nail olmaq mümkündür: bəşər duyğusu və təfəkkürü, iman və etiqad gərək öz kökünü İslamın insan tərbiyələndirən məktəbində tapsın və bu məktəbin həqiqi rəhbərlərini özləri üçün fikir və əməl, söz və düşüncə aynası etsin...

Fatimeyi-Zəhra (ə) da bu İlahi aynaların ən pak və ən şəffaflarından biridir.

**Tarixdə qadının etibar və dəyərinin başlanğıcı**

Fatimeyi-Zəhra (ə) haqqında çoxlu tərifli, xoş sözlər işlətmək olar. Belə sözlərin sayı hədsiz-hesabsız olsa da, onların heç biri onun mənəvi böyüklüyünü, dərin və böyük mənəviyyatını, əziz varlığının sonsuz dəyərlərini ifadə etmək üçün bir damla da deyil – dəniz və okeanlarla müqayisədə bir damcı bərabərindədir. Bununla belə, tutaq ki, bu anda bütün bu dəyərləri və qabiliyyətləri bir neçə qısa sözlə tərif və vəsf etmək mümkündür, onda belə demək olar: Fatimeyi-Zəhra (ə) öz əsrində qadınların hər şeydən məhrum və zəif bir dövrünü dəyişdirən və onu mənəvi, ictimai, siyasi və bəşəri baxımdan xoşbəxtlik və səadət çağına qovuşduran bir həlqə hesab olunur. Həmçinin başqa əsrlər üçün – köklü dəyişikliklərin başlanğıcıdır. Köhnə və yeni dəyərlərin, meyarların elə bir məhvəridir ki, bütün zaman və məkanlarda bir ağıllı və yaradıcı, hər şeydən agah və doğru yol göstərən, insan həyatını dəyişdirən və onu mənalandıran bir qadın nümunəsi ola bilər.

İlk baxışda Fatimənin (ə) qısa, lakin səmərəli həyatına bu nəzərlə baxsaq, tarixin, dost və düşmənin şəhidliyi ilə belə bir həqiqəti açıq-aşkar dərk etmiş olarıq: bədəvi qəbilə və tayfalarda "qadın və qız" arını-eybini mühafizəkar, köhnə adət-ənənələrə aludə olmuş kişilərin zehnindən, yaddaşından silən, məhv edən o həzrətin əziz vücudu oldu. O həzrət bu yolda kişini başçı sayan, kişiyə hədsiz imtiyazlar verən cəmiyyətlərdə insanlığı təkcə "kişi olmaqla" məhdudlaşdıran bir fikrin aradan qaldırılmasında, qadınla kişinin dəyərlərinin bərabər şəkildə tanınmasında əbədi nümunə oldu. Bu əsassız və mənasız imtiyazları öz varlığının parlaq gövhəri ilə yalana çıxaran, sübut və elan edən o həzrət oldu. O həzrət səmərəli həyatı ilə göstərdi ki, İslam cəmiyyətinin yaradıcısı olması, həm maddi, həm də mənəvi məqsədlərin əldə edilməsi üçün qadınlar da kişilərlə bərabər xidmət göstərə bilər, həyatda özlərindən sonra yadigar qoya bilər, kişilərin görə biləcəyi hər hansı bir yaradıcı işin öhdəsindən bacarıqla gələ bilər.

Qısaca demiş olsaq, Fatimeyi-Zəhra (ə) sözün həqiqi mənasında misilsiz bir mömin və elmli-bilikli bir qadındır. Fatimə (ə) yeni dəyər və meyarların bir yaradıcısı kimi İslam qadınlarına həqiqi və əsl həyatın nə olduğunu öyrətmiş, onların diqqətini öz varlıqlarında olan gövhərə bənzər dəyərlərə cəlb etmişdir. Beləliklə də, qadınların həqarətli maddi həyat mərhələsindən düzgün və ağıllı mənəvi həyata qədəm qoymasına rəhbərlik etmişdir.

**"Kişilərə məxsus" cəmiyyətdə cahiliyyə qadını**

Peyğəmbərliyin başlanması ərəfəsində - İslamın inqilab və yenilik ayininin yaranmasının başlanğıcında Ərəbistan yarımadasının bomboş və yandırıcı səhralarında yaşayan və qaba, "kişilərə məxsus" həyat tərzinə adət etmiş cahiliyyə ərəblərinin cəmiyyəti "kişilərin" cəmiyyətini (patriarxal ailə münasibətlərinin hökm sürdüyü cəmiyyəti) təşkil edirdi.

"Matriarxat" (ananın hökmranlığına əsaslanan ailə münasibətləri) hakimiyyətinin ardınca gələn və "patriarxat" (atanın hökmranlığına əsaslanan ailə münasibətləri) hakimiyyətinin qaba və quru həyat tərziilə səciyyələnən başlanğıc dövrünə təsadüf edən belə bir cəmiyyətdə fərdin həyati dəyərləri yalnız iqtisadi, hərbi və maddi meyarlarla ölçülür və qiymətləndirilirdi. Başqa sözlə desək, belə bir cəmiyyətdə hər hansı bir fərd yalnız bir şərtlə şəxsiyyət sayılır və hörmət qazanırdı ki, hər hansı bir iş görməyə, çalışmağa, dolanacaq əldə

etməyə qadir olsun. Yəni bir şəxs əgər at çapmağı, meydanda vuruşmağı, çapıb-talamağı bacarırdısa, o, başqa qəbilələrlə birgə keçirilən döyüş, vuruş, güləşmə yarışlarında iştirak edə bilər və məntəqədə nüfuz qazanmaqda, maddi gəlir əldə etməkdə, döyüş qənimətləri ələ keçirməkdə, düşmənləri, qulları və kənizləri əsir almaqda mühüm rol oynaya bilərdi.

Beləliklə, qadınların cəmiyyəti bütün bu imtiyazlardan bəhrələnmədiyi üçün, eləcə də təbii keyfiyyətlərinə, cismani xüsusiyyətlərinə görə bu işlərdə iştirak edə bilməzdi, deməli, "oyundan kənarda" – pərdə arxasında qalırdı. Bütün bu xüsusi meyarlara əsasən "qadın" heç bir ictimai dəyəri və insani şəxsiyyəti olmayan fərd sayılırdı. Ona görə də, qadınların cəmiyyəti düşkünlük və puçluğa, bir sözlə, bir təbəqə kimi edama məhkum idi. Quranın təbirincə desək, "mövudə" idi, yəni diri ikən qəbirə qoyulmağa "layiq görülən" idi. Cahiliyyə cəmiyyətinin kişiləri qız uşağı doğulmasını özləri üçün elə böyük bir ar sayırdılar ki, bu ar ləkəsini yumaq üçün yeni doğulmuş qızı dərhal öz əlləri ilə bir çalada dəfn edir və "qız doğmuş" arvada çox həqarətlə baxır, bəzən onu evdən qovurdular.

Bir ərəb şairi bu barədə belə yazır:

"Qızı olan hər ata onu diri saxlamaq istəsə və əgər (gələcək) kürəkən xəyalına düşsə, onda onun üç kürəkəni olacaq: biri – qızı gizlədən ev, biri – onu saxlayacaq ər və üçüncüsü – onu örtəcək qəbir. Bu kürəkənlərdən ən yaxşısı həmin o qəbirdir."

İslamdan qabaqkı dövrdə qadın və qızın acınacaqlı və dərdli taleyini, onun cəmiyyətdəki mövqeyini və dəyərini təsvir edən bu kimi şerlər ərəblərin cahiliyyə dövrünün ədəbiyyatında çoxdur. Bütün bunlar göstərir ki, İslam inqilabı və inqilabi İslam qadına necə münasibət bəsləmiş və insan tərbiyələndirən hərəkəti və bərəkətli məktəbi ilə qadın varlığını necə öz həqiqi mahiyyət və vəzifəsinə qaytarmış, onu əsl bəşəri gövhəri ilə zəngin etmişdir.

Nəzərə almaq lazımdır ki, bu cür çirkin və qeyri-bəşəri adətlərlə yaşayan, qızlarını diri-diri torpağa basdıran, belə bir adətdən əsla əl çəkmək istəməyən ərəblərin arasında İslam Peyğəmbəri (s) də yaşayırdı. Və o Həzrət qız sahibi oldu. O qız Fatimeyi-Zəhra (ə) idi. Allahın kəramətli elçisi (s) onu özünün mehriban ətəyində oturtdu, lütf və mərhəmətli əli ilə başını sığalladı, mehribanlıq və məhəbbətlə yanağından öpdü və əziz canı kimi istəklə saxladı. Bununla da o zamankı ərəblərə (eləcə də bütün zamanların və məkanların insanlarına) öyrətdi ki, qızı necə saxlamaq lazımdır. Allahın belə bir ailə ocağında varlıq çırağını yandırdığı belə bir qız üçün belə bir Ata gərək idi...

Peyğəmbər (s) qızının əziz varlığı ilə bəzənən, işıq saçan qadınlar cəmiyyətindəki inqilabi dəyişikliklərin başlanğıcı da elə budur.

## Uzaq keçmişlərə bir baxış

Tarixi mənbələrə əsasən mübaliğəsiz demək olar ki, ərəblərin cahiliyyə dövrünün bütün tarixi ərzində cəmiyyətdə azacıq qədir-qiyməti olan qadınların sayı vur-tut bir neçə nəfər imiş. Çünki deyildiyi kimi, o cür çürük quruluşu, düşkün qayda-qanunu olan cahiliyyə cəmiyyətində "qadın" anlayışı ar və eybə bərabər idi. Cahiliyyə ərəblərinin geniş yayılmış bir zərbül-məsəlində deyilir:

"Qadın ardır, arı da gərək torpağa basdırasan."

Qəribədir ki, cahiliyyə ərəblərinin ədəbiyyatı başdan-başa bu əsas üzərində qurulmuşdur. Belə ki, bir qızın atası üçün ən yaxşı kürəkəni qəbir hesab edən yuxarıdakı şerə və qadının yerini torpağın qoynunda bilən zərbül-məsələ bənzər şerlər və dastanlar ərəb ədəbiyyatında çox olmuşdur. Bunlara ən tutarlı nümunə olaraq "Əl-əsnam Kəlbi", "Əl-əğani İsfahani" və "Əl-bəyan vət-təbyin Cahiz" kitablarının adını çəkmək olar ki, onların hər biri bu cür sözlərlə, nəğmələrlə, zərbül-məsəllərlə, gülməcə və lətifələrlə doludur. Bu cür biabırçı meyarları olan cəmiyyətdə bir dəvənin qiyməti bir neçə qızın dəyərindən qat-qat çox idi. Bir qəbilənin bütün qızları (əgər diri-diri qəbirə basdırmasaydılar) kişilərin nəzərində bir atın – özü də o qədər bahalı və əsil olmayan atın – qiyməti qədər də deyildilər. Çünki cahiliyyə cəmiyyətinin kişiləri öz şərəf və ləyaqətlərini oğlan övladları olmaqda (o da iş görmək, dolanacaq əldə etmək, müharibə və qətl-qarətdə iştirak etmək üçün) görürdülər. Bu səbəbdən də onların nəzərində, kimin ki, arvadı öz iradəsi və ixtiyarı olmadan qız dünyaya gətirirdi, dəyərsiz və mənfur kişi idi. Həmin kişinin alnına ar və nifrət damğası vurulurdu, onu istehza ilə, barmaqla göstərirdilər.

Bəli, belə bir qaranlıq aləmdə, cəhalət və xurafatla dolu mühitdə İslam zühur etdi və insanlara istər qadın olsun, istər kişi - əsl insanlıq bəxş etmək üçün ayağa qalxdı. Yeni qədəmli İslam qayda-qanunu insanlara, xüsusilə də qadınlara – bu məhrum və qapazyemiş varlığa, bəşər cəmiyyətinin tərk edilmiş və dəyərsiz təbəqəsini təşkil edən hissəsinə şərəf və etibar bəxş etmək üçün bütün köhnə meyarları alt-üst etdi, insanlığın saxlanması və davamının yeni məramnaməsini hazırladı, qadını elə bir yüksək məqama çatdırdı ki, Allahın Peyğəmbəri (s) öz qızının əlini öpdü. Səma kitabında qadının – dünənə qədər diri-diri torpağa basdırılan varlığın da kişi ilə çiyin-çiyinə dayanması, elm-bilik öyrənməsi vacib işlərdən, başlıca vəzifələrdən hesab olundu.

Qadın bütün bu başucalığını, izzət və şərəfi İslamdan və İslamı gətirəndən əldə etdi. Mədəni və mənəvi baxımdan şəxsiyyət səviyyəsinə yüksələn əsl müsəlman qadınının, İslamın tərbiyəvi təbiətinin təmsilçisi olan qadının ən ali nümunəsi də göylərə üz tutaraq Merac yüksəkliyinə doğru irəliləyən Fatimeyi-Zəhra (ə) oldu. O, elə bir nümunə və örnəkdir ki, fəziləti Qurana zinət bəxş etdi. Yeri, göyü Yaradanın əmri ilə elə böyük bir məqama layiq görüldü ki, ayaqlarının altında dəvə qurban kəsdilər və əziz varlığının uğuruna şükr və səcdə etdilər. Belə ki, Qurani-Kərimdə Fatimeyi-Zəhranın (ə) bərəkətli vücudu İslam Peyğəmbəri (s) üçün Kövsərə, tükənməz və ən dəyərli hədiyyələrə bərabər tutuldu. Onun yaxşı adının, şəfqətli məqamının, nəslinin davamı sayıldı, pak kökünün-soyunun saxlanması hesab olundu:

"Biz sənə Kövsər bəxş etdik. Ona görə də namaz qıl, şükr və səcdə et, qurban kəs. Sənə "sonsuz, nəsli kəsilmiş" deyən düşmənin özü sonsuzdur."[1]

Bu səma ayələri Məkkədə İslam Peyğəmbərinə nazil oldu. Bu zaman Fatimeyi-Zəhra (ə) anadan olmuşdu və Allahın Peyğəmbərinin (s) həmin sevimli qızından başqa övladı yox idi. O vaxtlar İslamın düşmənləri Allahın elçisi ilə bərk düşmənçilik edirdilər. Peyğəmbərin oğlan övladı olmadığı üçün kafir və müşriklərdən bir qrupu cahiliyyə adət-ənənəsinə görə Allahın elçisini məsxərəyə qoyur, ələ salır və incidirdilər. onların bir dəstəsi As bin Vailin başçılığı ilə Peyğəmbəri (s) qızı olduğuna görə "nəsli kəsilmiş", "sonsuz" adlandıraraq deyirdilər ki, onun nəslinin davamı yoxdur, ondan çoxlu övladlar və nəvələr olmayacaq və xələfsiz, arxasız qalacaq. Amma Allah-təala bu şərif ayələri ilə Öz Peyğəmbəri (s) ilə danışdı və qızı Fatimənin (ə) varlığını övlad və nəvələrinin nəslinin davamı üçün böyük bir dəlil saydı. Həmçinin ona deyilən tənəli sözlərin əvəzində xəbərdar etdi ki, düşmənlərin özləri nəsli kəsilmiş və sonsuzdurlar.

Böyük təfsirçilər və islamşünas alimlər bu surədəki "kövsər" sözünün həzrət Fatimənin (ə) əziz varlığı və ondan doğulacaq çoxlu övladlarını bildirdiyini təfsir etmiş, həmin ayələrin bu cür şərhini vermişlər:

"Ya Peyğəmbər, biz sənə çoxlu bol nemət və "Kövsər" bəxş etdik. Ona görə sən də bu nemətlərə şükr edərək Rəbbin üçün namaz qıl və dəvə qurban kəs. Həqiqətən də sənin düşmənlərinin (As bin Vail və köməkçiləri) özləri sonsuz və nəsli kəsilmişlərdir. (Sənin nəslin qiyamətə qədər törəyib artacaq və başıuca olacaq)."

### Fatimənin (ə) yaşadığı dövr

Fatimeyi-Zəhra (ə) dünyaya qədəm qoyan zaman əziz atası bərəkətli həyatının ən çətin dövrünü yaşayırdı. Bir müddət idi ki, Peyğəmbərin (s) ən möhkən və qatı düşmənləri Qüreyşin bir qrup nadan və qəlbiqara adamları ilə əlbir olaraq cahil və dinsiz adamlardan bir qoşun təşkil etmiş, İslam Peyğəmbərini (s), onun fədakar köməkçilərini düşmənçilik mühasirəsinə almışdır. Bu mühasirə təkcə siyasi mühasirə deyildi, eyni zamanda hədə-qorxu müharibəsi və, hər şeydən daha pis, həm də iqtisadi mühasirə idi. Müşriklər möhkəm və üzücü mübarizələrdən sonra nəhayət, müsəlmanları öz şəhər və yurdlarından – Məkkədən qovdular və onları şəhərin kənarındakı tarixdə Şibi Əbi-Talib adı ilə məşhur olan dərənin içində mühasirədə saxladıılar. Müsəlmanlar burada sürgün edilmiş adamlar kimi yaşayırdılar. Qüreyş başçıları bütün qəbilə üzvlərinə bu qorxulu sığınacağa yaxın düşməyi qadağan etmişdilər. Heç kim Peyğəmbərlə (s) və onun köməkçiləri ilə təmasda ola, alış-veriş edə bilməzdi. Kimin hünəri nə idi ki, onlara müraciət etsin, əborcu pul versin və ya bir çörək satsın.

Beləliklə, Peyğəmbərin (s) və köməkçilərinin həyatı o əzablı sürgündə dərd, məhrumiyyət və aclıq içində keçirdi. Ərzaq məhsulları norma ilə verilirdi. Bəzən çörək elə az olurdu ki, qocalar aclıqdan nalə çəkir, uşaqlar isə huşsuz düşürdülər.

Qıtlıq və aclıqla bərabər xəstəlik və ölüm də gəlmişdi. Allahın elçisinin bir qrup yaxın adamı və ən yaxşı köməkçilərindən bir neçə nəfəri həmin sürgündə o qorxulu mühasirənin və ondan doğan xəstəliyin, aclığın nəticəsində canlarını tapşırdı.

Belə bir qara və dərdli dövrdə Fatimeyi-Zəhra (ə) dünyaya göz açdı. Südəmər çağını həmin mühitdə keçirtdi. Həmin o yandırıcı qumluqda ayağa durmağı və yeriməyi öyrəndi. Mühasirə altında olan həmin dərədə ac və məhrum uşaqların fəryad və nalələrini eşitdi. Bəli, o, əzab və dərdlə qarışıq mübarək təvəllüdünün ilk günlərini məhrum kəslərlə yaşadı, məhrumiyyətlər görmüş zəif adamlarla oturub durdu. Dərdlilərlə, zülm görmüşlərlə birgə addımladı və ömrünün günlərini beləcə arxada qoydu.

Amma bütün bu dərd, əzab və məhrumiyyətlərlə yanaşı ən böyük nemət də onunla idi. Çünki o əvəzsiz qız Allahın Peyğəmbərinin (s) lütfündən, məhəbbət və şəfqətindən bəhrələnirdi. O, Allahın elçisinin (s) insan tərbiyələndirən məktəbində və Xədiceyi-Kübranın səfalı ətəyində tərbiyə alırdı. Hər gün o yaradıcı məktəbdə paklıq və səfa ilə, mənəviyyat və dərin dünyagörüşlə, mənəvi düzlüklə dolu bütöv bir dünyanı tanıyır, hər bir kəlamda Allahı tanımanın, Allahı axtarmanın və Allahı görmənin sirr və rəmzlərini öyrənirdi.

[1] Qurani-Məcid, Kövsər surəsi.

Buna görə də Fatimeyi-Zəhra (ə) bənzərsiz və kamil bir qadının ən parlaq nümunəsi, İslam tərbiyəsinin və əzəmətli İslam ilahi məktəbinin həqiqi və ləyaqətli yetirməsi oldu. Bu səbəbdən də, həmin yeniyetməlik yaşlarından, həyatının qönçə dövrünün başlanğıcından əziz varlığı çətinliklər və müsibətlər qarşısında möhkəm dayandı, cəmiyyətin məhrum, zavallı şəxslərinə sonsuz əlaqə və məhəbbət göstərdi və əbədi əsatirə çevrildi.

Uşaqlıq yaşlarında əziz və istəkli anasını – Şibi Əbi Talibdə çoxlu müsibətlərə dözmüş anasını itirdi. Həmin uşaqlıq çağından incə və körpə çiyinlərinə ağır məsuliyyət düşdü. Bütün bunlara dözdü. Bu məsuliyyətlərin ən yüksəyi - əziz atasına baxmaq, o həzrətin xidmətində durmaq idi. Bu zaman Xədiceyi-Kübra kimi həyat yoldaşını itirmiş o həzrətin qəlbinin dərinliyində bir kədər var idi. Kiçik yaşlı qız özünü o kədərə şərik etdi, atasına həmdərd oldu. Həmişə çalışdı ki, atasının dərdinə təskinlik versin, anasının boş yerini kədərli daxili aləmində, varlığında olan lütflə, fəhm və dərklə, ağıl və biliklə, fəzilət və kamalla doldursun...

Fatimeyi-Zəhra (ə) "atasının anası"- "Ümm Əbiha"nın yerinə yetirə biləcəyi analıq vəzifəsini özü yerinə yetirmişdi. Fatimənin istəkli atası da öz sevimli qızını qəlbinin və canının meyvəsi sayırdı. Bu atalıq məhəbbəti həm də məhrum və başıbəlalı qadına olan etibarın təcəssümü idi. İllər, əsrlər boyu cahiliyyə ərəblərinin cəmiyyətində əzilən və İslamdan qabaqkı axır illərdə tamamilə yox olmaq dövrünü yaşayan qadına olan inamın nişanəsi idi. Həmin illərdə qeyd olunduğu kimi, qız uşağı doğulan andaca ya yerə basdırılır, ya da əgər sağ qalırdısa, ləkəli, çirkin və nifrətəlayiq bir şey kimi anbar və zirzəmilərin küncünə atılır və qaranlıqda gizlicə əzab-əziyyətlə, zillətlə dolu bir həyat keçirirdi... Yeniyetmə yaşına çatan kimi isə dəyərsiz bir mal kimi başqalarına verilirdi ki, ondan oğlanlar doğması üçün istifadə olunsun. Bu oğlanlar da ərəblərə işçi, döyüşçü kimi lazım idi. Fatimənin atasının qızına olan bu məhəbbəti ərəb qızları üçün yeni xoşbəxt tale sayıla bilər. Bu məhəbbət qızları öz atalarının əlləri ilə diri-diri basdırılmaqdan xilas edə bilərdi...

Amma Fatimeyi-Zəhranın (ə) əziz varlığı atasının ona bəslədiyi dərin ehtiramı və böyük məhəbbəti sayəsində qadınlar cəmiyyətinin həyatını birdəfəlik dəyişdirdi və onlar üçün yeni tale yazdı. İslam tərbiyəsi və əxlaqının bərəkəti ilə ev mühitindən səfa və səmimiyyətlə, lütf və mehribanlıqla dolu bir cəmiyyət yaratdı. Evi böyük bir tərbiyə ocağı kimi yenidən qurdu ki, orada Həsən (ə) və Hüseyn (ə) kimi oğulları, Zeynəb və Ümm Gülsüm kimi aslana bənzər qızları dünyaya gətirsin və tərbiyə etsin.

Bəli, o, İslam cəmiyyətində, bəşəri cəmiyyətdə bir qadın nümunəsi kimi möhkəm iman və dindarlıq yolunda, İslamın yeni, inqilabi əsaslarını gücləndirmək istiqamətində əziz atası və ömür-gün yoldaşı ilə səngər-səngər, ev-ev, meydan-meydan gəzdi və irəli gedə bildi. Axırda da özünün dərin İslami məsuliyyətini və borcunu yerinə yetirmək yolunda əziz canını fəda etdi...

İslamın nümunəvi qadını öz evi içərisində kamil bir ev sahibəsi, əri qarşısında bir fədakar və cəsur ömür-gün yoldaşı, övladları üçün bənzərsiz və ürəyəyatan bir ana və tərbiyəçi idi. Mübarizə və çalışmaq meydanında yorulmaq bilməyən, əzmkar bir insan, İslam aləmində nümunəvi bir müsəlman, İslam inqilabı nailiyyətlərinin qorunub saxlanılması sahəsində bir qurucu, yaradıcı mübariz və öz Yaradanı qarşısında bir pəhrizkar, namuslu, pak, mömin idi... Öz evində işləməkdən cadar-cadar olmuş qabarlı əlləri ilə əl dəyirmanını işlədir, buğda döyür, çörək bişirirdi ki, sadə, rəngi solmuş süfrəsinin üstündə həmişə yemək olsun. Kiçikyaşlı olmasına baxmayaraq qonaq-qaralı evin bütün ağır işlərini şəxsən özü yerinə yetirirdi. Evin səliqə-sahmanı da yalnız onun öhdəsində idi... Gecələr yorğun və sustalmış halda, dincəlmək, istirahət etmək əvəzinə gecə yarısına kimi, bəzən sübhədək səccadənin üstündə oyaq oturur və bir olan Yaradanına dua və sitayiş edirdi... Müharibə zamanı haqla batil döyüşərkən yaralıların köməyinə tələsir və mehriban əllərilə onların yaralarına məlhəm qoyurdu...

Siyasət aləmində yerni İslam siyasətinin həyata keçirilməsində yorulmuz mübariz, əsl mücahid, cəsur döyüşçü və sözün həqiqi mənasında bir inqilabçı idi...

O özünün və ailəsinin hüququnun müdafiəsi yolunda bir an da dayanmırdı. Bu, əslində müsəlman cəmiyyətinin və məhrumlar təbəqəsinin müdafiə demək idi, çünki öz hüquqları tapdandıqda cəmiyyətin də hüquqları tapdanır və deməli, İslam inqilabının həqiqəti ayaqlar altına atılırdı. Çətinliklər qarşısında dağ kimi möhkəm dayanır və vuruşurdu. Məscidə gedir, alovlu xitabları, aydın nitqi ilə özünün və ailəsinin hüquqlarını bildirir, o dövrün hökumətinin iç üzünü açıb göstərir və dövlətin yolunu azmış başçılarını, onların qəlbiqara davamçılarını həqiqət yoluna dəvət edirdi. Fatimənin (ə) bu açıq-aşkar əməlləri, işləri aydın göstərir ki, Peyğəmbərin (s) qızı, Peyğəmbərin (s) canişininin (ə) ömür-gün yoldaşı, haqq-ədalət İmamlarının anası təkcə ev qadını və ocaq sahibi deyildi, həm də mübarizə qadını idi, həyatın hər cür sahələrində ləyaqətli bir qəhrəman və döyüşkən qadın idi. İş və siyasət aləminin, ibadət və təlim-tərbiyə dünyasının, cihad və şəhidlik meydanının qəhrəmanı idi. Və nəhayət, fəzilət və bilikdə ən yüksək bir şəxs idi. Fatimeyi-Zəhra (ə) fərdi və ictimai həyatda əsl həqiqətləri tez görə bilir və bütün məsələlərə elə incəliklə yanaşırdı ki, onlardan hər biri bizim İslam cəmiyyətimizdə yaşayan qızlar və xanımların üzləşdiyi bir çox ailəvi çətinliklərin və problemlərin həllində açar ola bilər. Bu kitabda həmin məsələlərin hamısı haqqında danışılır, onlar bir-bir açıqlanır və nəzərdən keçirilir.

## Tovhid (təkallahlılıq) məktəbləri tarixində qadın

Tovhid hərəkatları və inqilabları tarixini ən ali və yaradıcı bəşərdən – qadın varlığından ayrıca öyrənmək və təhlil etmək olmaz. Ona görə ki, bu cür hərəkatlar və üsyanların tarixi həmişə elə bir qəhrəmanlıq dastanı şəklində özünü göstərmişdir ki, başdan-başa böyük kişilərin və böyük qadınların döyüş macəraları ilə doludur. Həmin üsyanlara elə kişilər və qadınlar başçılıq etmişlər ki, ali məqsədlərinə, müqəddəs amallarına çatmaq yolunda çiyin-çiyinə vuruşmuş və özlərini qurban vermişlər.

Bu cür müqəddəs hərəkatların tarixində həmişə hər şeydən keçən, öz sevimlisi – ibadət etdiyi Allahı yolunda canını qurban verən qadınlarla üzləşirik. Peyğəmbərlərin böyük tarixinə nəzər saldıqda belə bir məsələ özünü tam aydınlığı ilə göstərir.

Hər hansı bir peyğəmbər zülm və qarət, istibdad və despotizm əleyhinə harada bayraq qaldırırsa-qaldırsın, onun yanında alicənab qadın da fədakarcasına çalışır, onunla çiyin-çiyinə ən böyük çətinliklərə, əzab-əziyyətlərə sinə gərir, hətta ağır işgəncələrə belə dözür ki, həmin hərəkatın qələbəsi asanlaşdırsın.

Əgər İbrahim Xəlilin həyatına nəzər salsaq, görərik ki, o, büt düzəldənlərə və bütpərəstlərə qarşı necə üsyan qaldırdı və bu işi necə fədakarlıqla davam etdirdi. Axırda da atəş şölələri içərisinə atıldı. Yenə də görərik ki, o öz imanı yolunda necə sədaqətlə hətta istəkli oğlunun – gözünün işığı, can-ciyəri İsmayılın boğazına bıçaq qoymağa hazır olur. Bütün bu işlərdə alicənab və fədakar qadını da onun yanındadır və hər yerdə onunla qoşa addımlayır. Bu qadın Hacərdir – bir ana, bir ömür-gün yoldaşı, sözün həqiqi mənasında bir qadın. Oğlu ilə quru və susuz-otsuz səhrada tək-tənha addımlayan qadın. Alicənab ömür-gün yoldaşının üsyanı qarşısında heç bir maneə yaranmaması xatirinə oğlu İsmayılı eşq qurbangahına göndərməyə razılıq verən qadın...

Əgər Musanı yada salsaq, görərik ki, o, böyük bir üsyan qaldırır, Fironun istibdadına qarşı üsyan. O, Fironun üçqat zülmünə, Qarunun sərvət toplamasına, Bələm Dauranın hiylələrinə qarşı çıxır. Yenə də əgər onun üzücü səy və təlaşlarına nəzər salsaq, tovhid hərəkatının zülm və istibdad üzərində qələbə çalmasının şahidi olarıq. Və yenə də onun yanında namuslu, şir ürəkli bir qadın görərik. Musanın uşaqlığından rəhbərliyinə qədər, peyğəmbərliyə çatana qədər onunla addım-addım irəli gedən qadın. Asiyə adlı bir qadın. O, Firon kimi qaniçən bir zülümkarın evində körpə Musanı öz yanında saxlayıb böyüdür və Musanın bütün mübarizələrində onunla yanaşı addımlayır...

Əgər İsanın həyatına nəzər salsaq, görərik ki, din satanların fırıldaq və hiylələrinin baş alıb getdiyi bir zaman, Roma imperatorluğunun zülm və zorakılığının tüğyan etdiyi bir vaxtda ayağa qalxır və özünün xalqı oyatmaq, onların əqidəsini dəyişmək sahəsindəki vəzifəsini yerinə yetirməyə nail olur. Yəhudilərin sərvət toplamaqla, hiylə ilə məşğul olan, özlərini dindar kimi qələmə verən dinsiz din xadimlərinə qarşı ölüm-dirim mübarizəsinə qalxır. Yenə də onun yanında Məryəm adlı təmiz ürəkli, pak ruhlu bir qadını, şir ürəkli ananı, qorxmaz köməkçini görürük. Bu qadın həmişə onunla çiyin-çiyinə addımlayır, onu müdafiə edir. Onu bir mübariz, çətin məsələlər açıb həll edən bir incə məxluq kimi görürük.

Əgər Allahın sonuncu elçisi, İslamın nicatverici peyğəmbəri olan Məhəmməd-Əminin (s) mübarək həyat yoluna nəzər salsaq, görərik ki, Allah yolunda üsyana qalxır və bəşəriyyət üçün yeni bir dinin – insanlara insanlıq və nicat, şərəf və ləyaqət gətirən bir dinin bünövrəsini qoyur. Yenə görərik ki, o Həzrət (s) o dövr Qərbin və Şərqin misilsiz qüdrət sahiblərinə - Roma imperatoruna, Sasani şahına və yer üzünün başqa zülmkar hökmdarlarına qarşı vuruşur və bəşəriyyət tarixində olan bütün zülmkarların zülm və haqsızlıq üzərində qurulan səltənətlərini lərzəyə salır. Bir daha şahid olarıq ki, Hicazın qoluzorlularının, xain və dinsiz, təkəbbürlü və zülmkar ərəb tayfalarının min bir əzab və əziyyətlərinə necə dözür və yüzlərlə qorxunc işlərə doğru necə çəkinmədən gedir. Şibi-Əbi Talibdə başdan-başa məşəqqət və müsibətlərlə dolu iqtisadi mühasirəni, kafir və imansızların daimi qorxu və hədələrini necə rahatlıqla qarşılayır və bütün bu anlarda yalnız müqəddəs məqsəd və vəzifəsi haqqında düşünür. Yenə də onun yanında fədakar və canından keçən bir qadın görürük. Bu qadın o Həzrətlə (s) bərabər addım-addım, çiyin-çiyinə irəli gedir. O, Xədicədir – o Xədicə ki, əziz ərinin pak niyyətləri xatirinə hər şeyə göz yumur, bu yolda nəyi varsa hamısından keçir. Bu qadın hətta müqəddəs Peyğəmbərin (s) məqsədləri yolunda əziz canından keçməyə hazır olur və Şibi-Əbi Talibdə özünü alicənab ərinin pak və ilahi amallarına fəda edir. Bəli, özünün iqtisadi və mənəvi dayağı, səmimi və fədakar həmrəyliyi, ürəkdən bağlılığı ilə Allah elçisini (s) əsla tək-tənha qoymayan bir qadını görərik. Özünün son dərəcə dəyərli maddi köməkləri ilə sonuncu Peyğəmbərin (s) ilahi üsyanında, İslam inqilabında böyük və mühüm rol oynayan Xədicəni görərik...

Əgər peyğəmbərlik və imamlıq, ismət və paklıq nəslinin təmiz sülaləsi olan Hüseynə (ə) – Allahın elçisinin (s) bu müqəddəs nəvəsinə, Fatimənin (s) tərbiyəsini görmüş bu oğula nəzər salsaq, görərik ki, qızmar Kərbəla səhrasında əlində qanlı qılınc qəhrəmanlıq göstərir. Görərik ki, Peyğəmbərin (s) dinini öz tamahları xatirinə aşkarca tapdalamış və bütün müqəddəs dini ayinləri məsxərəyə qoymuş, Peyğəmbərin (s) minbərinə, müsəlman xilafətinin taxtına məst-kefli halda oturmuş Yezidə və yezidçilərə qarşı necə ölüm-dirim mübarizəsinə qalxır və 72 nəfər canından keçən dostları ilə cəhalət və nifaqın, fitnə və fəsadın, kin və inadın saysız-hesabsız qoşunu

qarşısında məzlumcasına neçə dayanır, canını necə qurban verir və Allaha qovuşur. Onun da yanında bir şirürəkli, alicənab, canından keçən vəfadar bir qadın görərik... Bəli, Zeynəbi görərik ki, Hüseynin və onun şəhid dostlarının qanlı xəbərini, bütün bəşəriyyətə yayır, Hüseynçilərin həqiqət və məzlumluq səsini, murdar və zalım yezidçilərin vəhçi əməllərini hər zaman və hər yerdə bütün dünyaya, bütün nəsillərə, bütün insanlara çatdırır.

Aşura xəbərini dərindən dərk edən, onun bütün dünyaya çatdırılmasını, inikas tapmasını vacib sayan, Hüseyn (ə) üsyanını Aşura günündən başlayaraq Kərbəla torpağından tutmuş bütün məkanlara hər an çatdıran, yayan odur. Bəli, susmayan fəryadları ilə Hüseynin (ə) üsyanını kamil edən, yezidçilərə o qanlı üsyanı Kərbəla torpağında dəfn etməyə, naqis və natamam qoymağa icazə verməyən odur...

Tovhid hərəkatları tarixində qadının mühüm xidmətlərinə aid belə nümunələr çoxdur. Biz burada çoxlu-çoxlu belə qadınlar arasından yalnız bir neçə seçmə qadının adını nümunə olaraq çəkdik.

Yoxsa, Suməyyə kimi bir qadının qəhrəmanlıq və igidliyini, fədakarlıq və dözümlüyünü unutmaqmı olar?! O, Ərəbistanın yandırıcı səhrasında zəncirlənmiş əri Yasərin yanında bütün əzab və işkəncələrə mətanətlə dözdü və ruh quşu canından uçub Allaha qovuşanacan ağzını yalnız tək olan Allahın həmd və sənası, Onun pak peyğəmbərinin (s) təsdiqi üçün açdı...

Və ya Yudeyi-Həmədani kimi aslan qadının ürəkləri lərzəyə salan fəryadlarını unutmaq olarmı? Döyüş meydanlarında kişilərlə çiyin-çiyinə fədakarlıqla vuruşan, düşmən üzərinə hücumlar çəkən o qadını kim unuda bilər? Və ya kafirlər əleyhinə cihadda çiynindən qan axa-axa vuruşan şir ürəkli Nəsibəni yaddan çıxarmaq olarmı?

Məgər Xədicənin özünü qurban verməsini, Asiyənin səbr və fədakarlığını, Bilqeysin müqavimətini, Zənirənin ağıl və kamalını, Linənin dözümünü, Səfiyyənin (peyğəmbərin (s) bibisi) mübarizəsini, Ümm Ətiyyənin mətanətini, Nəsibənin döyüşkənliyini, Rəfidənin xidmətlərini, Darimməyinin vəfalılığını və başqa bu layiqli xidmətlərini unutmaq olarmı? Buna görə də qadını inqilablar tarixində bir müəllim və tərbiyəçi, hərəkatların ruhlandırıcı, təkamülverici və yaradıcı bir qüvvəsi kimi dəyərləndirmək lazımdır. Beləliklə, açıq-aşkar aydındır ki, bu insan tərbiyələndirən yaradıcı aslan qadınlar qarşısında nə qədər borcludur. Tarixin bütün səhifələrinə diqqətlə nəzər salsaq, görərik ki, bu cür hərəkat və çıxışların hamısında böyük və fədakar qadınlar da mübarizə və qəhrəmanlıq meydanının məşəlçisi olmuşlar...

**Müasir inqilabçı müsəlman qadınlar**

Yaşadığımız bu qarışıq zamanədə yaradıcı qadına həmişəkindən daha artıq ehtiyac duyulur. Müasir, gözüaçıq, inqilabçı müsəlman qadını özünün bu tarixi rolunu yaxşı dərk edərək sələfləri kimi yeni-yeni qəhrəmanlıqlar yaratmaqdadır.

Ayıq müsəlman qadını bizim əsrimizdə belə qəhrəmanlıqlar sırasında materialistlərin qaranlıq zindanlarını qırıb-dağıtmaq, XX əsrin daşlaşmış, cahiliyyə dövrünə məxsus dəmir qəfəsələrini sökmək, insanın, ümumiyyətlə bəşərin, xüsusilə də qadının köləlik, qulluq zəncirlərini sındırmaq və onların yerində mənəviyyat, təmizlik və dindarlıqla dolu bir dünyanın bünövrəsini qoymaq istəyir. Bu kimi qəhrəmanlıqların şanlı və tarixi nümunələrini İslam ölkəsi olan İranın qəhrəman qadınları 1356-cı ilin dey ayının 19-da təlatümlü inqilab günlərində həyata keçirməyə başlayıb, 1357-ci ilin qanlı 17 şəhrivər – 22 bəhmən günlərində ən yüksək zirvəyə çatdırdılar. Bu hərəkətləri ilə onlar dünya qadınlarına və qadınlar dünyasına varlıq aləmində qadının rolunun necə olmasını və onu necə ifa etməyi göstərmək istədilər.

Tarix İranın müsəlman qadınlarının həmin o qanlı fəryadlı və qəhrəman günlərdə nə etdiklərini unutmayacaqdır. İran qadınları həmin günlərdə küçə yürüşlərində fəal və təsirli iştirak etməklə, güllə və atəş qabağında sinə gərməklə, orucluq bayramı, Tasua, Aşura günləri və başqa günlərdə keçirilən bir neçə milyon adamlıq izdihamlı mitinqlərin ön cərgələrində addımlamaqla, ərlərini, qardaşlarını və oğullarını hərəkətə gətirərək onları iqtidar sahibləri ilə zəiflərin əbədi döyüşlərinə göndərməklə, imperializm və dünya sionizmi əlaltılarının zülmkar və zorakı hökumətinə qarşı qanlı nümayişlərin ön sıralarında getməklə, dam üstünə çıxan kişilərin səsinə səs verərək Amerika hökumətini lərzəyə salan və dünyanın bu qaniçən qüdrət sahibinin muzdurlarını çıxılmaz vəziyyətdə qoyan möhtəşəm “Allahu Əkbər” sədasını göylərə ucaltmaqla, əl bombası, qumbara və bu kimi əldəqayırma silahların düzəldilməsində, 1357-ci ilin 21-22 bəhmən günlərindəki səngər qurmaq və səngərdə dayanmaq işlərində və başqa vacib tədbirlərdə fəal iştirak etməklə göstərdilər ki, ayıq müsəlman qadını artıq Şərqin və Qərbin qüdrət sahiblərinin iradəsiz gəlincik, məclislərin zinəti kimi görmək istədikləri qadın deyil. Əksinə, elə bir qadındır ki, istibdad və müstəmləkəyə, xaricilərə və xaricipərəstlərə qarşı mübarizədə öhdəsinə böyük vəzifələr götürür və bu vəzifələrin öhdəsindən də yaxşıca gələ bilir. İran qadınının inqilab tarixində oynadığı bu əzəmətli böyük rolu gələcək qadın nəsilləri və ümumiyyətlə bəşər həyatının gələcək tarixi üçün bir nümunə ola bilər və olmalıdır...

qadın da mübariz və öz haqqını tələb edən kişilərin döyüş və səngər yoldaşı kimi həmişə izzət, şərəf və yüksək amallar uğrundakı döyüş meydanlarında özünü fəal və aparıcı qüvvə kimi göstərmiş və adını bəşər tarixinin qanlı və iftixarlı səhifələrinə yazmışdır. Elə çoxlu qadınlar olmuşlar ki, haqq və batil uğrunda döyüş meydanlarına kişilərlə bərabər (hətta bəzən kişilərdən qabaqda və kişilərdən daha çox) atılaraq onlarla birgə mübarizə bayrağını əllərinə almış və döyüş səngərlərindən möhkəm dayanıb canlarından keçmişlər. tarixin də əsil və şərəfli, döyüşkən və mübariz qadınların şanlı qəhrəmanlıq səhifələri ilə bəzənmiş zərli vərəqləri, başlıqları çoxdur. Aslan kimi elə çoxlu qadınlar da olmuş və vardır ki, iman və əzmlə meydana qədəm qoymuş, müxtəlif ictimai sahələrdə həmişə öz ləyaqət və istedadını, bacarıq və huşyarlığını, ayıqlıq və uzaqgörənliyini sübuta yetirmişlər.

Belə qadınlar həmişə göstərmişlər ki, onlar analıq sahəsində bahar şehindən daha lətif, səhər yelindən daha nəvazişlidirlər. Ömür-gün gün yoldaşlığında günəşdən daha isti, ay işığından daha ürəkoxşar, buludlardan daha bərəkətli, daha barlıdırlar. Qadın böyüklüyünün təzahüründə isə dağlardan daha möhkəm, həmişə coşub-daşan çaylardan daha inadcıl, dağ sellərindən daha gur, yırtıcı şirdən daha çox hücumçəkən, səhrada tək dayanan Səbur ağacından daha dözümlüdürlər. Şanlı qəhrəmanlıq səhifələrini, yorulmaz və dönməz mübarizə tarixini yaradanlar da onlardır.

Bəli, insafla desək, bəşər tarixində bu cür qadınlar az olmamışlar. Onların içərisində bəzən çox qəribələri də olmuşlar...

Amma İslam ölkəsi olan İranda özünün layiqli rolunu bütün bəşəriyyətə göstərmiş və şərəfli adını dünya tarixində zərli xətlərlə yazdırmış qadın həqiqətən qadınlığın və qadın olmağın elə bir keyfiyyətlərini, xüsusiyyət və özəlliklərini də aşkar etdi ki, nəinki bugünkü dünya qadınlarını heyrətə saldı, eyni zamanda müasir kişiləri də İran qadınına başqa gözlə baxmağa, onun haqqında ayrı cür düşünməyə, zamanə və tarix kitabında onun əbədi qəhrəmanlıq tarixçəsi üçün ayrıca yer ayırmağa vadar etdi.

Ona görə ki, İran İslam inqilabı tarixində, ardıcıl və coşqun mübarizə meydanında, qəhrəman millətimizin taleyində, Şərq və Qərb qüdrət sahiblərinə qarşı amansız döyüşlərdə, 2500 illik çürük rejimin satqın başçılarının zülm və haqsızlığı əleyhinə mübarizədə, bir sözlə, “Şanlı İran İslam inqilabı”nda müsəlman qadın və qızları – Fatimeyi-Zəhra (ə) və Zeynəbi-Kübra (ə) məktəbinin bu yetirmələri sübut etdilər ki, onlar bəşər həyatı meydanında qadının əbədi surətinin layiqli davamçılarıdır.

Tarixə düşmüş həmin şanlı dövrdə müsəlman İran qadınları Suməyyələrin, Sudələrin döyüş və səngər yoldaşları kimi ağır vəzifələri və qorxulu məsuliyyətləri çiyinlərinə götürdülər. Bu, Fatimənin (ə) və Kübranın (ə) vəzifələrinin davamı idi. Bəli, İranın qəhrəman müsəlman qadınları Fatimeyi-Zəhra (ə) və Zeynəbi-Kübradan (ə) sonra uzun əsrlər boyu yarıucalmış halda qalan və kimsənin dalğalandırmadığı qadının əzəmət, izzət və şərəf bayrağını bir daha əllərinə alıb onu yenidən ucaltmaq üçün çoxlu səy və təlaşlar, fədakarlıq və qəhrəmanlıqlar göstərdilər...

İranın müsəlman qadın və qızlarının İslam inqilabında oynadığı rol elə əzəmətli və böyükdür ki, dünya qadınlarının mübarizə tarixində dönüş nöqtəsi hesab oluna bilər. Eynilə müqəddəs Kərbəla döyüşündə də qadının kişi ilə bərabər bir səngərdə vuruşması vacib bir zərurət kimi özünü göstərmişdi. Çünki qadının təlaşı, mübarizə və cihadı ilk dəfə İslamın Kərbəla inqilabında kişi ilə bərabər addımlayan bir döyüşçü kimi özünün həqiqi sifətini aşkarca büruzə vermişdi.

Məlum olduğu kimi, Zeynəbi-Kübra (ə) Hüseynin (ə) müqəddəs inqilabının davam etdirilməsi və Kərbəla meydanı şəhidlərinin qanının alınması, ədalətin bərpa olunması yolunda çox əlləşib-çalışdı, tarixi heyrətə saldı. Bu aslan kimi güclü qadın coşqun və alovlu kəlamları ilə inqilabın əsaslarını möhkəmlətdi. Bu, canlı Kərbəla üsyanının məntiqi davamı idi. O, müharibə meydanının tozu yatdıqdan və şəhid qanlarının arxları quruduqdan sonra bütün zamanların və məkanların insanının hüquqlarını müdafiə etmək üçün ədalət səsini qaldırdı. Beləliklə, dünya inqilabları tarixində qadının da kişi ilə bərabər eyni səngərdə mühüm rol oynamasını sübut etdi.

Bəli, Əlinin (ə) qızı, pakların pakı Fatimənin (ə) tərbiyəsini görmüş Zeynəb Kərbəla döyüşünün yeganə qız qəhrəmanı idi ki, mübarizlik, cəsurluq tarixinə yeni səhifə yazdı və mübarizə, üsyan, inqilab məfhumlarına yeni məna bəxş etdi. Bu səbəbdən də dünya tarixi, xüsusilə də İslam tarixi ona “Kərbəlanın aslan qadını” və “Neynəva çölünün qəhrəmanı” ləqəblərini verdi. Doğrudan da, Zeynəb döyüş səhnəsində elə bir qəhrəmanlıq və şücaət göstərdi ki, bu igidlik onun tərifi və vəsfini ifadə etmək üçün insan ağlına gələn bütün söz və məfhumlardan daha ali, qat-qat üstündür. Zeynəb hər bir ləqəb və tərifdən daha ucadır. Bu döyüşçü qadın Hüseynin (ə) üsyan və mübarizəsini şəhidliyin dərin fəlsəfi mənası ilə tarixin əbədi döyüş səhnəsinə daxil etdi və onu elə yazdı ki, dünyanın gələcək tarixi bu qəhrəmanlığı heç vəchlə unuda bilməsin. Zeynəb bu coşqun ruhu, yüksək duyğunu, güclü qəlbi, aydın fikri və bənzərsiz xüsusi keyfiyyətləri Peyğəmbər (s), Əli (ə) və

Fatimə (ə) məktəbindən irsən almışdı. Dəlilik atəşinin şölələri söndükdən və Kərbəlanın qan seli kəsildikdən, Zeynəbin yeddi böyük qardaşı və bir neçə nəfər gözünün işığı, ürəyinin parçası olan öz övladı da şəhid olduqdan sonra (onların arasında südəmər uşaq da var idi, təzəcə evlənmiş və nişanlı cavanlar da; onlar qanlarının damcılarını zəncir halqaları kimi bir-birinə bağlamışdılar ki, tarixi qorxunc və qaranlıq uçurumdan nur və gözəllik meydanına keçirmək üçün körpü hazırlasınlar) o, bir an belə geri çəkilmədi. Bütün o dözülməz, taqət sındıran məsuliyyətlərin ağır yükünü öz çiyninə götürdü və tam ayıqlıq və gözüaçıqlıqla, coşqun inqilabi ruhla İslamın ədalət bayrağını başı üstündə ucaltdı və qanları coşdurdu.

Düşmən özünün zəhərli və yalançı təbliğatı ilə İslamın simasını dəyişdirməyə çalışaraq namuslu və pak Əhli-beytin (Məhəmməd Peyğəmbərin (s) ailə üzvlərinin) parlaq sifətlərini sadəlövhlər və ğəflət yuxusunda yatanlar üçün öz istədiyi şəkildə qələmə vermək istəyirdi. Lakin bütün bu cəhdlərə baxmayaraq Zeynəbi-Kübra (ə) düzlərə və çöllərə, şəhər və məhəllələrə yola düşərək atəşin kəlamı və düşmənin iç üzünü açan, qaranlıqlara işıq saçan aydın çıxışları ilə Hüseyn (ə) hərəkatının əsl simasını göstərdi. Həqiqətlə yalanın, paklıqla murdarlığın, düzlüklə əyriliyin bu mübarizəsində Zeynəbin (ə) kəlamları hər yeri dolaşır, açıq ürəklərdə özünə yer tapır, oyaq ruhları özünə gətirir və Əməvilər səltənətinin istismarçı hökumətinin zülm və cəhalət, zorakılıq və istibdad üzərində qurulmuş sütunlarını lərzəyə salırdı. Bu sözlər zülmkarları, Əlinin (ə) buyurduğu kimi, yüzlərlə haqqı tapdalanmış və dəfn olunmuş zavallılar qarşısında göylərə ucalan zülm və sitəm saraylarında bərk qorxudur, əsdirib titrədirdi. Bəli, bu Zeynəb idi ki, Fatimə məktəbinin ilkin bir yetirməsi kimi bəşər tarixinə mübariz və qəhrəman qadınların əbədi yaşayan ölməz surəti kimi daxil oldu. İndi bizim zəmanədə də - insanlığın siyasi alverlərdə girova çevrildiyi, qadının qiymət və fəzilətinin dəyərsiz bir mal kimi hərraca qoyulduğu bu bəlalı və qarışıq əsrdə iranlı qız və qadın da öz qarşısında belə bir parlaq nümunəyə malikdir. O, həmişə yanan bu alovdan hərarət və dirilik alır və öz yolunu işıqlandırır. Beləlikdə, ismət Əhli-beytinin şanlı məktəbindən ilhamlanan İranın qəhrəman qadın və qızları da İslamın iki qüdrətli və yol göstərən xanımının – Fatimeyi-Zəhra (ə) və Zeynəbi-Kübranın (ə) ardınca gedərək İran millətinin azadlıq mübarizəsinin ilk günlərindən başlayaraq bütün mübarizə meydanlarında ardıcıl surətdə fəal iştirak etmiş və inqilabçı müsəlman kişilərlə çiyin-çiyinə qoşa addımlayaraq öz müqəddəs borclarını şərəflə yerinə yetirmişlər.

İran qadınlarının İran İslam inqilabında oynadığı rol təkcə bu şanlı inqilab tarixində deyil, eyni zamanda bütün dünya inqilabları tarixində də misilsiz və bənzərsizdir. Cəsarətlə demək olar ki, bəşəriyyətin gələcək tarixi İranın bu şanlı dövrünə nəzər salarkən qadın haqqında başqa cür mühakimə yürütməyə, ona başqa gözlə baxmağa məcbur olacaqdır. Bəli, qəhrəman İran qadını da qarşısındakı o iki əzəmətli qadın kimi indidən belə həmişə elə parlaq nümunə ola bilər ki, dünya qadınları qadın və insan olmağın əsl mənasını ondan öyrənmiş olar.

**İran qadını bir neçə əsrin zülm və haqsızlığının canlı şahididir**

İranın müsəlman qadınlarının öz qardaş və ataları, ərləri ilə birgə göstərdikləri o fədakarlıq və qəhrəmanlıqlar öz səmərəsini verdi. Onların əlləri ilə əkilmiş İslam inqilabının qollu-budaqlı ağacı bar verməyə başladı. Hazırda biz qəhrəman İran qadınının şəxsi həyatında necə əsaslı dəyişikliklərin baş verdiyinin şahidiyik. Bugünkü iranlı qadının öz itirilmiş qiymət və etibarının yenidən qazanması, bir neçə əsrlik zülm və ədalətsizliyin dar hasar divarlarını yarıb çıxması, ictimai sahələrdə vüqarla, başucalığı ilə addımlaması – bütün bunların hamısı onun həmin qanlı-qadalı günlərdə göstərdiyi fədakarlıq və qəhrəmanlığın nəticəsində hasil olmuşdur. Bəli, İran qadını həmin günlərdə əsrlər boyu kölgədə qalmış qəhrəmanlıq və ləyaqətini bir daha sübuta yetirdi.

Bu, bəlkə də iranlı müsəlman qadının ən ibtidai hüququ idi ki, öz bilik və bacarığını, qüdrət və ləyaqətini müxtəlif ictimai, bəşəri sahələrdə göstərə bilir. Haqqı, həqiqəti tələb edən fəryadını bütün dünya qadınlarının, xüsusilə də İslam ölkələri qadınlarının qulağına çatdıra bilir. Xarici əlaqələrdə öz şəxsiyyətini büruzə verir. Həmçinin, hərtərəfli inkişaf etmiş bir qadın kimi öz səsini dünyanın mübariz qadınlarının səsinə qoşur, beynəlxalq qadın təşkilatlarında, BMT-də və başqa ümumdünya məclislərində çıxış edir, bütün dünya qadınlarının onlar üçün taleyüklü olan məsələlərin həllində seyrçi kimi qalmamağa, fəal iştirak etməyə çağırır.

Bəli, həqiqətən də bu, iranlı müsəlman qadınının hüququdur ki, bir mübariz və ayıq insan kimi ictimai sahələrdə, beynəlxalq məsələlərin həllində iştirak etsin və nəyə qadir olduğunu bütün dünyaya göstərsin. Çünki bu gün artıq bütün dünya bilir ki, İranın qəhrəman müsəlman qadınının varlığı doğrudan da, qadının əsrlər boyu çəkdiyi əzab-əziyyətlərin aşkar təcəssümü, məşəqqət və işgəncələrin şahididir. Həmçinin, İranın sonuncu qaniçən rejiminin, SİA-nın, SAVAK-ın olmazın zülm və haqsızlıqlarının əyani təcəssümüdür. Əgər iranlı qadın çox da uzaq olmayan keçmişin müsibətlərinə və bu müsibətlərin aradan qaldırılması üçün baş vermiş mübarizələrə şahidlik edirsə, bu, doğru-düzgün şahidlikdir, çünki o, bütün nəsli boyu İran qadınının, İran əhalisinin 2500 illik mübarizələr tarixində bu cür əzab və təlaşlarının, müsibət və çətinliklərinin şahidi

olmuşdur. Onun varlığı tarixin zülmkarlarının, əsrlərin fironlarının əzab-əziyyətlərinin, zülm və işgəncələrinin aşkar nümunəsidir. Bütün bunları o özü öz gözləri ilə görmüş, qulaqları ilə eşitmiş və bütün vücudunda hiss etmişdir.

Hər hansı bir insaflı və təmizürəkli insan müsəlman və inqilabçı İran qadınını haqq-ədalət uğrundakı fəryadını eşidir. Bu fəryad əzablar görmüş bir qadının hər tərəfə yayılan bir səsidir. O, Zeynəb kimi özünün bəşəri hədəf və amallarını və İslam inqilabının məqsədlərini bütün dünyaya çatdırmaq istəyir. Hər bir vicdanlı şəxs bu qadının haqlı olduğunu yaxşı bilir, çünki onun varlığı iranlı müsəlman qadınının əsrlər boyu dərd və qəm içində yaşamasının, təhqir və işgəncələrə dözməsinin, bəşər haqq və hüquqlarının tapdalanmasının açıq-aşkar təzahürüdür. Xüsusilə də son bir neçə ildə İran qadınları mübariz müsəlman kişiləri ilə yanaşı haqq-ədalət uğrunda səslərini ucaltmış, zindanda olmazın əzab və işgəncələrini görmüşlər. Bütün bu dözülməz ağır dərdlər təkcə qadınlara yox, bütövlükdə cəmiyyətə xass idi. Azadlıq sevər insanlar onun hər bir küncündə özlərini məhbus və dustaq kimi hiss edirdilər.

Bəli, yüzlərlə dərdə, əzaba qatlaşmış müsəlman İran qadını indi özünün islami və bəşəri arzu və istəklərinin çiçəklənməsinin şahididir. O özünün bir neçə əsrlik məzlumluq səsini və bugünkü haqq-ədalət uğrundakı fəryadını bütün dünyaya çatdırmaq istəyir. Bu fəryadlar əgər bir tərəfdən onun dərdinin təzahürüdürsə, digər tərəfdən də dərmanının bir parçası sayıla bilər.

## İslam qayda-qanununda qadının layiqli yeri

İndi, tarixin bu həssas nöqtəsində bütün dünyada aşkara və gizlicə bütün dillərdə və ürəklərdə dolaşan bir sual ortaya çıxır. Doğrudanmı, əgər İran inqilabı yalnız bu günün tələbinə görə qələbə çalıbdırsa və İslam inqilabı deyildirsə, görəsən onda iranlı qadın yenə də həmin nüfuz və etibarını, bu dərəcədə böyük əhəmiyyət və insan şəxsiyyətini qazanıbdırmı?

Bu suala cavab vermək üçün təkcə bunu bilmək kifayətdir ki, heç bir din və ayində, məslək və məramda qadın İslamın vacib və lazım saydığı dərəcədə böyük ehtiram və etibar, misilsiz qiymət və dəyərə layiq bilinməmişdir. Bəli, İslamın qoyduğu qayda-qanuna görə qadının olduqca böyük qədr-qiyməti və ehtiramı, xüsusi imtiyazları vardır. Heç bir quruluş və sistemdə qadının təbii və həqiqi insani hüquqları İslam məktəbində olduğu qədər təmin olunmamışdır. İslamın düşmənləri, xüsusilə də müsəlman qadınının bədxahları onlar haqqında çoxlu yalan və iftiralar uyduraraq bununla İslamın pak və təmiz hökmlərinə, Allah hökumətinə zərbə vurmaq istəyirlər. Lakin, bütün bu cəhdlərə baxmayaraq, müsəlman qadını olduqca layiqli bir məqamdadır, bir sözlə, bəşərin ehtiram və etibar zirvəsindədir.

İslam düşmənlərinin zəhərli təbliğatına baxmayaraq, İranın qəhrəman müsəlman qadını bu inqilabdan kənarda – İslam cəmiyyətində nəzərlərdən uzaq, görünməyən bir künc-bucaqda deyil. Əksinə o, cəmiyyətin ən gur yerindədir. İnsanlara ehtiram və ləyaqət bəxş edən bir cəmiyyətin bütün yaradıcı və qurucu fəaliyyətinin mərkəzindədir, özü də bu cəmiyyətdə çox həssas və əhəmiyyətli rol oynayır. Çünki İslamın həyat bəxşedici məktəbi insanların fəzilət və dindarlığı, düzlük və təmizliyi, namus və ləyaqəti, bilik və bacarığı və insan varlığının başqa ən ali dəyərləri və üstünlükləri üzərində qurulmuşdur. Burada insanların cinsi və irqinin, növü və təbəqəsinin, zahiri görünüşünün heç bir əhəmiyyəti yoxdur.

Bəli, İslam fəzilət və dindarlığın, əməl və mübarizənin ən yüksək dəyərlərini bilik, paklıq və iman meyarlarını əsas ölçü kimi götürür. Bu keyfiyyətlər istər qadında olsun istər kişidə, istər ərəbdə olsun istər əcəmdə (ərəb olmayanda – farsda), ağdərilidə olsun, ya qaradərilidə olsun – fərqi yoxdur. Çünki bu prinsipin əsasını, özülünü, sütununu müqəddəs səma Quranının buyurduğu aşağıdakı kəlam təşkil edir: “Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinəninizdir.”[1]

Göründüyü kimi, Qurani-Kərim yalnız dindarlığı, Allahdan qorxmağı və pis əməllərdən çəkinməyi hörmət və ləyaqət üçün meyar hesab edir. Bu keyfiyyət sahibi şəxsin qadın və kişi olmasına fərq qoymur. Ona görə də pis əməllərdən çəkinən çoxlu elə fəzilət sahibi qadınlar var ki, bu keyfiyyətlərə malik olmayan kişilərdən daha üstün və daha layiqlidirlər. İman və dindarlıq sıralarında bir çox kişilərdən daha öndə gedən qadınlar da çoxdur. Quranın qadına olan baxışı ictimai elmlər üzrə bir sıra alim və filosofların fikirlərinin əksinə olaraq həqiqətləri aydın görmənin ən uca zirvəsidir. Çünki tam aydınlıqla qadını da kişi ilə bərabər eyni cövhərdən, eyni zatdan yaranmış kimi təqdim edir və hər ikisinin yaranış dünyasında, varlığın yayılmasında, uşağın doğulmasında, deməli, insan nəslinin davamında öhdələrinə düşən yaradıcı vəzifələrin bərabər və eyni olduqlarını tanıyır və tanıdır.

[1] Əl-Hucurat surəsi, 13-cü ayə

**İslam örtüyü qadın üçün təhqirdir, yoxsa qadın şəxsiyyətinə verilən qiymətdir?**

İslam bədxahlarının İslama ən çox irad tutduğu məsələlərdən biri İslam örtüyü – qadın hicabıdır. Onlar ya nadanlıqları və məlumatsızlıqları, ya da qərəzçilikləri və düşmənçilikləri üzündən belə hesab edirlər ki, İslam örtüyü İslam cəmiyyətində qadının təhqir olunmasının bir əlamətidir. Ona görə biz də bu kiçik söhbətimizdə - dünyanın ən görkəmli qadınının şəxsiyyəti, bütün keçmiş və gələcək nəsillərin qadınlarının nümunəsi ilə bağlı mövzuya giriş sayıla bilən qeydlərimizdə bu məsələyə çox qısa bir nəzər salaraq onu ötəri və icmal şəklində araşdırmağı məqsədəuyğun sayırıq, çünki necə deyərlər: "Əgər evdə bir kəs varsa, bir söz bəsdir."

Heç bir aydın görən baxışdan, ayıq, açıqürəkli vicdandan uzaqda olmayan həqiqət bu məsələnin sirrini və rəmzini bizə tam aydınlığı ilə aşkar edir. Doğrudan da, İslamda qadın örtüyündən məqsəd heç də onun şəxsiyyətinə qarşı etinasızlıq və ya təhqir rəva bilmək deyil, əksinə, "Şarei-müqəddəs"in (müqəddəs qanunvericinin – Peyğəmbərimizin epitetlərindən biridir (tərcüməçi)) qadın şəxsiyyətinə hörmət və ehtiram bəxş edən bu örtükdə məqsədi budur ki, qadının vücudunda onu çirkin, qeyri-insani, nifrətedici, cahil görünüşlü bir şeyə çevirən və belə bir görünüşdən kişilərdə ləzzət, təmənna, şəhvət hisslərini oyadan şeylər yox, onun əsl insani keyfiyyətləri ilə bağlı nemətlər görünsün.

Bəli, qadın örtüyü İslamın aydın baxışlarına görə, əslində elə bir təsirli vasitə və kəsərli silahdır ki, qadının qadınlıq təbiətində yol verə biləcəyi özbaşınalığın həddini aşmasın. Qadına bir oyuncaq surət kimi tamaşa etmək, bu işdən ləzzət almaq üçün onun nümayiş etdirilməsinə icazə vermir. Əksinə, bütün bu xüsusiyyətləri baxışlardan gizlədir ki, qadınlar da kişilərlə bərabər və eyni şəraitdə bütün ictimail sahələrdə özlərini göstərməkdən, nümayiş etdirilməkdən qayğısız-arxayın halda qurub-yaradan kişilər kimi yalnız öz öhdələrinə düşən bəşəri fəaliyyətləri və yaradıcı iş-gücləri ilə məşğul olsunlar və bu baxımdan qiymətləndirilsinlər.

İslam hicabının nəticəsində qadın özünün zahiri vücudunun görünən tərəflərini bir kənara qoyaraq öz istedad və bacarığını kişilərlə çiyin-çiyinə həyatın müxtəlif qurucu sahələrində göstərə bilir. Yəni Allahın bəxş etdiyi bütün istedad və bacarığını əbəs yerə təkcə özünə bəzək-düzək verməkdə, gözəl görünmək üçün əlləşməkdə və özünün qadınlıq əlamətlərini təhqiramiz bir şəkildə nümayiş etdirməkdə göstərməsin və həyati dəyərlərə yalnız bir meyarla nəzər salmasın.

Qeyri-İslam cəmiyyətinə, xüsusilə də kapitalist ölkələrinə qısa bir baxış göstərir ki, orada qadın üçün onun insanlıq və şəxsiyyətini örtən pərdə nəzərə alınmamışdır. Bundan məqsəd qadının təbii gözəlliyindən qeyri-qanuni qazanc vasitəsi kimi istifadə etməkdir. Belə ölkələrdə qadın şəxsiyyəti, onun cəmiyyətdəki layiqli yeri nəinki nəzərə alınmır, əksinə, ona yalnız bir oyuncaq və əyləncə, eyş-işrət vasitəsi və ya istehlak cəmiyyətinin bazarda satılan bir məhsulu kimi baxırlar.

İslam isə, əksinə, qadına tamam başqa gözlə baxır, onun yalnız insani keyfiyyətlərini nəzərə alır. Həyatın bütün mərhələlərində nəinki kişilərə qadına bir "oyuncaq vasitə" kimi baxmağa qadağan edir, eyni zamanda qadınlara da icazə vermir ki, islami şəxsiyyətlərini ayaqlar altına atsınlar və öz özlərini bir alçaqlıq, həqarət əskisinə çevirsinlər.

Bu ali hədəf İslamın bütün hökm və təlimlərində, xüsusilə də müqəddəs Quran ayələrində hər yerdə özünü büruzə verir. Məsələn, Qurani-Kərim, məlum olduğu kimi, qadınlara öz zinətlərini başqalarına göstərməyi, bərkdən və səs sala-sala yeriməyi, başqalarının diqqətini cəlb edən tərzdə yol getməyi, naz-qəmzə ilə danışmağı, özgə kişilərlə kəlmə kəsməyi qadağan etmişdir.

Qadının maddi, mənəvi, iqtisadi və siyasi şəxsiyyətinə ehtiramla bağlı Qurani-Kərim və yaradıcı İslam məktəbinin həyatverici təlimləri elə iri addımlar atmışlar ki, dünyanın başqa məktəbləri hələ o ali və yüksək həddə çatmağı təsəvvürlərinə belə gətirməmişlər.

Bəli, İslam və Quranın qadına və onun kişi ilə həqiqi bərabərliyinə münasibətlə bağlı fikri, nəzəri belədir. İslamın qadına nisbətən kişiyə dərəcə verməsinə gəldikdə isə bu dərəcə kişinin qdına nisbətən üstünlüyünə görə deyil. Həmçinin ona görə deyil ki, kişi qadına nisbətən Allah dərgahında və İslam aləmində daha çox dəyər və etibara malikdir. Əksinə, yalnız ona görədir ki, kişi özünün oynadığı əsaslı roluna görə (ailəyə başçılıq etmək, ailə üzvlərini yemək-içməklə təmin etmək) daha yüksək dərəcəli məsuliyyətləri öz çiyninə götürmüşdür. Bu məsuliyyət dərəcəsi də elə məsələdir ki, qadınların özü də onun kişilərə verilməsinə müxalif deyillər. çünki qadın ümumiyyətlə götürdükdə daxili təbiətinə və əlaqəsinə görə maddi işlərə o qədər meyl göstərmir və bu işlərin məsuliyyətinin kişidə olmasına üstünlük verir, özü isə qadınlıq xüsusiyyətinə daha uyğun gələn məsuliyyətləri, yəni evdarlığı, ailə işlərini öhdəsinə götürür.

Odur ki, kişi üçün dəyər və rütbə, mənəvi məqam baxımından heç bir üstünlük yoxdur. Hər iki məxluq üçün yeganə fəzilət və üstünlük meyarı sözsüz ki, dindarlıq, mənəviyyat, iman, paklıq, tovhid, Allahı tanıma, Allahdan qorxma dərəcələridir. İstər kişi olsun, istər qadın, öz cinsi və növündən asılı olmayaraq bu dərəcələrdən ən yüksəyinə nail ola bilər.

Hər bir fərdin ən yaxşı göstəricisi, təbiət və şəxsiyyətini səciyyələndirən cəhəti əslində onun varlığının izlərindən, nişanə və zatından, təbiətindən irəli gələn xüsusiyyətlərindən başqa bir şey deyil. Bu baxımdan insanın hansı cinsdən olması onun fəzilət və üstünlüyü üçün meyar ola bilməz. Qədim astronomiya elminə görə hərarətli, enerji doğuran günəş qadın surəti şəklində, ay isə kişi surəti şəklində təsvir olunurdu. Bu fərziyyə ola bilsin ki, qədim dövrlərdən kişi ilə qadın arasında fərqi göstərən dəlillərdən biri olmuşdur. Lakin bu fərz olunan ikiliyə baxmayaraq, nəzərə almaq lazımdır ki, günəş şüalarının təsir dərəcəsi aydan daha çoxdur, belə ki, ay öz nurunu, işığını günəşdən alır. Ona görə də günəşin simasının qadının şəkli olduğunu və qadınla günəşin hər birinin o biri üçün simvol sayıldığını qəbul etsək belə, yenə də günəşi aydan daha üstün və dəyərli, daha səmərəli olduğu üçün o, daha özəl və faydalı, daha cazibəli və dəyərli sayılmalıdır.

Beləliklə aydın olur ki, əgər müasir qadınlar bəşər tarixində ən kamil, ən görkəmli nümunəsi olan pak Zəhranın (ə) müqəddəs vücudundan, o həzrətin fəzilətlə dolu məktəbindən ilhamlanaraq öz varlığının təkamülü istiqamətində iri və təsirli addımlar atsalar, kişilərlə müqayisədə tərəzinin gözü şübhəsiz ki, fəzilət və elmsiz, din və imansız kişilərin yox, fəzilət sahibi qadınların xeyrinə olacaqdır.

## Kitabın yazılmasının məqsədi

Bugünkü qarışır və müsibətli dünyamızda baş verən hadisələri və İran İslam Respublikasının müsəlman qadının müasir cəmiyyətimizin ictimai, həyati sahələrində oynadığı mühüm rolu nəzərə alaraq indi hər hansı başqa bir zamandan daha çox məqsədəuyğundur ki, qadın tarixində ən görkəmli şəxsiyyət olan, bütün məkanlar və zamanlar üçün qadınlığın əsl, parlaq nümunəsi sayılan Fatimeyi-Zəhra (ə) – Peyğəmbərin (s) bu sevimli və hörmətli qızı, imamların bu əziz və dəyərli anası yenidən tanınsın.

Başqa sözlə desək, bu gün cəmiyyətimizin, xüsusilədə qadınların hər hansı başqa bir zamandan daha çox pak Zəhranın (ə) bənzərsiz və görkəmli şəxsiyyətinin qadınlığının müqəddəs nümunəsi, pak bir rəhbər və başçı kimi tanınmasına və gələcək nəsillərə də daha çox və daha yaxşı tanıdılmasına böyük ehtiyac var. Bu kitab da elə həmin vəzifəni yerinə yetirmək, o böyük şəxsiyyəti tanımaq və tanıtmaq məqsədilə yazılmışdır.

Kitabın yazılmasının başlıca hədəfi, müəllifin əss ümid və arzusu o əbədi nemət mənbəyindən ilhamlanaraq, o həzrətin nadir şəxsiyyətinin müqəddəs nurlarından bəhrələnərək bu qəhrəman qadının – qəhrəmanlar anasının səmərəli və təlaşlı həyatının, tərbiyəvi mübarizəsinin bir parçasını oxuculara çatdırmaqdır. Ümiddir ki, bu kitab iş və təlaş qadınının, döyüş və inqilab qəhrəmanının, Allaha qarşı çıxanlar, şeytana uyanlar əleyhinə üsyan qaldırmış xanımın əxlaqi və insani fəzilətləri, səbr və dözümü ilə bağlı nümunələri pakların pakı Fatimənin (ə) mübarək vücuduna aid başqa örnəkləri yaddaşlara həkk edəcəkdir.

Bu kitabın İslam yolunun aşiqlərinə - qız və qadınların, Zəhra (ə) yolunun, Zəhra (ə) adətinin davamçılarına onların həyatı üçün parlaq nümunə, görkəmli örnək olan o həzrətin keçdiyi həyat yolunu göstərə biləcəyini arzu edirik.

Müəllif ümidvardır ki, bu məsuliyyətin öhdəsindən bacardığı qədər gələ bilmiş və bu ağır vəzifənin yerinə yetirilməsində - bu böyük və əzəmətli qadının həqiqi və dəyərli simasını göstərmək işində layiq olduğu köməyi əldə etmiş olsun. Fəzilətli bir qadının pak adından ilhamlanan müəllif Peyğəmbərin (s) əziz qızının əbədi xatirəsinin, təmiz nəfəsinin bərəkəti ilə bu böyük işin layiqincə yerinə yetirilməsində Allah-təaladan kömək və yardım diləyir.

Qum, Əllamiyyə hövzəsi
Əqiqi Bəxşayeşi
01. 07. 1369-cu il

## Səadətli təvəllüd

Günəş haradan çıxır, haradan nur saçır? Parlaq şüalarını qızıl sikkə yağışı kimi gümüş zərrələr, ətirli şeh damcıları kimi haradan aşağı səpələyir?..

Əgər təbiət günəşinin çıxdığı yer səmanın civəyə bənzər üfüqləridirsə, mənəviyyat və ruhanilik günəşinin başqa evi – çıxdığı yer var: bu Məhəmmədin (s) – Allahın elçisinin, İslam peyğəmbərinin, sonuncu ilahi peyğəmbərinin evidir – nur evidir, mənəviyyat günəşinin məkanıdır...

Bura – bu kiçik və sadə, eyni zamanda əzəmətli və cəlallı ev – böyüklüyü və əzəməti sayəsində yox, sakininin əzəmətində və sakinlərinin şərəfində olan bu ev - elə bir evdir ki, orada mənəviyyat və ruhanilik günəşi görünür və təbiət günəşi – yer üzünü nura boyayan bu çıraq həsrət gözü ilə ona baxır...

Həmin günəşin nurlarının iki şüası zərlidir – namus və paklığın parlaq ulduzudur, yəni Fatimeyi-Zəhradır (ə). O, dünyaya göz açır ki, dünyanın gözünü özünün cəlallı gözəlliyinin tamaşasından qamaşdırsın...

Bəli, Fatimeyi-Zəhra (ə) – namus və paklığın o parlaq ulduzlu nurlu ailədə, vəhy evində, səma mələklərinin endiyi yerdə, Cəbrayılın mənzil yerində, peyğəmbərlik və dindarlıq günəşinin doğduğu yerdə dünyaya göz açdı və İslam dünyasına, mənəviyyat və ruhanilik üfüqünə öz səadətli təvəllüdü və mübarək varlığı ilə başqa bir nur, işıq bəxş etdi...

O, elə bir evdə dünyaya göz açdı ki, insanlıq dünyası uzun zamanlardan bəri intizar gözünü ona dikmişdi. Elə bir ev ki, dünyanın və tarixin gözləri onun nurlu və qızdırıcı şüaları ilə, təlim-tərbiyə işığı ilə qamaşmışdır. Elə bir ev ki, bəşər cəmiyyətinin yeganə müəlliminin yeri, məskəni orada özünə qərar tapmışdır: Məhəmmədin (s) evi, Peyğəmbərin evi, özü məktəbə getməyən, yazı yazmayan, lakin bir göz qırpımında yüzlərlə müəllimin ustadı olan bir müəllimi evi.

Bəli, bura Peyğəmbərin evi, Peyğəmbər ailəsinin işıqlı ulduzunun, imamlıq beşiyinin qurucusunun və paklıq, namus simvolunun təvəllüd yeri idi... Fatimeyi-Zəhra uşaqlıq dövrünü bu evdə keçirdi. Bu evdə - tərbiyə beşiyində, İslam peyğəmbərinin (s) – bəşəriyyətin yeganə müəlliminin birbaşa rəhbərliyi altında böyüdü... Nə xoşbəxt uşaqdır o kəs ki, yer üzünün və zamanın Pərvərdigarı belə bir müəllimi – peyğəmbərlik zirvəsinin müəllimini, müəllimlik zirvəsinin peyğəmbərini onun tərbiyəsi və rəhbərliyi üçün seçmiş olsun. Məhəbbət və nəvaziş zirvəsinin bu müəllimi, eyni zamanda dünyanın ən layiqli atasıdır, zaman-zaman yer üzünə səpələnmiş bəşər əhlinin, insan nəsillərinin tərbiyəçisidir.

Fatimənin böyük və alicənab atası haqqında doğrudan da, nə demək olar? Axı onun əzəmətinin sonsuzluğundan, cəlal və şövkətinin ucalığından dilin bir söz deməyə, qələmin isə bir şey yazmağa güc və taqəti yoxdur. Dünya tarixi belə bir atanı tanıtmaqda qəddini düzəltmişdir. Əsrlər boyu nəsillər ardınca gələn nəsillər onu vəsf etmişlər. Lakin tarix hələ bu yolun lap başlanğıcında özünü itirərək qalmış və bəşəriyyət hələ onun tərifi haqqındakı ilk kəlamı axıra qədər deyə bilməmişdir.

Doğrudan da, Peyğəmbərin (s) xəsiyyət və keyfiyyətlərinin təsviri, o həzrətə məxsus əlamətlərin tərifi Pərvərdigarın Özünün kəlamlarını bəyan etmədən mümkün deyil. Ona görə də yaxşı olar ki, biz də burada bəlağətli səma kəlamlarından birini yada salmaqla kifayətlənək. Orada ki, Allah-təala Peyğəmbərin xasiyyətini, əxlaqını, həyat tərzini layiqli bir şəkildə təsvir edir, həmin bənzərsiz təriflə də özünün misilsiz qüdrətini bəyan edir. Belə ki, buyurur: "Doğrudan da, sən böyük bir əxlaq sahibisən."[1]

Bəli, o, doğrudan da, belə bir tərifə tam layiq idi, bu haqqı qazanmışdı. Pərvərdigar Fatimeyi-Zəhranın (ə) atası (s) haqda belə bir söz buyurduğu halda Onun zəif məxluqu hansı kəlamı dilinə gətirə və yaza bilər?

## Fatimeyi-Zəhranın (ə) anası

Böyük İslam qadınının böyük atasının tərifi haqqında müqəddəs ilahi kəlamı ilə tanış olduq. İndi isə o həzrətin anası haqqında söz açmaq yerinə düşər.

Fatimeyi-Zəhranın (ə) hörmətli anası – Peyğəmbərin gözünün nurunu, imamlıq bağının gülünü tərbiyə etmiş o namuslu qadın haqqındakı söhbətimizə bir anlığa fasilə veririk. Gücümüz çatdığı qədər, eyni zamanda mövzudan uzaq düşmədən bu barədəki söhbətimizi davam etdirəcəyik. Ümumiyyətlə, hər hansı bir şəxsiyyət, hətta adi bir şəxs haqqında söz açarkən onun anası barədə də danışmaq, anasının tərbiyəvi rolunu göstərmək məqsədəuyğundur. Ona görə biz də o böyük İslam qadını haqqında danışarkən, onun anasının da tanıdılmasını, görkəmli xidmətlərinin qeyd edilməsini vacib sayırıq.

Ümumiyyətlə, uşağın tərbiyəsində ananın rolu çox həssas və fövqəladədir. Onun təsiri körpənin şəffaf ruhunda və aynaya bənzər qəlbində həmişəlik qalır. Xüsusilə də uşaq qız olduqda bu təsir daha güclü olur, çünki qız uşağı təbii olaraq körpəlikdən ananı öz həyatı üçün bir nümunə edir.

Müasir elm sübut etmişdir ki, qız həmişə xüsusiyyətlərinin çoxunu və psixoloji tərbiyəvi xüsusiyyətlərinin çoxunu və psixoloji tərbiyəvi xüsusiyyətlərinin əksəriyyətini anadan əxz edir. Başqa sözlə desək, hər bir qızın irsən qazandığı xasiyyətlər ona atadan qabaq ilk növbədə anadan keçir. Xüsusilə də, uşaq isti və mehriban, məhəbbət və sevgi dolu bir ailədə tərbiyə almış olsa, bu təsir daha qabarıq şəkildə özünü göstərir.

Bugünkü elm sübut edir ki, uşaq şəxsiyyətinin formalaşmasında ananın rolu olduqca böyükdür. Ananın əxlaq və rəftarının, xasiyyət və xarakterinin, fikir və baxışlarının, başqaları ilə əlaqəsinin və müxtəlif

[1] Qələm (Nun) surəsi, 4-cü ayə

məsələlərlə bağlı təfəkkürün tərzinin, rəy və fikrini bildirmək, başqaları ilə görüşmək qaydasının, danışıq və söhbətinin – bütün bunların uşaq psixologiyasında birbaşa və möhkəm təsiri danılmaz və inkaredilməzdir.

Ümumiyyətlə, ana haqqında, uşağın həyatında onun rolu barədə dediklərimiz sözsüz ki, pakların pakı Fatimənin (ə) əziz və hörmətli anası Xədicəyə - Qüreyş xanımlarının xanımına, Peyğəmbər (s) ailəsinin xatununa da aiddir...

Fatimeyi-Zəhra (ə) kimi bir qızı ana məhəbbətilə öz qoynunda tərbiyə etmiş Xədicə. Xədicə Qüreyşin iman və fəzilət sahibi, hörmətli və nüfuzlu böyük bir qadını idi. O, Hicazın adlı-sanlı şərif ailələrindən birində dünyaya göz açmışdı. Nəsli-kökü məşhur bir tayfadan idi. Onlar nəsillikcə həmişə Kəbə evini qoruyur, qeyri-müşrik (kafir olmayan) və qeyri-bütpərəst qəbilə və tayfaların ziyarət üçün ora gəlib-getmələrinə nəzarət edirdilər. Xədicə bu cür əqidə və dünyagörüşə malik bir ailədə dünyaya gəldi. Böyüdü, uşaqlıq və yeniyetmə dövrünü arxada qoydu, böyük bir qız oldu. Ailəsində, yaxınlar və tanışlar arasında ağıl və dərrakə sahibi, şüurlu və fərasətli bir qız kimi şöhrət tapdı.

Xədicə Hicazın bakirə və əl dəyməmiş təbiətinin qoynunda böyümüşdü. Uşaqlıq və yeniyetməlik dövrünü Hicazın mavi və ulduzlu səması altında, Ərəbistanın isti və qızmar günəşinin qızılı rəngli şüaları işığında, Hicazın mavi səmasında gecələr bərq vuran sayrışan ulduzların işıq selinin altından keçirdi. Ərəb yarımadasının ortasında qazılmış quyuların – körpə ahunun göz yaşlarına bənzər zülal, coşan suyu Ərəbistanın tozlu yollarından ötən karvanların, yolçuların və bu geniş torpağın sakinlərinin ürəyindəki yanğıya sərinlik gətirən quyuların kənarında, bərəkətli yaşıllığın, bal şirinliyinin təcəssümü olan uca və yaşıl xurma ağaclarının sıx kölgəsində - bir sözlə təmiz və bakirə, səfalı və bərəkətli təbiətin qoynunda böyüdü və böyük bir qız oldu...

Bütün bu saflıq və təmizlik parlaq aynaya bənzər Xədicənin qəlbinə və canına hopdu, onda öz əksini tapdı. Xədicə də təbiət qoynunda böyümüş başqa insanlar kimi qəlbindəki saflığı, daxilindəki təmizliyi o coşqun təbiətindən qazandı. Beləliklə, qəlbi aynaya, duyğu və düşüncələri şəffaf yağışlara və gur şəlalələrə bənzəyən Xədicə həmin o saflıq və paklıqla o zaman “Məhəmməd Əmin” adı ilə tanınan Peyğəmbərə (s) ərə getdi. Ondan bir neçə il sonra həmin pak qəlb və can zülallığı, duyğu və düşüncə saflığı ilə öz böyük ərinin peyğəmbərliyə dəvət olunmasının şahidi oldu. Tale üzünə güldü ki, Məhəmmədin (s) peyğəmbərliyinə iman gətirən ilk qadın, ilk insan olsun və özünü, bütün var-yoxunu İslama fəda etsin.

Bəli, o bir olan Xaliqin ilk məxluqu idi ki, İslam peyğəmbərinin (s) tovhid səsinə səs verdi və canını, malını, nüfuz və etibarını bu etiqad və iman yolunda qoydu. Xədicə Məhəmməd ayininə iman gətirən andan, özünü Allahın son dininə tapşıran zamandan başlayaraq Haqqın dəvətinə “bəli” deyənədək – canını Allahın ölüm mələyinə təslim edənədək – İslama iman və etiqad yolunda İslam peyğəmbərinin müdafiəsinə qalxdı. Onunla qoşa addımladı və bu yolda bircə an belə sakit dayanmadı. İslama iman gətirən andan ölən anadək bütün illər, günlər və dəqiqələr ərzində səmərəli və qiymətli ömrünü müqəddəs İslam rəhbərinin – sonuncu və ən qüdrətli, ən alicənab İlahi Peyğəmbərinin arxasında durmaqda, yorulmaq bilmədən onun müdafiəsində dayanmaqda keçirdi və bu yolda varından, canından keçdi. Ona görə də Xədicə tarixə təkcə Peyğəmbərin (s) ömür-gün yoldaşı kimi yox, həm də O həzrətin səngər yoldaşı kimi düşdü. O, bir evdar qadın olaraq həm də İslamın yaranışı tarixində dönməz və mübariz bir qadının, nümunəvi müsəlman və mömin qadının parlaq bir nümunəsi kimi tanınır. Peyğəmbərin (s) özü dəfələrlə bunu təsdiq etmişdir. Bəli, Xüvəylidin qızı Xədicə İslam və imanı yolunda göstərdiyi bütün bu canfəşanlıq və fədakarlığına, səy və təlaşına görə elə böyük və əzəmətli, uca və yüksək bir məqam qazandı ki, “Behişt əhli olan xanımların başçısı” adına layiq görüldü.

### Xədicənin qanuni ticarəti və sonsuz sərvəti

Olduqca pak təbiətli bir qadın olan Xədicə ağıllı-kamallı və yüksək mənəviyyat sahibi bir insan idi. Haqq və ədalətə, etiqad və ağıla, bilik və kamala meyl hissləri onun təbiətindən doğurdu. Odur ki, Xədicə hələ cavanlıq yaşlarından Hicaz və Ərəbistanın ən məşhur qadınlarından biri sayılırdı. İlk qadın ərəb taciri və Hicazın ticarət üzrə böyük şəxsiyyətlərindən biri olan Xədicə Peyğəmbərlə (s) evlənməmişdən qabaq da çox şöhrət qazanmışdı. Belə ki, onun adı təkcə İslam tarixində deyil, eyni zamanda ərəblərin və ərəb qəbilələrinin tarixində, o cümlədən qeyri-müsəlman tarixçilərinin əsərləri və qeydlərində əzəmətlə yad edilir.

Xədicə ticarət işlərində də həmin insani xüsusiyyətlərinə əsaslanırdı. Ticarətə hansı yolla, hansı qayda ilə olur-olsun, sonsuz gəlir əldə etmək vasitəsi kimi əsla baxmırdı. Əsla şəxsi mənfəətini düşünən, şəxsi qazancı dalınca düşən də deyildi. Buna görə də həmişə çalışırdı ki, öz ticarətini bulaşıq işlər, dolaşıq gəlir üzərində qurmasın. Möhtəkirlikdən, çəkidə alıcını aldatmaqdan, malı baha satmaqdan, pulu sələm verməkdən və bu kimi işlərdən uzaq idi. Bu səbəbdən də Xədicə öz ticarətində belə işlərə yaxın durmazdı. Yalnız qanuni şəkildə, ədalətlə alış-veriş edirdi.

Xədicə bu cür bəşəri keyfiyyətləri, ağıllı və məntiqi rəftarı nəticəsində camaatın bir çox təbəqələrinin inam və etimadını qazanmışdı. Bütün bunların hesabına onun halal gəliri gündən-günə artırdı. Xədicənin ticarətdə

qazandığı uğurları və halal yolla əldə etdiyi gəlirləri haqqında müxtəlif tarix kitablarında belə yazmışlar: "Xədicənin xidmətçilərinin və işçilərinin əlində minlərlə dəvə var idi. Onlar bu dəvə karvanları ilə Misir, Şam (Suriya), Həbəşistan kimi ətraf ölkələrə ticarətə gedir və ticarət mallarının alış-verişi ilə məşğul olurdular."[1]

## Kəramətli Peyğəmbərlə (s) evlənmə

Xədicənin ticarət sahəsində ilk qadın kimi şöhrət tapdığı zaman İslam peyğəmbəri (s) cavanlıq dövrünü yaşayırdı. O vaxtlar camaat İslam peyğəmbərinə (s) hədsiz təmizliyi və düzlüyünə, əmanətə qarşı misilsiz sədaqətinə görə "Məhəmməd Əmin" ləqəbini vermişdilər. Hər yerdə onun adını bu sifətlərlə çəkir, dillərinə gətirirdilər. həmin əlamətlər o həzrətin səciyyəvi xüsusiyyətlərindən idi. Məkkədə Məhəmməd Əminə sonsuz ehtiram əlaməti olaraq yayılan bu düzlük və sədaqətin səsi-sədası Xədicənin də işində düz olan, əmanətə sadiq qalan bu cavana tərəf elə çəkdi ki, o, Əbu Talibin hüzurunda Məhəmməd Əmini özünün ticarət karvanının başçısı və alış-veriş işləri üzrə vəkili seçdi. Beləliklə, böyük İslam peyğəmbəri (s) cavanlıq illərində Xədicənin karvanı ilə dəfələrlə ticarət səfərlərinə getdi və iti ağlı, məntiqli düşüncəsi, ağıllı və düzgün alış-verişi sayəsində çoxlu qazanc əldə edib Məkkəyə qayıtdı. Xədicənin indiyə qədər görmədiyi bu gözlənilməz ticarət uğuru Hicazın ən ağıllı qadınının Məhəmməd Əminin düzlüyünə, əmanətə sadiqliyinə olan etimad və inamını əvvəlkindən də çox artırdı. Xədicənin bu yolla bu təmiz, saf əxlaqlı cavanın varlığında tapdığı yüksək keyfiyyətlər onun fikir və düşüncələrinə elə bərk təsir etdi ki, onun həyata baxışı, təfəkkür tərzi tamam başqalaşdı. O, qabaqlar iki dəfə ərə getmişdi və hər iki həyat yoldaşını – Ətiq ibn Aidi və Hind ibn Bənası ölümlərinə görə itirmişdi. İkinci ərini itirərkən həyata baxışı tamam dəyişmiş və qərara gəlmişdi ki, bundan sonra bütün ömrünü təkcə, ayrıca yaşasın və sərvətini heç kəsə tapşırmasın. Xədicənin bu qərarı bəlkə də onunla bağlı idi ki, bu cür dünyagörüşü, həyata baxışı, yüksək duyğuları, təmiz əxlaqı və başqa dəyərli keyfiyyətləri ilə heç kəsi özünə ömür-gün yoldaşlığına layiq bilmirdi. Bir sözlə, o, müstəqil yaşamağı üstün tutur və ömrünün qalan illərini heç kimlə bağlamaq istəmirdi.

Amma Məhəmmədin (s) bənzərsiz əxlaqı onu bu fikrindən daşındırdı. Məhəmmədin (s) ruhunun əzəməti, fikrinin aliliyi, misilsiz həyat tərzi onu özünə elə cəlb etdi ki, özünün əvvəlki fikrindən birdəfəlik əl çəkdi. Əvvəlki müstəqil yaşamaq fikrini bir kənara qoyaraq qərara aldı ki, bundan sonra həyatını belə bir bənzərsiz kişi ilə bağlasın, onunla qovuşsun.

Məhəmməd Əminin sədaqət və düzlük, təmizlik və paklıq cazibəsi elə güclü idi ki, hətta Xədicənin qüruruna da üstün gəldi. Belə ki, özü birinci olaraq könüllü surətdə qabağa gəldi və o pak, bənzərsiz cavana evlənmək təklifini etdi. Xədicə bir gün Məhəmmədi (s) özü ilə görüşə dəvət etdi və bu görüşdə ürəyindəki sirri açaraq düşündüyünü aşkar etdi:

- "Ey Məhəmməd (s), mən səni bir şərif və əmanətə sadiq, pak və təmiz bir insan kimi tapdım. Sən özünü pak və təmiz saxladın. Sənin ətəyinə kiçicik bir toz belə bulaşmayıbdır. Sən xoş əxlaqlı, etibarlı və düzdanışansan. Düz danışmaqdan əsla qorxun yoxdur və insanlıq keyfiyyətlərini heç nəyə görə əldən vermirsən. Sənin bu insanlıq xüsusiyyətlərin və layiqli keyfiyyətlərin məni özünə cəlb və cəzb etmişdir. İndi səninlə evlənməyi, səninlə birgə yaşamağı təklif etmək istəyirəm. Əgər mənim təklifimə razısansa, mən özüm münasib vaxtda evlənmə mərasimini yerinə yetirməyə hazıram."[2]

Beləliklə, Xədicə Hicazda o zaman mövcud olan adət-ənənənin əksinə olaraq bəlkə də ilkin qadın idi ki, kişi tərəfdən elçi gözləmək əvəzinə, özü gələcək əri ilə evlənmək xahişini irəli sürdü.

## Fəzilətlər və yüksək bəşəri keyfiyyətlər qarşısında qadının boyun əyməsi, itaətkarlıq göstərməsi təəccüblü deyil

Nə olmuşdu, nə baş vermişdi ki, görkəmli, məşhur bir ərəb qadını – var-dövlət içində yaşamış bir qadın birdən-birə, gözlənilmədən əyan təbəqəsinə məxsus adət-ənənələrə məhəl qoymadan bütün buxovları qırdı, ayaqları altına atdı?! Başıuca halda və qürurla irəli çıxdı ki, onun-bunun heyrətli gözləri qarşısında əlini hər cür işlərə vursun. Hətta elə işlərə ki, bəlkə də adi və sadə ailələrdən çıxmış qadınlar belə əllərini bu cür işlərə bulamazdılar...

Bu macəranın sirri və rəmzi təkcə bir incə mətləbdə gizlənmişdi: görkəmli şəxsiyyətə, misilsiz etibara malik bir qadın – qarşısında bir çox qadınların, hətta bir çox kişilərin itaətlə dayandıqları bir qadın indi yüksək bəşəri fəzilətlər və ali insani vücudunda işıq saçan bu əlamətlər önündə özünü itaətkar bir vəziyyətdə görürdü. Və burada heç bir təəccüblü şey yoxdur.

---

[1] Təzkirətul-xəvas, 2 cild, s. 302
[2] Təzkirətul-xəvas, 2 cild, s. 302

Bəli, bu Xədicə idi ki, ali bir şəxsiyyət qarşısında, Məhəmmədin (s) yüksək fəzilətləri və ali bəşəri keyfiyyətləri önündə bu cür boyun əyərək itaətkarcasına durmuşdu. Artıq onun üçün əyanlara məxsus adət-ənənələrin heç bir əhəmiyyəti yox idi. Bu görkəmli və tanınmış şəxsiyyət həmin o qadın idi ki, bir çox qadınlara və kişilərə əmrlər verirdi. Həmin o qadın idi ki, yüklə dolu ticarət karvanları Ərəbistana və uzaq-uzaq ölkələrə yola düşərkən gözləri qamaşdırır və onunla danışanların qəlbindəki şövq və həvəslərini qızışdırırdı. Həmin o qadın idi ki, ərəb əyanları, qəbilə başçıları, sərvət və şöhrət sahibləri, nüfuzlu və hörmətli şəxslər dəfələrlə ona elçi göndərmiş, lakin onların heç birinin təklifini qəbul etməmişdi. Çox güman ki, onların heç birini özünə layiq bilməmişdi.

Amma indi həmin o görkəmli və hörmətli qadın – bütün Hicaz torpağında tayı-bərabəri ollmayan o qadın böyük bir şövq və həvəslə, tərifə sığmayan bir hiss və duyğularla özü qabağa gəlmiş, ilk addımı özü atmış, Məhəmmədlə (s) evlənmək təklifini özü irəli sürmüşdü.

Beləliklə, Məhəmmədlə (s) Xədicənin evlənməsi baş tutdu. Bu mübarək evlənmə üçün tədarük görülməyə başlandı. Xədicə bu evlənmədə nəinki elçilik adət-ənənəsini dəyişdirdi, həmçinin o zamankı cahiliyyə ərəbləri arasında mövcud olan bütün evlənmə qaydalarını da ayaqları altına atdı. Hətta kəbinpulu məsələsində də görünməmiş bir işə əl atdı. Qabaqlar ona elçi gələnlərin böyük sərvətləri, qiymətli malları olmasına baxmayaraq, yenə də Xədicə Məhəmməd (s) barədə başqa cür rəftar etdi. Belə ki, kəbinpulu kişi tərəfindən ödənilməsinə baxmayaraq, o, bunu öz malı, sərvəti hesabına ödədi. Kəbinpulu olaraq danışılmış dörd min dinarlıq məbləği özünün sonsuz var-dövlətindən götürüb Məhəmmədə (s) hədiyyə verdi.

Xədicə bu cür yüksək əxlaqi keyfiyyətləri və bir tərəfdən əzəmət və şəxsiyyətini göstərən, digər tərəfdən də sadəliyi və təvazökarlığından xəbər verən bənzərsiz rəftarı ilə göstərdi ki, doğrudan da, onun şöhrəti və imtiyazları sərvət toplamaq, ticarətdən hədsiz gəlir qazanmaq xatirinə deyil. Əksinə, onu bir şəxsiyyət kimi tanıdan, ona sonsuz nüfuz və şöhrət qazandıran fikir dərinliyi, təfəkkür tərzinin aliliyi, mənəvi aləminin zənginliyi idi. Bütün bu cəhətləri Xədicəni başqa qadınlardan fərqləndirir, daha üstün edirdi.

Bəli, Xədicə bu cür qəribə və təəccüblü rəftarı ilə aşkara sübut etdi ki, evlənmə məsələsində o, dövrün qadınları arasında yayılmış baxışlardan, fikirlərdən uzaqdır. Xədicə sübut etdi ki, evlənmə məsələsində heç vəchlə gözünü gələcək ərinin sərvətinə, var-dövlətinə dikməmişdir. Böyük sərvəti olan kişinin intizarında və ağır kəbinpulu almaq niyyətində deyil. Ərindən vəzifə və əyanlıq, maddi və dünyəvi şöhrət ummur. Əksinə, elə bir ömür-gün yoldaşının yolunu gözləyir ki, mənəvi sərvətləri gur şəlalə kimi, saf və şəffaf yağış damcıları kimi saysız-hesabsız olsun. Elə bir ər istəyir ki, varlığı fəzilət və dərin mənalarla, yüksək insani dəyərlərlə zəngin olsun. Bəli, o, elə bir ər istəyirdi ki, fəzilət və mənəviyyat kişisi olsun. Aydındır ki, belə bir şəxs Peyğəmbərdən (s) başqa heç kəs ola bilməzdi.

**Xədicənin fədakarlığı və canından keçməsi**

Bu mübarək evlənmə haqqında ilkin danışıqlar oldu. Qərarlar qəbul edildi. Evlənmə günü təyin olundu. Həmin gün sadə bir mərasim keçirildi. Ən yaxın adamların və qohumların iştirakı ilə Məhəmmədlə (s) Xədicənin evlənmə mərasimi oldu.

Həmin mübarək gündə bu iki böyük və görkəmli şəxsiyyətin evlənmə kəbininin xütbəsi Peyğəmbərin (s) sevimli əmisi – Qüreyşin ən hörmətli böyükləri və başçılarından olan Əbu Talib vasitəsilə oxundu. Beləliklə, Xədicənin evi İslam peyğəmbərinin (S) mübarək qədəmləri ilə nur və əzəmət, mənəvi gözəllik tapdı. Lakin hələ heç kim bilmirdi ki, bu ev tezliklə şərəf evi, vəhyin nüzul (enmə) yeri və Cəbrayılın, eləcə də başqa səma mələklərinin enmə yeri olacaqdır.

Evlənmə mərasimindən və kəbin kəsiləndən sonra Məhəmməd (s) yerindən qalxıb qapıya tərəf yollandı. Rəftar və hərəkətindən görünürdü ki, məclisi tərk etmək fikrindədir. Qərara gəlmişdi ki, bu evdən gedib öz evini həyat yoldaşının gəlişi üçün hazır etsin. Amma qəfildən Məhəmmədin (s) arxasından Xədicənin səsi ucaldı: “Ey Məhəmməd (s), hara gedirsən? Axı indi mənim evim sənin evindir. Bütün sandıqların açarı sənin ixtiyarındadır. Mənim özüm də bu gündən etibarən sənin kənizin və fərmanında duranam.”

Beləliklə, Xədicənin evi bu iki böyük və görkəmli şəxsiyyətin birgə rahatlıq və səadət ocağı oldu. Həmin gündən Məhəmməd (s) o evə köçdü ki, uşaqlıq illərində ata-anasının vəfatına görə itirdiyi rahatlığını burada yenidən tapsın, əmin-amanlıqla, asudə yaşasın və özünü ali duyğu və düşüncələrini inkişaf etdirsin.

Bu evlənmədə daha bir mühüm və diqqəti cəlb edən cəhət var idi. Bu da bu cür sadə və təmənnasız evlənmə əhd-peymanının İslam peyğəmbəri (s) üçün əhəmiyyətli olmasında idi. Allah-təala Özünün sonsuz hikmətini bu evlənmədən 15 il sonra İslam peyğəmbəri (s) üçün aşkar etdi. Belə ki, bu əhd-peyman və evlənmə nəticəsində Xədicənin bütün sərvəti həzrət Məhəmmədin (s) ixtiyarına keçdi və o həzrət də peyğəmbərlik məqamına çatdıqdan sonra bütün bu böyük sərvəti İslamı inkişaf etdirmək yolunda, Allah yolunda sərf etdi.

Xədicə İslam peyğəmbəri (s) üçün fədakar və canından keçən bir qadının nümunəsi idi. O, həmin birgə həyatlarının əvvəlindən səmərəli həyatının son anlarınadək – bütün bu müddət ərzində Peyğəmbərin (s) ən yaxın köməkçisi, yardımçısı və ən mehriban dostu hesab olunurdu. Rahatlıq günlərindən Peyğəmbərin (s) ən yaxın həmdəmi, çətinliklər, məhrumiyyətlər içində yaşadıqları günlərdə o həzrətin ən səbirli və dözümlü köməkçisi və böyük Rəsula (s) üz vermiş bütün ağır, müsibətli hadisələrdə ən ardıcıl, ən güclü arxası, ən sədaqətli və möhkəm dayağı idi. Peyğəmbərlikdən sonra Peyğəmbər (s) və müsəlmanlar üçün meydana çıxmış bütün ağır sınaqlardan ən çətin anlarda Xədicə təkcə o həzrətin (s) ən yaxın dostu və təsəlliverəni yox, eyni zamanda bütün müsəlmanlar üçün bir mehriban ana, sönməyən ümid yeri hesab olunurdu. Misilsiz səbr və hövsələsi, bənzərsiz güclü dözümü, heyrətdoğurucu möhkəmliyi və müqaviməti başqaları üçün nümunəyə çevrilirdi. Bundan əlavə, Peyğəmbərin (s) ilahi məqsədləri, İslamın güclənməsi və yayılması yolunda çoxlu malını xərcləməyi əsirgəməzdi. Bu cür qüdrət və şöhrətinə, nüfuzuna və rifah, naz-nemət içində yaşamaq iqtidarında olmasına baxmayaraq, dünyəvi həyatın bütün zahiri cəhətlərini bir kənara qoydu və əvəzində Peyğəmbərlə (s) birgə yaşadığına görə üzləşdiyi bütün çətinliklərə, məhrumiyyətlərə sinə gərdi. İllər boyu ərinə qarşı edilən əzab və işkəncələri, hər ikisinin həyatı üzərinə kölgə salan təhlükəli sürgün və mühasirə həyatını, aclığı, gecələr oyaq qalmağı asanlıqla yola saldı ki, İslamın ali hədəflərinə nail olmaq, Quranın buyurduğu göstərişləri yerinə yetirmək və İslamın insan tərbiyələndirici məktəbini davam etdirmək yolunda hər gün addımlar atsın.

### Xədicənin tərifli keyfiyyətləri və fəzilətləri

Müsəlman qadınının ən yüksək nümunəsi olan Xədicə ulu Peyğəmbərin (s) xüsusi ehtiram və məhəbbətini qazanmışdı. Hörmətli Rəsul (s) o möhtərəm xatunu çox sevirdi, onun ağıl və kamalına yaxşı bələd idi. Ona görə də öz işlərində Xədicə ilə təkcə bir həyat yoldaşı kimi yox, həm də ağıllı, ürəyiyanan və səmimi bir dost kimi məsləhətləşir və onun fikirlərinə çox hörmətlə yanaşırdı.

Həzrət Əliyə (ə) aid bir rəvayətdə o, belə buyurur: "Bu cümləni İslam peyğəmbərinin (s) özündən eşitdim ki, buyurdu: "Bəni İsrailinin keçmiş əsrlərdə ən yaxşı qadını Məryəm bint İmran və ümmətin ən yaxşı qadını bu gün Xədicə bint Xüvəyliddir."[1]

Əlbəttə, Xədicənin ali məqamını, hörmət və şəxsiyyətini adi meyarlarla ölçmək olmaz. Belə ki, o böyük xanımın məqam və ehtiramı elə yüksəkdi ki, ulu və uca Tanrı Cəbrayılla ona salam göndərdi və ona elə böyük mükafat vəd etdi ki, istər əvvəllər yaşamış kəslər, istərsə də müasirləri içərisində heç bir şəxs və Allahın elçisinin səhabələrindən kimsə o məqama çatmamışdı. Sünnə əhlinin böyük hədisçilərindən biri, sünnə əhlinə məxsus altı mühüm və mötəbər hədis kitablarından – "Səhih"lərdən birinin müəllifi Buxari yazır: "Ayişı deyir: "Eşidəndə ki, Pərvərdigarı Xədicəyə behişt vəd etmişdir, heç bir qadın barəsində bu dərəcədə nə həsrət çəkdim, nə də həsəd apardım."[2]

Ayişənin bu sözü həqiqətdən uzaq olmamışdır. Bildiyimiz kimi, Xədicə böyük Peyğəmbərin (s) peyğəmbərliyinin başlanmasından qabaq seçdiyi ilk həyat yoldaşıdır və onunla uzun bir müddət ərzində - 25 il yaşamışdır. Həzrəti-Rəsul (s) Xədicənin vəfatından sonra başqa qadınlarla da, Ayişə, Səfiyyə, Ümm-Sələmə və s. ilə də birgə ömür sürməsinə baxmayaraq, evində başqa həyat yoldaşları olduğu bütün müddətdə yenə də Xədicəni böyük hörmətlə yad etmiş, onun adını ehtiramla çəkmiş və həmişə xatirəsini əziz tutmuşdur. Belə ki, onun haqqında buyurmuşdur: "Uca Tanrı ondan daha yaxşısını mənə əsla nəsib etməmişdir. Köməyə ehtiyacım olduğu gün o, mənə yardım etdi və mehr və məhəbbətlə əlimdən tutdu. Elə bir gündə mənə iman gətirdi ki, camaat məni təkzib edirdi. Və Tanrı ondan mənə övlad bəxş etdi."[3]

Əziz İslam peyğəmbərinin (s) mübarək dilindən çıxmış bu aydın və qiymətli sözlər Xədicənin o həzrətin yanında necə bir yüksək məqam tutduğunu, necə bir yüksək əxlaq və şəxsiyyət sahibi olduğunu aşkar göstərir.

Ayişə deyir: " Elə bir gün olmurdu ki, İslam peyğəmbəri (s) Xədicəni xeyirxahlıqla yad etməmiş olsun. Bir gün onun haqqında elə danışdı ki, qadınlıq qüruru və təəssübü mənə üstün gəldi və həmin (həsədli) halımla dedim: "Məgər o qoca bir qadın deyildi ki, uca Tanrı sənin nəsibin etmişdi?" (Bu sözdən Ayişənin məqsədi öz vücudunu, öz dəyərini bəyan etmək idi. Çünki  o, çox gənc bir qadın idi və buna görə də özünü Xədicə ilə müqayisə edərək cavanlıq baxımından üstünlüyünü qeyd etmək istəmişdi). İslam peyğəmbəri (s) bərk qəzəbləndi, hirsindən mübarək başının qabaq tərəfindəki tükləri titrədi və bu zaman Xədicə haqqında yuxarıda göstərdiyimiz sözləri buyurdu.

---

[1] Ümdə bir Tariq, s. 24
[2] Səhihi-Buxari, V hissə (cüzv), 30-cu bab, s. 114
[3] Allahın elçisinin həyat yoldaşları, s. 18

Ayişə yenə deyir: “Evdə nə vaxt bir qoyun kəsilirdisə, İslam peyğəmbəri (s) buyururdu: “O ətdən Xədicənin dostları üçün də göndər” Bir gün bu işə etiraz etdim, lakin Peyğəmbər (s) buyurdu: “Mən Xədicənin dostlarını da sevirəm.”[1]

Bu deyilənlər dənizdən bir damla qədərdir. Sünnə əhli alimləri vasitəsilə gəlib çatmış çoxlu hədislər vardır ki, orada onların hamısı Xədicənin parlaq xasiyyətindən, yüksək şəxsiyyətindən və ona bəslənən sonsuz ehtiramdan danışır. O cümlədən müxtəlif alimlər vasitəsilə gəlib çatmış, çoxlu hədislərdə belə deyilir: “İman baxımından ən kamil, ən yaxşı qadın dörd nəfər olmuşdur. Müzahimin qızı Asiyə (Fironun həyat yoldaşı), İmranın qızı Məryəm (Həzrət İsa Məsihin anası), Xüvəylidin qızı Xədicə və İslam peyğəmbərinin qızı Fatimə.”[2]

Xədiceyi-Kübranın bu tərifli keyfiyyətləri və fəzilətləri, böyük şəxsiyyəti, bacarıq və ləyaqəti, yüksək bəşəri duyğuları, uzaqgörənliyi və başqa fövqəladə üstünlükləri xatirinə İslam peyğəmbəri (s) nə qədər ki, o sağ idi, başqa qadınla evlənmədi. O zaman dövrün və məkanın xüsusi şəraitinə, qəbilə və tayfa adət-ənənələrinə görə çoxarvadlılığın adi bir hal olmasına, bir çox kişilərin, eyni zamanda evdə bir neçə arvad saxlamasına və İslam qanunlarının da mövcud şəraiti nəzərə alaraq bu icazəni hər bir şəxsə - o da ola Allahın peyğəmbəri (s) – verməsinə baxmayaraq, yenə də Böyük Rəsul (s) Xədicənin bütün ömrü boyu özünün bu haqqından əsla istifadə etmədi.

## Bilikli qadın və kamal sahibi

Xədicənin yüksək əxlaqi keyfiyyətləri və fəzilətləri sırasında onun yüksək bilik və kamalını da qeyd etməyə bilmərik. O, bilikli, təcrübəli, çox ağıllı və açıq dünyagörüşlü və yetkin kamal sahibi bir qadın idi. Hər bir məsələni diqqətlə yoxlar, heç bir şeyi düşünmədən qəbul etməz, dərindən fikirləşmədən bir söz deməzdi. Peyğəmbərliyin başlanğıcında Peyğəmbərdə (s) qeyri-adi dəyişiklikləri görəndə, hətta o həzrətin cismani vəziyyətinin, rəftar və hərəkətinin də başqalaşdığını duyanda o həssas şəraitdə özünə məxsus diqqət və qayğı ilə böyük psixoloq alimlərindən daha yaxşı və daha diqqətlə məsələnin əsl mahiyyətini dərk etdi və qətiyyətlə bildirdi ki, bütün bu dəyişikliklər və Peyğəmbər (s) üçün ortaya çıxmış bu xüsusi cismani vəziyyət dərin ruhi və mənəvi dəyişikliklərin əlamətlərindən başqa bir şey deyildir.

Peyğəmbərin (s) halında, rəftarında dəyişiklik baş verən zaman o həzrətin bəzi tanışları və ətrafında dolaşan bəzi şəxslər gah gizli, gah da aşkara bu hadisə ilə bağlı öz nigarançılıqlarını bildirməyə başladılar. Xədicə isə bu zaman çox uzaqgörənliklə və ağıl-dərrakə ilə Peyğəmbərə (s) müraciətlə dedi: “Allah səni əsla aciz və gücsüz etməyəcək (müvazinətini pozan, yatağa salan ağır cismani xəstəliklərə düçar etməyəcək), çünki sən həyatda həmişə rəhimli olmusan və rəhimlisən, qonaqlıq verirsən, əliaçıqlıq edirsən, zəiflərə, əldən-ayaqdan düşmüşlərə əl tutursan, məzlumların fəryadına yetirsən.”

Çox mühüm bir cəhət də ondan ibarətdir ki, Xədicə İslam peyğəmbərinin (s) həyatının ən həssas anlarında – istər mübarək vücudu vəhy nüzulunun astanasında olarkən, hər şeyin dəyişdiyi zaman, istərsə də ilahi vəhyi pak qəlbinə nazil olarkən və dünyanı lərzəyə gətirən zaman – həmişə böyük Elçini yaxşıca dərk etdi. Onu açıq-aşkar tanıdı və vücudundakı ali gerçəkliyi duya bildi. Onun peyğəmbərliyini aydın başa düşdü, onu bütün qəlbi ilə qəbul etdi və var gücü ilə onun möhkəmlənməsi və yayılması yolunda çalışdı. Doğrudan da, həyatda bu cür həssas və hər şeyi başa düşən, ağıllı-kamallı, həqiqətləri dərindən dərk edən həyat yoldaşı az-az tapılar.

Bu cür yüksək əxlaqi keyfiyyətlərə malik olan bu xanım bütün başqa üstünlüklərdən əlavə həm də Peyğəmbərin (s) ən yaxın həmdəmi, qəminə, kədərinə şərik olan bir insan idi. Belə bir qadın hər hansı bir kişinin həyatındakı uğurları üçün ən başlıca amil və ailənin möhkəmliyi üçün ən əsas şərt ola bilər. Belə ki, qadınlığa xas olan zahiri gözəllik, yaraşıqlı görünmək və bu kimi əlamətlər əsla bütün bunları əvəz edə bilməz. Bu vacib məsələ Xədicənin ailə həyatında tam açıq-aşkar şəkildə özünü göstərdi. Mötəbər sənədlər də bunu sübut edir.

İslamın məşhur adamlarının tərcümeyi-hallarını ilk dəfə qələmə almış görkəmli tarixi yazıçılardan biri İbn İshaq bu barədə belə yazır: “İslam peyğəmbəri (s) xoşa gəlməyən hər hansı bir şeyi görür və ya eşidirdisə, ona qarşı nalayiq bir hərəkətlə üzləşir və ya nədənsə kədərlənir, təsirlənirdisə, evə gələrkən Xədicəyə danışır, onunla məsləhətləşirdi.

Və Allah-təala Xədicə vasitəsilə o yaramaz və nalayiq işin həlli yolunu buyururdu. Xədicə həmişə onu möhkəm olmağa və müqavimət göstərməyə çağırır və ağık-fərasəti ilə Peyğəmbərin (s) dərdlərinə, qəmlərinə təsəlli verirdi (və bu qayda ilə həmişə dərdlərinə şərik çıxır, mehriban hərəkətləri ilə o həzrətə köməklik edirdi).

[1] Estiab və Səhihi-Buxari
[2] Estiab və Səhihi-Buxari

Xədicə dünyadan köçənəcən Peyğəmbər (s) üçün bir ağıllı həmsöhbət və məsləhətçi, mehriban və səmimi təsəlliverən oldu.”

Bu qədim tərcümeyi-halı yazan müəllif də etiraf edir ki, Xədicənin mənəvi və əxlaqi məqamı və sonsuz hörməti vardı. Onun bütün bu keyfiyyətləri elə həddə çatdı ki, İlahinin xüsusi mərhəmətinə layiq görüldü. Belə ki, bir gün Cəbrayil vəhy nüzul olarkən dedi: “Ya Peyğəmbər, bir olan Pərvərdigarın salamını Xədicəyə çatdır.” İslam peyğəmbəri (s) də Xədicəyə buyurdu: “Ey Xədicə, indi Cəbrayıl Pərvərdigarın salamını sənə elan edir.” Onda Xədicə cavabında dedi: “Allah Özü salamdır və salamın başlanğıcı Ondandır. Və salam olsun Cəbrayıla...”

### Tərcümeyi-hal kitablarını yazan müəlliflərin Xədicə haqqında dedikləri

Başqa bir İslam tarixçisi İbn Səd “Təbəqat” (Tərcümeyi-hallar) kitabında yazır: “Həzrət Adəm behiştdə Məhəmmədin (s) həyatına bir nəzər salaraq deyir: “Məhəmmədin (s) məndən üstünlüklərindən biri budur ki, onun həyat yoldaşı Allahın əmrlərinin icrası yolunda ərinə yoldaşlıq və kömək etdi. Halbuki mənim həyat yoldaşım İlahi göstərişlərinə əməl etməməkdə mənə yol göstərdi.”[1]

### Xədicənin övladları

Həzrət Xədicədən dörd övlad dünyaya gəldi. Qasim adlı bir oğlu dünyaya gəldi. Onun ləqəbi “Tahir” və “Təyyib” idi. İslam peyğəmbərinin (s) künyəsi – Əbül-qasim də həmin əziz övladının adından götürülmüşdü. Qasim körpəlik və südəmərlik dövrünü keçirdi, hətta ayaq açmaq və yerimək mərhələsinə qədər sağ idi. Amma hələ süddən kəsilməmişdi ki, İlahi yazısı ilə bu dünyaya gözünü yumdu və aqibət sarayına tələsdi.

Bu oğlan övladından başqa Xədicənin üç qızı oldu. Onların adları Zeynəb, Ümm Gülsüm və Fatimə (ə) idi. Bəli, Xədicə kimi bir qadının ali şəxsiyyətidir ki, pak ətəyində varlıq dünyasının ən təmiz, ən pakizə gövhər qadını həzrət Fatimeyi-Zəhra (ə) tərbiyə olunur. İlahinin iradəsinə görə Peyğəmbərin (s) bütün övladları içərisində böyük atası üçün bu parlaq günəş sağ qalır ki, İlahi nurların – dünyanın seyyidlərinin anası seçilsin və gövhər ətəyində məsum imamlar kimi övladlar – bəşəriyyətə rəhbərlik məşəlini alovlandıran övladları tərbiyə etsin. Bəli, Fatimənin “Xədicə” adı ilə məşhur olan belə bir anası var idi.

### Fatimeyi-Zəhranın (ə) səadətli təvəllüdü

Bəli, Fatimeyi-Zəhranın (ə) anası belə bir xanım idi. Doğrudan da, demək olar ki, Fatimənin anası olmağın özü Xədicənin fövqəladə üstünlüklərindən hesab olunur. Çünki bu, elə bir böyük iftixardır ki, varlıq dünyasında heç bir anaya nəsib olmamışdır. Böyük iftixardır ki, bir ana, Fatimə kimi bir övladı dünyaya gətirsin və öz qoynunda tərbiyə etsin. Elə bir övladı ki, pak nəsli məsum imamlar kimi ulduzlar olsun, qiyamət qopana kimi işıq saçsın. Elə imamlar ki, əsl insanlıq beşiyinin başında durmuş və bəşər nəslinin rəhbərlik məşəlini alovlandırmış olsun. Elə bir övladı ki, Allah-təala onun varlığını Peyğəmbər (s) üçün coşan bir kövsər kimi bəyan etmişdir. Elə bir kövsər ki, onun dalğalarının coşmasından imamlıq gövhərləri üzə çıxır və Peyğəmbərin (s) nəslini qiyamət gününə qədər davam etdirir.

Bəli, Fatimə belə bir övladın anası və belə bir ananın övladı idi. Fatimənin (ə) səadətli doğumu – onu bəşəriyyət tarixində bir dönüş nöqtəsi hesab etmək olar – elə bir kiçicik hücrədə baş verdi ki, kiçikliyinə baxmayaraq, mənəviyyatı bütün dünyanın genişliyindən daha böyük idi. Onun uzunluğu beş dirsək boyundan bir az çox idi. Hücrə gildən və bir neçə dənə də xurma budağından tikilmişdi. Gillə budağları tük nazikliyində olan kəndirlə bir-birinə birləşdirmişdilər. hücrənin hündürlüyü elə qısa idi ki, ayaq üstündə duranda adamın əli onun tavanına dəyirdi.

Həmin o kiçik, eyni zamanda əzəmət və şərəf baxımından padşah və imperatorların ən ali saraylarından üstün olan hücrə İslam peyğəmbəri (s) kimi böyük bir atanın və elə bir ananındır ki, onun fəzilət dəryasından kiçicik bir hissəni qeyd etdik. Bu ana dünyaya elə bir qız gətirdi ki, pak adı, məqamının əzəməti və parlaqlığı misilsizdir, mənəviyyatı, əsl insanlığı nəinki dünya qadınlarını əbədi olaraq öz şüalarının təsiri altında saxlayır, eyni zamanda ümumiyyətlə, bəşəriyyət aləmində paklıq və namusun, şərəf və böyüklüyün, iman və fəzilətin, əyriliklərə və pisliklərə qarşı, düzlük və təmizlik uğrunda dönməz mübarizənin parlaq nümunəsi kimi qalır... Bu mənəvi böyüklük və əzəmət elə yüksək idi ki, dünya tarixinin bütün sahələrinə - hökumət və siyasətdən tutmuş

[1] Təbəqati-İbn Səd, s. 134; Mənaqibi-İbn Şəhraşub, 1 cild, s. 174

mədəniyyət və mənəviyyatına kimi hər yerə işıq saçdı, “Fatimilər” adlı qüdrətli dövlət yarandı, institutlar və “Əl-Əzhər əz-Zəhra” kimi böyük elm mərkəzi onun gözəl və parlaq adıyla zinət və etibar qazandı.[1]

*Fatimənin təvəllüdü:* Fatimənin təvəllüd tarixi haqqında tarixçilərin arasında fikir müxtəlifliyi var. Belə ki, sünnə əhli ilə şiə əhlinin dediklərinə əsasən həzrət Fatimənin yaşı arasındakı fərq on ildən də çoxdur.

Ən mühüm tarixi mənbələrdən biri hesab olunan mötəbər Kafi kitabının müəllifi Kuleyninin fikrincə, Fatimeyi-Zəhranın (ə) təvəllüdü peyğəmbərliyin başlanmasından beş il sonra olmuşdur. “Şeyx ət-Taif” adlı ilə şöhrət qazanmış böyük alim, üləma və alimlərin şeyxi Şeyx Tusi bu fikirdədir ki, o həzrətin doğumu peyğəmbərliyin başlanmasından iki il sonra olmuşdur.

Əhli sünnə müəlliflərinin əksəriyyəti isə o həzrətin təvəllüd tarixini peyğəmbərlikdən beş il sonra hesab etmişlər. Beləliklə, mülahizə olunur ki, o həzrət vəfat edərkən (bu, hicrətin onuncu ilində baş verdi) əksər şiə alimlərinin fikrinə görə Fatimənin (ə) şərif ömründən on səkkiz il keçməmişdi. Halbuki sünnə əhlinin fikrinə görə Fatimənin (ə) bu zaman yaşı iyirmi səkkiz olardı. Bəziləri də onun bu zaman on səkkiz – iyirmi səkkiz yaşları arasında olduğunu hesab edirlər. Hər halda Fatimənin (ə) təvəllüd ili və günü haqqında fikir ixtilafı çoxdur ki, bunun da nəticəsində bütün bu rəqəm və ədədlər oxucuya heç bir fayda vermir. Amma şiə tarixçilərinin çoxu bu fikirdədirlər ki, o həzrətin təvəllüdü peyğəmbərlikdən sonra olmuşdur. Əksər alimlər peyğəmbərlikdən beş il sonranı düzgün hesab edirlər. beləliklə, bu gün şiə aləmində bu rəqəm daha çox qəbul edilmişdir.

Bütün bunlara baxmayaraq, İslam tarixçiləri və tədqiqatçıları o həzrətin doğum gününü hansı gün sayırlarsa saysınlar, bir məsələni etiraf ediblər. O günü – hansı gün olur-olsun, böyük və əzəmətli bir tarixi gün hesab edirlər. Həmin gün Fatimeyi-Zəhranın (ə) dünyaya gəlişi ilə İslam tarixində böyük bir hadisə baş vermişdir.

Bu barədə müasir yazıçılardan biri – xanım doktor Bint əş-Şati yazır: “Uca Tanrının iradəsi belə idi ki, onun doğumu Qüreyş tarixində böyük bir hadisəyə yaxın zamanda olsun. Həmin hadisədə qüreyşilər Məhəmməd Əmindən – o həzrətin böyük atasından xahis etdilər ki, Kəbə evindəki Qara daşın yerləşdirilməsi haqqında ədalətli və münasib qərar versin. Həmin gün o həzrətin doğulması müjdəsi verildi. Belə olduqda yeni doğulmuş uşağın xatirinə indiyədək görünməmiş bir şənlik və bayram keçirildi. Hələ heç vaxt yeni doğulmuş qız uşağı xatirinə (özü də ondan əvvəl üç bacısı olmuşdu və onların arasında heç bir oğlan uşağı doğulmamışdı) belə bir təntənəli şənlik və şadyanalıq olmamışdı.”[2]

Fatimeyi-Zəhranın (ə) təvəllüd iftixarının nəsibi olduğu həmin o xoşbəxt gündə, o həzrətin mübarək doğumundan bir saat qabaq Xədiceyi-Kübra bir nəfəri Qüreyş qadınlarının və keçmiş dostlarının yanına göndərdi ki, sifarişini onlara çatdırsın. Sifariş belə idi: “Ey Qüreyş qadınları, bu gün Xədicə sizdən xahiş edir ki, keçmiş kin və küdurəti unudasınız və onun bu həssas vaxtında – dünyaya yeni bir övlad gətirəcəyi anında köməyinə tələsəsiniz və bu vəziyyətində ona şəfqətli əllərinizi uzadasınız.”

Xədicənin göndərdiyi qadın tələsik evdən çıxdı. Amma çox keçmədi ki, qəmli və gözüyaşlı halda evə qayıtdı. Ağlaya-ağlaya, qəhər boğa-boğa dedi: “Heyf Xədicədən, heyf onun sülh və dostluq, mehribanlıq və barışıq sifarişindən... Əfsus ki, hara getdimsə, kimin qapısını döydümsə, sifarişinizi hara çatdırdımsa, kimsə mənə yol vermədi, qapını üzümə açmadı və sözlərimə qulaq asmadı... Onlardan heç biri sizin xahişinizi qəbul etmədi. Əvəzində isə sizə bir sifariş göndərdilər. dedilər: “Xədicəyə de ki, sənə nəsihət verdiyimiz gün sözlərimizi eşitmədin. Səninlə aramızda olan danışığımıza baxmayaraq, öz istədiyinin ardınca yola düzəldin: əliboş, yetim bir kəsə ərə getdin, dostlarının şan-şöhrətini, əyan ailəsindən olmalarını nəzərə almadın... Ona görə də sənin bu hərəkətin bizə bərk təsir etdi, qəzəbləndirdi. Bu səbəbdən biz də bu gün sənin evinə gəlmək, sənə kömək etmək istəmirik.”

Xədicə bu rədd cavabını – tənəli və zəhərli sifarişi eşidərkən anladı ki, keçmiş dostlarından əlini üzməli, onlara bel bağlamamalıdır. Beləliklə, qəmli halda o kin-küdurətli, bu dünyanın var-dövlətinə aludə olmuş qadınlardan ümidini üzdü və bütün ruhu, qəlbi ilə mənəviyyat aləminə üz tutdu. Dünyanı yaradan Tanrının sorağınca gedib ürəyində bəslədiyi mənəvi duyğularla məna aləminin qapısını döydü və oradan yardım dilədi...

Uca Tanrı ən yüksək, ən aliköməklərini Özünün ən ali məxluqlarından birinin ixtiyarında qoydu. Artıq o kin bəsləyən qadınların köməyinə ehtiyac yox idi, çünki mehriban Allah Özünün sonsuz mərhəmətini göstərərək gözəgörünməyən yardım damcılarını Xədicənin üzünə çilədi, pak mələklərini ona köməyə göndərdi.

---

[1] Nümunə olaraq gəstərə bilərik ki, İslam dünyasının ən böyük universiteti – min ildən artıq elmi və dini fəaliyyəti olan Əl-Əzhər universitetinin adı o böyük və parlaq simanın adından – “Zəhra” sözündən götürülmüşdür. 1360-cı ilin böyük İran inqilabından sonra Əz-Zəhra universiteti Tehranda da zəhrasevərlər mərkəzinin ortasında açıldı.

[2] Əl-Əimmə əl-Əsna Əşr (On iki imam), 1 cild, s. 69

Bəli, Tanrı Xədicəyə kömək etdi ki, əziz Fatimə - peyğəmbərlik səmasının o parlaq ulduzu, vilayət mülkünün həmişəyanar günəşi tam rahatlıqla, sağ-salamat halda dünyaya qədəm bassın və müqəddəs vücudundan parlayan əbədi vilayət və imamlıq nurları ilə dünyanın Şərqini və Qərbini işıqlandırsın."[1]

O anlarda Tanrının Elçisi (s) dua əlini göyə qaldıraraq intizar çəkirdi. Elə həmin anlarda birdən müjdə gəldi ki, ey Tanrının Elçisi (s), indicə Allah-təala tərəfindən Xədicəyə elə bir yeni doğulmuş qız uşağı bəxş edildi ki, gözlərində səma işığı və sifətində İlahi nuru parlayır...

Allahın Elçisi (s) bu müjdəni alçaq misilsiz bir şadlıq və sevinc dəryasına qərq oldu, pak qəlbi rahatlıqla döyünməyə başladı.

İlahinin köməkçiləri isə öz işlərində idi. Onlar gül yarpağından daha zərif, gecə şehindən daha pak olan yeni doğulmuş uşağı pak və müqəddəs su ilə yuyub tərtəmiz etdilər. Sanki ulduzların nuru və behişt ətirləri ilə toxunmuş qundağını bağlayıb Xədicənin qucağına qoydular. Mehriban ana da səma köməyinin sayəsində hamiləlik qayğısından rahatlıqla qurtardığı üçün asudə nəfəs ala-ala, belə bir uşağın dünyaya gəlməsindən sevinə-sevinə döşünü əziz və müqəddəs övladının ağzına qoydu və ana ilə bala üçün İlahi hədiyyəsi olan xalis südlə onu doydurdu. Həmin o ilahi lütf sayəsində o misilsiz körpə sağ-salamat böyüdü ki, peyğəmbərlik bağının bərəkətli ağacı özünün tam səmərə həddinə çatsın və bu bağın gülləri – Peyğəmbərin (s) nəsli Qiyamət gününə kimi təravət və ətir içində yaşasın, davam etsin...

## Fatimənin (ə) adları və İslamda adqoyma

Uşaqlar üçün, yəni sabahın fəal insanları, cəmiyyətin gələcək kişi və qadınları üçün adqoyma məsələsi İslam baxışlarına görə xüsusi əhəmiyyət daşıyır. Müasir inkişaf etmiş ictimai elmlər, xüsusilə də elmin psixologiya, sosiologiya, pedaqogika və hətta kriminologiya kimi sahələri çoxlu nəzəri və əyani dəlillərlə sübut etmişdir ki, insan şəxsiyyəti ilə onların arasında qəribə və inkaredilməz bir əlaqə var. Başqa sözlə desək, uşaq üçün ən gözəl və layiqli adın seçilməsinin onun şəxsiyyətinin yaranmasında, formalaşmasında, zehni-fikri qabiliyyətinin inkişafında, hətta onun gələcək həyat yolunun necə qurulmasında mühüm təsiri var. Bu təsir onun həyat yolunun təkamülündə, düzgün tərbiyəsində, özünə və cəmiyyətdə tutacağı yerə inamında, bir sözlə, gələcək inkişafında mühüm rol oynaya bilər. Əksinə, pis və münasib olmayan adın uşağın əhval-ruhiyyəsinə mənfi təsiri olur, şəxsiyyətinə xələl gətirir, özünə inamını qırır, təlim-tərbiyəsini, istedad və qabiliyyətini korlayır. Son nəticədə, hətta onun yaramaz yollara düşməsinə, cinayətkarlara qoşulmasına gətirib çıxara bilər.

İslamın gözəl ayinində, qayda-qanununda tam incəliklə ölçülüb-biçilmiş, nəzərə alınmış başqa məsələlərlə yanaşı, gözəl və xoş səslənən, yaxşı mənalı adın seçilməsinə də böyük əhəmiyyət verilmişdir. İslam gözəl və yaxşı adın seçilməsini ata-ananın öhdəsinə qoymaqla yanaşı, uşağın bəyəniləsi bir adı daşımasını da valideynin vəzifə borcu hesab etmişdir. Belə ki, əgər valideyn uşağın bu qanuni hüququnun ödənilməsində bir qüsurə yol vermiş olsa, uşaq Məhşər günündə ata-anasından bunu tələb edə bilər.

İndi isə İslamda həmin məsələ haqqında bir əsas, bünövrə olduğunu nəzərə alaraq bu kiçik girişdən sonra Fatimənin (ə) – İslamın bu qəhrəman və qadınlığa nümunə olan xanımın adları və ləqəblərini nəzərdən keçirək. Baxaq görək Peyğəmbərin (s) sevimli və əziz övladı haqqında bu məsələ öz həllini necə tapıbdır.

Elə ilk baxışda açıq-aşkar müşahidə olunur ki, bütün bu incəliklər və təfərrüatlar o həzrətin adı haqqında tam dəqiqliklə düşünülüb nəzərə alınmış, bu müqəddəs ad elə-belə, düşünülmədən seçilməmişdir. Əksinə, bu əzəmətli xanımın adları və ləqəblərindən hər biri gözəl və bəyənilsi məna ilə yanaşı xeyirxah niyyətə də xidmət etmiş və böyük tərbiyəvi əhəmiyyət daşımışdır. Bu incə məsələ İslamın qəhrəman xanımının adlarının şərhi və təfsiri ilə bağlı rəvayət hədislərin məzmunundan aydın olur.

İlk növbədə nəzərə almaq lazımdır ki, ərəb ədəbiyyatında künyə və ləqəbin xüsusi rolu vardır. Əslində bu, elə bir vasitə və amildir ki, hər bir fərdin yaxşı və tərifli əxlaqi xüsusiyyətlərini göstərir. Ərəb ədəbiyyatında hər hansı bir fərd haqqında söz demək üçün ən yaxşı yol onun ləqəbi və künyəsinə müraciət etmək, onlarda gizlənmiş incə mətləblərdən bəhrələnməkdir. Buna görə də ərəb cəmiyyətində, ərəb ədəbiyyatı və tarixində ləqəb və künyənin böyük əhəmiyyəti olmuşdur.

Bu məsələdə diqqəti cəlb edən daha bir mühüm cəhət də vardır. O dövrdə ərəblərdə bəlkə də həmin dövrün başqa cəmiyyətlərinə nisbətən insanların ləqəb və künyələrinə, adlarına daha çox həssaslıqla yanaşır və bu məsələyə xüsusi əhəmiyyət verirdilər.

Bütün bunları nəzərə alaraq "Fatimə" adını, eləcə də o həzrətin başqa adları və ləqəblərini dərindən öyrənmək bizi pakların pakı Zəhranın (ə) şəxsiyyətinin elə müxtəlif meyarları ilə tanış edir ki, bu məsələ üzərində bir qədər dayanmağı, onu qısaca da olsa araşdırmağı, İslamın bu böyük xanımının künyə və

[1] Dəlail-ül-imamət, s. 8; Nümunəvi İslam qadını, s. 37; Zəxair-ül-üqba, s. 44

ləqəblərini bir daha tanıtmağı zəruri edir. Ona görə də, qeyd etdiyimiz kimi, bu bucaq altında o həzrətin səciyyəvi xüsusiyyətlərinin, keyfiyyətlərinin mühüm bir hissəsi ilə tanış olmaq mümkündür.

İmam Sadiq (ə) pak anasının müqəddəs adlarını bu şəkildə müəyyən etmişdir: Fatimə Siddiqə, Mübarəkə, Tahirə, Zəkiyyə, Raziyyə, Mərziyyə, Mühəddəsə, Zəhra. O həzrətin (ə) bu bəyanı Fatimeyi-Zəhranın (ə) adları haqqında ən mötəbər sənəd kimi gəlib çatmışdır.

İndi isə bu müqəddəs adların bəziləri ilə bağlı mətləbləri qısaca da olsa, nəzərdən keçirək.

### 1. Fatimeyi-Zəhra (ə)

1500 illik bir dövrü əhatə edən İslam mədəniyyətinə hətta kiçik və ötəri bir nəzər salmaq da kifayətdir ki, bu zəngin və məzmunlu mədəniyyətdə "Fatimə" adının nə dərəcədə böyük yeri və nüfuzu olduğu aşkarlansın. İslam mədəniyyətinin ölçüyə sığmaz dəyərləri, İslam tarixinin eniş və yoxuşları göstərir ki, bu sadə və qısa, eyni zamanda dərin və zəngin ad ayrılıqda necə əzəmətli hadisələri, bəşəri dəyərləri yada salır və İslamın ən parlaq dövrlərinin iftixarlı səhifələrini, unudulmaz xatirələrini, İslam qadınlarının namus və ismətini, böyüklük və quruculuğunu xatirələrdə canlandırır və canlandıracaqdır. Bu gözəl və əzəmətli adı ilk dəfə Peyğəmbərlik evində, böyük Peyğəmbərin (s) pak sülaləsinin ucalığında, yəni nur və rəhbərlik Elçisinin qəhrəman və fəzilət sahibi qızı kimi görürük. Qeyd edək ki, "birinci dəfə" ifadəsi tarix və zaman baxımından deyil, əksinə, şiə tarixinə böyüklük və əzəmət gətirdiyinə, nur səpdiyinə, imamlıq nəslinin baş silsiləsinin başında və Peyğəmbərin (s) həqiqi canişinliyinin zirvəsində yer tutduğuna görədir. Çünki vilayət, imamlıq və Peyğəmbərin həqiqi xilafəti elə bir nöqtədən başlayıb ki, onun zirvəsi Fatimeyi-Zəhranın (ə) pak qədəmlərinin altındadır. Bu zirvənin davamı da Fatimənin (ə) pak ətəyində tərbiyə almış, onun fəzilət bəxş edən zülal çeşməsindən güc almışdır. Ona görə də tarix və zaman baxımından birincilik Fatimə olmağın özünün mahiyyətcə birinci olmağından, imtiyazlı olmağından irəli gəlir. Axı o, Peyğəmbərin (s) təkcə gövhəri, yeganə dürrüdür. Bu müqəddəs ad Peyğəmbərin (s) fəzilətli qızı kimi peyğəmbərlik nemətinin mənbəyindən nur alır və bütün bəşəriyyətə işıq saçır. Onun adı bəşəriyyət tarixinin ikinci məsum qadınının adıdır, dünya xanımlarının ən hörmətli qadınının adıdır. Dörd tərəfdən dörd mənbəyə nur və müqəddəslik çatdıran odur. Bir yandan Peyğəmbərin (s) qızı və Allah Rəsulunun (s) gözünün nuru və əzizidir. Bir yandan Əlinin (ə) – mövlaların mövlasının (müqəddəslərin müqəddəsinin), bütün dövrlərin yeganəsinin həyat yoldaşıdır, bir tərəfdən Hüseynin (ə) və pak imamların (ə), ismət və fəzilət qəhrəmanlarının anasıdır. Digər bir tərəfdən isə onun özü nemət mənbəyi, fəzilət mənbəyidir – müsəlman qadının yeganə şəxsiyyəti, İslamda qadının parlaq nümunəsidir – Fatimədir...

Bəli, Fatimənin birinciliyi nur saçmasına, nemət bəxş etməsinə görədir. O həzrət Siddiqeyi-Kübradır, yeganə məsum qadındır. Yeganə qızdır ki, bəşəriyyət tarixində "Ümm Əbiha" ləqəbini qazanmışdır – mənası "atasının anası" deməkdir. O, elə yüksək nəsilli bir qadındır ki, bütün pak və səmərəli ömrünü təmizlik və müqəddəsliklə, böyüklük və əzəmətlə keçirdi və sonsuz iftixarla, başucalıqla Allahla qovuşmağa, əzəli və əbədi İbadətgahı ilə həsrətli görüşünə tələsdi. Yeganə qadındır ki, özündən sonra fəzilət və paklıqla, müqəddəslik və əzəmətlə, igidlik və şəhidliklə dolu bir dünyanı yadigar qoydu. Onun həyat yolu nəsillər üçün örnək olan qəhrəmanlıq və candankeçmə yoludur. Heyrətli və pak övladları, şəhid xələfləri – hamısı bu müqəddəslik və fəzilət dünyasının canlı, təkanverici və ibrətli nümunələridir. İlahinin köməyilə kitabın gələcək fəsil və bölmələrində bütün bunlar haqqında, inşaallah, söz açacağıq.

### 2. Fatimə bint Əsəd

Fatimeyi-Zəhranın (ə) adı Əlinin (ə) mübarək adı ilə qoşa çəkildiyi kimi, başqa bir Fatimənin adı da müttəqilərin mövlasının – Əmirəl-mömininin adının yanındadır. Burada zaman və tarix baxımından bir qədər arxaya qayıtmalıyıq ki, Əli bin Əbi Talibin – o İslam qəhrəmanının, şiələrin məsum rəhbərinin pak və namuslu anası Fatimə bint Əsəd haqqında söz açaq.

Elə təkcə Əlinin (ə) anası olmağın özü aydındır ki, bəşəriyyət tarixini dolaşan əzəmətli bir iftixardır. Lakin bu hörmətli qadının iftixarı təkcə bunda deyil. Çünki Əlinin (ə) – bu qəhrəman imam və rəhbərin, Peyğəmbərin (s) həqiqi canişininin təvəllüdündən əvvəl də Fatimə bint Əsədin yüksək məqamı, sonsuz hörmət və nüfuzu var idi. O zamana kimi heç bir xanım belə yüksək məqama çatmamışdı. Bəli, Fatimə bint Əsədin yüksək və misilsiz məqamı önündə dünyanın gözləri qamaşır, insanların ağlı başlarından çıxırdı. Onun bu yüksək məqamı Kəbə ilə, uca və ali Tanrının o pak və müqəddəs evi ilə ünsiyyətdə olmasına görə idi. Bu ünsiyyət peyğəmbərlikdən qabaq – İslamın dünyaya işıq saçan günəşi doğmamışdan əvvəl görünməmiş dərəcədə böyük və dərin idi. Allah evinin güclü cazibəsi həmişə o qadını özünə çəkirdi. Bir gün o – İlahinin bəxş etdiyi övlada – o nur mənbəyinə

hamilə ikən yenə də Allah evinə getmişdi. Və bətnində daşıdığını o müqəddəs yerdə azad etdi. Allahın iradəsi ilə Fatimə bint Əsəd yeni doğulmuş müqəddəs körpəsini özgələrdən uzaq bir yerdə - səma mələklərinin köməyilə Kəbə evinin içində dünyaya gətirdi. Beləliklə, Fatimə bint Əsəd Allahın evini öz evi və övladının evi etdi. Doğrudan da, ondan başqa yer üzündə heç bir qadın belə bir iftixara nail olmamış – öz övladını Allahın evində, səma mələkləri qanadlarının ürəkoxşayan kölgəsində dünyaya gətirməmişdir.

Başqa bir iftixar isə odur ki, İslamı ilk qəbul edənlər sırasında birincilərdən və ulu Peyğəmbərə (s) iman gətirənlərdən oldu. O cəhalət və küfr mühitində on birinci bəşər övladı oldu ki, adı Allahın Elçisinin (s) adının yanında, dünya tarixinin qəlbində yazıldı və İslam aynasında əbədi əks olundu.

Fatimə bint Əsədin həyat tarixçəsi bir tərəfdən büsbütün paklıq və ismət, digər tərəfdən isə böyüklük və əzəmətdir. Elə bir şəffaf ayna kimidir ki, hansı bucağından baxsan, onda böyüklük və gözəllik təsvirinin əks olunduğunu görmüş olarsan. Həmin bucaqlardan və heyrətdoğurucu təsvirlərdən biri budur ki, Allahın iradəsilə İslam peyğəmbərinin (s) uşaqlıq və yeniyetməlik illəri onun mehribanlığı və analıq qayğısının sayəsində başa gəldi. Bu, elə illər idi ki, Peyğəmbərin (s) hörmətli əmisi, Əlinin (ə) sevimli atası Əbu Talib yetim qalmış qardaşı oğlunun – Məhəmməd bin Abdullahın (s) himayəsini öz öhdəsinə götürmüşdü. Hələ təvəllüdündən qabaq atasını və körpəliyində anasını itirmiş Peyğəmbər (s) kiçik yaşlı ikən sevimli babası cənab Əbdül Müttəlib də dünyasını dəyişdi, aqibət sarayına tələsdi. Cənab Əbu Talib Allahın Elçisini (s) öz övladlarından biri, hətta onlardan daha əziz bir ciyərparası kimi öz evinə apardı və onu öz məhəbbət qayğısı altına aldı. Beləliklə, Peyğəmbər (s) böyüyənədək və özü həyatını idarə etmək qüdrətinə çatanadək Əbu Talibin evində onun ailə üzvlərindən biri kimi qaldı.

Burada Fatimə bint Əsədlə bağlı məsələ ondan ibarətdir ki, Abdullahın kiçik yaşlı yetim uşağı hörmətli əmisinin yanında onun evinə daxil olarkən bu möhtərəm qadın Əbu Talibin həyat yoldaşı və evin xanımı kimi o həzrəti açıq ürəklə, mehriban rəftarla, xoş sifətlə və böyük məhəbbətlə qarşıladı. Bu müqəddəs vücudu istəkli balası kimi şirin canından da əziz tutaraq ona qəlb evində yer verdi. Peyğəmbər (s) əziz əmisinin evində yaşadığı bütün müddət ərzində bu böyük qadın bir an belə öz məhəbbət və qayğısını o həzrətdən əsirgəmədi.

Peyğəmbər (s) də bu pak və fədakar qadını mehriban anası kimi sevir, onun yanında anasızlıq dərdini nisbətən az çəkirdi. Peyğəmbərin (s) Fatimə bint Əsədə məhəbbət və əlaqəsi elə böyük və sonsuz idi ki, o böyük qadın dünyasını dəyişərkən cənazəsinin başında bərk-bərk ağladı və ona ehtiramla yas tutdu. İslam tarixinə aid mənbələrdə qeyd olunduğu kimi, Peyğəmbər (s) öz mübarək kəlamı ilə buyurdu ki, mən mehriban anamı və ürəyiyanan, fədakar köməkçimi itirdim. Elə bir kəsi əldən verdim ki, öz övladlarından da artıq qayğıma qalır, dürməyimi tutur, məni yedirib-içirməyincə, məndən sarı tam rahat olmayınca başqa ailə üzvlərinə qulluq etmirdi. Bu ana-övlad ünsiyyəti və əlaqəsinə, ikitərəfli məhəbbətə görə Peyğəmbər (s) onun vəfatı zamanı bütün varlığı ilə ağladı, öz mübarək libası ilə onu kəfənlədi və pak cənazəsi üstündə qırx təkbirlə namaz qıldı. Nəhayət, dəfni zamanı da öz mübarək ayağı ilə o böyük qadının qəbrinə daxil oldu ki, ona əmin-amanlıq və rahatlıq bəxş etsin və onun dəfnini İslam tarixində ən pak dəfn mərasimlərindən birinə çevirsin. Bəli, bütün bu işləri Peyğəmbər (s) o vaxtadək heç kim üçün görməmiş və ondan sonra da kimsə üçün bu qaydada yerinə yetirməmişdi. Fatimə bint Əsədin böyüklüyü və paklığının bir parçası belə idi...

### 3. Fatimə - Kərbəla düzündə bir lalə

Gözəl "Fatimə" adını ismət və paklıq ailəsində, peyğəmbərlik və imamlıq sülaləsində bir daha kiçik fasilədən sonra böyük bir evdə - heyrətli və dəhşətli bir faciədə görürük. Bu dəfə azadlıqsevərlərin başçısı, şəhidlərin öndə gedəni, şiələrin üçüncü imamı Hüseyn ibn Əlinin (ə) evində başqa bir Fatimə ilə üzbəüz dayanmışıq.

Qan və üsyan meydanının öndə gedən başçısı imam Hüseyn (ə) – şəhidlik məktəbinin əsasını qoyan o həzrət böyük və müqəddəs, məsum anasının xatirəsi şərəfinə öz qızına onun müqəddəs adını qoymuşdu. Və imam Hüseynin (ə) qızı Fatimə Kərbəla düzündə tarixin ən böyük faciəsini – bəşəriyyət tarixində ən böyük ar hesab olunan o qanlı günü öz gözləri ilə görən ətirli lalələrdən biri idi. İmam Hüseynin (ə) Aşura müsibətinin şahidi olan imamlıq nəslinin üzvlərindən biri idi...

Bəli, kədər hissi ilə görürük ki, körpə Fatimə Kərbəla düzündə yanmış çadırların yanında qalaraq qan və şəhidlik məktəbinin ətirli qanlarının axmasını, qönçələrin yerə düşməsini öz gözləri ilə görür. Yenə də onu görürük: bu dəfə imamın (ə) əhli-beytinin başqa üzvləri ilə birgə əsirliyə gedərkən gözümüzə dəyir. Budur o, başqa əsirlərin arasında Kufəyə daxil olur. Əslində onları əsir edənlərin özləri əsir idilər. onların böyüklük və əzəmətinin əsiri. Fatimə o zaman böyük atası Hüseynin (ə) məktəb və məntiqini görür – hörmətli qardaşı səccadə imamı müdafiə yolunda mübarizə meydanına daxil olur. Onu, atasının və qardaşının həqiqətlərini bəyan edərkən, atəşin və alovlu müdafiə xütbələri oxuyarkən görürük. Bu vəziyyətdə onu görənlərin gözləri

qamaşır, ağılları heyran qalır. Və nəhayət onu ulu bibisi həzrət Zeynəbi-Kübra ilə çiyin-çiyinə görürük. O bibisi ilə ki, Aşuranı qəlblərdə oyadan, Kərbəlanın aslana bənzər qadını idi. O qanlı Hüseyn (ə) inqilabının müdafiəsinə qalxdı və böyük atasının müqəddəs hərəkatını aydınlaşdırmaq işində bir an belə yorulmaq bilmədi.

### 4. Fatimeyi-Məsumə (ə)

İki əsrdən sonra pak Fatiməliyin bu müqəddəs silsiləsində başqa bir Fatimə ilə üzləşirik. Fatimənin təmiz adının nuru nəinki 1200 il gözləri qamaşdırmış, eyni zamanda bu gün də pak məqbərəsi şiə aləminin ən böyük elm, fəzilət və şərəf ocağıdır. İran İslam inqilabı bu müqəddəs ziyarətgahdan, bu cah-calallı fəzilət ocağından başlamış və bütün çağdaş dünyaya öz nurunu yaymışdır.

Bəli, bu dəfə imam Musa bin Cəfərin (ə) qızı və imam Rzanın (ə) əziz bacısı Fatimeyi-Məsumənin gözəl və əzəmətli adı ilə rastlaşırıq. O Fatimə ilə ki, ismət və paklıq sülaləsinin başqa bir dəyərli yadigarı və Peyğəmbərin (s) şöhrətli nəslinin başqa bir nurlu çırağıdır. Onun astanasının torpağı iman əhlinin gözü üçün dərmandır, tutiyadır.

Diqqəti cəlb edən başqa bir məsələ də vardır:

Mötəbər Hədisi-Qədir sənədlərində Fatimiyan adı ilə bir silsilə hədislər var. Şəmsəddin Əbülxeyr Əli bin Əbu Talibin əsərində qeyd olunmuş bu hədislərin tam mətnini möhtərəm əllamə Əmini dəyərli "Əl-ğədir" kitabında vermişdir. Həmin hədislərdə deyilir: "İmam Musa bin Cəfərin (ə) qızları Fatimə, Zeynəb, Ümm Gülsüm, imam Cəfər Sadiqin (ə) qızı Fatimədən və o, Məhəmməd Baqirin (ə) qızı Fatimədən və o, Əli bin Əl-Hüseynin (ə) (imam Səccadın (ə)) qızı Fatimədən və o, imam Hüseynin (ə) qızları Fatimə və Səkinədən, onlar isə ulu Peyğəmbərin qızı Ümm Gülsümdən nəql etmişlər ki, sonuncu adı çəkilən şəxs bir qrup müsəlmanın yanında belə dedi: "Məgər Allahın Rəsulunun (s) Qədir günü buyurduğu bu kəlamı unutmusunuz"...

Hədisi rəvayət edən Əbu Musa demişdir: "Bu hədisi bir-birinin ardınca, ardıcıl şəkildə beş nəfər Fatimədən nəql etmişlər, onlar isə öz bibilərindən eşitdiklərini demişlər. buna görə də bu hədis çox diqqətəlayiqdir."[1]

### "Fatimə" adı haqqında

İslam tarixçiləri və tədqiqatçıları mötəbər hədis söyləyənlərin sözlərinə əsasən o böyük qadının adı haqqında belə yazırlar: "Fatimə" – "şərdən saxlayan", "pislikdən ayıran", "şərdən və pislikdən ayrılmış" deməkdir. Bu təfsir və izahlar böyük imam, məzhəb başçısı, bərəkətli Cəfəri məktəbinin və fiqhinin banisi həzrət Sadiqin (ə) qeydə aldığı çoxsaylı mötəbər hədislərdə gəlib çatmışdır. O həzrət ulu babası – Allahın Rəsulundan (s) rəvayət edir ki, bir gün Peyğəmbər (s) öz sevimli qızına belə buyurmuşdu: "Qızım, bilirsənmi niyə sənin adını Fatimə qoymuşam?"

Pakların pakı Zəhra (ə) soruşdu: "Əziz atam, niyə?"

Allahın Rəsulu (s) cavabında buyurdu: "Allah-təala səni və səninlə qoşa addımlayan dostlarını, əsl şiələri məhşər günündə cəhənnəm odundan kənarda saxlayacaq..."[2]

Böyük ruhani alim, fəqih mərhum Şeyx Səduq "Xisal" və "Əmali" adlı iki çox dəyərli əsərində mübarək "Fatimə" adının izahı ilə bağlı imam Sadiqdən (ə) belə nəql etmişdir: "Ona görə onu Fatimə çağırmışlar ki, o, dinsizlikdən, şərdən və pislikdən ayrılmışdır. Əgər Əli (ə) olmasaydı, ona bənzər şəxs tapılmazdı."[3]

### Mübarəkə

Fatimənin (ə) başqa adlarından biri də Mübarəkədir.

Bu əziz adın mənası haqqında qısaca olaraq belə demək olar: bərəkət, inkişaf, səadət və yaxşı olan nə varsa, hamısını Allah-təala İslam peyğəmbərinin (s) nəsli üçün bəxş etdi. Eyni zamanda onların hamısını pakların pakı Zəhranın (ə) mübarək vücudu və pak nəsli üçün də buyurdu. Bəli, uca Tanrı Fatiməni (ə) Kövsərin açıq-aşkar təsdiqi və İslam peyğəmbəri (s) üçün özünün sonsuz nemətinin, tükənməz hədiyyələrinin simvolu kimi bəxş etdi. Belə ki, iki qollu-budaqlı oğlu – Həsən (ə) və Hüseyn (ə) və iki fəzilət sahibi qızı – Zeynəb(ə) və Ümm Gülsüm (ə) vasitəsilə İslam peyğəmbərinə (s) elə xoşbəxt və mübarək nəsl bəxş etdi ki, daim artmaqda, böyüməkdə, inkişafda və xeyir-bərəkətlə çoxalmaqdadır. Elə bir bərəkət bəxş etdi ki, Qiyamət gününədək sonra yetməyəcək. Daim artmaqda olan həmin bərəkət Fatimənin (ə) nəslinə görədir. Onun adlı-sanlı adlarından biri olan "Mübarəkə" adı da bu xüsusiyyətin parlaq təzahürünə çevrilmişdir.

---

[1] Əl-ğədir, 1 cild, s. 197, Tehran çapı
[2] Biharul-ənvar, 1 cild, s. 17
[3] Cila-əl-uyun, 1 cild, s. 125

## Zəhranın (ə) 40 milyon nəsli

Qeyd etdiyimiz kimi, İslam peyğəmbərinin (s) düşmənlərinin – kafirlərin, müşriklərin, münafiqlərin cahiliyyə adət-ənənəsinə əsasən o həzrət üçün zəiflik əlaməti kimi saydıqları məsələlərdən biri də bu idi – onlar deyirdilər ki, Peyğəmbərin (s) öz nəslini davam etdirmək üçün oğlan övladı olmadığı üçün o həzrət bir sonsuz, arxası və dayağı olmayan fərd olacaq, nəsli-kökü kəsiləcək və tezliklə unudulacaqdır. Amma uca Tanrı vəhy vasitəsilə Öz peyğəmbərinə ürək-dirək verərək buyurdu ki: "Biz sənə Fatimə kimi Kövsər bəxş etmişik və o sənin nəslini davam etdirəcək. Sənin düşmənlərinin özləri sonsuz və nəsli kəsilmişlərdir."[1]

Bu kiçik girişdən sonra böyük fərəh və sevinc hissilə qeyd edək ki, Fatimeyi-Zəhranın (ə) vücudunun bərəkəti o həzrətin övladlarının – nəvələrinin, xələflərinin sayına görə elə bir həddə çatmışdır ki, heç bir bəşər övladı bu gün bu baxımdan onun tayı-bərabəri ola bilməz. Bəli, bu gün Zəhranın (ə) pak nəsli – Peyğəmbərin (s) gözünün nuru olan bu qadının övladları sayca həddindən çoxdur. Belə ki, bəzi yazıçı və tədqiqatçılar, xüsusilə də bioqrafiya yazanlar və nəsl şəcərəsi üzrə mütəxəssislər belə hesab edirlər ki, Zəhranın (ə) nəvələrindən və pak nəslindən 40 milyon nəfərə yaxını Suriya, Hindistan, Pakistan, Əfqanıstan, İran, İraq, Misir, Mərakeş, İndoneziya, Əlcəzair, Tunis, Liviya, Türkiyə, İordaniya, Avropa və Amerikada yaşayır. Onların hamısı bir neçə nəsl fasilə ilə Zəhra kimi böyük bir ananın övladları olmaqları ilə fəxr edirlər.[2]

Bu gün əhalinin siyahıya alınmasına dair məlumatlarla bir neçə nəsl fasilə ilə Fatimeyi-Zəhranın (ə) nəslindən olan seyyidlərin sayı belə gətirilib: İran – 3 milyon nəfər, İraq – 1 milyon nəfər, Misir – 5 milyon nəfər, Mərakeş – 5 milyon nəfər, Yəmən, Hindistan və Pakistan – 20 milyon nəfərə yaxın.

Qeyd etmək lazımdır ki, bu siyahıları tərtib edənlər öz hesablarında Türkiyə kimi böyük bir müsəlman ölkəsini nəzərə almamışlar. Halbuki burada eyni nəslə məxsus 9 milyondan artıq ələvilər yaşayırlar. Bundan əlavə qeyri-İslam ölkələrinin ərazilərində də siyahıya alma düzgün aparılmamışdır. Bütün bunları nəzərə aldıqda deyə bilərik ki, dünya seyyidlərinin – Fatimənin övladlarının sayı yuxarıdakı rəqəmdən çoxdur.

Zəhranın (ə) övladları sayca çox olmaqla bərabər, keyfiyyət və cəmiyyətdə tutduqları mövqe və ümumiyyətlə, hər baxımdan olduqca dəyərli insanlardır. Onlar İslam aləmində xeyir-bərəkətin mənşəyi və doğru yolun məşəlçiləridir. Bəli, Zəhranın (ə) ilk sevimli oğulları imam Həsən (ə) və imam Hüseyndən (ə) başlayaraq dünənki və bugünkü İslam azadlıq hərəkatlarının rəhbərlərinə qədər, həmçinin müasir din xadimləri və başçıları – hər biri İslam dünyasının əqidə və fikir sahibləri sayılan bu görkəmli şəxsiyyətlər o böyük və bərəkətli nəslin övladları, davamçılarıdır. Doğrudan da, bu cür bənzərsiz keyfiyyət və kəmiyyətə malik xeyir-bərəkət Fatimeyi-Zəhradan (ə) başqa bəşər əhlindən heç kimə nəsib olmamışdır.

## Kövsər haqqında daha bir neçə söz

Yuxarıda Kövsər haqqında qısaca danışdıq. İndi isə bu barədə daha bir kiçik əlavə edirik. Böyük İslam təfsirçilərindən biri Fəxr Razi Kövsər haqqında yazır: "Başqa bir fikir isə belədir ki, Kövsər onun övladları və oğlanlarıdır. Bu surə düşmənlərin qəzəblənməsinə görə nazil olmuşdur. İslam peyğəmbərinin (s) oğlu İbrahimin vəfatından sonra onlar o həzrətə "sonsuz" deyirdilər. Bundan da məqsəd Allahın o həzrətə əbədilik və həmişəlik nəsl bəxş etməsidir. tarixə bir nəzər salaq: Əhli-beyt (ə) övladlarından nə qədəri öldürülmüşdür?! Lakin buna baxmayaraq dünya yenə də o həzrətin övladları ilə doludur. Və Baqir, Sadiq, Kazim, Rza (ə) kimi nə qədər böyük alimlər və onların pak nəfəsləri qalmışlar."[3]

## Siddiqə - "tamamilə doğru danışan" deməkdir

Fatimənin (ə) mübarək adlarından biri də Siddiqədir. Ərəb lüğətlərində bu adın mənası "tamamilə doğru danışan"dır. Bəli, o həzrətin ən çox yayılmış adlarından biri olan o ad əsla yalan danışmamış, həmişə sözü ilə əməli düz gələn, vücudunda – bütün həyatında elm, əməl və düşüncə baxımından bir əyrilik olmayan şəxs mənasını daşıyır. Doğrudan da, pakların pakı Fatimə (ə) belə bir şəxsiyyətin ali nümunəsidir – "Siddiqə" olmağın ən aşkar, ən parlaq təzahürüdür.

Sözdə və əməldə sadiqlik və düzlüyün, iman və saflığın ən ali mərhələlərindən biridir. Bu xüsusiyyətləri daşıyanlar xüsusi imtiyazlara layiq şəxslərdir. Belə siddiq şəxslər – tamamilə doğru danışanlar peyğəmbərlər sırasında vəsf olunmuşlar və rütbəyə, məqama görə ənbiyaların arxasındadırlar – hətta şəhidlərdən və yaxşı

[1] Qurani-Kərim, Kövsər surəsi
[2] Fatimətuz-Zəhra min əl-məhd iləl-ləhd, s. 89
[3] Fəxr Razinin təfsiri, 33-cü cild, s. 844

əməl sahiblərindən də öndədirlər. Allah-təala Qurani-Kərimdə bu barədə belə buyurmuşdur: “Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (tamamilə doğru danışanlar), etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər, şəhidlər və salehlərlə (yaxşı əməl sahibləriylə) bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşdırlar.”[1]

Bu şərif ayənin təfsir və izahı ilə bağlı elə ayələr də vardır ki, İbrahimi, İdrisi və Məryəmi bu cür doğru danışanlar sırasında hesab edir. Belə ki, buyurur: “İbrahimi də yad et... Həqiqətən, o, büsbütün doğru danışan bir zat – bir peyğəmbər idi.”[2]

Başqa bir yerdə də buyurur: “İdrisi də yad et. O, həqiqətən, həddindən artıq doğru danışan bir zat – bir peyğəmbər idi.”[3]

Yenə də başqa bir yerdə belə buyurur: “Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişdir. Onun anası isə çox doğru danışan bir qadın idi.”[4]

Bütün bunlar göstərir ki, siddiq (tamamilə doğru danışan) olmaq ən yüksək xüsusiyyət və ən ali məqamdır və Allah-təala səma kəlamında bu məqama, rütbəyə peyğəmbərlik rütbəsinin yanında yer verib və onu olduqca yüksək dəyərləndiribdir. Fatimənin (ə) adlarından biri olan “Siddiqə”nin əhəmiyyətini, dəyərini və eləcə də bu adın mənasının o həzrətin şəxsiyyətinə uyğun gəlməsini bu səma kəlamlarından yaxşıca dərk etmək olar.

## Zəhra – “üzü parlayan”, “nur saçan” deməkdir

O həzrətin adlarından biri də “Zəhra”dır. Böyük şəxslər, alimlər, fəqihlər, tarixçilər, hədisçilər belə deyirlər: “O həzrətə ona görə “Zəhra” deyiblər ki, o, bəzən ibadət mehrabında oturan zaman ondan səma əhlinə nur saçılırdı. Necə ki, səma ulduzları öz sakinləri üzərinə işıq salır.”

“Biharul-ənvar”da Şeyx Səduq Əmalidən, o isə İbn Əbbasdan və sonuncu Tanrı Elçisindən (s) rəvayət edir ki, bir dəfə o həzrət buyurdu: “Qızım Fatimə dünya xanımlarının xanımıdır. Mənim bir parçamdır. Gözümün işığı, qəlbimin, ruhumun və canımın meyvəsidir. O, qadınların hurisidir. İlahi dərgahında, öz ibadət mehrabında oturarkən onun nuru, işığı göylərin mələklərinin əli üzərinə düşür, necə ki, ulduzların nuru yer üzünün sakinlərinə işıq saçır.”[5]

## O həzrətin künyələri

O həzrətin adları və həmin mübarək adların ali mənaları ətrafında qısa söhbətimizdən sonra o alicənab qadının künyələri haqqında müxtəsər məlumat vermək məqsədəuyğundur. Fatimənin (ə) ən mühüm və ən məşhur künyələri aşağıdakılardır:

1. Ümmül-Həsən, yəni Həsənin (ə) anası;
2. Ümmül-Hüseyn, yəni Hüseynin (ə) anası;
3. Ümmül-Möhsin, yəni Möhsinin anası. O qəhrəman qadının bu əziz oğlu ana bətnində altı aylıq ikən düşdü. Hələ təvəllüdündən qabaq ulu cəddi, kəramət sahibi Rəsul (s) tərəfindən ona bu ad qoyulmuşdu;
4. Ümmül-Əimmə, yəni imamların, rəhbərlərin, başçıların anası. Ona görə ki, məsum din və məzhəb başçıları, dünya şiələrinin imamlarının hamısı onun övladları sayılı;
5. Ümmül-Sibtəyn, Sibtəynin anası, yəni İslam peyğəmbərinin (s) iki nəvəsinin – imam Həsən (ə) və imam Hüseynin (ə) anası.

## Fatimənin (ə) ləqəbləri

Fatimənin (ə) çoxşaxəli, əhatəli şəxsiyyətinə diqqətlə nəzər saldıqda o həzrətin parlaq simasının mənalı və yüksək ləqəblər baxımından da ən böyük, ən görkəmli İslam şəxsiyyətlərindən biri olduğunu anlayırıq. O həzrətin ucsuz-bucaqsız dənizlər boyda olan ruhu və mənəvi əzəmətinin, əxlaqi keyfiyyətlərinin bir damlası bərabərində təmsilçisi olan bu ləqəblər olduqca çoxdur. Biz burada onlardan bəzilərini – Əbu Cəfər Qumi ilə Şeyx Səduq Razinin rəvayət etdiklərini aşağıdakı kimi veririk:

1. Fatimətul-Bətul; 2. Əzra; 3. Mübarəkə; 4. Tahirə; 5. Zəkiyyə; 6. Raziyyə; 7. Mərziyyə; 8. Mühəddisə; 9. Məryəmi-Kübra; 10. Siddiqə; 11. Səfiyyə; 12. Abidə; 13. Seyyidət-nisa əl-aləmin; 14. Zəhra.

---

[1] Nisa surəsi, 69-cu ayə
[2] Məryəm surəsi, 40-cı ayə
[3] Maidə surəsi, 75-ci ayə
[4] Yenə orada
[5] Biharul-ənvar, 10-cu cild, s. 15

## Fatimənin uşaqlıq dövrü

Fatimeyi-Zəhranın (ə) uşaqlıq dövrü dinlər tarixinin, peyğəmbərlər tarixinin və bəşəriyyətin bütün tarixinin ən parlaq dövrlərindən biri ilə üst-üstə düşür. Ona görə ki, Peyğəmbərin (s) gözünün nur, dünya xanımlarının başçısı dünyaya göz açan zaman əziz atasının peyğəmbərlik dövrü təzə başlayırdı. Başlayırdı ki, səsi-sədası bütün yer üzünü tutsun, zaman-məkanı dolaşsın. O zamana kimi dolaşsın ki, Qiyamət sübhü öz nurunu hər yerə yaysın. Fatimənin (ə) uşaqlıq çağı tarixin bu əzəmətli hadisəsi ilə eyni dövrə təsadüf edir. Peyğəmbərin (s) mübarək qəlbinin meyvəsinin körpəlik illəri başdan-başa dərd və əzabla doludur. Çünki o elə bir evdə dünyaya qədəm basdı ki, onun sahibi uca Tanrı tərəfindən bütün bəşəriyyətə sahibliyə seçilmiş, Peyğəmbər olmuşdu. Bu isə öz-özlüyündə həmin evin sahibinin – bəşəriyyətin başçısının o dövrün bir qrup ən qəddar, qəlbiqara, yaramaz müşriklərinin – kafirlərin paxıllıq və həsədinə, qəzəb və kininə məruz qalmasına səbəb olmuşdur.

Bəli, Tanrının Elçisi (s) düşmənlərin qəzəb və kininə məruz qalmışdı. Düşmənlər Peyğəmbərin (s) bütün tərəfdarlarını və dostlarını da aman vermədən incitməyə, azar verməyə başladıqda aydındır ki, o həzrətin ailəsi də bu əzab-əziyyətdən kənarda qalmırdı. Bu arada Peyğəmbərin (s) körpə balası azyaşlı və həssas olması üzündən ola bilsin ki, müşriklərin və kafirlərin əzab-əziyyətini öz lətif və zərif çiyinlərində başqalarından daha çox hiss edirdi. Buna baxmayaraq, aydındır ki, Fatimə (ə) İslamın bütün dünyaya yayılan ayininin inkişaf və çiçəklənmə dövrü ilə eyni vaxta düşən uşaqlıq çağının başlanğıcından əziz və fədakar atasının səmərəli təlaş və səylərini öz gözləri ilə görür və əzab görmüş, vəfalı anasının o həzrətlə həmrəyliyinin, onun yolunda etdiyi fədakarlıqların şahidi olurdu. O kiçik yaşlı uşaq dərk edirdi ki, əzizi və mehriban ata-anası necə böyük maneə və əngəllərlə üzləşir, misilsiz dözüm və mətanətlə Allahın köməyi ilə həmin müsibətlər qarşısında necə tab gətirir və güclü bir iradə ilə, böyük bir ümid və şövqlə, istək və arzu ilə əzabgörmüş müsəlmanların sıxıntı və çətinliklərinin həllində, aradan qaldırılmasında necə ciddiliklə çalışır, səy göstərir və bu yolda atdıqları hər bir addımda yenə bir uğur qazanmağa daha da yaxın olurdular.

O dövrdə Peyğəmbər (s) və möhtərəm ailəsi, eləcə də bütün müsəlmanlar və o həzrətin köməkçiləri hər tərəfdən düşmənlərin hücumlarına məruz qalırdılar. Müşriklər müxtəlif vasitələrlə müsəlmanlara əzab-əziyyət, işkəncə verir, onları qamçılayır, ev-eşiklərindən qovur və iqtisadi mühasirədə saxlayırdılar. Bir sözlə, müsəlmanların canları və mallarına düşmənlər tərəfindən ən ağır qəsdlər edilirdi. Fatimə (ə) bu çətinliklər və əzabların baş alıb getdiyi bir vaxtda, körpə uşaq olmasına baxmayaraq bütün ağrılı-acılı hadisələri, dözülməz işkəncələri öz gözləri ilə görür və hiss edirdi. Ərəbistanın qızmar qayaları üstündə o tərəf-bu tərəfə sürülən zəif müsəlmanların ürəkyandırıcı nalələrini, dərdli şivənlərini ürək yanğısı ilə eşidirdi. Lakin əfsuslar ki, böyük atasına və İslam köməkçilərinə bir yardım əli uzada, onları bu bəlalardan qurtara bilmirdi. Buna görə də sakitcə, aram-aram o dərdli səhnələrə tamaşa edir və öz dərdi, gücsüzlüyü içində qovrula-qovrula-qovrula qalırdı. O, bütün bu narahatlıq və sıxıntıların yükünü atasının çiynində hiss edir, buna görə də həssas və zərif ruhu sıxılır, qəmlə, kədərlə dolurdu. Belə anlarda bəzən onun fəryad çəkib qışqırmağa belə gücü çatmırdı. Bütün dərdləri içinə salır və boğazını tutan hıçqırıqlarını boğur, cınqırını da çıxarmırdı. Fəqət bəzən gecələr ac körpələrin, yazıq biçarə uşaqların dərdli, iniltili nalə səslərindən oyanır, gözlərini Ərəbistanın şəffaf səmasındakı parlaq ulduzlara dikərək qəmli göz yaşları tökürdü.

Fatimə (ə) ömrünün həmin o uşaqlıq illərində bütün müsəlmanların və hər şeydən məhrum insanların əzablarını görürdü. O, təklikdə hamıdan daha çox əzab çəkən və öz dərdlərindən başqa özgələrin də qəm yükünü qəlbində, çiynində daşıyan böyük atasının əzablarını isə daha yaxşı görür və duyurdu. Heyvan sifətli Qüreyş yaramazlarından birinin ovcunda tutduğu torpaq və zibili alicənab atasının başına, nurani sifətinə necə səpdiyini, o həzrətin gözəl üzünü və yaraşıqlı boynunu necə toz-torpağa buladığını görürdü. Belə hallarda o körpə yaşlı, nazik qəlbli və mehriban qız atasını qucaqlayır və gözləri yaşlı, boğazı qəhərli halda kiçik və zərif əlləri ilə o həzrətin toz-torpağa bulaşmış üst-başını silir, üz-gözünü təmizləyirdi. Bəli, belə səhnələri görür və onların təsirinin şiddətindən gözlərində yaş gilələri donub qalırdı. Belə dəhşətli anlarda təzəcə vəfat etmiş anasını yadına salır, ürəyi od tutub yanırdı. Bununla belə çalışırdı ki, atası onu bu halda görməsin, yoxsa dərdinin üstünə daha bir dərd də gələrdi.

Lakin atası üçün hər şey gün kimi apaydın idi. Körpə Fatimənin (ə) əzab çəkdiyini görür və gözəl, məlahətli, ilahi səsi ilə mehriban qızına təsəlli verərək deyirdi: “Qızım, ağlama, qəmli olma. Pərvərdigar, atanın dostu, köməkçisidir və son nəticədə ona qələbə - uğur bəxş edəcəkdir.”

Bəli, Fatimənin (ə) uşaqlıq dövrü beləcə keçirdi. O ruhi əzab və sarsıntılar kiçik yaşlı qızı dərdlərə, əzablara dözməyə alışdırır, gücünü, müqavimətini çoxaldır və polada döndərirdi. Bir yandan da atasının təskinliyi və İlahinin lütfü, köməyilə ürəyində bəslədiyi sonsuz ümidləri, səbr və dözümünü daha da möhkəm edirdi. Beləcə

Fatimənin (ə) uşaqlıq dövrü böyük atasının – Allahın Rəsulun (s) təbliğat sahəsindəki çətinlikləri ilə eyni vaxta düşdüyündən körpə qız da o həzrətlə birgə İslamın yayılması və çiçəklənməsi yolunda addımlayır və böyüyürdü. Və bu böyümə zamanı necə əzab-əziyyətlərə dözdüyünü bircə Allah bilir...

O zaman İslam peyğəmbəri (s) hər gün qüreyşilərin yeni bir fitnə-fəsadı ilə üzləşirdi. Hər gün müxtəlif iqtisadi çətinliklərə və mənəvi əzablara məruz qalırdı. Kafirlər o həzrətin bütün dünya üçün tarixi əhəmiyyəti olan yeni dinə dəvəti yolunda hər gün yeni-yeni maneələr, təhlükələr yaradırdılar. Körpə Fatimə (ə) bəzən İslamın qana susamış düşmənlərinin onun atasının necə ciddi təqib etdiklərini, əziz canının qəsdinə durduqlarını da görürdü. Bəzən onların kin və düşmənçiliyi, alçaqlıq və rəzilliyi o dərəcəyə çatırdı ki, Peyğəmbər (s) Quran oxuyarkən, İlahi dərgahı qarşısında səcdə edərkən qoyunun bağırsağını, içalatını o həzrətin bədəninə və paltarına atırdılar. Belə hallarda Fatimə (ə) göz yaşları tökür və kiçik əlləri ilə atasının paltarlarını təmizləyirdi. Sonra da incə qəlbi dərdlə-qəmlə dolu halda, yorğun və əzgin bir vəziyyətdə özünü evlərinə çatdırır və heç kim görməsin deyə xəlvət bir küncə çəkilərək ətəyini göz yaşları ilə isladırdı. Bəzən də ailəsinin, atasının dostlarının öz ev-eşiklərindən qovularaq zorla Məkkədən Şibi-Əbi Talibə (Məkkənin kənarındakı dərəyə) köçürüldüklərini görürdü. Hər baxımdan – iqtisadi, ictimai və mənəvi cəhətdən min cür məhrumiyyətlərlə üzləşən, lakin səbr və dəyanətlə bütün bunlara dözən və Allaha sığınaraq öz ali məqsədləri yolunda bütün əzablara sinə gərən mərd müsəlmanları görürdü. Bəli, həmin o üç ildən də artıq bir müddət ərzində o cür iqtisadi və ictimai məngənə içərisində ömür sürən, lakin cınqırlarını da çıxarmayan, iman və etiqadlarında əsla bir süstlüyə, zəifliyə yol verməyən o əzabkeş müsəlmanları Fatimə (ə) yaxından görürdü...

Mübarək ömrünün hələ yeddi-səkkiz baharı ötməmişdi ki, bütün bunlardan daha ağır, daha acı bir mənəvi zərbə ilə üz-üzə gəldi. Mehriban anasını – o qaranlıq və dərdli gecələrinin yeganə yaxın sirdaşını itirdi... Qara qəmin, əzabverici dərdin vahiməli kölgəsi Fatimənin (ə) mübarək vücudunun üstünü alaraq onu ağır çətinliklərə, mənəvi sarsıntılara həmdən və yoldaş etdi...

### Ölüm ayağında ikən Fatimənin (ə) gələcəyindən nigaran olan Xədicə...

O dərdli-əzablı günlərdə Xədicənin vəfatı təkcə Fatimə (ə) üçün ana itkisi kimi acı zərbə deyildi, eyni zamanda Peyğəmbər (s) üçün də ən ağır bir hadisə idi. Belə ki, onun vəfat ilini "Amul-hüzn" – qəm-kədər ili adlandırdılar, çünki Peyğəmbər (s) də Xədicənin ölümü ilə mehriban ömür-gün yoldaşını, fədakar dost və köməkçisini, özünü qurban verən arxasını-dayağını, dərdbilən həmdəmini, ən yaxın sirdaşını itirdi. Hətta demək olar ki, Xədicənin ölümü həmişə onun mehribanlığını və himayəsini görmüş yeni müsəlman cəmiyyəti üçün də ağır bir zərbə idi.

Xədicə ölüm yatağına düşərkən – İlahi dərgahına qovuşmağına çox az bir vaxt qaldığını hiss edərkən iki məsələyə görə nigaran idi. Birincisi, alicənab ərinə və onun əzəmətli peyğəmbərlik vəzifəsinə görə nigaran idi, çünki kinli düşmən hər gün o həzrət üçün yeni bir fitnə-fəsad törədərək onu dərdə-əzaba salırdı. Düzdür, İlahi vəhyi vasitəsilə İslamın qələbəsi, müsəlmanların uğuru vədəsini hörmətli ərinin mübarək dilindən eşitmiş, o həzrətə tam inanmışdı və bu səbəbdən də ürəyi rahat idi. Lakin yeganə nigaranlığı bunda idi ki, o vəd olunmuş qələbə anı gəlib yetişincə alicənab əri və onun vəfalı ümməti hələ bu yolda nə qədər əzab-əziyyətlərə dözməli olacaqdır. Bir də ona təəssüf edirdi ki, özü bu dünyadan gedir, əri isə təkcə qalır. Deməli, bir daha fədakar və vəfalı ərinin təskinli, məlhəmli sözlərini eşitməyəcəkdir...

İkinci nigaranlığı isə körpə qızı üçün idi. O gedir, qızı isə qalırdı. Ana mehr-məhəbbətindən məhrum qalırdı. Bu səbəbdən də Xədicə nigaran idi. Xatirinə təskinlik, şəfa verən bir şey də tapa bilmirdi. Hər bir mehriban ana kimi o da əsla istəmirdi ki, bir körpə övladı, xüsusilə də qız uşağı, özü də bu cür həssas və kövrəkqəlbli, ayıq düşüncəli və dərdbilən bir qızı anadan yetim qalsın. Bəlkə də arzu edirdi ki, kaş bu körpə qızını da böyütmək, öz həyatını idarə etmək mərhələsinə yetişdirmək fürsəti ona nəsib olaydı. Onda tam rahatlıqla gözünü əbədilik yuma bilərdi. Bəli, o anlarda Fatiməni də cavanlıq yaşına çatdırmaq arzusu Xədicənin ürəyindən yaman keçirdi. Bu körpə qızını da o biri qızları kimi bəxt evinə köçürməyi, bir ana kimi qızını ər evinə yola salmaqla bağlı öhdəsində olan vəzifələri yerinə yetirməyi, bütün bunları Fatimə (ə) üçün də başqası yox, məhz özü etməyi çox istəyirdi... Xədicənin körpə qızı Fatimədən ötrü bu nigaranlıq və arzusunun yerinə yetməsi üçün isə azı bir neçə il ömür lazım idi... Amma əfsuslar olsun ki, artıq belə bir fürsət yox idi. Ölüm anı yaxınlaşmışdı. Bu, elə bir andır ki, onu heç bir qüdrət, hətta övliya və İlahi peyğəmbərləri də bir göz qırpımına bərabər an qədərində belə qabağa-geri çəkə bilməz...

Haqqın dəvətini qəbul etmək zamanının yaxınlaşdığı həmin anlarda Xədicə bir dəqiqəliyə ən yaxın həmdəm və sirdaşlarından birini xəlvətcə yanında saxladı. Bu şəxs Üməyyəsin qızı Əsma idi. O, Xədicənin ən yaxın dostlarından və xidmətçilərindən biri sayılırdı. Hər ikisi təkcə qaldıqda Xədicə böyük bir kədərlə, ürək yanğısı ilə öz nigaranlığını bildirdi, daxilini sarmış dərin, acı qəmini dərdli-dərdli ona söylədi.

Tarix kitablarında yazıldığı kimi, Əsma o qəmli sözləri eşitdikdə soruşdu: “Bu qədər qəm çəkməyinizə, nigaran olmağınıza səbəb nədir? Sizin kimi bir həqiqi şəxsiyyət nəyə görə ölüm anında, dünyəvi həyatının sona yetişdiyi bir zamanda bu qədər narahat olsun?! Axı siz sonuncu Peyğəmbərin (s) buyurduğu kimi, İslam üçün göstərdiyiniz bu qədər böyük xidmətlərə, Allah yolunda etdiyiniz sonsuz fədakarlığa görə indi əbədiyyətə qovuşduğunuz bu anlarda behiştə yola düşürsünüz! Belə olduğu halda bəs bu qədər narahatlıq və nigaranlıq nə deməkdir?”

Xədicə - o böyük və tədbirli qadın yaxın sirdaşının bu sualının cavabında daxilindəki kədərinin səbəbini belə bəyan etdi: “Ey Əsma, sən də bir qadınsan. Bir zaman cavan qız olmuş və bir gün də əyninə yeni gəlin paltarı geymişsən. Yaxşı bilirsən ki, yeni gəlinlər gəlinlik ərəfəsində - gəlin köçmək üçün hazırlıq görülərkən, xüsusilə də, gəlin illərlə yaşadığı, böyüyüb başa çatdığı ata evini tərk edərək ərinin evinə, yeni evinə - gələcək ömrünü yaşayacağı evə köçən gecə ömrünün ən unudulmaz, ən həyəcanlı dövrünü keçirir. Elə bir dövrü ki, bir daha heç vaxt bu şəkildə, bu keyfiyyətdə təkrar olunmayacaq. Buna görə də həmin dövr həyəcan və iztirabla, xüsusi duyğu və düşüncələrlə dolu olur. Hər bir cavan qızın bu cür təkrarolunmaz gecə-gündüzdə ana varlığına, ya da heç olmasa, bir mehriban və səmimi, yaxın və məhrəm qadına ehtiyacı olur. Ona görə ki, həmin həyəcanlı anlarda onun yanında olsun və ehtiyaclarını ödəsin, istədiklərini hazır etsin. Mən indi axirət səfərinə yola düşürəm. Qızım Fatimə isə kiçik yaşlı bir uşaqdır. Bir neçə ildən sonra onun bəxt evinə getmək zamanı yetişəçək və o zaman ehtiyaclarını ödəyə bilən, istədiklərini yerinə yetirən məhrəm və sirdaşı – anası olmayacaq... Buna görə də mən belə qəmliyəm. Qorxuram ki, qızım həmin gün anası olmayacağına görə qəmli-kədərli olsun və yeni həyatını sıxıntı, üzüntü ilə başlasın və bütün həyatı boyu həmin xatirəni yaddan çıxarmasın...”

Ana mehr-məhəbbəti ilə dolu bir səslə deyilmiş bu qəmli sözləri eşidən Əsmanın qəlbinə od düşdü, qəhər onu boğdu. Sonra səmimi qəlblə dedi: “Əziz xanım, canım sənə fəda olsun, bu sarıdan əsla narahat olma, qəm yemə. Mən sənə söz verirəm ki, gözünün nuru olan Fatiməni (ə) əsla tənha qoymayacağam. Əgər onun toyuna kimi sağ qalsam, öz qızım kimi baxacaq və ürəyiyanan, doğma anası kimi toyu üçün lazım olan hər şeyi hazırlamağa çalışacaq, bütün ehtiyaclarını ödəyəcəyəm...”

Xədicə bu səmimi və ürəkdən gələn sözləri eşidib rahatlıq tapdı və dodaqlarına razılıq təbəssümü qondu. Bir an sonra isə gözlərini əbədilik yumdu...

Bəli, beləcə də oldu. Tarix şahidlik edir, mötəbər tarixçilər yazırlar ki, Əsma əhdinə vəfalı çıxıb verdiyi sözə əməl etdi: Fatimənin toy gecəsi Xədicəyə dediklərinin hamısını – iynədən sapa kimi hər şeyi hazırladı.[1]

Beləliklə, İslam tarixinin ən ağır dövrlərində və Peyğəmbərin (s), onun vəfalı arxadaşlarının həyatının ən ağrılı-acılı illərindən olan həmin günlərdə Xədicə böyük bir inamla və Allaha, İslama, Peyğəmbərə (s) tükənməz bir inamla, doğru əməllərinin geniş xəzinəsi ilə, axirət dünyasının ağır ehtiyatı ilə 63 yaşında fani dünyaya gözlərini qapayaraq axirət sarayına üz qoydu – Pərvərdigarın görüşünə tələsdi...

Xədicə getdi və kiçikyaşlı qızını qəm-kədər dağı ilə öz yerində qoydu... Amma o xoşbəxt qızın ana ayrılığının tənhalığından nə qorxusu ola bilərdi?! Axı şərəf sahibi atası – Allahın peyğəmbəri (s) yanında qalır və mübarək kölgəsini onun üstünə salırdı... Bəli, Xədicə kimi ana getdi, lakin Allahın Rəsulu (s) kimi bir ata qalırdı. Elə bir mehriban ata ki, üzləşdiyi bütün çətinlik və sıxıntılara baxmayaraq, həm atalıq vəzifəsini yerinə yetirirdi, həm də boş qalmış ananın yerini tuturdu... Peyğəmbər (s) ürəkdən sevdiyi qızını bir an belə unutmur, gecə-gündüz onun qayğısına qalır, məhəbbətli əlini başına çəkir, yanağına məhəbbətli öpüşünü qondurur, gözlərindən qəm yaşlarını silir, təsəlli-təskinlik verir və qarşıdakı qəhrəman və səmərəli həyata hazır edirdi...

## Əbu Talibin vəfatı

İlk İslam xanımının, ilk müsəlman qadınının – Xədicənin vəfatından bir neçə ay keçmişdi. Peyğəmbərin (s) qəlbi isə hələ də qəmlə-kədərlə dolu idi. Axı o həzrət İslama ilkin iman gətirmiş bir qadını, Peyğəmbəri (s) ilk dəfə təsdiq etmiş Xədicəni itirmişdi. Xədicə ilə birgə yaşadıqları həyatın – o böyük fədakarlıq, sədaqət və vəfadarlığın şirin xatirələri və ömrünün son illərində düşmənlərin əzab-əziyyətinin doğurduğu ağrılı-acılı xatirələri o həzrətin xəyalında dolaşır, ona rahatlıq vermirdi... Əfsuslar ki, mübarək qəlbindəki bu yara hələ qaysaq bağlamamışdı ki, başqa bir dərdlə üzləşdi. Bu dəfəki ağır dərd-qəmi əmisini itirməsi üzündən idi... Alicənab, mərhəmətli əmisi Əbu Talib – dənizlər qədər böyük o ürək sahibi əldən getdi. Peyğəmbəri (s) uşaqlıq

---

[1] Mərhum Əllamə Məclisi, Əsmanın Üməyyəsin qızı olmasına şübhə ilə yanaşmışdır. O yazır ki, Üməyyəsin qızı Əsma Həbəşistanda yaşayan Cəfərin həyat yoldaşı idi. Cəfərin vəfatından sonra Əsma Əbu Bəkrə ərə getdi və bu evlənmədən Məhəmməd bin Əbu Bəkr dünyaya gəldi. Beləliklə, aydın olur ki, adı çəkilən Əsma başqa Əsma imiş. Hər halda belə bir qadın olmuş və Xədicəyə verdiyi sözü yerinə yetiribmiş.

yaşlarından himayəyə götürən, ömrünün sonuna qədər bir an belə o həzrətdən məhəbbət və qayğısını çəkməyən, onun köməyinə tələsən, həyatının ən ağır, ən acılı anlarında ona arxa duran əmisi... Qırx ildən artıq bir müddət ərzində Peyğəmbərə (s) hər cür yardım əlini uzadan, dərdini-qəmini öz dərd-qəmi bilən, düşmənlərdən qoruyan, pak nəslinin hörmət və nüfuzunu həmişə uca tutan, qardaşı oğlunun müdafiəsi yolunda bütün əzab-əziyyətlərə dözən, nəyi varsa hamısını İlahi ayininin yayılması xatirinə fəda edən əmisi. Əli (ə) kimi bir qəhrəman övladı – Allahın aslanını, şirini tərbiyə edən, Peyğəmbərin (s) xidmətində qoyan əmisi...

Bəli, əziz hamisi Xədicənin vəfatından bir neçə ay sonra belə bir hörmətli əmisi, belə bir dostu və arxası, özü də çoxlu əzab-əziyyətlərə dözdükdən, xüsusilə də Şibi – Əbu Talibin işkəncəli mühasirəsindən sonra dünyay gözünü yumdu, Peyğəmbəri (s) yeni bir böyük yas içində qoydu...

Əbu Talibin ölümü ilə peyğəmbərlik nəslinə yeni bir qəm-kədər üz verdi. Bu arasıkəsilməz qəmlər o dərəcədə ağır idi ki, Allahın Rəsulu (s) həmin qəmli ili “Ammül-hüzn” – qəm və matəm ili adlandırdı...

Təbii ki, bu böyük müsibətdə hamıdan çox təsirlənən, qüssələnən Fatimə (ə) idi. Çünki bir tərəfdən hələ anasının yasını saxlayırdı, bir tərəfdən də Əbu Talibi çox istədiyindən onun vəfatına görə bərk kədərlənirdi. Bir yandan da görürdü ki, Əbu Talibin vəfatı möhtərəm atasına bərk təsir etmişdir. Odur ki, Fatimə (ə) də dünya qadınlarının bir parlaq nümunəsi kimi, atasının taleyinə yaxından bağlı bir övlad kimi onun qəminə-kədərinə şərik idi. O, əziz atasının dərdli-müsibətli görəndə hamıdan çox kədərlənirdi. Beləliklə, Fatimənin (ə) uşaqlıq illəri hər an əzab-əziyyətə məruz qalırdı. Onun incə və həssas qəlbinə aramsız halda dözülməz zərbələr vurulurdu...

## Qorxulu gecə

Tam inamla demək olar ki, Fatimənin (ə) uşaqlıq illərinin – böyüyüb boya-başa çatdığı dövrün xüsusiyyətlərindən biri onun şəxsiyyətinin aramverməyən qəm-kədər və aramsız müsibətlər içində yaranması, formalaşmasıdır. Bu müsibətlərin ən dərdlisi də o qorxulu gecə ilə bağlıdır. Bəşər tarixinin o qorxulu gecəsi ki, əgər qeybdən gələn köməklər və İlahi yardım olmasaydı, bu gün bəşər həyatı və bəşəriyyət tarixi başqa istiqamətdə inkişaf etmiş olardı... O qorxunc, dəhşətli gecə İlahi lütfü ilə xeyirliklə ötüşdü, lakin onun acı anlarının ağırlığını Fatimə (ə) də uşaqlığına baxmayaraq, hiss etdi. O gecənin hər anı onun üçün acılıq və dərd içində keçdi...

Nə qədər ki, Əbu Talib sağ idi, Qüreyş kafirləri nə qədər həyasız və alçaq olsalar da, öz həyasızlıqlarını həddindən artıq göstərməyə cürət etmirdilər. Çünki Əbu Talib Qüreyş qəbiləsində nüfuzlu və hörmətli bir şəxsiyyət sayılırdı, böyük bir qrupun başçısı – rəhbəri idi, buna görə də dinsizlərlə Peyğəmbər (s) arasında möhkəm dayanır, onların hədə-qorxularını dəf edirdi.

Lakin Əbu Talibin vəfatından hələ çox keçməmişdi ki, Qüreyş dinsizləri Peyğəmbərin (s) belə bir böyük hamisini itirməsindən sevinərək və Allahın Elçisinin (s) tənhalığından, arxasızlığından istifadə edərək o həzrətə şiddətli təzyiq göstərməyə başladılar. Hətta iş o yerə çatdı ki, həyasızlıqla həzrətin mübarək canına qəsd etmək qərarına gəldilər. Onların bir dəstəsi gecə ikən Peyğəmbərin (s) evinə hücum çəkib, onu qılıncla qanına qəltan etmək haqqında and içdi.

Bu səbəbdən də artıq Məkkədə yaşamaq, bu şəhərdə qalmaq mümkün deyildi. Ona görə də Peyğəmbər (s), İlahinin iradəsi ilə Məkkəni tərk edərək Mədinəyə köçmək məcburiyyətində qaldı. O həzrət özünün bu böyük və tarixi hicrəti – köçməsi ilə dinlər tarixində, bəşəriyyət tarixində dönüş nöqtəsi yaratdı.

Köçmə gecəsi qorxunc və dəhşətli bir gecə idi. O gecə Əliyə (ə) Peyğəmbərin (s) evində qalmaq və onun yatağında yatmaq tapşırılmışdı. Bu yolla Peyğəmbərin (s) həyatını xilas etmək mümkün idi: dinsizlər ora hücum etdikdə o həzrətin mübarək vücuduna bir xətər yetirə bilməyəcəkdilər...

Evdəkilər və Peyğəmbərin (s) yaxın adamları bilirdilər ki, qana susamış düşmənlər o həzrətin evinə hücum etmək niyyətindədirlər. Fatimə (ə) də bu qorxunc xəbəri öyrənmişdi. O gecə atası evində idi. Hər an dinsizlərin hücumu başlana, qan tökülə bilərdi. Kiçik və həssas Fatimə (ə) qorxu və təlaş içində açıq üfüqə və aydın gələcəyə baxırdı: atasının gələcəyinə baxır və hər anı qorxu və ümidlə yola salırdı.

Anlar çətinliklə, çox gec ötürdü. Artıq gecə yarıdan ötdü. Səma üfüq xəttində aydınlaşmağa başladı... Dinsizlər sübh çağı parıldayan yalın qılıncla evə girdilər. Amma Peyğəmbərin (s) yatağına sarı hücum çəkdikdə o həzrətdən əsər-əlamət görmədilər. onun yerində İslamın qoçaq cavanını, şücaət rəmzini – Əlini (ə) tapdılar. Ona görə də məyus və başları aşağı, ürəklərində kin və ədavətlə dolu halda oradan geri qayıtdılar. Beləliklə, onların alçaq və yaramaz qəsdi baş tutmadı.

Bu qorxunc və dəhşətli saatlar Fatimənin (ə) həyatında ən ağır saatlar idi. Həmin dəhşətli saatlar kiçik qızın həssas qəlbində dərin izlər qoydu, həmin izlər onu daha da püxtələşdirdi, həyat təcrübəsini artırdı. Atasının

həyat və mübarizəsinin daha bir heyrətli səhnəsini öz gözləri ilə gördü, onun məqsəd və məktəbi yolunda olan daha bir qorxunc hadisə ilə üzləşdi və başqa müsibətlərə dözmək üçün hazır oldu...

## Mədinəyə köçmə

Peyğəmbərin (s) hicrəti – İslam tarixində, bəşəriyyət tarixində dönüş nöqtəsi olan bu hadisə bir çox çətinliklərə baxmayaraq, baş verdi. Peyğəmbər (s) tezliklə Mədinənin kənarındakı bir yerdə özünə mənzil seçdi. Özü və yaxın adamlarının bir dəstəsi burada sakin olduqdan bir müddət sonra Əliyə (ə) sifariş göndərdi ki, Mədinəyə hərəkət etsin və Fatimələri də özü ilə gətirsin. Fatimələr üç nəfər idilər: Əlinin (ə) anası Fatimə bint Əsəd, Peyğəmbərin (s) əmisi Zübeyr bin Əbdül Müttəlibin qızı Fatimə və Allahın Elçisinin (s) qızı Fatimeyi-Zəhra (ə). Əli (ə) Allahın Elçisinin (s) göstərişi ilə ismət və namus pərdəsi olan bu qadınlarla birgə karvanla Məkkədən yola düşdü. Əhvalatdan xəbər tutmuş müşriklər də belə bir saatı gözləyirdilər. onlar bu kiçik, lakin şöhrətli karvana hücum edib, öz kin və ədavətlərini göstərmək istəyirdilər. Odur ki, həyasız müşriklər cahiliyyə dövründə ərəb kişiləri arasında mövcud olan mərdlik keyfiyyətlərinin əksinə olaraq bir dəstəni silahlandırıb həmin karvanın ardınca yola saldılar. Alçaq təbiətli, yaramaz müşriklər o şərəfli və namuslu qadınların karvanına yaxınlaşarkən küfr və iman döyüşlərinin nərə çəkən şiri, haqq və batil savaşlarının pəhləvanı Əli – fəryadının səsi canlara lərzə salan, qılıncının parıltısı gözləri qamaşdıran o igid – hücum çəkən düşmənlərə sarı gəldi. Birbaşa o yaramazların qabağında dayandı. Canlara qorxu salan qılıncını çəkib dinsizlərin üstünə elə hücum çəkdi ki, onlar bir neçə andan sonra müqavimət göstərə bilməyib geri çəkildilər və qaçmağa üz qoydular. Beləliklə, Əli (ə) İslamın və müsəlmanların namusunu igidliklə müdafiə etdi və əziz, hörmətli Fatimələri bu təhlükədən qurtararaq Mədinəyə çatdırdı.

O səhnəni kim gözləri önünə gətirib canlandıra və hiss edə bilər ki, əziz Fatimələr o qorxulu anlarda necə bərk həyəcan və iztirab içində idilər? Xüsusilə də kim duya bilər ki, kiçik Fatimə əziz atasının qəddar düşmənlərini bir neçə nəfərlə əllərində yalın qılınc onların üstünə hücum etdikləri o anlarda nələr düşünür, hansı iztirablı hisslər keçirirdi?! Axı onların can və namuslarını qorumaq üçün yanlarında yalnız bircə kişi var idi... Doğrudan da, belə halları təsvir etməkdə tarixin dili necə də zəif və qısadır. Çünki olmuşları, hadisələri yalnız qeyd edə bilir. Həmin hadisələr baş verərkən ayrı-ayrı şəxslərin hansı hiss-həyəcanlar keçirdiklərini isə əsla çatdıra bilmir...

Beləliklə, karvan Mədinəyə daxil oldu. Fatimeyi-Zəhra (ə) əziz atasının özü üçün müvəqqəti yaşayış yeri seçdiyi Əbu Əyyub Ənsarinin evinə gəldi. O, istəkli atasının gözəl sifətini görən kimi gözləri işıqlandı. Özünü atasının məhəbbətlə dolu qoynuna atdı, orada yenidən öz rahatlıq və aramını tapdı. Lakin o qorxulu səfərin xatirəsi əsla yadından çıxmırdı. Əlinin (ə) bir qrup silahlı müşriklər qarşısında çəkinmədən təkbaşına dayanması və onları qoruması səhnəsi gözləri önündə hey canlanırdı. Bəli, bu xatirə də başqa canlı xatirələrə qarışdı və beləliklə, onun ali şəxsiyyətinin təkmilləşməsində mühüm rol oynadı. Bütün bu hadisə və xatirələr, müsibət və əzablar onun kamil bir insan səviyyəsinə yüksəlməsində, həyatın acısını və şirinini dadmış təcrübəli və yetkin bir şəxsiyyət kimi yetişməsində, bəşəriyyət üçün, xüsusilə də müsəlman cəmiyyəti üçün böyük hədiyyələr bəxş etməsində öz müsbət təsirini göstərdi.

Bəli, belə bir qəhrəman qadın öz həyatında bu cür hadisə və müsibətlərlə üzləşməli idi ki, o cür misilsiz şəxsiyyət səviyyəsinə yüksəlsin və həqiqi qəhrəman imamların anası olsun...

Fatimeyi-Zəhra (ə) Mədinədəki həyatının böyük atasının himayəsində davam etdirir və belə bir atanın xüsusi tərbiyəsindən bəhrələnirdi. O cür bənzərsiz paklıq və fədakarlığı görür, o həzrətin gecələr oyaq qalaraq ibadət etməsini, İslam və Allah yolunda yorulmaq bilmədən fəaliyyət göstərməsini öyrənir, həyat və iman dərsi keçir, bütün bunları öz həyatı üçün məşq edir və beləliklə, özünü gələcək günlərə hazırlayırdı...

Çox qəribədir ki, bu hadisələr bir-birinin ardınca baş verirdi və bütün bu dərslər arasıkəsilmədən Fatimənin (ə) öyrəndiklərini, qazandıqlarını artırırdı. Hələ İslam peyğəmbərinin (s) hicrətindən bir il keçməmişdi ki, müşriklər İslam cəmiyyətinin gücünün artmasından xəbər tutub qorxuya düşdülər. Günbəgün artan bu qüdrətin qarşısında sonra dayana bilməyəcəklərindən qorxan bu düşmənlər İslam qüdrətini, İslam cəmiyyətini dərhal yox etmək qərarına gəldilər. Ona görə də İslamın yeni yaranmış qərargahına hücuma – yürüşə hazırlıq gördülər. Bunun üçün onlar qoşun və silah yığmağa başladılar.

## Bədr döyüşü

Bu xəbər ildırım sürəti ilə İslam peyğəmbərinə (s) çatdı və o həzrət də dərhal vuruşa hazır oldu. Müşriklərlə müsəlmanlar arasında baş vermiş ilk toqquşma – Bədr döyüşü haqqında İslam tarixinə aid mənbələrdə geniş

məlumat verildiyi üçün biz burada ona ötəri nəzər salmaqla kifayətlənirik. Bəli, Allah-təaladan döyüş üçün fərman almış alicənab Peyğəmbər (s) xəbis müşriklərə yeni yaranan İslam cəmiyyətinin qüdrətini göstərməyi lazım bilirdi. O həzrət kiçik, lakin cürətli, şir ürəkli bir qrup müsəlmanla və azacıq silah-sürsatla Mədinədən çıxaraq müşriklərlə döyüşə yola düşdü. O misilsiz tarixi döyüşdə müşriklərin sayı müsəlmanlardan üçqat artıq idi. Onların hamısı o dövrün ən yaxşı döyüş silahları ilə dişlərinə qədər silahlanmışdı. Lakin uca Tanrı müsəlmanlara Özünün gözəgörünməyən yardım əlini uzatdı və bu bərabər olmayan döyüşdə müsəlmanlara qələbə - uğur bəxş etdi. Bu qələbə bir tərəfdən müsəlmanların əhval-ruhiyyəsini daha da gücləndirdi, bir tərəfdən düşmənləri ruhdan saldı, digər tərəfdən isə çoxlu mal və qəniməti, xüsusilə də, məğlub olmuş düşmən silahlarının çoxunu müsəlmanlara nəsib etdi. Beləliklə, müsəlmanların döyüş silahları ilə təchizatı artdı və maddi-hərbi imkanları çoxaldı.

Bədr döyüşündə aşkar və təsəvvür edilməyən məğlubiyyətə uğramış müşriklər Məkkəyə dönən gündən bu məğlubiyyətin heyfini almaq üçün yeni döyüşə hazırlaşmağa başladılar. Onlar tam bir il ərzində döyüş üçün tədarük görüb, yeni canlı qüvvə və silah toplayaraq sonrakı ili tarixi və ibrətli Ühüd döyüşünə başladılar. Bu döyüş əvvəlcə müsəlmanların məğlubiyyəti ilə nəticələnsə də, onlar üçün böyük dərs oldu. Onlara İslam ordusunun yüksək rəhbərliyinin, onun başçısının əmrlərinə sözsüz itaət etməyin vacibliyi və zərurətini bir daha sübuta yetirdi...

İslam tarixinə aid bütün mənbələrdə göstərildiyi kimi, Ühüd döyüşündə Peyğəmbərin (s) hərbi göstərişlərinin bəzilərinə qüsurlu şəkildə itaət edildi, bəziləri isə yarımçıq yerinə yetirildi. Həmçinin bəzi müsəlmanlar tamahları üzündən qənimət toplamağa girişdilər. bütün bunların nəticəsində müsəlmanlar içərisindən döyüşdən yayınan və onlara tapşırılmış döyüş yerlərini tərk edənlər oldu. Bu isə ona səbəb oldu ki, pusquda durmuş düşmənlər və ehtiyatda saxlanılan döyüşçülər müsəlmanların bu hərəkətindən istifadə edərək arxadan onlara hücum etdilər. beləliklə, müşriklər onların tam məğlubiyyətinə yaxın olan bu döyüşün taleyini dəyişdirərək onu müsəlmanların məğlubiyyəti ilə başa vurdular.

Bütün bu məsələlər üzündən həmin döyüşdə müsəlmanlardan yetmiş nəfər şəhid oldu. Onlardan biri Peyğəmbərin (s) hörmətli qəhrəman əmisi Həmzə idi. Ondan əlavə, bu döyüşün gedişində müşriklərin atdıqları daşlardan biri Peyğəmbərin (s) mübarək alnına dəydi və onun yarılmasına, qanamasına səbəb oldu. O həzrətin bir neçə dişi də sındı və onların pak, ətirli qanı şərif saqqalına axdı. Beləcə, qələbəyə yaxın döyüş səhnəsi məğlubiyyət səhnəsinə döndü... Bir tərəfdən də Əbu Süfyan – İslamı ürəkdən, sədaqətlə qəbul etməmiş o yaramaz, məkrli insan bu qarmaqarışıqlıqda müsəlmanların ruhunu sındırmaq, İslam qoşununu zəif salmaq məqsədilə aravermədən qışqırırdı: “Məhəmməd öldürüldü. Məhəmməd öldürüldü... Müsəlmanların işi bitmək üzrədir...”

Ah... Necə də hüznlü və dərdli anlar idi. İlahi, bu xəbərlər Fatimənin (ə) qulağına çatanda atasının aşiqi o mehriban qız nə hala düşdü?! Nələr çəkmədi?! O acı və kədərli saatlarda Fatimənin (ə) hansı hisslər keçirdiyini təsəvvür etmək və onları qələmə almaq, doğrudan da, çətin işdir... O çətin anlarda Fatimə (ə) da başqa İslam qadınları və cavan qızları kimi evdən bayıra çıxmışdı ki, bu dərdli xəbərin düzgünlüyü, dəqiqliyi haqqında soruşsun. Atasının öldürülməsi xəbərini eşitcək özünü saxlaya bilmədi, vücudunu sarmış dərdin şiddətindən “Ata, ata!” – deyə fəryad qopardı...

Fəryad və nalələrin ərşə qalxdığı o anlarda Fatimə (ə) Allahın Rəsulunun (s) bibisi Səfiyyə ilə birlikdə döyüş meydanına yollandı. Ora çatanda döyüş sona yetmişdi. İslam peyğəmbəri (s) dərdli-hüznlü halda döyüş meydanında həlak olanları axtarırdı. İri və qara, şəffaf və gözəl gözlərində qəmli yaş damlaları görünürdü. Hörmətli əmisini – qəhrəman Həmzənin mübarək bədənini o cür ürəkparçalayan vəziyyətdə görəndə (Cigərxar (“ciyəryeyən”) və qaniçən Hində onun qarnını yırtmış, ciyərini çeynəmişdi) ətirli və dərdli göz yaşları gücləndi. Ancaq peyğəmbərlərə xas olan aramını, toxdaqlığını saxladı, əbasını çiynindən götürərək o qanlı və parça-parça olmuş bədəni örtdü...

O anlarda Fatimeyi-Zəhra (ə) möhtərəm atasını o cür üzücü vəziyyətdə - alnı yarılmış, sifəti, ağzı və saqqalı qana bulaşmış halda görcək dərhal mehriban əlləri ilə o həzrətin başını və mübarək sifətini təmizlədi, sonra isə əllərini göyə qaldıraraq İlahi dərgahına müraciətlə nalə çəkə-çəkə dedi: “İlahi, Öz şiddətli qəzəbini o daşürəkli günahkarlara – Allahın Elçisinin (s) gözəl sifətini bu cür qana bulaşdıran kəslərə göstər.”

Sonra Fatimə (ə) bir qab su gətirdi, atasının alnındakı və sifətindəki qanları yudu. Onlar birlikdə evə qayıtdılar... Evdə həm atası, həm də əmisi oğlu qılıncını ona təhvil verdi ki, qurumuş qanlarını yusun... Beləliklə, Ühüd döyüşü bu cür dərdli sonluqla başa çatdı.

Sizlərdən hər biriniz, xüsusilə də qadınlar və qızlar, bu səhnələrin Fatimənin (ə) təfəkküründə, ruhunda, bütün varlığında necə acı təsir buraxdığını, gələcək həyatında nə dərəcədə mühüm rol oynadığını yəqin ki, yaxşı təsəvvür edirsiniz.

Təəssüf ki, tarix belə hallarda susur...

## Ögey ana sıxıntısı – daha bir dərd

Bu qədər əzab və dərd burulğanında Fatimə (ə) üçün anasının ölümü və anasızlıq qəmi ilə bağlı daha bir çətinlik ortaya çıxdı. O nur və səfa evində ögey ana ilə bağlı çətinlik. Doğrudan da, ögey ana, hətta əgər ən mehriban ana olsa belə, hər hansı bir uşaq üçün çətin və dözülməzdir. Xüsusilə də, əgər o uşaq kiçik yaşlı, həssas qız olsa, bu daha da çətin olur. Fatimeyi-Zəhra (ə) da belə həssas, körpə qız idi. Bundan əlavə o, çox əzablar görmüş, incə qəlbli, düşüncəli, dərdbilən qız idi. Bu səbəbdən də ögey ana məsələsi onun üçün olduqca ağır və dözülməz çətinliklər törədir, ağrılı-acılı dərdlər yaradırdı.

Bu məsələdə diqqəti cəlb edən cəhət Fatimə (ə) ilə Allahın Rəsulunun (s) həyat yoldaşlarının – Fatimə üçün ögey ana olan qadınların arasında olan münasibətdir. Həmin ögey analardan bəzilərinin həssas qəlbli, tez inciyən Fatimə (ə) ilə rəftarları bəyənilәsi, ürəyəyatan deyildi. Bu, onların təbiətindəki qadınlığa xas xüsusiyyətlərindən irəli gəlirdi. Onlar bəzən ev mühitində Fatimə (ə) ilə səmimi rəftar etmir, onun qəlbinə toxunan hərəkətlərə yol verirdilər. bütün bu məsələlərin də əsas səbəbi o idi ki, onlar Peyğəmbərin (s) bu kamal və fəzilət sahibi qıza bəslədiyi dərin məhəbbətinə, sonsuz əlaqəsinə həsəd gözü ilə baxırdılar. Onlar mehriban atanın Fatiməyə (ə) olan bu sönməz məhəbbətini elə izləyirdilər ki, son nəticədə bu, qızın qəlbinin inciməsinə gətirib çıxarırdı. Təbiidir ki, bu düzgün olmayan rəftarlar Fatimənin (ə) həssas qəlbinə toxunur, onu yaralayırdı. Bəzən isə lap incə mətləblər də Fatimənin (ə) həssas qəlbinə təsir edir, onu sıxırdı...

## Ərəgetmə astanasında

Nəhayət, bu cür acılar və çətinliklərlə dolu uşaqlıq dövrü ötdü və cavanlıq çağı yetişdi. Bəli, indi müxtəlif təcrübələr toplamış, ömrünün eniş-yoxuşunu arxada qoymuş, vücudunu əritmiş o ağır həyat sınaqlarından keçmiş Fatimə (ə) həyatının yeni bir mərhələsinə qədəm qoydu. Uşaqlıq illərində gördüyü əzab-əziyyətlər, ağrılar-acılar onu mətinləşdirmişdi. O, bütün bu çətinlikləri, ağır məsələləri Pərvərdigarına bəslədiyi iman və etiqad, ümid və təvəkkül işığında bir-birinin ardınca həll etdi. Bütün imtahan və sınaqlardan üzüağ, başıuca və güclü çıxdı, uşaqlıq illərində üzləşdiyi bütün əzab-əziyyətlərdən, ağrılı dərdlərdən xilas oldu, səbr və dözümlə, güclü iradə ilə, bənzərsiz ağlı və tədbirləri ilə bütün çətinliklərə yol tapdı, hər məsələnin düzgün həlli yollarını aradı və nəhayət, ərəgetmə yaşına, yeni həyat mərhələsinə, yeni həyatına şərik seçmə dövrünə çatdı...

## Fatimə ilə Əlinin (ə) evlənməsi iki nurun qovuşması

İndi Fatimə (ə) ərəgetmə yaşına çatmışdır. İndi o, ömrünün elə bir mərhələsindədir ki, gərək özünün müştərək həyatına başlasın, yeni həyatına qədəm qoysun. Bu yeni müştərək həyatını o, bütün ömrü boyu bir-birinin qəminə və sevincinə şərik olan bir insan ilə birgə keçirməlidir...

Aydındır ki, Fatimə (ə) kimi bir qız, İslam peyğəmbərinin (s) sevimli qızı ömrünün bu yaşında cəmiyyətdə hansı mövqeni tutur və hansı şəraitdə yaşayır. İslam cəmiyyətinin gözü Peyğəmbərin (s) evinə dikilmişdir. Hamı bilmək istəyir: o hansı xoşbəxt kişidir ki, Allahın Elçisinin (s) kürəkəni olmaq səadətini qazanacaqdır. Belə bir böyük səadətə qovuşmaq arzusunu ürəklərində bəsləyən kəslər çoxdur. O günlərdə hər tərəfdən Qüreyş qəbiləsinin başçıları və əyanları Peyğəmbərin (s) gözünün nuru, İslam cəmiyyətinin gözü və çırağı olan Fatimənin (ə) elçiliyinə gəlirdilər. gələnlər içərisində nüfuzlu, yüksək mövqeli vəzifə sahibləri və varlılar da var idi. Görən Fatimə (ə) bunlardan hansına gələcək əri kimi göz dikmişdi, hansı birini gələcək həyatı üçün gözaltı eləmişdi? O gələcək həyatının şərikini vəzifə və nüfuz sahibimi görmək istəyirdi? Qəbilə imtiyazlarımı istəyirdi? Elçilərin sərvəti, varı haqqında fikirləşirdimi? Yox, əsla yox, bunların heç biri onu düşündürmürdü. O həyatı boyu iman və paklıqdan, etiqad və saflıqdan, təmizlik və düzlükdən başqa heç nəyi istəmirdi. Lakin bu elçilər içərisində bütün bu şərtləri ödəyən bir kəs vardımı? Kim idi o?

Həmin məsələyə başqa gözlə nəzər salaq: Fatimə (ə) İslam peyğəmbərinin (s) dördüncü qızı idi. Ailənin ən kiçik və sonuncu övladı idi. Oğlan övladı olmayan ailənin sonuncu qız övladı. Özü də elə bir cəmiyyətdə ki, hər bir atanın və ailənin hörməti, nüfuzu oğlan övladının olmasına bağlı idi. Kimin çox oğlu var idi, daha çox hörmət və nüfuz sahibi idi. Kimin oğlu yox idisə, heç yerdə nüfuz və etibarı da yox idi. Kimin qızı vardısa, sanki ətəyinə ar yamağı yapışdırılmışdılar...

Belə bir mühitdə, cahiliyyətin bu cür adət-ənənələrinin hökm sürdüyü bir cəmiyyətdə İslam peyğəmbərinin (s) elə bir cavan və xoşbəxt qızı var idi ki, bütün bu yanlış təsəvvürləri, dünyagörüşləri alt-üst etmiş və mübarək vücudu ilə qadın, qızlar üçün yeni bir mötəbərlik və etibar gətirmişdi. Bəli, Fatimə (ə) təkcə bir qız deyildi, həm də ətir və nurla, əzəmətlə dolu elə bir dalğa idi ki, Məhəmmədin (s) peyğəmbərlik nurunu əsrlərdən əsrlərə

ötürməli, zaman, məkan əhatəsində yaymalı və bəşər cəmiyyətini o nemət - əbədi həyat bəxş edən nur ilə işıqlandırmalı idi...

Fatimə (ə) elə bir qız idi ki, Allahın Elçisi (s) kimi bir ata onu ürəkdən sevir, onun varlığı ilə fəxr edirdi. Ata ilə övlad arasındakı bu qırılmaz əlaqəni, dərin mənəvi bağlılığı təsəvvür etmək üçün yalnız bunu qeyd etmək kifayətdir ki, Peyğəmbər (s) ona Ümm-Əbiha (atasının anası) adını vermişdi. Peyğəmbər (s) Fatiməni (ə) çox vaxt bu adla çağırmış, ona ürəyinin sirrini açmış, nəvazişlə başını sığallamış, açıq ürəklə sözlərinə qulaq asmış və istəklərini məmnuniyyətlə yerinə yetirmişdi...

Bəli, Fatimə (ə) belə bir qız idi və təbii ki, onun ərə getməsi, ailə qurması məsələsi Allahın Rəsulu (s) kimi bir ata üçün olduqca böyük əhəmiyyət daşıyırdı. Peyğəmbər (s) ona xüsusi qayğı və diqqətlə yanaşırdı. Buna görə də İslam peyğəmbəri (s) həmişə düşünür və çalışırdı ki, əziz Fatiməsinin (ə) ərə getməsi barədə İlahi məsləhəti ilə və əmrini almadan bir addım atmasın. Odur ki, cahiliyyə dövrünün Qüreyş qəbilələrinin başçıları, böyükləri və Ərəbistan yarımadasının adlı-sanlı məşhur varlıları Fatimə (ə) üçün elçiliyə gələndə onların hamısına "yox" cavabını verdi və bu barədə qərarı İlahi məşvərəti, səma nidası çatanadək təxirə saldı... Və nəhayət, Pərvərdigardan, İlahi iradəsindən lazımi göstəriş aldıqdan sonra bu barədə addım atdı və Fatiməni (ə) İslamın fədakar əsgəri, canından keçən sərdarı, qəhrəman Əli bin Əbu Talibə (ə) ərə verdi. Peyğəmbərin (s) kürəkəni və Fatimənin (ə) əri iftixarına bütün bəşəriyyət tarixində heç bir şəxsiyyət Əli (ə) qədər layiq deyildi. "Təbəqat" əsərinin müəllifi İbn Səd yazır: "Fatimənin (ə) elçiliyi üçün Peyğəmbərin (s) hüzuruna ilkin tələsən Əbu Bəkr idi. Xahişinin cavabında eşitdi ki, mən İlahinin əmrini gözləyirəm. Əbu Bəkr oradan qayıtdıqda elçiliyə getməsini və Peyğəmbərin (s) verdiyi cavabı dostu Ömərə danışdı. Ömər dedi: "Peyğəmbər (s) bu yolla sənə "yox" cavabı vermək istəmişdir." Səhərisi günü Ömər, Əbu Bəkrin tövsiyəsi ilə Fatimənin (ə) elçiliyinə getdi. O da Əbu Bəkr eşitdiyi cavabı eşitdi. Sonra Əlinin (ə) ailəsi Fatiməyə (ə) elçi getmək barədə onunla söhbət edib, bu işə həvəsləndirdilər. Əli (ə) məyusluq və ümidsizliklə dedi: "Məgər Əbu Bəkrlə Ömərin elçiliyinə rədd cavabından sonra mənim elçiliyimə razılıq alınar?" Əlinin (ə) ailəsi Əli (ə) ilə Peyğəmbər (s) yaxınlığını və qohumluğu məsələsini yada salaraq onu bu işə ümidvar etdilər. Odur ki, Əli (ə) elçilik üçün İslam peyğəmbərinin (s) hüzuruna tələsdi və utana-utana, çəkinə-çəkinə öz xahişini bildirdi. Beləliklə, Peyğəmbər (s) də Əlinin (ə) xahişini qəbul etdi, ona "hə" cavabını verdi. Tezliklə Fatimə (ə) (onun dünya malından demək olar ki, heç nəyi yox idi) Əliyə (ə) ərə getdi."[1]

### Fatimeyi-Zəhranın (ə) Əlinin (ə) elçiliyinə cavabı

Həyat yoldaşı seçmək hər bir cavanın – istər qız olsun, istər oğlan – həyatının ən həssas mərhələlərindən biridir. Evlənmə, ərəgetmə - müştərək bir həyatın, birgə ömrün taleyinin seçilmə mərhələsidir, bir sıra qüvvətli nəsillərin tarixinin mühüm yaradıcı dayağı və sabahkı cəmiyyətin övladları, nəvələri, qurucuları üçün gələcəyin bünövrəsidir. Deməli, təbii olaraq, evlənmə, ərəgetmə məsələsi şəxsi, xüsusi bir iş çərçivəsindən çıxaraq ictimai-sosial və tarixi səciyyə daşıyır. Bu isə öz-özlüyündə aydındır ki, bir çox millətlərin taleyində, gələcək tarixində mühüm və taleyüklü rol oynayır.

Buna görə də layiqli həyat yoldaşı seçmək çətin işdir, xüsusilə də qızlar üçün o qədər də asan və sadə bir məsələ deyil. Əksinə, bu mühüm iş ölçülüb-biçilmiş əsaslar və qanunlar, əsrlərlə mövcud olan sabit dəyişilməz qaydalar üzərində qurulmalıdır. Bu işdə Allah eləməmiş, kiçicik bir xətaya, yanlış hərəkətə yol verilməməlidir. Deməli, bu barədə ən etibarlı üsul, sözsüz ki, İlahi qanunlarına, əbədi səma təlimlərinə əməl etməkdir. Bu qanun və təlimlər isə bəşər övladına öyrədir ki, ata və ana həm adi, həm də ümumi şəraitdə həmişə bu barədə övladlarından daha çox təcrübəlidir. Onlar daha çox canyananlıq və qayğı ilə, ani, ötəri hisslərə qapılmadan lazımi və düzgün qərar çıxara bilirlər. Buna görə də ata və ana ilə məsləhətləşmək, onların razılığını almaq qızların ərə getməsi üçün başlıca şərtlərdən sayılır. Bəziləri bunu gənclərin ən vacib və zəruri dini-bəşəri vəzifələri sırasında hesab edərək bu cəhəti nəzərə almamağın zərərli olduğunu göstərmişlər. Bununla belə nəzərə almaq lazımdır ki, bu icazə və razılıq da gərək düzgün və ağıllı, məntiqi və məqsədyönlü əsaslara söykənmiş olsun. Əgər ata və ana nadanlıq, düşmənlik, tərslik üzündən bu məsələyə zidd çıxsalar və ya bu hüquqlardan sui-istifadə edərək ağıllı dəlil gətirmədən yalnız qeyri-məntiqi şəxsi mülahizələrini əsas götürsələr, onda onların bu hüququ inkar edilir. Məhz buna görə də hər bir qız özü üçün layiqli, ürəyi istəyən həyat yoldaşı seçməsi məsələsində razılığı və sərbəstliyi müqəddəs İslam şəriətində mükəmməl şəkildə nəzərdə tutulmuş və bu barədə müsəlman qızlarına elə geniş hüquqlar verilmişdir ki, onların bənzərini heç bir başqa dində tapmaq mümkün deyil.

İlahi məramların nəzərə alınmasının əsasını qoyan, onları icra edən, səma qanunlarını yer üzündə yerinə yetirən kəramət sahibi Peyğəmbər (s) qızı Fatimənin (ə) özünə həyat yoldaşı seçməsini onun öhdəsinə qoydu və

[1] Təbəqati-İbn Səd, 1 cild, s. 19

bu barədə kiçicik bir təzyiq belə göstərmədi. Qızın öz fikrini azad şəkildə bildirməsinə, İslam hüququna əməl etməsinə böyük ehtiramla yanaşdı ki, bu iş İslam cəmiyyəti və tarixi üçün bir nümunə olsun. Burada diqqəti cəlb edən bir mühüm cəhət var: Peyğəmbər (s) yaxşı bilirdi ki, Fatimənin (ə) ərə getməsi məsələsi ilə təkcə onun gələcəyinin taleyi yox, eyni zamanda bəşər cəmiyyətlərinin, İslamın gələcək nəsillərinin xeyir və əmin-amanlığı həll olunur.

İslam peyğəmbəri (s) indiyədək bir neçə qızını ərə vermişdi və heç zaman onların iradə və ixtiyarlarını əllərindən almamışdı. İslamın şücaətli, qoçaq əsgəri Əli bin Əbu Talib (ə) Zəhrayi-Mərziyyə (ə) üçün İslam peyğəmbərinin (s) yanına gəldikdə o həzrət buyurdu: “İndiyədək bir neçə nəfər də elçiliyə gəlmiş və mən şəxsən bu məsələ haqqında qızımla məsləhətləşmişəm. Amma o razı olmadığı üçün üzünü çevirmişdir. İndi də sənin elçiliyini ona çatdıraram.”

Peyğəmbər (s) qızı Zəhranın (ə) yanına getdi və məsələni əziz qızına açıb dedi. Zəhra əvvəlki dəfələrin əksinə olaraq bu dəfə üzünü döndərmədi və öz sükutu ilə razılığını anlatdı. Kəramət sahibi Peyğəmbər (s) “Allahu Əkbər” deyə-deyə bayıra çıxdı və qızının sükutunun razılıq –xoşluq əlaməti olduğunu bildirdi.”[1]

Beləcə, Fatimə ilə Əli (ə) evləndilər. Bu evlənmə doğrudan da, iki nurun əsl qovuşması idi. Elə iki nurun ki, bir-birinin kənarında imamlığın parlaq günəşini bəşəriyyət üfüqündə ucaldaraq hər yerə işıq saçdılar...

## Sadə və kiçik cehiz

İnsan yaranışının ilkin mərhələsindən başlayaraq onun ən zəruri və təbii ehtiyaclarından biri ailə qurmaq və evlənmək olmuşdur. Bəşərin davamı, nəsillərin artması sözsüz ki, bu məsələ ilə sıx bağlıdır. Buna görə də evlənmə məsələsi bəşər cəmiyyətində ibtidai insan dövründən tutmuş onun ən inkişaf etmiş zamanına kimi diqqət mərkəzində olmuşdur. Bütün din və məzhəblərdə də evlənmə üçün xüsusi qanun-qaydalar nəzərdə tutulmuşdur. Bu qanun-qaydalar olmadan nəinki ailələrin əsası və cəmiyyətlərin bünövrəsi dağılır, eyni zamanda insan nəslinin halatı da heyvanlara məxsus bir hal alır, yəni insanlıq mənəviyyatı və dəyəri məhv olur, bəşər şəxsiyyəti, bəşər siması tamamilə pozulur.

Buna görə də, İslamın İlahi ayini bu mühüm və həyati məsələ üçün də elə müqəddəs qanun-qaydalar qoymuşdur ki, onlar həm bəşərin davamı üçün zəmindir, həm də hər bir fərdin, ailə və cəmiyyətin mənəviyyatının, bəşəri dəyərlərinin qorunması üçün vacib şərtlərdir. Burada bir mühüm cəhəti xüsusi qeyd etmək lazımdır: İslam bu zəruri və təbii məsələyə ən təbii və sadə şəkildə yanaşmış və onun hər cür dəbdəbədən kənar, ağır və əl-ayağı bağlayan şərtlərdən uzaq bir şəkildə həllini nəzərdə tutmuşdur. İslamda evlənmənin əsas şərtlərinə, o cümlədən evlənmə yolundakı maneələrə, qadağanlara ötəri bir nəzər də kifayətdir ki, bu müqəddəs, İlahi ayinin evlənmə və ailə qurmaq məsələsində də insanın öz təbii ehtiyaclarını əsas götürdüyünü təsdiqləyək. İslam bu məsələdə qadın və kişinin sadə və təbii bir şəkildə bir-birinə qovuşmasını, evlənməsini əsas götürmüş və qadınla kişinin qanuni və təbii şəkildə evlənməsi yolundakı bütün əngəlləri, o cümlədən cahiliyyə dövründə və ya başqa din və cəmiyyətlərdə mövcud olan maneələri aradan qaldırmışdır. Elə buna görə də İslamda qadınla kişinin ən sadə və dəbdəbəsiz bir şəkildə evlənməsinə üstünlük verildiyinin şahidi oluruq. İslam evlənmə məsələsindəki ağır öhdəlikləri, müxtəlif çətin şərtləri ailə qurma yolunda maneə hesab edərək bunun son nəticədə bəşər cəmiyyətində fitnə-fəsada, pozğunluğa bais olacağını, qeyri-qanuni əməllərə gətirib çıxaracağını göstərmişdir. İslamda evlənmənin sadəliyi və dəbdəbədən uzaq olması hər şeydən əvvəl bu baxımdan diqqəti cəlb edir ki, ümumiyyətlə, İslamda həyati məsələlərin bünövrəsi maddi əsaslar üzərində qurulmadığı kimi, ayrı-ayrı şəxslərin nüfuz və hörmətindən, ad-sanı və nəslinin əsl-köklü olmasından da asılı deyil. Əksinə, həmin bünövrə yalnız və yalnız mənəviyyat və dindarlıq, iman və paklıq, nəciblik və bəşəri kamillik üzərindədir. Müsəlman qadın və kişilərin birgə həyatının əsasını, bütövlükdə İslam cəmiyyətinin bünövrəsini bu keyfiyyətlər təşkil edir. Buna görə də evlənmə məsələsində dəbdəbə və ağır öhdəliklər nəinki İslamda nəzərdə tutulan sadə və təbii evlənmə mərasiminə aiddir, həm də bir çox ailə-məişət pozğunluqlarının, fitnə-fəsadın mənbəyi, kökündür. Çünki ağır evlənmə şərtləri, dəbdəbəli evlənmə xərci təbii ki, hamı üçün yerinə yetiriləsi deyil. Ona görə də belə şəxslər qanuni evlənmə şərtlərini yerinə yetirməyə, müqəddəs ailə həyatını qurmağa qadir olmadıqlarını bilərək məyus olur, ruhdan düşürlər və bu mübarək, hörmətə layiq işdən boyun qaçırırlar. Bu isə son nəticədə həm onların pozğunluğa yuvarlanmasına gətirib çıxarır, həm də cəmiyyətdə fitnə-fəsadın yayılmasına səbəb olur.

İlkin İslam cəmiyyətlərində müsəlmanların evlənmə məsələsinə qısa bir baxış göstərir ki, ailə qurmaq bu cəmiyyətlərdə nə dərəcədə müqəddəs və pak bir əməl sayılmış və necə bir sadəlik və təbiiliklə icra olunmuşdur. Xüsusilə də, İslam peyğəmbərinin (s) alicənab qızının necə və nə tərzdə ərə getməsinə, Əli (ə) ilə necə

---

[1] İslamda qadın hüququ qaydası, s. 58

müqəddəs ailə qurmasına diqqət yetirdikdə bu həqiqət açıq-aşkar üzə çıxır. Həmin evlənmə bu pak və təmiz, namuslu və fəzilətli ailənin ardıcılları olmaq istəyənlər üçün ən ali və ən gözəl nümunədir.

İslam tarixçilərinin hamısı qeyd edir ki, Peyğəmbərin (s) gözünün işığı Fatimeyi-Zəhranın (ə) İslamın şahsuvarı Əli (ə) ilə mübarək evlənmə mərasimi olduqca sadə və təbii bir şəkildə oldu. Düzdür, o vaxtlar evlənmə mərasimləri ümumiyyətlə sadə və təbii olurdu, lakin o müqəddəs vücudun evlənmə mərasimi həddindən artıq sadəliyi və bər-bəzəkdən uzaqlığı ilə seçilirdi. Bu nümunəvi evlənmə o dərəcədə sadə və təmtəraqdan uzaq idi ki, Fatimənin (ə) kəbin haqqı və nigahla evlənmə xərcinin hamısı cəmi dörd yüz səksən dirhəmə başa gəldi. Həmin məbləği də alicənab kürəkən öz zirehini satmaq yolu ilə əldə etmişdi.

Bəli, elçilik mərasimi qurtardıqdan sonra toy mərasiminin xərcindən söhbət düşdükdə məlum oldu ki, Əlinin (ə) nə nağd pulu var, nə dar gün üçün saxladığı əmanəti, nə də satlıq bir ev əşyası. O həzrət axırda öz döyüş zirehini satmağa məcbur oldu (onsuz da o qoçaq və qəhrəman cəngavərin – düşmənin canına od salan şücaətli döyüşçünün döyüş zirehinə ehtiyacı yox idi). Mərhəmətli Peyğəmbər (s) də həmin zirehin puluna Zəhranın (ə) ehtiyacı üçün ən zəruri olan ev əşyalarını aldı. İndi “cehiz” adlanan həmin əşyalara ən azı birgə həyata təzə qədəm qoyan hər bir cavan ər-arvadın ehtiyacı var. Beləliklə, Allahın Rəsulunun (s) qızının cehizi aşağıdakı geyim və ev əşyalarından ibarət idi:

1. Qiyməti 7 min dirhəm olan bir dəst qadın köynəyi;
2. Qiyməti 4 min dirhəm olan bir böyük baş yaylığı;
3. Qara Xeybər qətifəsi (hamam dəsmalı);
4. Xurma lifindən düzəlmiş bir taxt;

5 Üzü Misirdə toxunmuş qaba kətan parçadan olan iki dəst yorğan-döşək: birinin içi xurma lifindən, o birinin içi qoyun yunundan idi;

6. Taifin gön dərisindən hazırlanmış dörd ədəd mütəkkə (yastıq);
7. Nazik yun parça;
8. Otağa döşəmək üçün bir ədəd həsir;
9. Bir əldəyirmanı. Fatimeyi-Zəhra (ə) ev üçün lazım olan unu mübarək əli ilə həmin əldəyirmanında çəkirdi;
10. Bir mis teşt;
11. Bir kiçik su tuluğu;
12. Bir taxta kasa;
13. Bir aftafa;
14. Bir yaşıl bardaq;
15. Bir neçə saxsı kuzə;
16. Dəridən düzəldilmiş bir süfrə;
17. Pambıqdan toxunmuş bir əba.

Tarix kitablarında yazıldığı kimi, kəramət sahibi Peyğəmbər (s) öz mübarək alilə bu cehizləri qızına bağışladı və öz mübarək kəlamı ilə ona xeyir-dua verdi. Buna görə də həmin sadə və kiçik cehizi bütün dünyanın ən qiymətli və misli-bərabəri olmayan bir cehizi hesab etmək lazımdır. Bəli, bu kiçik ev əşyaları gəlinin cehizi kimi hazır olanda onları Peyğəmbərin (s) hüzuruna gətirdilər. Kəramətli Peyğəmbər (s) o əşyaları mübarək əli ilə o tərəf bu tərəfə çevirib hamısına baxdıqdan sonra əzəmətli və müqəddəs səsi ilə buyurdu: “İlahi, ev əşyalarının çoxu gil və saxsı qablardan olan bu ailəni xoşbəxt et...”[1]

Beləliklə, dünyanın ən böyük və ən müqəddəs şəxsiyyətinin – paklarının pakı olan Fatimənin (ə) cehizi təfərrüatı ilə yuxarıdakı əşyalardır. Bu cehiz tarixi baxımdan əvəzsiz və bənzərsiz olmaqla bərabər, müqəddəs bir ailə qurmağın yaddaşlardan silinməyən, parlaq dərslərini bizə öyrədir. Pakların pakı Zəhranın (ə) cehizinə diqqət yetirdikdə onda minlərcə elə gizli mətləblər, rəmzi dərslər aşkar etmək olar ki, onlar bütövlükdə cehizin çoxluğunun, cehizə göz dikməyin, gündən-günə onun sayını və qiymətini artırmağın, bir sözlə, əslində evlənmə mərasiminin dəbdəbəli və təntənəli olması xatirinə onu bir növ “yarışa” çevirməyin yeni ailə quran cavanların xoşbəxtliyi çün heç bir zəmanət vermədiyini sübut edir. Belə bir “yarış” nəticəsində cavanların çoxu evlənə bilmir, bu isə öz-özlüyündə ruhi və əsəbi xəstəliklərin yaranmasına, fitnə-fəsadın, pozğunluğun, əxlaqsızlığın yayılmasına, müxtəlif xəstəliklərin artmasına, bir sözlə sağlam İslam cəmiyyətinin süqutuna gətirib çıxarır. Peyğəmbərin (s) qızı və şiələrin birinci imamının evlənmə qaydası, ailə qurma tərzi həqiqətən böyük bir elmi dərsdir, keçmişin və bugünün zərərli adət-ənənələri ilə barışmaz bir mübarizədir. Elə bir adət-ənənə ilə mübarizədir ki, əxlaq və mənəviyyata, fəzilət və daxili gözəlliyə, daxili dəyərlərə deyil, mal və sərvətə,

[1] Ustad Tofiq Əbu Ələm. Fatimeyi-Zəhra, s. 155

gözqamaşdıran dəbdəbə və təntənəyə fikir verir. Belə bir adət-ənənənin daşıyıcıları bilmirlər ki, mənəviyyat, gözəl əxlaq olmadan heç bir sərvət, hətta bir günlük, bir anlıq xoşbəxtliyi belə təmin edə bilməz.

## Əlinin (ə) evinin əşyaları

Peyğəmbərin (s) qızı Fatimənin (ə) sadə cehiz əşyaları ilə tanışlıqdan sonra şiələrin birinci imamı Əlinin (ə) də evinə baş çəkmək və o həzrətin evində hansı əşyaların olduğunu bilmək yerinə düşər. Həmin müqəddəs evlə tanışlıq birincisi, şiələrin birinci imamının necə bir sadə evdə yaşadığını göstərir. İkincisi isə, Peyğəmbərin (s) qızının bir gəlin kimi necə bir evə qədəm qoyduğunu bizə məlum edir. Bundan əlavə, Peyğəmbərin (s) kürəkəninin maddi vəziyyəti ilə tanış olmaq imkanını da bizə verir.

İslam tarixçiləri yazırlar ki, Əli (ə) toy günü üçün, hörmətli həyat yoldaşının rifahı üçün yalnız aşağıdakı sadə ev əşyalarını tədarük etmiş və satın almışdı:

1. Paltar və su tuluğu asmaq üçün bir taxta asılqan;
2. Bir ədəd qoyun dərisi;
3. Bir ədəd mütəkkə (yastıq);
4. Bir ədəd su tuluğu;
5. Bir ədəd un ələyi.

Bəli, Əlinin (ə) ailəsi üçün yaşayış vasitələri kimi satın aldığı əşyaların hamısı bunlar idi. Əli (ə) onları cəmi bir neçə dirhəmə satın almışdı.

## Kirayə mənzil

Peyğəmbərlik və imamlıq ailəsinin o ən böyük, ən ali bəylə gəlini – Əli (ə) və Fatimə (ə) evləndikləri ilk gündən başlayaraq kirayə götürdükləri kiçik mənzildə yaşayırdılar. Mədinə şəhərinin alaqapısının yaxınlığında Qəba adlanan məhəllədəki bu mənzil məscidin kənarında idi. Onun sahibi Loğmanın övladlarından olan Harisə idi. Bu iki böyük şəxs həmin kiçik evdə yoxsulluq və kasıblıq içində yaşasa da, onların heç bir şikayət və gileyləri yox idi. Ona görə ki, onlar üçün həyatda mühüm və vacib olan şey yalnız və yalnız saflıq və mənəvi təmizlik idi. Həmin keyfiyyətlər isə bu iki gəncdə kifayət qədər var idi.

Bəzi tarix kitablarında yazıldığına görə həmin ev İslam peyğəmbərinin (s) mənzilindən uzaqda yerləşirdi və qızı Zəhra (ə) ilə kürəkənini tez-tez görməyə böyük həvəsi olan kəramətli Rəsul (s) üçün bu uzaq məsafəyə gedib-gəlmək çətinlik törədirdi. Buna görə də Peyğəmbər (s) bir gün yenə də adəti üzrə Fatimənin (ə) mənzilinə təşrif gətirərkən buyurdu: “Qızım, istəyirəm, sizi öz mənzilimizin yanında olan bir evə köçürəm ki, səni tez-tez və asanlıqla görə biləm.”

Fatimə (ə) möhtərəm atasına dedi: “Harisənin daha bir neçə evi var. Onunla söhbət edin, bəlkə bizim üçün ayrı bir ev ayırdı.”

İslam peyğəmbəri (s) buyurdu: “Harisə indiyədək bizim üçün çox mənzil boşaldıb və özü gedib uzaqda yaşayıbdır. Buna görə də bu barədə onunla bir daha danışmağa üzüm gəlmir.”[1]

Bu xəbər Harisəyə çatcaq özünü Rəsulun (s) xidmətinə yetirib dedi: “Ey Allahın Rəsulu (s), mən bütün malımla bərabər Sizin ixtiyarınızdayam. İndi isə çox istəyirəm ki, mənə minnət qoyub Fatimeyi-Zəhranı (ə) mənim öz mənzilimə köçürülməsinə icazə verəsiniz.”

Beləliklə, Allahın Rəsulu (s) Fatiməni Harisənin daha yaxında yerləşən başqa bir evinə köçürtdü.[2]

Bu xəbər başqa rəvayətlərlə də təsdiq olunur. Bir çox hədis kitablarında və tarixi mənbələrdə göstərildiyi kimi, İslamın ulu Peyğəmbəri (s) toy günü Fatiməni (ə), üstündə bir qətifə olan öz dəvəsinə mindirdi və Salmana buyurdu ki, gəlinin dəvəsinin cilovunu tutub aparsın.

Bu hədis göstərir ki, Peyğəmbərin (s) evi ilə kürəkəninin evi (indi İslam dünyasının gəlininin yola düşdüyü ev) arasında kifayət qədər fasilə var idi. Belə olmasaydı, hörmətli gəlinin bu qədər yolu dəvə üstündə getməsinə heç bir ehtiyac olmazdı.[3] Düzdür, gəlinin dəvə üstündə aparılmasını o dövrün adəti kimi də qəbul etmək olar. Lakin qeyd etmək lazımdır ki, İslamın ulu Peyğəmbəri (s) – bir çox zərərli adətlərə son qoyan o böyük şəxsiyyət belə məsələlərə fikir verməzdi. Bu cür əhəmiyyətsiz adətlər onun üçün ümumiyyətlə mövcud deyildi.

---

[1] Biharul-ənvar, 42-ci cild, s. 114
[2] İbn Səd, Təbəqat, 8-ci cild, s. 14
[3] Hilyətul-əbrar, 1cild, s. 108

## Ailənin rahatlığı üçün evdə çalışma

Fatimeyi-Zəhra (ə) bir ev qadınının, canıyanan və işgüzar bir ev xanımının, zəhmətkeş və yorulmaq bilməyən bir həyat yoldaşının ən parlaq nümunəsi idi. O həzrət ailəsinin rahatlığı üçün hər cür çətin və ağır işlərə dözürdü. O böyük xanım şəxsən öz mənzilində öz əlilə əl dəyirmanında çəkdiyi undan qabarlı əllərilə xəmir yoğurur, təndiri özü qalayır, suyu özü quyudan çəkir və özü çörək yapırdı. Bir sözlə, o zaman rahatlıq vasitələrinin yoxluğu üzündən həddindən artıq ağır olan, bir nəfərin öhdəsindən gəlməsi mümkün olmayan bütün ev işlərini təklikdə görür və əsla giley-güzar etmirdi.

Fatimənin (ə) bütün bu ağır işləri təklikdə görməsindən xəbəri olan Əli (ə) bir gün onu yorğun halda görüb mehribanlıqla dedi:

“Ay Zəhra, elə çətin işləri görürsən ki, mənim qəlbimi incidir. Allah müsəlmanlar üçün xidmətçilər və çoxlu qüvvələr nəsib etmişdir.Əgər istəyirsənsə, Allahın Rəsulunun (s) yanına gedib onlardan birini istə. Qoy yanında qalıb sənə xidmət etsin, köməkçin olsun ki, bu qədər yorulmayasan.”

Fatimə (ə) həmin gün atasının görüşünə getdi. Salam verib bir qıraqda sakitcə oturduqdan sonra Peyğəmbər (s) onun ürəyində nə isə bir narahatlıq olduğunu duyub soruşdu: “Əziz qızım, nə olub, nə işin var?”

Fatimə (ə) nə qədər çalışsa da, nə üçün gəldiyini deyə bilmədi. Odur ki, atasının cavabında dedi: “Sənə salam verməyə gəlmişəm.”

Bu sözləri deyib atasının evindən çıxdı. Fatimənin (ə) ağır ev işlərinə görə bərk yorulmasından ürəyi sıxılan Əli (ə) bir gün həyat yoldaşı ilə birgə Peyğəmbərin (s) yanına gedib onun əvəzindən həmin məsələni açıb dedi. Peyğəmbər (s) bu sözü eşidən kimi dərhal qəti şəkildə buyurdu:

“Allaha and olsun ki, yox. Əsla bacarmaram, döyüşdə əsir alınmış birisini sizə bağışlaya bilmərəm. Müsəlmanları ac qoya bilmərəm. Heç onlar üçün yeməyə bir şey tapa bilmirəm. Həmin əsirləri satıb pulu ilə yalnız Səffənin aclarını doyururam.”

Beləliklə, Əli (ə) ilə Fatimə (ə) tam razı halda əliboş qayıtdılar.

## Evin-ocağın idarəsi

Ev-ocaq hər bir cəmiyyətin varlıq mərkəzi və onun fəal təşkiledici qüvvəsidir. Buna görə də bütün bəşər cəmiyyətlərinin inkişaf və tərəqqisində evin, ocağın mühüm yaradıcı rolu var. Bu bir inkaredilməz həqiqətdir ki, cəmiyyət evdən və ailədən qidalanır, onunla böyüyür. Buna görə də evi bir insan tərbiyə edən instituta, onun məzunlarını isə cəmiyyətin böyük idarəedici qüvvələrinə bənzətmək olar.

Onu da nəzərə almaq lazımdır ki, hər bir evdə qadının rolu olduqca həssas və həlledicidir. Bu ocağı idarə etməyin müxtəlif məsələləri qadının öhdəsinə düşür. Birgə ailə həyatına qədəm qoyan hər bir xanımın ən mühüm vəzifəsi mənzili qaydaya salmaq, nizamlamaq və cəmiyyətin bünövrəsi sayılan evi idarə etməkdir. Aydındır ki, bu vəzifələrin yerinə yetirilməsində yol verilən kiçicik bir zəiflik və süstlük cəmiyyətin dayaqlarını sarsıtmış olar.

Fatimeyi-Zəhra (ə) bu mühüm məsələyə xüsusi diqqət yetirir və öhdəsinə düşən vəzifələrin yerinə yetirilməsində olduqca böyük səy göstərir, yorulmaq bilmədən çalışırdı. Hörmətli həyat yoldaşı Əli (ə) onun bu dərəcədə fədakarlıqla çalışmasını heyrətlə izləyir, ona yüksək qiymət verirdi. O həzrət bir dəfə Səd qəbiləsindən olan bir dostuna öz həyat yoldaşının çalışqanlığı barədə belə danışmışdı:

“İstəyirsənmi, sənə Fatimədən danışım? O, İslam peyğəmbərinin (s) qızı, özü də ən istəkli qızı olmasına baxmayaraq, mənim mənzilimdə çiynində kuzə o qədər su daşıdı ki, sinəsinə ziyan oldu. Əl dəyirmanında o qədər buğda üyütdü ki, əlləri qabardı. Evin, həyətin təmizliyi, paklığı üçün mənzilə o qədər süpürgə çəkdi ki, paltarlarının rəngi soldu. Ocaqdakı qazanların altında o qədər odun yandırdı ki, paltarları his-tüstü rəngində oldu...”[1]

Bu hədis Fatimənin (ə) ev işlərinə olan canıyananlığını göstərir. O həzrətin evində qulluqçu tutmağa imkanı var idi, özünə bu qədər zəhmət verməyə bilərdi. Lakin evə, ocağa olan eşqi, məhəbbəti naminə, həyat yoldaşının, övladlarının rahatlığı xatirinə bütün işlərə özü əl qatır və onları yerinə yetirməkdən zövq alırdı. Bəli, o evi həyatın özəyi, bünövrəsi hesab edir və bu yolda canla-başla çalışırdı. Bu səy və təlaş İslam cəmiyyətinin bütün qadınları üçün ən ali nümunə ola bilər və olmalıdır.

## Fatimənin (ə) fəzilətləri və əxlaqi keyfiyyətləri

---

[1] İmam Musayi-Sədrin dilindən söylənmiş bu sözlər Süleyman Kəttaninin kitabından götürülmüşdür. Eyni məzmunlu hədisə rast gəlməsək də, başqa hədislərdə ona oxşar fikirlər var.

“... Yer üzünün ən yaxşı qadını dörd nəfərdir: İmranın qızı Məryəm (həzrət Məsihin anası), Xüvəylidin qızı Xədicə (Allahın Elçisinin (s) həyat yoldaşı), Asiyə (Fironun həyat yoldaşı) və mənim qızım Fatimə (ə)...”[1]

Bütöv bir dünyaya bərabər, ən ali məna və məfhum yükünü daşıyan bu gövhərli kəlam Allahın kəramətli Rəsulunun (s) mübarək sözlərindəndir. Bəli, bizim böyük Peyğəmbərimiz (s) alicənab qızını İslam, Quran və Peyğəmbər baxımından dünyanın ən yaxşı, ən böyük dörd qadınından biri adlandırmışdır. Bu elə böyük bir iftixardır ki, qələm və söz onu yazmaqda, bəyan etməkdə acizdir.

İslam peyğəmbərinin (s) nəzərində belə bir yüksək məqamı tutan, bu cür sözlərlə şərəflənən o qadın necə bir qadındır? Onun hansı imtiyazları, mənəvi dəyərləri və səciyyəvi əxlaqi keyfiyyətləri vardır?

Düzdür, qələm o həzrətin əxlaq və mənəviyyat dənizinin bir damlasını belə bəyan etməkdə çətinlik çəkir, lakin Peyğəmbər (s) nəslinin aşiqlərinin bu barədə kiçicik də olsa bir məlumat almaq istədiklərini, həmçinin Fatimənin (ə) həyatı və şəxsiyyəti haqqındakı belə bir kitabda həmin mətləblərin olmamasının onun üçün bir nöqsan sayılacağını nəzərə alaraq İlahinin lütfü və köməyilə və o həzrətin müqəddəs nəfəsinin yardımı ilə gücümüz çatdığı qədər onları hörmətli oxucuların nəzərinə çatdırırıq.

Bəli, qeyd olunduğu kimi, Fatimeyi-Zəhra (ə) dinlər tarixində ən yüksək və ali imtiyazlardan bəhrələnmiş nadir simalardan sayılır. Bəşəriyyət həmin imtiyazlara özünün ən yüksək qiymətini vermişdir. Qeyd etmək lazımdır ki, yalnız Zəhranın (ə) müqəddəs vücudunda müşahidə olunan bəzi nadir və misilsiz üstünlük və fəzilətlər, mənəvi dəyərlər bu alicənab qadını onunla bir sırada olan başqa qadınlardan daha da uca və şərəfli etmişdir.

Fatimə (ə) özünəməxsus, səciyyəvi imtiyaz və xüsusiyyətlərinə görə elə bir yüksək zirvədə, elə bir parlaq nöqtədə dayanmışdır ki, başqa böyük qadınlar, dini şəxsiyyətlər onun şüası altında qalmışlar. Bunun da səbəbi aydındır: axı Fatimə (ə) Məhəmmədin (s) tərbiyə məktəbində doğulub tərbiyə almış və Əlinin (ə) isti və müqəddəs ocağında yaşamışdır. Bu şəxsiyyətlərin hər biri isə övliya və peyğəmbərlər aləminin ən böyük əxlaq-tərbiyə sahiblərindən sayılır. Bəli, Fatimənin (ə) mübarək vücudunun dəyərini Məhəmməd (s) və Əlinin (ə), Həsən (ə) və Hüseynin (ə), Zeynəb (ə) və Gülsümün (ə) dəyərlərini nəzərə almaqla ölçmək lazımdır. Onların hər biri öz-özlüyündə mənəviyyat və fəzilət, elm və əməl, tərbiyə və möminlik aləminin ən parlaq ulduzlarıdır. Bununla belə, hər şeydən əvvəl nəzərə almaq lazımdır ki, pakların pakı Zəhra (ə) bu imtiyaz və xüsusiyyətləri insanlığın, bəşəriyyətin böyük müəllimindən – ulu və hörmətli atasından – Allahın Rəsulundan (s) qazanmış və möminlərin (müttəqilərin) mövlasının – şiələrin rəhbərinin yanında yaşamaqla davam etdirmişdir.

Fatimeyi-Zəhranın (ə) tərbiyə məsələsində bir mühüm cəhətə xüsusi diqqət yetirmək lazımdır: Fatimənin (ə) mehriban və qayğıkeş atası qızına müraciətində elə bir dərin mənalı, gövhər kimi qiymətli cümlə söyləmişdir ki, o böyük xanımın bütün həyatında silinməz iz buraxmış və əbədilik onun üçün bir örnək, nümunə olmuşdur. O həzrətin buyurduğu həmin cümlə belədir:

“Əziz qızım Fatimə, bu dünyada öz işini özün gör, sabah mən sənin üçün heç bir iş görə bilmərəm.”[2]

Bu dərin mənalı cümlə göstərir ki, hər kəs gərək öz səy və imanı ilə özü ilə Allahı arasındakı əlaqəni düzgün istiqamətdə qursun. Əks təqdirdə hətta Allahın peyğəmbərinin (s) qızı olmaq da Qiyamət günündə insanın çətinlik düyününü açmır.

Bəli, bu elə bir dərin mənalı cümlədir ki, əgər hər bir müsəlman qadını və kişisi onu düzgün dərk edib həyatda ona əməl etsə, səadət və xoşbəxtliyə qovuşar. Amma belə bir böyük kəlamı bütün dərinliyi ilə dərk edən və bütün varlığı ilə ona əməl edən bircə nəfər olmuşdur ki, o da Fatimədir (ə). Həmin cümlə pakların pakı Fatimənin (ə) bütün duyğu və düşüncələrinə, fikir və əməllərinə hakim kəsildi və onu böyük atasının parlaq nümunəsinə çevirdi. İndi isə Fatimənin (ə) bu peyğəmbərlik göstərişləri işığında fəth etdiyi zirvələri bir-bir bəyan etməyə başlayaq.

### 1. Allahı tanıma

Allahı tanımaq bəşərin ilkin yaradıcı mərhələsini təşkil, çünki bəşəri fəzilət və dəyərlərin əsasında Yaradanı dərk etmək durur. Allahı tanıma bəşərin ilkin rüşeymi, onun fəaliyyət və təkamül mərkəzidir. Bəşər həyatının məramnaməsində Allahı tanıma prinsipi olmasa, onun bütün əməlləri – fikri və əməli fəaliyyəti düzgün və bərabər əsaslar üzərində qurula bilməz.

Pakların pakı Zəhra (ə) Allahı tanıma məsələsində nadir bir şəxsiyyət idi. Onun Allahı taınma əlamətləri bütün əməllərində, işində, fikirlərində özünü göstərirdi. O, gecə-gündüzünü nəfsin və Allahı tanımanın təkamülünə sərf edir, bu yolla hər an yeni addımlar atırdı. Allahı dərk etmənin bu qığılcımları onun vücudunu bürümüşdü. Bütün varlığı bu mərifət alovlarının içərisində idi.

---

[1] Böyüklər haqqında seçilmiş sözlər, s. 45

[2] İslamın nümunəvi qadını, s. 156

İstəkli oğlu imam Həsən (ə) hörmətli anasının bu parlaq xüsusiyyəti haqqında belə buyurur: “Anam gecələr sübhədək Allaha ibadətlə məşğul olur və qazandığı mənəvi dəyərlərə görə Allaha dua edərkən Yaradandan əvvəlcə qonşularına mərhəmət göstərməsini diləyər və buyurardı: “Əvvəl qonşu, sonra öz evim.” Aydındır ki, yalnız və yalnız bu cür səmərəli bir məktəbdə tərbiyə almış bir şəxs belə bir məntiq sahibi ola bilərdi. Çünki yaşadığımız dünyada insanların çoxu hər şeydən əvvəl özlərini düşünür və hər şeyi birinci olaraq özləri üçün istəyirlər. Sonra isə vaxt və ya əlavə imkanlar olduqda başqaları haqqında da fikirləşirlər. Özü də bunu özlərinə tərəfdarlar toplamaq xatirinə edirlər. Fatimənin (ə) məntiqi isə belə insanların əksinə olaraq təbiətindəki paklıqdan və əzəmətli mənəvi aləmindən irəli gəlirdi. Bu xüsusiyyətlər isə yalnız Məhəmmədin (s) tərbiyə məktəbində qazanıla bilər, çünki belə bir məntiqin əsasında insansevərlik və humanizm, fədakarlıq və özünü qurban vermək kimi keyfiyyətlər durur. Bütün bunlardan isə başqa məktəblərdə əsər-əlamət belə ola bilməz.

### 2. İşlərdə intizam və diqqətlilik

İşlərdə intizamlı və diqqətli olmaq din övliyalarının verdikləri tövsiyələrin tərkib hissəsi olmaqdan əlavə həm də bir növ daxili tənzimləmədən, nizam-intizamdan da xəbər verir. İntizama, mərama dəqiq riayət etmək, həm də hər hansı bir şəxsin etiqad və inama bağlılıq dərəcəsini də aşkar edir.

Fatimənin (ə) həyatında nizam-intizamın necə bir rol oynamasına gəldikdə isə qısaca olaraq bunları demək olar: Fatimənin (ə) həyatı başdan-ayağa öz işlərində intizamlı və diqqətli olmağından, dəqiq, ölçülüb-biçilmiş meyar və məramlar əsasında davranmağından xəbər verir. Fatimeyi-Zəhra (ə) müxtəlif şəxsi işlərinə və məsuliyyətinə baxmayaraq, ev işlərindən tutmuş zehni, mədəni və ictimai işlərə qədər hamısının öhdəsindən gəlir və heç bir işi yarımçıq qoymurdu. Buna ən yaxşı sübut isə Zəhranın (ə) həyatıdır. O həzrətin bütün işləri dəqiq qayda-qanunlar əsasında nizamlanır. Hər bir iş vaxtlı-vaxtında yerinə yetirilir və heç biri o birinə maneçilik törətmirdi.

### 3. Fatimənin (ə) ədəb və nəzakəti

Fatimənin (ə) ədəb və nəzakəti ilk öncə Allah qarşısında ali ruhların və İlahi mələklərin köməyilə etdiyi ibadətlərdə, sonra isə Yaradanın seçilmiş bəndəsi olan Tanrının kəramətli Elçisinin (s) qarşısında yerinə yetirdiyi borclarında saflaşır, büllurlaşırdı. Məlum olduğu kimi, cahiliyyə ərəbləri bəşər mədəniyyətindən çox az bəhrələnmişdilər, bəzi qəbilələr isə başqa millətlərin mədəniyyətindən ümumiyyətlə tam xəbərsiz idilər. Onlar İslamı qəbul etdikdən sonra bir müddət köhnə adət-ənənələrinə əməl edirdilər. Ərəb qəbilələrinin bir çoxu hələ də əxlaq qaydalarını, ictimai əlaqələrini düzgün şəkildə yerinə yetirmirdilər. Bə səbəbdən də onlar İslamın əzəmətli Peyğəmbərinə (s) bədəvilərə və cahiliyyə dövrünə məxsus adlarla müraciət edirdilər. Bu müraciətlər içərisində bəzi hallarda həqarətlə səslənənləri də var idi.

Nəhayət, Allah tərəfindən bu şərif ayə nazil oldu: - “Allahın Rəsulunu bəzilərinizin bəzi kəsləri çağırdığı kimi çağırmayın.”

Fatimeyi-Zəhra (ə) deyir: “Bundan sonra mən daha atama “əb” (ata) sözü ilə müraciət etmirdim və əvəzində başqaları kimi mən də o həzrəti “Rəsulullah” deyə çağırırdım. Bir neçə dəfə atamı bu ləqəblə çağırdıqda o həzrət cavab vermədi. Sonra buyurdu: “Fatimə can, bu ayə sənin və övladların üçün nazil olmamışdır. Sən məndənsən və mən də səndənəm, bu ayə Qüreyşin təkəbbürlü şəxsləri üçün nazil olmuşdur. Sən mənə həmin “ata” sözünü de, çünki bu söz mənim ürəyimə çox yatır, məni fərəhli və şad edir. Allahı da razı salır.”[1]

Bəli, bu Fatimənin (ə) ədəb və nəzakətinə aid bir nümunədir. Bu nümunə göstərir ki, o həzrət hətta mehriban atasının, ən yaxın adamının qarşısında belə qayda-qanunu gözləyir və ona qarşı etinasızlıq göstərmirdi.

### 4. Allah yolunda hicrət (köçmə)

Fatimeyi-Zəhra (ə) hələ azyaşlı ikən Məkkədən Mədinəyə köçmək qərarına gəldi. Yuxarıda qeyd olunduğu kimi, o həzrət başqa Fatimələrlə birgə Əlinin (ə) başçılıq etdiyi kiçik və müqəddəs bir karvanla onlarça təhlükə ilə üz-üzə gələrək bu iki şəhər arasındakı məsafəni qət etdi. Xatırladaq ki, pakların pakı Zəhra (ə) Peyğəmbərin (s) nəslindən ilk müqəddəs qadındır ki, Allah yolunda bu mühacirətə razılıq verdi. Fatimə (ə) yaşının azlığına baxmayaraq Allahın bəxş etdiyi ağıl və fərasəti ilə dini inam və etiqadlarını qorumaq və böyük atasının

[1] Nümunəvi xanım, s. 156

çatdırdığı İlahi ayinlərə əməl etmək xatirinə doğulduğu vətəndən əl çəkdi. Bəli, o yaşca kiçik, lakin qəlbi dənizlər qədər böyük, fikirləri okeanlar qədər dərin olan qız öz yurd-yuvasından, dost-tanışından, ailəsindən və onun üçün ən doğma, ən sevimli olan bütün şeylərdən əl çəkərək ən ali, ən böyük məqsədi yolunda Mədinəyə köçdü. Köçdü ki, iman və etiqadını, inam və ayinini sağlam bir şəkildə, əmin-amanlıqla və düşmən təhlükəsindən uzaq bir yerdə qoruyub saxlaya bilsin. Beləliklə, Peyğəmbərin (s) mühacirətindən bir neçə gün sonra Fatimə (ə) də yuxarıda qeyd olunduğu kimi, Mədinəyə yola düşərək mehriban atasına qovuşdu və İslam tarixində ən böyük bir hadisə olan hicrət tarixi səhifəsinə də böyük atasının (s), Əlinin (ə) və başqa məşhur mühacirət edənlərin adları ilə yanaşı öz adını da əbədilik həkk etdi.

## 5. Kamal və fəzilətlərin başlıca mənşəyi

Fatimənin (ə) bütün həyatı misilsiz kamal və fəzilətlərdən, bənzərsiz üstünlük və səciyyəvi xüsusiyyətlərdən xəbər verir. O həzrətə məxsus bu keyfiyyətləri dünya tarixində nəinki heç bir qadında, hətta pak peyğəmbərlik məqamından və müqəddəs imamlıq nəslindən başqa heç bir kişidə belə tapmaq mümkün deyil.

Bütün bu kamal və fəzilətlər haradan başlayır, öz mənşəyini haradan götürür?

Məlum olduğu kimi, müasir elm valideynin bəzi xüsusiyyətlərinin irsən övladlarına keçməsini sübut edir. Bununla belə Fatimənin (ə) həyatında daha mühüm bir məsələ vardır: O həzrətin ilk tərbiyəçisi, ilk böyük müəllimi – ulu Peyğəmbər (s) gözünün işığını, qəlbinin meyvəsini, dünya xanımlarının xanımını lap körpəlikdən kamal və fəzilətlərin əsl kökü, mənşəyi ilə tanış etmiş və onun canını – qəlbinin təşnəliyini Quranın zülal kimi həyat bəxş edən suyu ilə doyurmuşdu. Bəli, İslamın ilk böyük Peyğəmbəri (s) əziz qızını həmişə Quranın sahilsiz okeanına, Onun ayələrinin mənalı və tərbiyəedici dərinliyinə baş vurmağa çağırır və bu səma Kitabındakı incə mətləbləri, rəmzləri açıqlayırdı. Yalnız ulu Peyğəmbər (s) həmin mətləbləri öyrənmək səadətini qazanmışdı. Peyğəmbər (s) istəyirdi ki, qızının canını Quranın ətirli nəfəsilə təravətli etsin. O həzrət (s) mübarək ömrünün son anlarında da bu tövsiyəsini təkidlə əziz qızına buyururdu.

Tarixçilər yazırlar ki, Allahın Rəsulu (ə) bu dünyadan köçərkən Fatimə (ə) atasının başı üstündə duraraq yaşlı gözlərilə o İlahi simaya baxır və dərd-qəmin şiddətindən bu şeri zümzümə edirdi:

Ağ bənizli o kişinin parlaq simasının bərəkətindən
Yetimlərin və dul qadınların fəryadına yetmək üçün buluddan su istəyirlər.
İndi həmin o şəxs aramızdan gedir...

Birdən kəramətli Peyğəmbər (s) gözünü açdı və Zəhraya (ə) müraciətə dedi: “Qızım, bu şer əmin Əbu Talibindir, mənim mədhimə qoşmuşdur onu. Qızım şer oxuma, Quran oxu.”

Peyğəmbər (s) bu mübarək kəlamı ilə öz qızının gələcək nəsillərin qızlarının hafizəsinə həkk etdirdi ki, onların əsl səadət və xoşbəxtliyi şer və nəğmələrdə yox (hətta İslam peyğəmbərinin (s) mədhinə, tərifinə aid olsa belə), Quranda və İlahi kəlamlarındadır. Bəli, şairlərin şer və nəğmələri yox, Quran bəşərin ruhi və fikri qidasını təmin edə bilər. Şer və nəğmələr ən yüksək səviyyədə və ən düzgün, ən layiqli şəxslərin qələmindən çıxmış olsa belə, əgər öz mayasını Qurani-Məciddən götürməmiş olsa, İslamın və hörmətli Peyğəmbərin (s) fikrincə, oxunmağa layiq deyillər.

Bəli, Fatimə belə nəsihət və moizələri çox dinləmiş, alicənab atasından həyat dərsi almış, Qurani-Məcidin mənşəyini yaxşıca dərk etmiş və bu İlahi kitabındakı fəzilətləri, sonsuz əxlaqi-mənəvi dəyərləri incəliyinə qədər anlamışdı.

Bütün bunlara onu da əlavə etmək lazımdır ki, Fatimənin (ə) atasına olan əlaqəsi bir qızın atasına bəslədiyi hisslərdən qat-qat güclü və alovlu idi. O, atasını dərin bir məhəbbətlə sevirdi. Lakin bu qız da atası kimi adi deyildi. O, Peyğəmbərin (s) özünün buyurduğu kimi, “atasının anası” idi. Atası qürbətdə və tənha olarkən onun əzablarına təsəlli bəxş edəni, qəmli-kədərli anlarında qəmçəkəni, müharibədə-cihadda döyüş və səngər yoldaşı, Şibi-Əbu Talibdə mühasirədə olarkən daima hüzurunda duranı, o həzrətin qəlbinin, həyatının şirin meyvəsi, sonbeşiyi, ömrünün tənha çırağı, Əlinin (ə) ömür-gün yoldaşı, o böyük din rəhbərlərinin – Peyğəmbərin (s) nəvələrinin anası idi. Bəli, bütün bu keyfiyyətlər, misilsiz imtiyazlar bəşəriyyət tarixində yalnız bir qadına məxsusdur. O böyük və müqəddəs xatuna, bənzərsiz və mübarək xanıma – Fatiməyə (ə) məxsusdur.

## 6. Fatimə (ə) bir evdar qadın kimi

Fatimeyi-Zəhra (ə) Məhəmməd (s) məktəbinin yetirməsi idi. Təlim-tərbiyəsini ilahi vəhyinin sinifində başlamışdı. İnsan tərbiyə edən bu mədrəsəni bitirdiyi üçün o həzrətin bütün sözü, işi, fikirləri yaradıcı və qurucudur. İlahi və mənəvidir. Məhz buna görə də o həzrətin davranış və əməl qaydaları İslam dünyasının bütün qızları, qadınları üçün nümunə olmalıdır. İndi isə Fatimənin (ə) mənzildə və evdarlıq işlərində rəftarına, özünü ev sahibəsi kimi necə aparmasına, ər üçün həyat yoldaşlığı, övladlar üçün isə analıq vəzifələrini necə yerinə yetirməsinə nəzər salaq.

Fatimə (ə) hər şeydən əvvəl nümunəvi bir evdar qadın, canıyanan və mehriban, düşüncəli və dərrakəli, bir ev sahibəsi idi. O, hər kəsdən daha yaxşı dərk edirdi ki, cəmiyyətin bünövrəsi, dayaq nöqtəsi evdə qurulur. Cəmiyyətdəki vicdanlı və sağlam cavanlar da, naxələf və pozğun övladlar da evdə tərbiyə alırlar. Buna görə də ev mühitini məhəbbət və təmizlik, düzgün tərbiyə və saf əxlaq mühitinə çevirmək üçün var qüvvəsilə çalışırdı.

Fatimənin (ə) özü uşaqlıq illərini peyğəmbərlik ocağında, İslam dünyasının və bəşəriyyətin ilk ali şəxsiyyətinin yanında keçirdi. İlk tərbiyəsini vəhy və ilham ocağında, o İlahi məktəbin fəzilət və mənəviyyat beşiyində aldı, ən ali və bəşəri dəyərlərə burada yiyələndi. Elə buna görə də o, hər kəsdən daha yaxşı bilirdi ki, övladın tərbiyəsində evin, ailənin rolu nə dərəcədə böyük və mühümdür. Bundan əlavə o, həyatının inkişaf və yaradıcı dövrünü imamlıq və vəlilik ocağında keçirdi. Bu da öz-özlüyündə onun həmin ocaqda pak və layiqli övladlar tərbiyə etməsinə səbəb oldu. Fatimənin (ə) boya-başa çatdırdığı övladları vəlilik bayrağını başları üstündə qaldırıb, bütün bəşəriyyət üçün imamlıq çırağını alovlandırdılar.

O həzrətin evdarlıq işlərində rəftarı, alicənab ərinə və övladlarına olan münasibəti Allaha ibadətindən, bilikli və qüdrətli Yaradana olan mənəvi bağlılığından, İslam yoluna – iş, mübarizə və inqilab yoluna olan sədaqətindən irəli gəlirdi. Belə ki, yerinə yetirdiyi hər bir işdə, atdığı hər bir addımda birinci növbədə Allahı düşünür və çalışırdı ki, şəxsi həyatındakı, ailəsindəki hər bir işi, əməli ictimai həyatındakı kimi İslam və Quran yolu ilə başa gəlsin. Əri ilə İslamın qoyduğu qayda-qanunla rəftar etməyə, övladlarına Quranın buyurduğu qaydada tərbiyə verməyə çalışırdı.

Bu məsələlərə xüsusi diqqət yetirmiş İslam tarixçiləri o həzrət haqqında yazmışlar: "Tuluqda o qədər su daşıdı ki, sinəsində yeri qaldı və ziyanı dəydi. Əl dəyirmanında o qədər buğda üyütdü ki, biləyi düyün bağladı və əllərinin içi qabardı. Evi o qədər süpürdü ki, onun təmizliyi üçün o qədər çalışdı ki, paltarlarının rəngi toz rənginə döndü. Qazan altına o qədər odun yandırdı ki, hisdən-tüstüdən paltarlarının rəngi qaraldı."[1]

Onun da ulu atası kimi dünya malında, maddi nemətlərdə zərrəcə gözü yox idi. Əlinə nə düşürdüsə, onun dəyərinə əsla fikir vermədən Allah yolunda xərcləyirdi. Dünya malına bağlılıqdan asudə olduqda isə pak və təmiz halda Allaha ibadətə başlar və hər dərdə çarə qılan, hər şeyin səbəbkarı olan Yaradanına dua və şükürlər edərdi.

Dünyəvi nemətlərə əlaqəsini nə qədər çox kəsirdisə, əzəli və əbədi Pərvərdigara olan bağlılığını bir o qədər möhkəmlədirdi. Əziz oğlu imam Həsən Müctəba (ə) anasının pak və ürəkdən gələn ibadətləri haqqında belə yazır: "Cümə gecələrində görərdim ki, anam ibadət mehrabında durub Allaha dua və şükürlər edir, öz bəndəlik vəzifələrini yerinə yetirir. Görərdim ki, bütün gecəni sabahadək rüku və səcdə vəziyyətində namaz qılır. Allaha dua və şükürlər edirdi. Sübh çağı da eşidirdim ki, daima mömin kişi və qadınlar, qonşular və tanışlar üçün xeyir duası edir, başqalarının adlarını çəkir və əsla öz adını dilinə gətirmir. Bir gün dedim: "Ana, niyə özümüz üçün dua etmirsən? Elə hey başqaları üçün dua edirsən?" Cavabında buyurdu: "Oğlum, əvvəl qonşu, sonra evin içi."[2]

Bəli, Fatimənin (ə) duası belə idi. Fatimə (ə) duası belə də olmalı idi, yoxsa Allaha ibadət də yalnız özünü istəməyə çevrilmiş olardı.

## 7. Fatimənin (ə) ürəyiyumşaqlığı, əxlaqı və biliyi

Fatimə (ə) möhtərəm atasının ən ali əxlaq və davranış qaydalarını, ən yüksək tərbiyə və İlahi həyat qanunlarını öyrənsə də, yeni elm və bilik qazanmağa, müxtəlif məlumatlarla bilik dairəsini genişləndirməyə böyük həvəs göstərirdi. Əxlaq və tərbiyədə çatdığı ən yüksək mərhələ ilə əsla kifayətlənmir və Allaha daha yaxın olmaq, bəndəlik qaydalarını daha yaxşı yerinə yetirmək üçün həmişə oxumağa, biliyini artırmağa çalışırdı.

Pakların pakı Zəhra (ə) ər evinə - İslam elmlərinin bünövrəsi sayılan bu ocağa köçəndən sonra da ev işləri ilə əlaqədar vaxtının azlığına baxmayaraq, bir an belə İslama dair biliklər qazanmaqdan, məlumatlarını artırmaqdan qalmırdı. Ər evində də həmişə elmi və zehni məsələlərlə maraqlanır və körpə oğlanlarını məscidə göndərirdi ki, İslamın böyük müəlliminin buyurduqlarını öyrənsinlər və evdə danışsınlar. Bu yolla həm onların özləri İslama dair mətləbləri öyrənir, həm də Peyğəmbərin (s) mübarək dilindən eşitdiklərini analarına

---

[1] Ustad Məhəmməd Cavad Müğənniyə, "Əş-şiə fil-mizan", s. 213

[2] Biharul-ənvar, 43-cü cild, s. 281

çatdırırdılar. Buna görə də pakların pakı Zəhra (ə) həmişə bütün məsələlərdən xəbərdar olurdu. Bütün bu xüsusiyyətlərinə görə də Fatimə (ə) İslam tarixində düzgün hədislərin ən dəyərli daşıyıcılarından biri sayılır. O həzrətin bütün sözləri müsəlmanlar üçün ən mötəbər və dəlil-sübutlu sənəddir.

O böyük xanımın sözlərindən ibarət "Müshəf" adlı bir kitab övladlarının ixtiyarında olmuşdur. Əziz oğlanları həmişə bu kitabla fəxr edirdilər. Həmin kitabda o həzrətin adlı-sanlı İslam xadimlərindən ibarət kiçik bir qrupun hüzurunda söylədiyi məşhur bir xütbəsi var. Xütbədəki çox dəyərli məsələ və mətləblər Zəhranın (ə) İslama dair geniş və hərtərəfli biliyinə dəlalət edir.

Pakların pakı Zəhra (ə) işinin çoxluğuna baxmayaraq, əlinə düşən hər bir kiçik fürsətdən bilik və məlumatlarını artırmaq üçün istifadə edirdi. Bu işlərə vaxt tapmadıqda isə yatmaq və istirahət saatlarını azaldır, həmin saatlarını mənəvi xidmətdə keçirirdi. Fatimə (ə) başqaları ilə görüşməyə, onların müxtəlif zehni və mənəvi məsələlərini həll etməyə də vaxt tapırdı. O, şəriətə və dinə aid suallara cavab vermək üçün əsla vaxtını əsirgəməzdi. Əksinə, bu işləri də özünün başlıca vəzifələrindən sayır və Peyğəmbərin (s) qızı kimi, Əlinin (ə) həyat yoldaşı kimi, Həsənlə (ə) Hüseynin (ə) anası kimi və nəhayət bir ağıl-kamal sahibi olan, fəzilətli müsəlman qadını kimi həmin məsələlərə böyük məsuliyyətlə yanaşırdı.

Bir gün Fatimənin (ə) xidmətinə bir qadın gəlib namazla və bəşi məsələlərlə bağlı çətinliyi haqqında ona sual verdi. Fatimə (ə) böyük ürək açıqlığı ilə həmin suallara ətraflı cavab verdi. Qadın ikinci bir məsələ haqqında da sual verdi və yenə də eyni qayda ilə cavabını eşitdi. Sonra daha bir sual verdi, dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci, doqquzuncu, onuncu… sualını. Fatimə (ə) də gülərüzlə, mülayim bir tərzdə və tələsmədən hər bir suala tam təfərrüatı ilə iynədən sapa qədər cavab verdi. Həmin qadın böyük İslam qadınına zəhmət verdiyini düşünüb üzrxahlıq etməyə başladı və dedi ki, bu məsələləri yataqda olan, yeriyə bilməyən qoca ata-anası üçün soruşur.

Pakların pakı Zəhra (ə) mehribanlıqla, yumşaq və ürəkaçan bir tərzdə buyurdu: "Nə yaxşı bir iş görüb ananın din və məzhəbə aid suallarını mənə çatdırmısan. Yenə də sualın varsa, çəkinmə, söylə. Hamısına cavab verəcəyəm."

Bu hədis Fatimənin (ə) xasiyyətcə olduqca mülayim və mehriban, səbirli və təmkinli olmasından xəbər verməklə yanaşı həm də böyük İslam xanımının elm, bilik və məlumat baxımından necə böyük məqamla durmasını və bu səbəbdən də müsəlman qadınlarının o həzrətə suallarla müraciət etməsini göstərir. Müsəlman qadınları öz çətinliklərini açıb Fatiməyə (ə) danışır, o həzrət də bilik və kamal sahibi bir ustad müəllim kimi onları böyük səbr və təmkinlə, canıyananlıqla dinləyir, verdikləri suallardan əsla yorulmaq bilmirdi. Fatimə (İə) xidmətinə gələnlərin bütün çətinliklərini həll edir və onları razılıqla evlərinə yola salırdı.

Qeyd etmək lazımdır ki, bəzi rəvayətlərə görə bu iş İslam peyğəmbəri (s) tərəfindən Fatiməyə (ə) bir vəzifə kimi tapşırılmışdı. O həzrət qadınlara aid məsələləri həll etməyi ağıl-kamal sahibi, fəzilətli qızının öhdəsinə qoymuşdu.

## 8. Fatimə (ə) cəmiyyətdə və siyasət aləmində

Fatimənin (ə) həyatı və şəxsiyyəti ilə bağlı bir mühüm cəhət də ondan ibarətdir ki, o ağıl-kamal sahibi, fəzilətli qadın əsla bir nöqtədə dayanmır, ağıl-kamal aləminin bir mərhələsindən başqa mərhələsinə adlayır, hətta onun ən yüksək zirvəsi ayaqları altında olsa belə, bununla kifayətlənmirdi. Allaha ibadət həyatının bünövrəsi və əsası olsa da, İslamın ictimai-siyasi məsələləri də onun üçün əhəmiyyətli və dəyərli idi. Bir sözlə, pakların pakı Zəhra (ə) da böyük atası və hörmətli əri kimi İslamın bütün sahələrində - fiqhdə, elmi, ictimai-siyasi məsələlərdə fəal iştirak edirdi.

Fatimənin (ə) İslam cəmiyyətinə rəhbərlik vəzifəsini də daşıdığı başqa vəzifələrlə birlikdə öhdəsinə götürür və onu layiqincə yerinə yetirirdi. Bəli, o, ictimai-siyasi həyatında möhtərəm atasının – Allahın Elçisinin (s) həmkarı və köməkçisi idi. Fatimə (ə) bu məsələləri o dərəcədə mənimsəmişdi ki, camaatın ictimai-siyasi məsələlərinin həllini öz öhdəsinə götürmüş və bu işin ağırlığını tam məsuliyyətlə dərk etmişdi. Qəlbindəki yüksək hisslər onu vadar edirdi ki, ərinə və İslamın başqa mübarizlərinə yardımçı olsun və bu işdə biliyini, bacarığını əsirgəməsin. Bəli, Fatimeyi-Zəhra (ə) ictimai, siyasi mübarizə meydanında da fəal və yaradıcı bir qüvvə idi. Elə işlərə girişirdi ki, onun iştirakı olmadan başqaları həmin işləri çətin ki, yerinə yetirə biləydi.

İbn Hüşam məşhur "Sirət" kitabında yazır:

- "Peyğəmbər (s) Ühüd döyüşündən qayıdarkən o həzrətin Zülfüqar qılıncını Fatiməyə (ə) verdilər ki, qanını yuyub təmizləsin. Peyğəmbər (s) bu anda buyurdu: "Qızım, bu qılıncı yu, Allah bu gün möminlər haqqında verdiyi vədə əməl etmişdir." Sonra İslamın şücaətli əsgəri Əli (ə) də qılıncını Zəhraya (ə) tapşırıb

buyurdu: “Bu qılıncı da yu və təmizlə, Allaha and olsun ki, bu qılınc (Allahın istəyi və köməyilə) məni təsdiq etdi və (döyüşdən) salamat çıxardı.”[1]

Fatimə (ə) başqa bir gün isə möhtərəm atasını qana və torpağa bulaşmış sifətdə görür. Qüreyşin rəzil və alçaqlarından biri o həzrətə küçədən keçərkən yerdən toz-torpağı və daş-kəsəyi götürüb Peyğəmbərin (s) ay kimi parlaq sifətinə atır. Körpə qız mehriban atasını belə bir vəziyyətdə - Allah yolunda yaralanmış, torpağa və qana bulaşmış halda görmək tələsik özünü o həzrətin köməyinə çatdırır və gözəl sifətini yuyur, üst-başını təmizləyir. Sonra isə gözlərindən yaşlar axıdır. Atasının ilahi sifətinin bu hala düşməsinə görə vücudunu qəm-qüssə bürüyür. Möhtərəm atası Fatimənin (ə) qəm və kədərini görüb onun ağrı və əzabını anlayır və ona təsəlli verməyə başlayır. Qızına İlahinin vəd etdiyi qələbə və uğuru xatırladaraq buyurur: “Qızım, ağlama, Allah-təala atanın yardımçısı və köməkçisidir.”[2]

Körpə yaşlarından bu səhnələri görən, həmin illərdən başlayaraq yeniyetməlik dövründəki böyük atasının və o həzrətin vəfalı köməkçilərinin ardıcıl mübarizələrinin şahidi olan Fatimə (ə) o zamandan Allah yolunda mübarizə və cihadla yaxından tanış olur, bu mübarizənin böyük ictimai-siyasi əhəmiyyətini duyur və yavaş-yavaş özünü Allaha ibadətlə yanaşı Onun yolunda mübarizəyə də qoşulmağa, bu meydana atılmağa da səfərbər edir.

Buna görə də sonralar, xüsusilə də böyük atası bu dünyadan köçəndən sonra Əli (ə) İslamın əsl qayda-qanunlarını qorumaq üçün imamlığı öz öhdəsinə götürərkən Fatimə (ə) də ictimai-siyasi meydana qədəm qoyur. O, möhtərəm əri ilə çiyin-çiyinə ailəsinin, nəslinin qanuni hüquqlarını əldə etmək və əsl həqiqi İslamı qorumaq üçün mübarizəyə başlayır.

## İslam yolunda şəhid olanların məqbərəsində

Fatimeyi-Zəhra (ə) İslamın ali hədəflərinə sadiqliyini göstərmək və ilk İslam mübarizlərinin müqəddəs və pak amallarına olan sonsuz məhəbbət və ehtiramını bildirmək üçün hər dəfə fürsət düşdükdə Bədr və Ühüd döyüşlərində şəhid olanların məzarları üstünə gedərdi. Ətir saçan o məqbərələrin yanında bir an sükutla dayanar, İslam yolunda şəhid olanların əziz ruhlarına dualar və Qurandan ayələr oxuyar, onları böyük ehtiramla yad edərdi.

Mərhum Şeyx Tusinin olduqca dəyərli “Təhzib” (Təmizlənmə) kitabında bu barədə bir hədis var. İmam Sadiqdən (ə) rəvayət olunmuş həmin hədis Fatimənin (ə) bu xüsusiyyətini açıq-aşkar göstərir: “Fatimə (ə) hər şənbə günü İslam şəhidlərinin məzarı üstündə olardı. O həzrət Şeyyidüş-şühəda Həmzənin qəbri üstünə gələr, onun üçün mərhəmət dilər, ruhuna dua oxuyardı.”[3]

Pakların pakı Zəhranın (ə) bu hərəkəti atası üçün canından keçmiş böyük əmisinə olan şəfqət və qohumluq hissindən əlavə onun İslam mübarizlərinə qarşı bəslədiyi dərin imanından və qədirbilənliyindən də xəbər verir. Bundan əlavə, Fatimənin (ə) bu hərəkəti o dövrdə baş vermiş ictimai-siyasi hadisələrdə bu böyük qadının öz müştərək məsuliyyət hissini də necə həssaslıqla dərk etməsini sübut edir.

Fatimənin (ə) İslam şəhidlərinin məzarı üstünə gəlib dua oxuması həm də onların əsla unudulmadığını, daim yad edildiyini göstərir.

## 9. Fatimeyi-Zəhra (ə) və təlim-tərbiyə

Böyük fiqh alimi, İslamın tərəqqisi naminə öz canını İslam hökmlərinə qurban vermiş ikinci şəhid, şagird və tələbələrin təlim-tərbiyə məsələlərinə aid yazdığı “Münyətül-mürid” (Müridin məqsədi) adlı dəyərli kitabının müqəddiməsində pakların pakı Fatimənin (ə) fəzilətləri ilə bağlı bir hədis vermişdir. O böyük xanımın mənəvi aləmindən xəbər verən həmin hədis belədir:

“Bir qadın Fatimeyi-Zəhranın (ə) hüzuruna gəlib dedi: “Bir zəif və şikəst anam var. Anam məni sizin yanınıza göndərdi ki, suallarını sizə söyləyim.” Fatimeyi-Zəhra (ə) həmin qadının suallarına cavab verdi. Qadın daha bir sual verdi və o həzrət onun cavabını bildirdi. Bu qayda ilə həmin qadın o həzrətə çoxlu suallar verdi ki, onların sayı axırda ona çatdı. Fatimeyi-Zəhra (ə) bütün suallara lazımi cavablar verdi.

Qadın sualların çoxluğuna sıxılır və yenə sual verməyə utanır və xəcalət çəkirdi. Buna görə də dedi: “Bundan artıq sizə zəhmət vermək istəmirəm.”

Əziz Fatimeyi-Zəhra (ə) buyurdu: “Nə sualın varsa, de, onu təkrar deməkdən belə çəkinmə.” O həzrət sonra qadını ürəkləndirmək üçün əlavə etdi: “Əgər kimsə bir gün ərzində ağır bir yükü çiynində daşıyaraq onu bir

---

[1] Sirətu-İbn Hüşam, 3-cü cild, s. 106
[2] Məhəmmədin (s) həyatı və risaləti, s. 105
[1] Cila-əl-uyun, 1-ci cild, s. 154

evin damına qaldırırsa və onun əvəzində min dinar zəhmət haqqı alırsa, məgər bu məbləğdə çoxlu pulu qazanmaq o qədər əzab-əziyyət çəkən həmin şəxs üçün dözülməzdir?" Qadın dedi: "Yox." Onda Fatimeyi-Zəhra (ə) buyurdu: "Mən də muzdurluq edirəm və özümü Allahın günəmuzdu, muzduru sayıram. Hər bir suala verdiyim cavab üçün haqqım, muzdum da yerlə göy arasındakı məsafəni dolduran mirvarilərin hamısından daha qiymətlidir. Odur ki, mən o yük daşıyan muzdurdan daha üstün və layiqəm. Ona görə də sənin suallarına cavab verməkdə heç bir zəhmət hiss etmirəm. Allahın Elçisi olan atamdan (s) eşitmişəm ki, buyururdu: "Bizim məktəbin davamçıları olan alimlər Qiyamət günü ayağa qalxarkən camaata öyrətdikləri elm və bilik ölçüsündə, bu yoldakı səy və çalışmaları miqdarında ən bahalı paltarlarla bəzənəcəklər. Həmin alimlərin hər birinin üstündə min bəzəkli örtük və daşqaşlı paltar olacaqdır. Sonra Yaradanımız tərəfdən Qiyamət əhlinin qulağına belə bir səs çatacaq: "Ay camaat, ay Məhəmməd (s) nəslinin yetimlərini himayəyə götürən camaat! Ruhani atalarını, dini rəhbərlərini itirmiş, başları üzərində rəhbərlik kölgəsi kəsilmiş o yetimləri öz qayğınız altına alın, onların təlim-tərbiyəsi ilə məşğul olun. Ey alimlər və dini rəhbərlər, bilin ki, bu yetimlər sizin şagirdlərinizdir. O şagirdlərinizdir ki, onlara hamilik etməyi öhdənizə götürmüş və qayğılarını çəkmişsiniz. Siz gərək onların vücudunu və şəxsiyyətini dünyada elm və biliyin dəyərli örtüyü ilə bəzəyəsiniz ki, onlar da öz növbəsində öz bilik və elmləri səviyyəsində başqalarının şəxsiyyətini belə nurlu, işıqlı paltarla bəzəsinlər.

Qiyamət günü həmin şagirdlərin (onları Məhəmməd (s) nəslinin yetimləri adlandırmaq lazımdır) əynində yüz min nurani paltar və örtük olacaqdır. O şagirdlər də öz növbəsində şagirdlərinin əyninə bir o qədər nurani paltar geyindirəcəklər. Sonra Allah-təala belə bir fərman verəcək: "Belə böyük din alimlərinin nuraniliyini artırın və onların əyninə həmişə bu xələtlərdən geyindirin. Sonra bu xələtləri həmin alimlərin sayı qədər artırın ki, mükəmməl olsun. Həmin artırılmış xələtlər də eynilə alimlərin və müəllimlərin paltarları kimi onların – şagirdlərin əyninə geyindirilir. Bu iftixar onlara bahalı və nurani paltar geyinməmişdən qabaq, paltarların sayı ikiqat artdıqdan sonra nəsib olur. Beləliklə, onların məqam və dərəcələri öz kamil və layiqli həddinə çatır. Onlar bu üstünlüyü yüksək mövqe tutan, bahalı paltar geyən şagirdlərinə görə qazanırlar."

Fatimeyi-Zəhra (ə) Peyğəmbərin (s) bu sözlərini nağıl edib qurtardıqdan sonra qadına dedi:

"Bu paltarların hər sapı, ilməsi günəşin nura boyadığı bütün əşyalardan milyon dəfə bahalı və daha yaxşıdır, çünki bütün əşyalar zülmət və qaranlığa bürünmüşdür."

Fatimeyi-Zəhranın (ə) sözləri və İslamın əziz Peyğəmbərinin (s) yuxarıdakı bəyanı belə bir həqiqəti bir daha bizə aşkar edir ki, alimlər, müəllimlər, eləcə də tələbələr – əlbəttə, dini və ilahi dünyagörüşü olan alimlər və tələbələr – Qiyamət günündə belə bir ali məqama çatırlar. Başdan-başa nura boyanmış məqama. Onların gözləri qarşısında heç bir örtük və qaranlıq pərdə mövcud olmayacaqdır. Onların varlığı başdan-ayağa gözüaçıqlıq və uzaqgörənlik, aydınlıq və işıqlılıqdır. Onların gözqamaşdırıcı şəxsiyyəti qarşısında heç bir qaranlıq şey mövcud olmayacaqdır."[1]

### 10. Fəzilət və bilik sahibi

Məhəmməd bin Cərir bin Rüstəm Təbəri "Dəlailül-imamət" (İmamlığın dəlilləri) adlı kitabında belə bir hədisi nağıl edir: "Bir şəxs Fatimeyi-Zəhranın (ə) hüzuruna gələrək deyir: "Ey Allahın Elçisinin (s) qızı! Yanınızda İslam peyğəmbərinin (s) elə bir yadigarı varmı ki, bir hədiyyə və töhfə kimi kiməsə bağışlayasınız?"

Fatimeyi-Zəhra (ə) öz hüzurunda olan kənizə buyurdu ki, bükülü ipək parçanı gətirsin. Kəniz ipək parçanı axtarmağa başladı. Lakin onu tapmadı. Fatimə (ə) bərk narahat olub buyurdu ki, hər yeri axtar, o parçanı tap. O parça mənim üçün Həsən və Hüseyn (ə) qədər qiymətlidir. Kəniz bir müddət axtardıqdan sonra ipək parçanı tapdı. Xüsusi bir qaba qoyulmuş ipək parçada yazılmışdı: "İslam peyğəmbəri Məhəmməd (s) buyurmuşdur: "Qonşularını incidən kəs möminlərdən deyil. Allaha və Qiyamət gününə imanı olan kəs əsla qonşusuna əziyyət verməz. Tanrıya və Axirət gününə iman bəsləyən kəs ya gərək dilinə yaxşı söz gətirsin, ya da sussun. Uca Tanrı xeyirxah, dözümlü və namuslu insanları sevir. Yaman dilli, yaltaq və sırtıq adamları düşməni hesab edir. Həya imanın bir hissəsidir və iman sahibi behiştdədir. Söyüş və böhtan pis sözlərin bir növüdür. Pis söz danışan isə atəşdədir..."[2]

## Fatimeyi-Zəhra (ə) Quran ayələri baxımından

O alicənab xanımın böyüklüyü, əzəməti və müqəddəsliyi haqqında çox söz deyilmiş, çox yazılmışdır. Amma bütün bunlardan daha üstünü o fəzilət və əzəmət sahibinə məxsus əlamətlərin, nişanələrin Qurani-

---

[1] Şəhidi-sani (İkinci şəhid). Münyət-əl-mürid fi adab əl-müfid, s. 20
[2] Şərəfuddin. Əl-füsul əl-mühimmə, s. 198

Kərimdə öz əksini tapmasıdır. Allah-təala Qurani-Kərimdəki bir çox ayələrdə dünya qadınlarının fəxri olan Fatiməyə (ə) böyük ehtiramla işarə etmişdir ki, bunun özü də ayrılıqda bu iş və mübarizə qadınına – inqilab və müqəddəslik xanımına ən böyük bir iftixarı nəsib edir.

Bu məsələ ilə bağlı qeyd etmək lazımdır ki, Fatimə (ə) Qurani-Kərimin Əhli-beytə (ə)[1], qarşılıqlı lənətləməyə, qohumluqda məhəbbət və mehribanlığın, nəzrdə sədaqətin gözlənilməsinə, yetimlərə, yazıqlara, əsirlərə rəhm etməyə aid şərif ayələrinin açıq-aşkar təsdiqidir. Və bunlardan daha üstünü "Kövsər"in və başqa nümunələrin aydın təsdiqidir. Bu ayələrin hamısının o böyük xanıma aid olmasını istər şiə əhlinin, istərsə də sünnə əhlinin əksər alimləri, təfsirçiləri yekdilliklə təsdiq edirlər. Bunun özü isə göstərir ki, insaf əhli olan tədqiqatçı alimlərin heç biri bu məsələyə şəkk-şübhə ilə yanaşmır və yalnız Peyğəmbərin (s) fəzilət və kamal sahibi olan qızını bu iftixara layiq bilirlər.

Bu barədə sünnə əhlinin böyük alimlərindən Müslim, Tirmizi, Əhməd ibn Hənbəl, İbn Hacər, Beyhəqi və bir çox başqaları yuxarıdakı ayələrdə bəhs olunan mövzuların o böyük xanıma aid olduğuna işarə etmiş və bu barədə təfsirlər yazmışlar. Biz burada qısaca olaraq bu barədə olan dörd şərif aənin təfsir və şərhini veririk. Ayələrin təfsir və şərhində mötəbər məxəz və sənədlərdən istifadə etmişik.

### 1. Mübahilə (qarşılıqlı lənətləmə) ayəsi

İslamın başlanğıcında ən həssas və tarixi bir anda nazil olmuş və çox mühüm hadisələrin birindən xəbər verən bu şərif ayədə Uca Tanrı belə buyurur:

"Səninlə düşmənlik edən hər bir kəsə de ki, gəlin hamılıqla oğullarımızı, qadınlarımızı və qohumlarımızı çağıraq, sonra bir-birimizi lənətləyək. Və Allahın lənətini yalançılara yönəldək..."

Bəli, peyğəmbərliyə dəvət zamanı başqa din başqa din başçılarının o həzrətlə qarşıdurması gücləndi və iş o yerə çatdı ki, onlar kəramətli Rəsulu (s) yalançı kimi qələmə verdilər. Bu şərif ayənin nüzulu ilə çətin və mürəkkəb bir imtahan mərhələsi ortaya çıxdı. Qərar belə oldu ki, hər iki tərəf öz ailəsi, övladları və qohumları ilə birgə bir-birlərinin qarşısında sıraya düzülüb qarşılıqlı lənətləməyə başlasınlar. Yəni hər kəs Allahın lənətini və İlahinin nifrət və əzabını öz iddiasında yalançı olan kəs üçün istəmiş olsun. Bütün müsəlmanların və hədis müəlliflərinin, hətta xəvaric və münafiqlərin fikrincə, bu şərif ayə də Fatimeyi-Zəhraya (ə) aiddir. Çünki bu şərif ayədə deyilir ki, sizlərdən hər biri qadınlarınızı, xanımlarınızı və oğullarınızı çağırın. Və İslam peyğəmbəri (s) də qadınları içərisindən ciyərparası Fatimədən (ə), oğullarından Həsən (ə) və Hüseyndən (ə), qohumlarından isə Əli bin Əbu Talibdən (ə) başqa heç bir kəsi çağırmadı və yalnız bu kiçik qrupla yola düşdü ki, qarşılıqlı lənətləmə üçün düşmənlərin qarşısında dayansın.

İslam peyğəmbəri (s) hicri tarixi ilə 10-cu ildə bu kiçik və nurani qrupla keşişlərlə və o dövrün məsihiyyət dininin başçıları ilə üz-üzə dayanmaq üçün hərəkət etdi.

Qarşı tərəf isə kilsə başçılarından, patriarxlardan və nəsranilərin (xristianların) məzhəb rəislərindən təşkil olunmuşdu. Cəmi on dörd nəfərdən ibarət bu dəstə də üz-üzə dayanmaq üçün hazır idi.

Dəstənin başçısı Nəcran patriarxının gözü bu nurani və müqəddəs karvana sataşcaq daxilində bir dəyişiklik baş verdi. O, işarə ilə köməkçilərinə dedi: "Ay nəsranilər, mən nurani və İlahi simalardan ibarət bir dəstənin bizə tərəf hərəkət etdiyini görürəm. Əgər onlar dua etsələr ki, Allah dağları yerindən tərpətsin, Yaradan onların dualarını qəbul edəcək. Belə bir dəstə ilə əsla qarşılıqlı lənətləməyə girməyin ki, hamınız həlak olarsınız. Yer üzündə bir nəsrani də qalmaz."

O qarşılıqlı lənətləmə baş tutmasa da, lakin həmin şərif ayənin nüzul olması və Peyğəmbərin (s) öz dəstəsini kimlərdən seçməsi göstərir ki, böyük Rəsul (s) ailəsindən seçdiyi şəxslərin duasına, onların "amin" deməsinə və Allah tərəfindən dualarının qəbul olunmasına tam inanırdı. Başqa sözlə desək, Peyğəmbər (s) əmin idi ki, seçdiyi şəxslər İlahi dərgahının layiqli bəndələri, İslamın İlahi ayininə həqiqi etiqad bəsləyən xidmətçiləri, İslamın ən nümunəvi tərbiyə almış nümayəndələri sayılırlar və onlar İslam təlimlərinin kamilliyini başqa millətlərin, dinlərin nümayəndələri qarşısında ləyaqətlə nümayiş etdirə və onları İslama, Qurana dəvət edə bilərlər.

Deməli, Allahın Rəsulunun (s) bu hadisədə özü ilə yalnız bir qadını – pakların pakı Zəhranı (ə) aparması açıq-aşkar görür və onun İlahi dərgahında necə bir yüksək mövqe tutmasını dərk edirik. Bu isə o deməkdir ki, "Mübahilə" (Qarşılıqlı lənətləmə) ayəsində "qadınlar" dedikdə yalnız Fatimeyi-Zəhra (ə) nəzərdə tutulur. Odur ki, bu dəyər və məqam – İslam təlimlərinin yayılması sahəsindəki bu böyük vəzifə və öhdəlik və bu şərif ayənin Fatimeyi-Zəhraya (ə) aidliyinin gerçəkliyi Allahın Elçisinin (s) bu dünyadan köçməsi ilə aradan qalxmadı, əksinə, öz hökmündə və qüvvəsində qalmaqda davam etdi. Buna görə də Zəhranın (ə) vəzifə və mövqeyi elə bir qeyri-adi yüksək vəzifə və mövqedir ki, onu sadə bir şəkildə şərh etmək mümkün deyil. Bəlkə də buna görədir

[1] "Siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir." Əl-Əhzab surəsi, 33-cü ayə

ki, sünnə əhlinin tanınmış alimi Zəməxşəri “Kəşşaf” adlı böyük və məşhur təfsir kitabında bu ayənin təfsirində bu həqiqəti etiraf edir. Peyğəmbərin (s) və ən yaxın köməkçilərinin (ə) böyük fəzilət sahibi olduqlarına dəlalət edən bu ayə hamının qəbul etdiyi ən güclü sənəddir.

### 2. Paklanma və təmizlənmə ayəsi

Bu şərif ayədə buyurulur: “Allah siz Əhli-beyti tərtəmiz və pak etməyi və pisliklərdən uzaq etməyi istər.”

Böyük İslam təfsirçilərinin, hədis müəlliflərinin və alimlərin dəqiq və ətraflı tədqiqatları, mötəbər məxəz və sənədlərin hərtərəfli araşdırılması göstərir ki, bu şərif ayədəki “Əhli-beyt” ifadəsindən məqsəd həmin beş nəfərdir. Həmin beş parlaq ulduz, beş nur mənbəyi, beş bilik mənşəyi: Allahın Rəsulu (s), Əli bin Əbu Talib (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə).

Məşhur alimlərin ən tanınmış, ən mötəbər məxəzləri bu məsələdə mühüm cəhətləri aşkar edir məsələn, Cəlaləddin Süyuti özünün “Əd-dürr-ül-mənsur” adlı məşhur təfsir kitabında bu şərif ayənin təfsirinə iyirmidən çox hədisi daxil etmişdir. Həmin sənədlər sübut edir ki, bu ayədəki “Əhli-beyt” ifadəsindən məqsəd o beş nəfər böyük şəxsiyyətdir.

İbn Cərir Təbəri də “Ənbiya” kitabında on beşdən çox hədis vermişdir ki, onların hamısı bu ayədəki “Əhli-beyt” ifadəsinin həmin beş nəfər böyük şəxsiyyətə aid olmasını sübut edir. o beş nəfər ki, peyğəmbərliyin mübarək və bərəkətli örtüyü altında idilər. İslam və bəşər tarixində özünə əbədi və möhtəşəm yer tutan beş nəfər onlardır.

Həmin gün o beş nəfər bir nurani qrupu təşkil edərkən İslam peyğəmbəri (s) əlini göyə qaldıraraq, İlahi dərgahına dua edərək dedi: “Allahım, bunlar mənim ev əhlimdir. Pisliyi onlardan uzaq et, onları tərtəmiz və pak et!” Əlbəttə, bu dua həmin bir günlə və həmin bir dəfə ilə məhdud olmadı, əksinə, kəramətli Peyğəmbər (s) bundan sonra dəfələrlə bu duanı təkrar edir və İlahi dərgahı qarşısında bu Peyğəmbər xahişini dönə-dönə dilinə gətirirdi.

Allahın Rəsulunun (s) fəzilət sahibi həyat yoldaşlarından biri Ümm Sələmə bütün İslam alimlərinin, tədqiqatçılarının mötəbər saydığı kitablara və tarixi sənədlərə istinad edərək bu barədə belə deyir: “Bu beş nəfər nurani və böyük şəxsdən ibarət mənim evimdə idi. Həmin gün Allahın Rəsulunun (s) peyğəmbərliyin Əhli-beyti haqqında duasını eşidərkən Peyğəmbərin (s) hüzurunda dedim: “Mən də ev əhliyəm. Rəsulullahın duası mənə də aiddirmi?” Allahın Rəsulu (s) mənim sualımın cavabında öz əbasını öz yaxın köməkçilərinin başına çəkib qəti və möhkəm bir tərzdə buyurdu: “Ey Ümm Sələmə, əlbəttə, sənin belə bir sual verməyə haqqın var, amma Allah şahiddir ki, sən Əhli-beytə şamil deyilsən.”

Bəli, Peyğəmbərin (s) ismətli və pak Əhli-beyti vasitəsilə bu barədə gəlib çatmış çoxlu hədis və xəbərlər bir tərəfdən göstərir ki, Əhli-beyt olmaq şərəfi yalnız o böyük şəxslərə aiddir, bir tərəfdən də Peyğəmbərin (s) ailəsinin başqa üzvlərinin, hətta o həzrətin həyat yoldaşlarının – həyatının şəriki olan bu yaxın adamlarının İlahi səmavi mənada Əhli-beytə şamil olmasını qeyri-mümkün sayır. Bu şərif ayədən də məqsəd elə budur.

Sünnə əhlindən olan qardaşlarımız – böyük və adlı-sanlı hədisçilər də bu barədə bir sıra rəvayətlər nağıl etmişlər ki, onların bəzi nümunələrini biz aşağıda verəcəyik. Bu rəvayətlərdə deyilir: “İslam Peyğəmbərinin (s) mübarək qəlbinə bu şərif ayə nüzul olduqdan sonra o həzrət səhərlər evdən çıxarkən yolunu Fatimənin (ə) evinin yanından salırdı. O həzrət Fatimənin (ə) evinin qabağına çatarkən uca səslə o evin əhlini çağırır və buyururdu: “Əssəlavat, əssəlavat! Peyğəmbər ailəsi. Allah sizi pak və tərtəmiz etmək, pisliklərdən, əyriliklərdən uzaq etmək istəyir...”

Rəsulullahın bu hərəkəti və yuxarıdakı sözləri təkrar etməsi rəvayətlərə görə altı-səkkiz ay ərzində davam etmişdir. Bu müddət o həzrət hər gün səhərlər bu hərəkətini təkrar etmiş və həmin sözləri mübarək dilinə gətirmişdir.

### Təkrarı doğuran səbəb və amil

Burada istər-istəməz bir neçə məntiqi sual ortaya çıxır: Peyğəmbər (s) tərəfindən belə bir hərəkətin təkrarına səbəb nə olmuşdur? Hansı amil nəticəsində bu hərəkət təkrar-təkrar davam etmişdir? Məgər müqəddəs və nurani Peyğəmbərin (s) ismətli, pak Əhli-beyti üçün bu səma xəbərini, İlahinin müqəddəs vədini bir dəfə eşitmək kifayət deyildi? Məgər bu, onların Allah dərgahı qarşısında əzəmət və müqəddəsliyini, izzət və şərəfini sübut etmirdimi?

Əlbəttə, o böyük şəxslər üçün bu sözlərin bircə dəfə də deyilməsi kifayət idi. Buna görə də çox güman ki, kəramətli Rəsulun (s) bu müddət ərzində həmin sözləri təkrar etməkdə çox ali bir məqsədi varmış. Belə ki, bu əməlini dönə-dönə təkrar etməklə hamının qulağına çatdırmaq istəyirmiş ki, yalnız bu kiçik, balaca evin

sakinləri Əhli-beytin açıq-aşkar təsdiqidir və Allahın pak və tərtəmiz etdiyi kəslər onlardır. Səma ayəsi, İlahi kəlamı bu şəxslər haqqındadır. İlahinin xüsusi yardımına layiq görülmüş şəxslər bunlardır. Onların paklıq və tərtəmizliyinə və pislikdən, yaramazlıqdan həmişəlik uzaq olmasına İlahi dərgahı tərəfindən zəmanət verilmişdir.

Bəli, Peyğəmbərin (s) bir neçə ay ərzində bu hərəkətini təkrar etməsini, həmin müqəddəs sözləri dönə-dönə deməsini doğuran bircə səbəb ola bilərdi. Peyğəmbər (s) bununla hamıya çatdırmaq və anlatmaq istəyirdi ki, İslam peyğəmbərinə (s) ən yaxın adamlar, İlahi dərgahında ən sevimli şəxslər, Allahın Rəsulunun (s) və İslam qayda-qanunlarını ən gözəl şəkildə davam etdirənlər Yaradanın Qurani-Kərimdə "Əhli-beyt" kimi qələmə verdiyi kəslərdir. Və Əhli-beyt də həmin o kəslərdir ki, Allahın Rəsulu (s) hər gün şəxsən onlara müraciət edərək İlahi xəbərini çatdırır. Beləliklə də, bu müjdənin əzəmət və dəyəri hər şeydən əvvəl başqaları üçün məlum olmalıdır. Onlar İlahinin xüsusi mərhəmətinə layiq görülmüş bu şəxsləri nə qədər yaxından tanısalar, onların buyurduqlarınun gerçək olduğunu bir o qədər tez və yaxşı dərk edəcəklər.

**Əvəzlik niyə kişi cinsinin cəmindədir?**

Burada bir incə mətləbi də qeyd etmək vacibdir. Ayədə cəmdə olan şəxs əvəzlikləri "ənkumu" və "yutəhhirəkum" şəklindədir, yəni kişi cinsindədir, halbuki ərəb dilinin xüsusiyyətinə görə o, qadınlara məxsus bu şəkildə işlənməlidir: "ənkunnə" və "yutəhhirəkunnə". Həmin ayənin bu şəkildə işlənməsi onun Fatimə (ə) və Əlinin (ə) ailəsinə aid olmasını sübut edir. Ayə göstərir ki, o, Peyğəmbərin (s) Fatimə (ə) və Əlidən (ə), Həsən (ə) və Hüseyndən (ə) ibarət ailəsi üçün nazil olmuşdur və Allahın Rəsulunun (s) həyat yoldaşlarına şamil deyil. Belə olmasaydı, ayədə işlənmiş şəxs əvəzliyi başqa şəkildə olmalı idi.

## 3. Qohumlarına məhəbbət və mehribanlıq

Uca Tanrı Qurani-Kərimdə böyük Rəsuluna müraciətlə buyurur: "Ya Peyğəmbər! De ki: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm."[1]

Qeyd etmək lazımdır ki, burada kəramətli Rəsul (s) haqqında buyurulmuş "qohumluq məhəbbətindən" ifadəsi ilə adi həyatda olan qohumların eyni münasibəti arasında böyük fərq var.

Çünki Uca Tanrı Öz rəsulu (s) haqqında buyurduğu bu məhəbbət adi bir məhəbbət deyil, əksinə həqiqətdə İlahi risalətinin məramının davamıdır. Buna görə də belə əzəmətli məhəbbət Allahın Rəsulunun (s) xahişi ilə olmuşdur. Bu məhəbbət hətta o həzrət üçün dini, risaləti təbliğ etmək yolunda üzləşdiyi çətinlik və müsibətlərin əvəzində qazandığı əcr və mükafat hesab olunur. Həmin qohumları cəmiyyətdə yüksək mövqe tutduqları üçün, onların dostluğu və mehribanlığı xatirinə hər cür əzab-əziyyətə dözməyə dəyər. Bəli, dostluq və mehribanlığı bu dərəcədə əhəmiyyətli olan o qohumlar görkəmli və səlahiyyətli şəxslərdir və onlar peyğəmbərliyi davam etdirə və təbliğ edə bilərlər. Beləliklə, bəşər cəmiyyəti Allahın Rəsulunun (s) onlar üçün nəzərdə tutduğu məqsədə nail ola bilər.

Bu dəyər və səlahiyyətin, nüfuz və qabiliyyətin Peyğəmbərin (s) hansı qohum və yaxınlarında olması məsələsinin aydınlaşdırılması da vacibdir. İslam peyğəmbərinin (s) ailəsinə bağlılığı olan hər kəsəmi bu İlahi kəlamı aiddir? Onların hamısınamı dostluq və mehribanlıq Allah Rəsulu (s) üçün bu qədər əhəmiyyətə malikdir? Yoxsa həmin qohumlar içərisindən yalnız çox az sayda və seçilmiş şəxslər nəzərdə tutulur? O şəxslər ki, Allahın Rəsulunun (s) ailəsinə mənsub olmaqla yanaşı bütün qəlbi və varlığı ilə, dərin inam və paklıqla həmin peyğəmbərlik məramını davam etdirərək bu yolda iri addımlar atırlar.

Şübhə yoxdur ki, əgər əcr və mükafat Peyğəmbərə (s) aiddirsə, yalnız və yalnız həmin peyğəmbərlik və rəhbərlik məqamına görədir. Peyğəmbərlik üçün mükafat isə bu yolun başqa böyük şəxslərinə aid deyildir. Çünki əgər belə bir iş olsaydı, öz-özlüyündə bir növ təzad, nöqsan əmələ gətirərdi. Axı Peyğəmbərin (s) mükafatı onun yolu ilə getməyən qohumları ilə mehribanlıq ola bilməzdi. Məsələn, Əbu Cəhl kimi bir qohuma mehribanlığın buna nə dəxli var? Mükafat yalnız İslam peyğəmbərinə (s) tapşırılmış risaləti təbliğ etmək üçün idi və bu işə zidd çıxanlarla dostluğu nəzərdə tutmurdu. Deməli, burada söhbət o kəslərlə dostluq və mehribanlıqdan gedir ki, peyğəmbərlik məramının yerinə yetirilməsində dəqiq surətdə iştirak etmişlər və hər baxımdan əziz Peyğəmbərin (s) müqəddəs vücudunun parlaq nümunəsidirlər. Belə müqəddəs şəxslərə yalnız vəhy nazil olmur.

Bütün bunları nəzərə alaraq yüksək peyğəmbərlik məqamının qorunmasını istəyən şəxslər və pak Əhli-beytə (ə) ürəkdən vurulmuş şəxslər yekdilliklə bu fikirdədirlər ki, Allahın Rəsulunun (s) qohumlarının ən parlaq

[1] "Əş-Şura" surəsi, 23-cü ayə

təsdiqi sözsüz ki, Fatimə (ə), Əli (ə), Həsən (ə) və Hüseyndir (ə). Çünki peyğəmbərlik məqamının elmi və əməli istiqamətində dəqiq addımlar atan, peyğəmbərliyi davam etdirmək yolunda əziz Rəsulun (s) pak vücudunun parlaq nümunəsi olan məhz onlardır.

Sünnə əhlinin hədisçilərindən Əhməd Bəhrani və Hakim bin Əbu Hatəm də İbn Abbasdan nağıl edirlər ki, böyük İslam peyğəmbəri (s) bu ayə ilə bağlı sualın cavabında buyurmuşdur: "Onlar Fatimə, Əli və onların övladlarıdır."

Başqa böyük hədis müəlliflərindən Məğrizi, Bəğəvi, Sələbi, Əbu Nəim, Həməveyni və başqaları da bu hədisi vahid məna daşıyan müxtəlif ibarələrlə nağıl etmişlər. Həmin müəlliflərin hamısı bu fikirdədirlər ki, burada Əhlil-beytlə (ə) dostluq və mehribanlıq tövsiyə edilmişdir.

Hakim bin Əbu Hatəm bu ayənin təfsirində İslam peyğəmbərindən (s) nağıl edir ki, buyurmuşdur: "Allah-təala məni və Əlini bir şəcərədən (ağacdan, nəsildən) yaratmışdır. Mən o şəcərənin (ağacın) kökü və özü, Əli onun budağı, Fatimə onun peyvəndi (calağı), Həsən və Hüseyn meyvələri və onların davamçıları yarpaqlarıdır. Hər kim bu ağacın budaqlarının birindən yapışsa, nicat tapmışdır."[1]

Təbərani də imam Həsən Müctəbadan (ə) nağıl edir ki, o həzrət məsciddə söylədiyi xütbəsində buyurdu: "Biz elə bir ailənin üzvüyük ki, Allah-təala onlarla dostluq və mehribanlığı vacib bilərək buyurmuşdur: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm."

İmam Səccad Zeynəlabdin də Şam şəhərində oranın bəzi zalımlarının tənəli suallarının cavabında buyurmuşdur: "Məgər qohumluq məhəbbəti haqqında ayəni oxumamısınız? Bu ayədə xatırlananlar biz deyiliksə, bəs kimdir?"

Şair də Əhli-beyt (ə) məsələsi ilə bağlı deyir:
"Ey Peyğəmbərin Əhli-beyti,
Sizə məhəbbət elə bir vacib dini borcdur ki,
Allah Quranda təyin və nazil etmişdir.
Sizin əzəmət və qədir-qiymətinizin nə dərəcədə olduğunu bilmək üçün təkcə bu kifayətdir:
Kim namaz qılarkən sizə salam və salavat göndərməzsə, onun namazı doğru-düzgün deyil."

Beləliklə, mübahilə (qarşılıqlı lənətləmə), paklıq və məhəbbət haqqındakı ayələrlə bağlı fikirlərin nəzərdən keçirilməsi göstərir ki, qohumluq məsələsi necə təfsir olunursa-olunsun, Fatimeyi-Zəhra (ə) böyük İslam peyğəmbərinin (s) ən dəyərli yadigarı, ən görkəmli və kamil nümunəsidir.

### 4. Möminlər və xeyirxahlar

Allah-təala Qurani-Kərimin bir ayəsində buyurur: "O möminlər və xeyirxahlar elə kəslərdir ki, verdikləri sözü (etdikləri nəzri) yerinə yetirərlər."[2]

Hədisçilər yekdil fikirdədirlər ki, bu şərif ayə Peyğəmbərin (s) nəvələri Həsən və Hüseynə (ə) aiddir. Mötəbər sənədlərdə deyilir: Həsən (ə) və Hüseyn (ə) xəstəliyə düçar olduqları halda evdə yorğan-döşəkdə yatırdılar. İslam peyğəmbəri (s) gözünün iki nuruna baş çəkməyə gəlib Fatimeyi-Zəhraya (s) buyurdu: "Əgər nəzir etsəniz ki, Həsən və Hüseyni sağalması üçün üç gün oruc tutacaqsınız, onlar tezliklə şəfa tapacaqlar."

Fatimeyi-Zəhra (ə) və Əhli-beytin (ə) başqa şəxsləri Peyğəmbərin (s) əmrinə itaət etdilər. Onların nəziri tezliklə İlahi dərgahında qəbul olundu və o iki əziz sağalıb yataqdan durdu. Xəstələr sağaldıqdan sonra Peyğəmbər (s) ailəsinin üzvləri öz nəzirlərini yerinə yetirməyə başladılar. Oruc olduqları ilk gün iftar vaxtı bir yazıq adam qapını döydü və uca səslə salam verdikdən sonra dua etməyə başladı. Ev əhli o yazığın gəlişini xeyir sayıb iftar üçün nə hazır etmişdilərsə, hamısını ona verib özləri yeməksiz qaldılar. Sonra onlar eləcə oruclarını davam etdirdilər. İkinci gün axşamüstü yenə iftar zamanı bir yetim qapını döydü və salam verib nəzir istədi. Yenə də ev əhli özləri üçün saxladıqları yeməyin hamısını o yetimə verib yeməksiz qaldı və beləcə oruclarını davam etdirdi.

Beləliklə, üç gün keçdi və Peyğəmbərin (s) Əhli-beyti öz nəzirlərini ən ali və ən təmiz şəkildə İlahi dərgahında yerinə yetirdi.

Üçüncü gün Allahın Rəsulu (s) öz Əhli-beytinin nəzirlərini bu cür gözəl şəkildə yerinə yetirmələrindən xəbər tutub onlara afərin dedi. Sonra isə onları vəhy dili ilə "möminlər və xeyirxahların" nümunəsi adlandırıb yuxarıdakı ayəni onlara çatdırdı.

---

[1] Əl-ğədir, 7-ci cild, s. 231-236

[2] İnsan surəsi (76-cı surə), 7-ci ayə

Bəli, bu cür vəd vermək – nəzir etmək və onu bu qaydada yerinə yetirmək yalnız Allahın Rəsulunun (s) Əhli-beytinə (ə) məxsusdur. Yalnız onlar möminlərin, yəni yaxşıların, yaxşı əməl sahiblərinin, pak və təmiz insanların ən yüksək, ən kamil nümunəsi ola bilərlər.

Beləliklə, demək olar ki, Peyğəmbər (s) Əhli-beytini (ə) tanımaq çətin iş deyil. Çünki onlar elə görkəmli və layiqli şəxslərdir ki, xüsusi əlamət və keyfiyyətə malikdirlər və bu əlamətlər də Qurani-Məciddə bir neçə səma ayəsində qeyd olunmuşdur. Bu əlamətlərə diqqət yetirdikdə belə bir həqiqəti asanlıqla dərk etmək olar: "Bu mərtəbədə layiq olan kəslərə məhəbbət o dərəcədə qiymətlidir ki, Peyğəmbərin (s) mükafatı hesab olunur. Fatimə (ə) və Əlidən (ə) və oğlanlarından (ə) başqa kimsə bu yüksək şərəfə nail ola bilməz."

## Fatimeyi-Zəhra (ə) rəvayətlərin dili ilə

Quran ayələri baxımından həzrət Fatimənin (ə) yüksək mövqeyi ilə tanış olduq. İndi isə rəvayət və hədislərdə o həzrət haqqında olan fikirlərə nəzər salaq.

Əlbəttə, Peyğəmbərin (s) qiymətli yadigarı Fatimeyi-Zəhranın (ə) yüksək və əzəmətli mövqeyi haqqında mötəbər məxəzlərdə və hədis kitablarında o qədər çox yazılmışdır ki, onların hamısının hətta adlarını belə çəksək, böyük bir siyahı alınar. Ona görə də burada yalnız nümunə olaraq sünnə əhlindən olan qardaşlarımız vasitəsilə gəlib çatmış dörd hədisi verməklə kifayətlənirik. Həmin hədislər bizə bu böyük və müqəddəs İslam xanımı haqqında sünnə əhlinin böyük alimlərinin fikirləri ilə tanış olmaq imkanı verir.

### 1. Behiştlik xanımların xanımı

İslam peyğəmbərinin (s) Zəhraya (ə) müraciətlə söylədiyi bu gözəl kəlamı dəfələrlə eşitmişlər: "Behiştlik xanımların xanımı, ya mömin xanımların xanımı olmaq istəmirsənmi?"[1] Ərəb dili və ədəbiyyatının zərifliyi və incəliyinə bələd olanlar bilirlər ki, bu cümlə zahirən sual şəklində qurulmuş olsa da, ondan məqsəd sual yox, əksinə, xəbər və təsdiqdir. Belə ki, "xanımı olmaq istəmirsənmi?" ifadəsi əslində bu mənanı bildirir: "Bilmək istəyirsənmi ki, sən belə bir xanımsan?" Və ya: "İstəmirsənmi biləsən ki, sən belə bir xanımsan?"

Deməli, burada İslam peyğəmbəri (s) əslində əziz qızına belə bir xəbər verir: "Bilirsənmi ki, sən behişt xanımlarının xanımı, mömin xanımların başçısısan?"

### 2. Fatimə (ə) niyə "Fatimə" adlanmışdır?

Böyük İslam peyğəmbəri (s) bir gün gözünün nuru, qəlbinin meyvəsi, pakların pakı Zəhraya müraciətlə buyurdu:

"Bilirsənmi, niyə Fatimə adlanmısan?"

Bu zaman Əli (ə) də Peyğəmbərin (s) hüzurunda idi. Bu sözü eşitcək maraqla soruşdu: "Niyə?"

Peyğəmbər (s) buyurdu: "Ona görə ki, Allah-təala qızım Fatiməni və onun nəslini oddan uzaq və kənar etmişdir." [2] Nəzərə almaq lazımdır ki, "Fatimə" sözünün daşıdığı yüksək mənalardan biri "şərdən və pisliklərdən saxlayan", "şərdən və pisliklərdən ayrılmışdır (ayrılandır)". Buna görə də Allahın Rəsulunun (s) Fatimənin (ə) "oddan uzaq olması" haqqındakı bəyanının mənası daha yaxşı, daha aydın dərk olunur.

### 3. Dörd böyük xanım

Mötəbər məxəzlərdə qeyd olunmuş hədislərə görə İslam peyğəmbəri (s) buyurmuşdur: "Bəşəriyyət tarixində dörd ən görkəmli və fəzilətli qadın var: İmranın qızı Məryəm, Məzahimin qızı – Fironun arvadı Asiyə, Xüvəylidin qızı Xədicə və mənim qızım Fatimə."[3]

Başqa bir hədisdə də İslam peyğəmbəri (s) sevimli qızına müraciətlə buyurdu: "Məryəm öz dövrünün xanımlarının xanımı idi. Sən də öz dövrünün xanımlarının xanımısan."[4]

### Fatimə - bədənimin bir parçası

---

[1] Buxari, Səhih, 4-cü cild, s. 204
[2] Zəxayir-ül-üqba, s. 26
[3] İstiab, 2-ci cild, s. 720
[4] Yenə orada, s. 750

Böyük İslam peyğəmbəri (s) dəfələrlə bu kəlamı mübarək dilinə gətirmişdir: "Fatimə - bədənimin bir parçasıdır."[1]

Bəzi rəvayətlərdə isə deyilir ki, Peyğəmbər (s) bu kəlamına aşağıdakı sözləri də əlavə etmişdir: "Kim onu incitsə, məni incitmişdir; məni incidən kəs isə Allahı qəzəbləndirmişdir."

Başqa bir sıra rəvayətlərdə isə yuxarıdakı kəlam bu şəkildə gəlib çatmışdır: "Fatimə - bədənimin bir parçasıdır. Onu nə xoşhal edirsə, məni də xoşhal edir."

## Görkəmli alim (əllamə) Əmininin geniş şərhi

Əllamə Əmini İslam mədəniyyəti tarixində olduqca böyük yer tutan, son dərəcə əhəmiyyətli və dəyərli "Əl-Ğədir" adlı kitabında Əl-Buxarinin "Səhih" adlı əsərindən Fatimənin (ə) xoşhallığı və razılığı haqqında olan hədisi verdikdən sonra sünnə əhlinin altı mötəbər hədis kitabından da eyni mətləbi təsdiq edən hədisləri nümunə gətirir. Əllamə Əmini müxtəlif söz və ifadələrlə həmin məna və məfhumu ətraflı sürətdə bəyan edir. Həmin o mənanı ki, Fatimənin (ə) razılıq və xoşhallığına aiddir. Fatimənin (ə) razılıq və xoşhallığında isə Allah-təalanın xoşhallığı gizlənmişdir. Və o həzrətin inciməsi ilə bağlı məna. Onun inciməsini Allahın inciməsi hesab edən məna.

Əllamə Əmini yazır: "Mötəbər altı hədis kitabının müəllifləri və sünnə əhlinin çoxsaylı başqa alimləri, böyük şəxsiyyətlər və xadimlər eyni məzmunlu bu hədisi kiçik söz və ifadə fərqləri ilə qeyd etmişlər." Əllamə Əmini həzrət Zəhra (ə) haqqında rəvayətlər söyləmiş sünnə əhlinin aşağıdakı ən böyük müəlliflərinin və hədisçilərinin adlarını qeyd edir:

1. İbn Əbi Məlikə (hicri 117 /miladi 735)-ci ildə vəfat etmişdir). Buxarinin, Müslimin, İbn Əbi Davudun, Əhmədin söylədiklərinə görə;
2. Əbu Əmr bin Dinar Məkki (hicri 125 /miladi 743)-ci ildə vəfat etmişdir). İbn Macə və İbn Davudun söylədiklərinə görə;
3. Leys ibn Səd Misri (hicri 175/miladi 791)-ci ildə vəfat etmişdir). İbn Macənin, İbn Davudun və Əhmədin söylədiklərinə görə;
4. Əbu Məhəmməd ibn Əyinə Kufi (hicri 198/ miladi 814)-ci ildə vəfat etmişdir). İbn Macə və İbn Davudun söylədiklərinə görə;
5. Əbu Ən-nəsr Haşim Bağdadi (hicri 205/miladi 820)-ci ildə vəfat etmişdir). Əhmədin yazdığına görə;
6. Əhməd bin Yunis Yərbui (hicri 227/ miladi 842)-ci ildə vəfat etmişdir). Müslimin və Əbu Davudun söylədiklərinə görə;
7. Hafiz Əbu əl-Valid Təyalisi (hicri 227/ miladi 842)-ci ildə vəfat etmişdir). Buxarinin mötəbər hədisinə görə;
8. Əbül-Müəmmər Həzmi (vəfat tarixi – hicri 336/ miladi 947-948-ci il). Müslimin mötəbər hədisinə görə;
9. Quteybə bin Səid Səqfi (vəfat tarixi – hicri 240/ miladi 854-ci il). İbn Macənin rəvayətinə görə;
10. İsa bin Həmad Misri (vəfat tarixi – hicri 248/ miladi 862-ci il). İbn Macənin rəvayətinə görə;
11. Hənbəlilərin imamı Əhməd (vəfat tarixi – hicri 241/ miladi 855-ci il).
12. Hafiz Buxari Əbu Abdulla (vəfat tarixi – hicri 256/ miladi 870-ci il). Öz hədis kitabına görə;
13. Hafiz Müslim Quşeyri (vəfat tarixi – hicri 261/ miladi 875-ci il). Öz hədis kitabına görə;
14. Hafiz Əbu Abdulla İbn Macə (vəfat tarixi – hicri 273/ miladi 886-888-ci il). Öz hədis kitabına görə, 1 c., s. 216;
15. Hafiz Əbu Davud Səcəstani (vəfat tarixi – hicri 275/ miladi 888-ci il). Öz hədis kitabına görə, 1 c., s. 324;
16. Hafiz Əbu İsa Tirmizi (vəfat tarixi – hicri 275/ miladi 888-ci il). Öz hədis kitabına görə, 1 c., s. 319;
17. Hakim Əbu Abdulla Tirmizi (vəfat tarixi – hicri 285/ miladi 898-ci il). "Nəvadirül-üsul" kitabı, s. 308;
18. Hafiz Əbu Əbdürrəhman Nisai (vəfat tarixi – hicri 303/ miladi 915-916-cı il). "Xəsais", s. 35;
19. Əbül-Fərəc İsfahani (vəfat tarixi – hicri 303/ miladi 915-916-cı il). Əğani, 8 c., s. 156;
20. Həkim Nişaburi (vəfat tarixi – hicri 405/ miladi 1014-1015-ci il). "Müstədrək", 3 c., s. 154-158;
21. Hafiz Əbu Nəim İsfahani (vəfat tarixi – hicri 420/ miladi 1029-cu il). "Hilyətül-övliya", 2 c., s. 40;
22. Hafiz Əbu Bəkr Beyhəqi (vəfat tarixi – hicri 458/ miladi 1066-cı il). "Sünəni-kübra", 7 c., s. 307;
23. Əbu Zəkəriyya Xətib Təbrizi (vəfat tarixi – hicri 502/ miladi 1109-cu il). "Mişkati-məsabih", s. 560;
24. Hafiz Əbül-Qasim Bəğəvi (vəfat tarixi – hicri 510/ miladi 1116-cı il). "Məsabihüs-sünnə", 2 c., s. 278;
25. Qazi Əbülfəzl Əyyaz (vəfat tarixi – hicri 544/ miladi 1149-cu il). "Şəfa", 2 c., s. 19;

[1] Buxari, Səhih, 5-ci cild, s. 21

26. Əxtəbül-xütəba Xarəzmi (vəfat tarixi – hicri 568/ miladi 1172-1173-cü il). Özünün “Məqtəl” kitabında, 1 c., s. 53;
27. Hafiz Əbül-Qasim ibn Əsakir (vəfat tarixi – hicri 571/ miladi 1175-1176-cı il). Özünün “Tarix” kitabında, 1 c., s. 298;
28. Əbül-Qasim Süheyli (vəfat tarixi – hicri 581/ miladi 1185-ci il). “Ər-rövz-ül-ənf”, 2 c., s. 196;
29. İbn Əbül-Hədid Mötəzili (vəfat tarixi – hicri 586/ miladi 1190-cı il). “Nəhcül-bəlağənin şərhi”, 2 c., s. 458;
30. Əbül-Fərəc ibn Cövza (vəfat tarixi – hicri 597/ miladi 1201-ci il). “Səfvətüs-səfvət”, 2 c., s. 50;
31. Hafiz ibn Əsir Cəzri (vəfat tarixi – hicri 630/ miladi 1239-cu il). “Əsədül-cabət”, 7 c., s. 521;
32. Əbu Salim ibn Təlhə Şafei (vəfat tarixi – hicri 652/ miladi 1254-cü il). “Mətalibus-sual”, s. 5-6;
33. Sibt ibn Cövza Hənəfi (vəfat tarixi – hicri 654/ miladi 1256-cı il). “Təzkirə”, s. 175;
34. Hafiz Gənci Şafei (vəfat tarixi – hicri 658/ miladi 1260-cı il). “Əl-kifayət”, s. 220;
35. Hafiz Mühibəddin Təbəri (vəfat tarixi – hicri 694/ miladi 1295-cı il). “Zəxayirül-üqba”, s. 37;
36. Hafiz Əbu Məhəmməd Əzdi Əndəlusi (vəfat tarixi – hicri 699/ miladi 1300-cü il). “Şərhi-Buxari”, 3 c., s. 91;
37. Hafiz Zəhəbi Şafei (vəfat tarixi – hicri 747/ miladi 1346-cı il). “Təlxisül-müstədrək”;
38. Qazi İci (vəfat tarixi – hicri 756/ miladi 1355-ci il). “Əl-məvaqif”, 3 c., s. 268;
39. Cəmaləddin Məhəmməd Zərəndi Hənəfi (vəfat tarixi – hicri 750/ miladi 1349-cu il). “Dürərüs-səmteyn”;
40. Əbül-Səadət Şafei (vəfat tarixi – hicri 768/ miladi 1367-ci il). “Miratül-cinan”, 1 c., s. 61;
41. Hafiz Zeynəddin Əraqi (vəfat tarixi – hicri 806/ miladi 1403-1404-cü il). “Tərhül-təsrib”, 1 c., s. 150;
42. Hafiz Nurəddin Hişmi (vəfat tarixi – hicri 807/ miladi 1404-1405-ci il). “Məcməüz-zəvaid”, 9 c., s. 203;
43. Hafiz ibn Hacər Əsqəlani (vəfat tarixi – hicri 852/ miladi 1448-ci il). “Təhzibüt-təhzib”, 12 c., s. 441;
44. Hafiz Cəlaləddin əs-Süyuti (vəfat tarixi – hicri 911/ miladi 1505-ci il). “Əl-came əs-səğir vəl-kəbir”;
45. Hafiz Əbül-Abbas Qəstəlani (vəfat tarixi – hicri 923/ miladi 1517-ci il). “Məvahib”, 1 c., s. 257;
46. Qazi Diyarbəkri Maliki (vəfat tarixi – hicri 966/ miladi 1559-cu il). “Əl-xəmis”, 1 c., s. 464;
47. İbn Hacər Heysəmi (vəfat tarixi – hicri 474/ miladi 1081-ci il). “Əs-səvaiq”, s. 112-114;
48. Səfiəddin Xəzrəci (vəfat tarixi – hicri 474/ miladi 1081-ci il). “Əl-xülasət”, s. 435;
49. Zeynəddin Minavi (vəfat tarixi – hicri 1031/ miladi 1622-ci il). “Künuzud-dəqaiq”, s. 696;
50. Şeyx Əhməd Məğribi Maliki (vəfat tarixi – hicri 1041/ miladi 1631-1632-ci il). “Fəthüt-təal”, s. 385;
51. Şeyx Əhməd Bakəsir Maliki Şafei (vəfat tarixi – hicri 1041/ miladi 1631-1632-ci il). “Künuzud-dəqaiq”, s. 385;
52. Əbu Abdullah Zəriqani Maliki (vəfat tarixi – hicri 1047/ miladi 1636-1637-ci il). “Vəsilətül-əmal”;
53. Zübeydi Hənəfi (vəfat tarixi – hicri 1205/ miladi 1790-1791-ci il). “Tacül-ərus”, 7 c., s. 227;
54. Qunduzi Hənəfi (vəfat tarixi – hicri 1293/ miladi 1876-cı il). “Yənabiül-məvəddət”, s. 171;
55. Həmzavi Maliki (vəfat tarixi – hicri 1303/ miladi 1885-1886-cı il). “Ən-nurus-sari”, Haşiyətu Buxari, 7 c., s. 274;
56. Şeyx Mustafa Dəməşqi (vəfat tarixi – hicri 1303/ miladi 1885-1886-cı il). “Məraqatül-vüsul”, s. 109;
57. Seyyid Həmidəddin Alusi (vəfat tarixi – hicri 1324/ miladi 1906-cı il). “Nəsrul-ləyali”, s. 181;
58. Seyyid Mahmud Qarağuli Bağdadi, “Cövhərətül-kəlam”, s. 1055;
59. Ömər Rza Kəhhalə, “Elamün-nisa”, 3 c., s. 1216.

Əllamə Əmini onlarca, yüzlərcə mənbədən topladığı məlumatlar əsasında tərtib etdiyi bu dəyərli cədvəli verdikdən sonra yazır: “Biz də burada İbn Kəsirin belə bir fikrinə qoşuluruq ki, Allahın Rəsulu (s) dəfələrlə buyurmuşdur: “Fatimə mənim qəlbim və ruhumdur. Kim onu incitsə, məni incitmişdir. Ona əziyyət verən mənə əziyyət vermişdir.” Allahın Rəsulu (s) həmçinin buyurmuşdur: “Uca Tanrı Fatimənin sevinci ilə sevinir, onun könlü xoş olanda Allahın da könlü xoş olur.”

Əllamə Əmini sonra əlavə edir: “Bu fikir bir çox sənədlərdə və rəvayətlərdə bizə gəlib çatmışdır.” Əllamə Əmini həmin mənbələr sırasında aşağıdakıları göstərir: Təbərani – “Möcəm”; Hakim – “Müstədrək”, 3-cü cild; İbn Nəccar – “Məsnəd”; Xarəzmi – “Məqtəl”; Sibt –“Təzkirə”, s. 175; Gənci – “Kifayətüt-talib”, s. 219; “Zəxairül-üqba”, s. 39; “Mizanül-etidal”, 3-cü cild, s. 72; “Məcməüz-zəvaid”, 9-cu cild, s. 203; “Təhzibut-təhzib”, 12-ci cild, s. 443; “Kənzül-əmal”, 7-ci cild, s. 111; “Əxbarüd-düvəl”, 1-ci cild, s. 715; Minavi – “Künuzud-dəqaiq”, s. 30; Zəriqani – “Şərhi-məvahib”, 3-cü cild, s. 202; “İsaf”, s. 171; “Yənabiül-məvəddət”, s. 173; “Əş-şərəfül-müəbbəd”, s. 59.

Bu rəvayətlər mütləq və ümumi şəkildə pakların pakı Siddiqənin (ə) hər cür xoşluq və razılığına aiddir. Bundan əlavə rəvayətlərə görə Fatimənin (ə) o hallardakı xoşluğu nəzərdə tutulur ki, həmin xoşluğu Yaradan rəva bilmiş olsun. Eləcə də o həzrətin o hallardakı narazılığı və qəzəbi nəzərdə tutulur ki, həmin hallarda İlahinin qəzəbi də mövcud olsun. O həzrətin razılığı və narazılığı dedikdə maddi ehtiyac və hisslər nəzərdə tutulmur. Bu isə Əhli-beytin (ə) paklıq və tərtəmizliyi və o nəslin pisliklərdən uzaq olması haqqındakı şərif ayənin bir daha açıq-aşkar təsdiqidir.

## İslam fiqhində Fatimeyi-Zəhranın (ə) şəxsiyyətinə böyük ehtiram

Hər bir mömin müsəlman üçün sonsuz hörmət və dəyərə malik olan, paklıq və ülvilik nümunəsi sayılan Fatimeyi-Zəhra (ə) bərəkətli İslam fiqhində də özünəməxsus yüksək yer tutur, heç bir qədr-qiymət və ehtiramın, eləcə də hər hansı bir qadağa və yasağın əsassız olmadığı fiqh elmində Fatimeyi-Zəhra (ə) üçün olduqca böyük ehtiram və təzim qaydaları nəzərdə tutulmuşdur. Həmin qaydalara əməl etmək hər bir müsəlmanın birinci dərəcəli vacib borclarından sayılır. Bu qaydalara riayət etməmək isə əksinə, böyük günahlardan hesab olunur.

Bu məsələnin incəliyinə diqqət yetirmək üçün ilk növbədə bilmək gərəkdir ki, bərəkətli İslam fiqhi İslam övliyalarına və möhtərəm məsum rəhbərlərə dərin hörmət bəslənilməsini, pak və ülvi xatirələrinin əziz tutulmasını vacib saymışdır. Bu baxımdan həmin müqəddəs şəxsiyyətlər böyük İslam peyğəmbərinin (s) yanında özlərinə yer tuturlar. Müsəlman fiqhi o əzizlərin əzəmət və şöhrətinə də Allahın Elçisinin (s) əzəmət və şöhrəti ilə yanaşı, qoşa riayət edilməsini nəzərdə tutur. Belə ki, o pak və məsum ruhların hörmət və izzətinin, ehtişam və əzəmətinin qorunması, o həzrətlərin parlaq xatirələrinə təzim və ehtiram edilməsi onların əziz adlarının müxtəlif ləqəblərlə dilə gətirilməsi haqqında qəti və zəruri göstərişlər verilmişdir. Bu məsələlərə əməl edilməməsi və onlardan boyun qaçırılması günah sayılır. Müsəlman fiqhinin müxtəlif və çoxsaylı göstərişlərində həmin məsələlərə əməl edilməsi tam incəliyi və dəqiqliyilə şərh olunur. Həmin göstərişlərə etinasızlıq əslində İslam qanunlarına, İlahi hökmlərə, Qurani-Kərimin buyuruqlarına əməl etməməkdir. Bu isə öz-özlüyündə küfrdür, Uca Tanrını danmaq deməkdir. Müsəlman fiqhi bu məsələyə tam ciddiliyi ilə yanaşaraq günahkarlar üçün çox ağır cəzalar nəzərdə tutulmuşdur ki, onlar axirət əzabını çəkməklə yanaşı, bu dünyada da lazımi cəzadan kənarda qalmasınlar.

Bu məsələnin böyük əhəmiyyətini nəzərə alaraq müsəlman fiqhinin onunla bağlı çıxardığı hökmlərdən bir neçəsini nümunə olaraq veririk:

1. Dəstəmaz (vüzu) almamış şəxsə Allah-təalanın adını çəkmək haramdır. Peyğəmbərin (s), imamların (ə) və həzrət Fatimənin (ə) mübarək adlarına qarşı hörmətsizlik də haramdır.[1]

2. Müqəddəs məsum imamların adlarının hörmətinin qorunması, onların adlarının pak olmayan yerlərdə çəkilməməsi şəriətin vacib saydığı hökmlər arasındadır.

3. İslam fiqhinin qadağa və cəzalarında göstərilir ki, etiqad və inam məsələlərində zülm və zorakılıq etmək də dindən uzaqlaşmaq kimi qiymətləndirilir. Əllamə Hilli "Təhrirül-əhkam" kitabında bu barədə belə yazır: "Əziz Peyğəmbərin (s) anasına və ya qızına (ə) böhtan deyən, iftira yaxan, onlar haqqında layiqsiz sözləri dilinə gətirən kəs kafir və dindən kənar hesab olunur."

Birinci şəhid "Lümə" əsərində və ikinci şəhid[2] "Şərhi-lümə" kitabında da Allahın Rəsulu (s) adına qara yaxmağı küfr əməl saymışlar.

"Riyaz" əsərinin müəllifi də öz kitabında Əllamə Hillinin fikrini verdikdən sonra əlavə edir: "Demək olar ki, bu hökm Fatimeyi-Zəhraya (ə) aiddir. Allahın Rəsulunun (s) bütün qızlarına aid deyil. Çünki bu hörmətli xanımın paklığı paklıq və tərtəmizlik haqqındakı ayə ilə təsdiq olunduğu üçün hamı tərəfindən qəbul edilmişdir."

"Cəvahir" əsərinin müəllifi də "Riyaz" müəllifinin fikrini təsdiqləyərək yazır: "Bu hökm Allahın Rəsulunun (s) anasına da aiddir, çünki məlum olduğu kimi, cahiliyyə dövrünün yaramaz adətləri Allahın Rəsulu (s) üçün ümumiyyətlə mövcud olmamışdır."

4. Fatimeyi-Zəhranı (ə) söyməyin cəzası ölüm hökmüdür. Müsəlman fiqhinə görə bu müqəddəs xanıma münasibətdə hörmətsizlik edən, ağzını söyüşlə açan kəs ölümə məhkumdur və qətlə yetirilməlidir.

İslam fiqhinin bu məsələdə belə ağır cəzası çox güman ki, ona görədir ki, bu böyük xanımın şəxsiyyətinə hörmət də imamlara – məsum rəhbərlərə olan ehtiramla eyni dərəcədədir və ona münasibətdə hörmətsizlik etmək, söyüş söymək eynilə Rəsulullaha (s) qarşı hörmətsizliyə bərabərdir. Çünki o pak və müqəddəs xanıma münasibətdə ağzını söyüşlə açan şəxs Rəsulullahı (s) söyən kəs üçün nəzərdə tutulan hökmə məhkumdur, yəni

---

[1] İmam Xomeyni, Tovzihül-məsail, 319-cu məsələ. Hörmətli imamın başqa əsərlərində də bu məsələ vacib sayılır.

[2] İmamiyyə (şiə) fiqhinin ən görkəmli nümayəndəsi Məhəmməd bin Məkki Dəməşqi (1333-1384) bu adla məşhurdur (Tərcüməçi).

qətlə yetirilməlidir. İmam Xomeyni "Təhrirül-vəsilə" kitabında yazır: "Həqiqətən də, Siddiqeyi-Tahirət (ə) öz oğlanlarının – pak imamların daşıdığı xüsusiyyətlərə malikdir. Bəli, əgər söyüş Siddiqeyi-Tahirətə (ə) qarşı yönələrsə, həmin söyüş Rəsulullah (s) üçün də söyüşdür və şübhəsiz ki, söyüş söyən kəs öldürülür."

Beləliklə, aydın olur ki, İslam fiqhində bu böyük xanıma hörmət dərəcəsi məsum imamlara ehtiram dərəcəsi səviyyəsində nəzərdə tutulmuşdur. Bu ehtiram o dərəcədə yüksəkdir ki, ona əməl etməyənlərə ən ağır cəzalar verilir. Yuxarıda qeyd olunduğu kimi, bu cəza o həzrətə münasibətdə hörmətsizlik edənlərə, nalayiq sözlər işlədənlərə aiddir. Belə kəslər ölüm cəzasına, edama məhkumdurlar. Bu yüksək və layiqli ehtiram İslamın insan hüququna, mənəviyyata, kamil insanlara bəslədiyi münasibətin bir hissəsidir. Bundan əlavə, bu yüksək ehtiram Fatimeyi-Zəhranın (ə) Allah-təala yanında və şəriət sahibinin nəzərində nə dərəcədə müqəddəs sayıldığını göstərir.

## Fatimeyi-Zəhra (ə) başqalarının gözü ilə

Ayələr və rəvayətlər baxımından Fatimənin (ə) şəxsiyyətinin böyüklüyü və əzəməti ilə tanış olduq. İndi isə tanınmış böyük alim və tədqiqatçılarından bir neçəsinin həzrət Zəhra (ə) haqqındakı fikirlərini hörmətli oxucuların diqqətinə çatdırırıq. Qeyd edək ki, Fatimə (ə) haqqında böyük İslam alimləri ilə yanaşı başqa din və məzhəblərin müasir nümayəndələrinin – görkəmli elm xadimlərinin də tədqiqatları vardır və biz istər birincilərin, istərsə də ikincilərin bu barədəki fikirləri ilə tanış olmağı məqsədəuyğun saydıq. Bu nadir şəxsiyyətin həyatını, şəxsiyyətini öyrənmiş tədqiqatçıların sayı olduqca çoxdur. Ona görə də biz kitabın həcmini nəzərə alaraq onlardan yalnız bəzilərinin Fatimə (ə) haqqındakı fikirlərini çox qısa şəkildə verməklə kifayətlənməli olduq. Fatimə (ə) haqqında araşdırmalar aparmış böyük alim və şəxsiyyətlərdən aşağıdakıların bu böyük qadın barədə fikirləri xüsusi maraq doğurur:

Süleyman Kətani – xristian alimi, "Və tərr fi ğimdi" kitabının müəllifi;

Əhməd Hənbəl – imam və sünnə əhlinin rəhbəri;

Əbu Əbdül Bərr – məşhur "İstiab" kitabının müəllifi;

Ustad Tofiq Əbu Ələm – Misirin ədliyyə nazirinin müavini;

Xətib Bağdadi – "Tarixi-Bağdad" əsərinin müəllifi;

Müslim – "Əl-came əs-səhih" əsərinin müəllifi;

Tirmizi – ən mötəbər altı hədis kitabından birinin müəllifi;

Buxari – "Səhihi-Buxari" əsərinin - ən mötəbər altı hədis kitabından daha birinin müəllifi;

Həkim Nişaburi – "Əl-müstədrək" əsərinin müəllifi;

Əbu Davud Səcəstani – məşhur "Sünəni-Əbu Davud" kitabının müəllifi;

Lui Masinyon – fransız alimi, tarixçi;

İmam Musa Sədr – İslam mütəfəkkiri və siyasətçisi;

Əllamə Təbatəbai – böyük İslam filosofu, mütəfəkkiri və təfsirçisi;

Fəxr Razi – İslam təfsirçisi və alimi.

Bu on dörd nəfər İslam və qeyri-İslam aliminin, böyük şəxsiyyətlərin Fatimeyi-Zəhra (ə) haqqındakı fikirlərini də qısaca, xülasə şəklində verməyi üstün tutduq. Çünki ümumiyyətlə bizlərin – adi və gücsüz insanların ölçüsü və meyarları o dərəcədə deyil ki, qədr-qiyməti və əzəməti heç bir ölçü və meyara sığmayan o qadının böyüklüyünü təyin edə bilsin. Bu sahədəki bütün səy və təlaşlarımız son olaraq yalnız və yalnız o

böyük şəxsiyyətin parlaq simasının yalnız bir tərəfinin cizgilərini çəkməklə nəticələnə bilər. Bub mətləbin özü də əgər hasil olarsa, yenə heç də kiçik bir uğur sayılmamalı və şükr edilməlidir. Çünki bu yolda çox ciddi-cəhd göstərmək insanı yoxsulluğa aparıb çıxara bilər, həmin o parlaq simanın yarım tərəfinin cizgiləri də solğun çıxar və beləliklə, heç bir nəticə əldə edilməz.

### 1. İslam xanımlarının xanımı bir məsihi (xristian) aliminin nəzəri ilə

Pakların pakı Zəhranın (ə) yüksək şəxsiyyəti haqqında istər dostların, istərsə də düşmənlərin, xüsusilə də ağıllı və insaflı düşmənlərin fikir və yazıları olduqca çoxdur. Fatimənin (ə) alicənab varlığı elm və axtarışlar aləmində öz ətrafına çoxlu və müxtəlif fikirlər toplamış və qələm sahibləri üçün geniş meydanlar açmışdır. Bu kitabın müəllifinin ixtiyarında dünyanın bir sıra ölkələrinin yazıçı və mütəfəkkirlərinin qələmindən çıxmış onlarca elə kitablar, risalələr var ki, onların hər birində o həzrətin mənalı həyatı və qürur mənbəyi olan şəxsiyyəti müxtəlif baxımlardan nəzərdən keçirilir, ətraflı araşdırmaya cəlb edilir. Həmin fikir və yazıların burada verilməsi mümkün olmadığından, kitabın bu fəslində bir neçə yazıçı və mütəfəkkirin bu barədəki baxışlarından kiçik nümunələr verməklə kifayətlənirik. Ümid edirik ki, hörmətli oxucular böyük İslam xanımının elmi-mənəvi və məzhəbi əzəməti haqqında daha ətraflı məlumat əldə etmək üçün başqa mənbələrə, çoxsaylı kitablara, araşdırmalara da müraciət edəcəklər. Beləliklə, kitabın bu fəslində ilk öncə qeyri-İslam alimlərinin fikirlərinə nəzər salırıq. Sonra məşhur İslam alimlərinin baxışlarına da diqqət yetirəcəyik.

Birinci olaraq məsihi (xristian) yazıçısı, şairi və ədibi Süleyman Kətani haqqında söz açmaq istəyirik. Bu görkəmli alimin İslamın parlaq şəxsiyyətləri haqqında məşhur və sanballı əsərləri var.

Süleyman Kətani ilə tanış olmaq üçün belə bir faktı qeyd edək: bir neçə il bundan əvvəl Nəcəfi-Əşrəfdəki İslam ərəb kitabxanası Əli bin Əbu Talibin görkəmli şəxsiyyəti haqqında bütün ərəb yazıçılarının qələmə aldığı əsərlərin müsabiqəsini keçirdi. Həmin müsabiqədə Livanın tanınmış yazıçısı, şair və ədibi, məsihi dinindən olan insaf sahibi Süleyman Kətani də “Əl-imam Əli Nibrəs və Mitrəs” adlı kitabı ilə iştirak etdi. Müsabiqəyə təqdim olunmuş bütün kitablar sırasında Süleyman Kətaninin kitabı birinci mükafata layiq görüldü.

Həmin kitabxana ikinci dəfə böyük İslam xanımının parlaq şəxsiyyəti – Fatimeyi-Zəhraya (ə) həsr olunmuş kitabların müsabiqəsini keçirdi. Bir çox yazıçıların və elm xadimlərinin iştirak etdiyi bu müsabiqəyə məsihi yazıçısı Süleyman Kətani “Fatimətüz-Zəhra və tərr fi ğimdi” kitabını təqdim etdi. Bu müsabiqədə də Süleyman Kətani birinci yeri tutdu və mükafat aldı.

Müsabiqə komissiyasının bu qərarını ilk baxışda İslama aid əsər yazmış bir məsihi şəxsi həvəsləndirmək ehtimalı ilə izah etmək olar. Bundan əlavə, güman etmək olardı ki, müsabiqədə birinci yerə layiq görülmüş bu iki əsər müsabiqəyə təqdim olunmuş başqa əsərlərlə eyni səviyyədə imiş. Lakin Fatimə (ə) haqqındakı kitabı oxuduqdan sonra aydın olur ki, bu ehtimal və gümanlar əsassızdır. Süleyman Kətaninin bu əsəri ilə yaxından tanışlıq göstərir ki, doğrudan da, bu məsihi müəllifi İslamı nə qədər dərindən bilir və onun ədəbiyyat və mədəniyyətinə nə dərəcədə ürəkdən vurğundur. Yalnız belə duyğuları yaşayan kəs İslam şəxsiyyəti haqqında bu cür əsər yaza, müsəlman yazıçıları ilə eyni müsabiqədə iştirak edə və öz məqsədinə nail ola bilərdi. Deməli, belə bir müəllifin kitabının birinci yer tutması təbii bir haldır. Axı pakların pakı Zəhra (ə) dünya miqyaslı, İlahi bir şəxsdir və yer üzünün bütün bəndələrinin hər biriniin o həzrət haqqında söz deməyə haqqı var. Dost sözü hansı ağızdan çıxarsa çıxsın, onun eşidilməsi, oxunması bəyəniləsidir.

Bu gün Cəmilə Bupaşa, İndira Qandi, Florans, Elizabet, Bint əl-Huda və bu kimi qadınlar bütün dünyada məşhurdursa, bu böyük İslam qadını nəyə görə bütün dünya səviyyəsində tanınmasın?

Süleyman Kətani pakların pakı Zəhranın (ə) şəxsiyyəti haqqındakı kitabında şer və qəhrəmanlıq dastanlarından nümunələr verir, o həzrətlə bağlı şairanə duyğularını, ən ali hisslərini ifadə edir...

Müəllif kitabının müqəddiməsində yazır: “Fatimeyi-Zəhra (ə) tarixi sənədlər və rəvayətlərdə yaşayan yüksək bir şəxsiyyətdir. Fatimənin böyük və nadir bir şəxsiyyət olduğunu dərk etmək üçün təkcə bunu yada salmaq kifayətdir ki, o, Məhəmmədin (s) qızı, Əlinin (ə) həyat yoldaşı, Həsənlə (ə) və Hüseynin (ə) anası və dünya xanımlarının xanımıdır.”[1]

Süleyman Kətani kitabının sonunda yazır: “Fatimə, ey Mustafanın qızı! Ey yer üzünü çiyinləri üzərində qaldıran parlaq sima! Sən yer üzündə iki dəfədən artıq təbəssüm etmədin. Bir dəfə atan aram dincələrkən sənə Allaha qovuşmağının müjdəsini verdiyi zaman sənin dodaqlarına təbəssüm qondu. İkinci dəfə isə ölüm yatağında olarkən, son dəqiqələrini yaşayarkən... Sən həmişə məhəbbətlə yaşadın, paklıq və ismətlə ömür sürdün. Ey pakların pakı olan ana! Sən iki böyük övlad dünyaya gətirib tərbiyə etdin, onlara mərhəmət donu geyindirdin... Sən bu dünyadan təbəssümlə ayrıldın və əbədiyyətə qovuşdun. Ey Peyğəmbərin (s) qızı, ey

[1] Fatimətüz-Zəhra və tərr fi ğimdi, s. 3

Əlinin (ə) həyat yoldaşı, ey Həsənin (ə) və Hüseynin (ə) anası, bütün aləmlərin və əsrlərin xanımlarının ən böyük xanımı!”[1]

Müəllif kitabın başqa bir yerində isə belə yazır: “Qəhrəmanlıq güclü bədənə və biləyə və ya taxt-taca arxalanan qüvvə deyil, əksinə, qəhrəmanlıq ağlın məntiqinə, zəka və düşüncəyə söykənən bir gücdür. Yalnız bu yolla istədiyin məqsədə çatmaq olar. Zəhranın (ə) qəhrəmanlığı da bu böyük mənadan başqa bir şey deyil. buna görə də o, başqaları üçün olan amillərdən bəhrələndi. Bu məsələdə onun zəif və zərif biləkləri yox, ağlı, zehni öz təsirini göstərdi.”[2]

## 2. Əhməd bin Hənbəl Fatimə (ə) haqqında

Sünnə əhlinin imamı və fiqh üzrə rəhbəri Əhməd bin Hənbəl “Məsnəd” əsərinin üçüncü bölməsində (“cüz”) Malik bin Ənəsdə və başqa mötəbər mənbələrdə qeydə alınmış aşağıdakı rəvayəti oxucuların nəzərinə çatdırır: “Altı ay idi ki, İslam peyğəmbəri (s) hər gün sübh namazına gedərkən Fatimənin (ə) evinin qapısının ağzından keçər və buyurardı: “Namaz, namaz! Ey Əhli-beyt (ə)...” Sonra isə Qurani-Kərimin “Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər” (Əl-Əhzab surəsi, 33-cü ayə) ayəsini mübarək dilinə gətirərdi.”

Əhməd bin Hənbəl “Yənabiül-məvəddət” kitabında da müxtəlif müəlliflərə, o sıradan Ənəs bin Malikə əsaslanaraq belə bir rəvayəti də yazır: “İslam peyğəmbəri (s) hər sübh namaz vaxtı Fatimənin (ə) evinin qapısına gəlir, onları namaza səsləyir və “Ey Əhli-beyt, Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər” ayəsini mübarək dilinə gətirərdi. Bu iş doqquz ay davam etdi (əvvəlki rəvayətdə isə altı ay qeyd olunmuşdur).” Bu xəbər üç yüz nəfər səhabənin dilindən söylənmişdir.[3]

## 3. “İstiab” əsərinin müəllifi Əbdül Bərr
*(463/1071-ci ildə vəfat etmişdir)*

Əbdül Bərr müxtəlif mənbələrə əsaslanaraq Ayişənin Fatimə (ə) haqqında söylədiyi belə bir xəbəri çatdırır: “Elə bir kəs görməmişəm ki, Fatimə (ə) qədər doğru danışan olsun, əlbəttə ki, onu dünyaya gətirən şəxsdən (alicənab atasından) başqa.”

Əbu Nəim də “Hilyə” adlı kitabında həmin rəvayəti eynilə Ayişənin dilindən nağıl edərək yazır: “Fatimə (ə) qədər doğru danışan (atasından başqa) bir kəsi görməmişəm.”[4]

## 4. Misirin ədliyyə nazirinin müavini Ustad Tofiq Əbu Ələm

Misirin müasir yazıçı və tədqiqatçılarından Ustad Tofiq Əbu Ələm “Fatimətüz-Zəhra” adlı çox dəyərli bir kitab yazmışdır. Yeri gəlmişkən qeyd edək ki, bu mövzuda yazılmış əsərlər içərisində diqqəti cəlb edən həmin kitab fars dilinə də tərcümə olunmuşdur.

Müəllif həmin kitabında yazır: “Fatimə (ə) İslam tarixinin yaradıcılarından biridir. Fatimənin (ə) İslam tarixində tutduğu mövqe və mərtəbənin əzəmət və böyüklüyünü təsəvvür etmək üçün təkcə bu kifayətdir ki, o, böyük İslam peyğəmbərinin (s) yeganə görkəmli qızı, imam Əli bin Əbu Talibin (ə) həyat yoldaşı və Həsənlə (ə) Hüseynin (ə) anasıdır. Həqiqətən də o, Allahın peyğəmbərinin (s) qəlbinin bir parçası, ən əziz övladı idi. O, milyonlarla adamın ürəyində yaşayır. Milyonlarla adam ona ümid gözü ilə baxır. Onun əziz adı milyonların dilindədir. Alicənab atası onu “atasının anası” deyə çağırardı. Başına belə bir atanın kəramət tacı qoyduğu xanım ən böyük hörmətə layiqdir.”[5]

## 5. Xətib Bağdadi
*(463/1071-ci ildə vəfat etmişdir)*

---
[1] Fatimətüz-Zəhra və tərr fi ğimdi, s. 205
[2] Yenə də orada, s. 211
[3] Mahmud Şəhabi, Əl-İslam vəş-şiə, 1 c., s. 223
[4] Əyan əş-şiə, 2 c., s. 276
[5] Fatimeyi-Zəhra, s. 214

V (XI) əsrin görkəmli tarixçisi, alimi Xətib Bağdadi özünün məşhur tarix kitabında Həsən bin Məazın tərcümeyi-halına aid hissəsində Ayişənin İslam peyğəmbərindən (s) eşitdiyi aşağıdakı xəbəri oxucuların nəzərinə çatdırır:

“Məhşər günü qopanda göydən belə bir nida gələcək: “Ey camaat, başınızı aşağı salın ki, İslam peyğəmbərinin (s) qızı Fatimə (ə) yoldan ötür.”[1]

Kitabdakı başqa bir rəvayətdə isə deyilir: “Məhşər günü nida verən uca səslə deyər: Gözlərinizi örtün ki, Məhəmmədin (s) qızı Fatimə (ə) yoldan ötür.”[2]

### 6. Müslimin Fatimə (ə) haqqında yazdıqlarından

Müslim məşhur “Səhih” kitabında yazır: “Fatimə (ə) Peyğəmbərin (s) qəlbinin bir parçasıdır. Onu incidən kəs Peyğəmbəri (s) incitmiş olur və Peyğəmbəri (s) xoşhal edən kəs Zəhranı (ə) xoşhal etmiş olur.”

### 7. Tirmizinin Fatimə (ə) haqqında yazdıqlarından

Tirmizi Fatimə (ə) haqqında yazır: “Ayişədən soruşdular ki, Allahın Rəsulu (s) üçün ən sevimli kəs kim idi?” Cavab verdi: “Fatimə (ə)”. Soruşdular: “Bəs kişilərdən?”. Dedi: “Onun həyat yoldaşı Əli (ə)”.

### 8. “Səhihi-Buxari” əsərinin müəllifi Buxari

Buxari özünün məşhur “Səhih” kitabının beşinci bölməsində (“cüz”) səhabələrin fəzilətlərinə aid fəsldə (1376/1956-cı il tarixli Məkkə çapı, s. 17) müxtəlif sənədlərə əsasən Peyğəmbərin (s) buyurduğu aşağıdakı sözləri qeyd edir:

“Fatimə mənim bədənimin bir hissəsidir. Onu qəzəbləndirən kəs məni hirsləndirmişdir.”

Buxari, Peyğəmbərin (s) mübarək dilindən çıxmış bu sözləri eynilə kitabın üçüncü bölməsində başqa bir yerdə (s. 164), eləcə də dördüncü bölmədə (s. 203) də vermişdir.

Müəllif kitabın beşinci bölməsində isə Peyğəmbərin (s) aşağıdakı sözlərini qeyd edir: “Fatimə behişt qadınlarının xanımıdır” (s. 20).

### 9. Hakim pakların pakı Zəhra (ə) haqqında

“Müstədrək” əsərinin müəllifi Hakim bu məşhur kitabında Ayişənin dilindən belə bir xəbəri qeydə almışdır. İslam peyğəmbəri (s) bu dünyadan köçmək ərəfəsində xəstə olarkən Fatiməyə (ə) buyurmuşdu: “Qizım, İslam ümməti qadınlarının və bütün dünya qadınlarının xanımı olmaq istəmirsən?”

### 10. “Sünən” əsərinin müəllifi Əbu Davud

Əbu Davud özünün məşhur “Sünən” əsərində yazır: “Əli bin Əbu Talib buyurmuşdur: “İstəyirsənmi, özümdən və İslam peyğəmbərinin (s) qızı Fatimədən (ə) danışım? Fatimə (ə) İslam peyğəmbəri (s) üçün ən əziz kəs olsa da, mənim mənzilimdə əldəyirmanı işlətməkdən biləyi şişmiş, kuzədə su daşımaqdan çiyinlərinə zor düşmüş, evə və həyətə süpürgə çəkməkdən paltarları nimdaş olmuşdu. Eşitdik ki, Allahın Rəsulunun (s) yanında xidmətçilər var. Fatimə (ə) atasından (s) yardım istəmək məqsədilə o həzrətin yanına gedib xahiş etdi ki, həmin xidmətçilərdən birini ev işlərində kömək üçün ona versin. Lakin atasının hüzuruna çatarkən orada bir neçə cavana rast gəldi və utandığından xahişini dilinə gətirmədən, mətləbini bildirmədən evə qayıtdı.”[3]

### 11. “Təfsir Əl-Mizan” kitabının müəllifi Əllamə Təbatəbai

Əllamə Təbatəbai özünün çoxcildli məşhur “Təfsir Əl-Mizan” adlı kitabında yazır: “Kövsər” haqqında fikir və mülahizələr çoxdur. Lakin əsl həqiqət belədir ki, şərif “Kövsər” surəsi Fatimə (ə) və onun nəslinə dəlalət etməkdən xali deyil. Belə olduqda bu surə Quranın səma xəbərlərindən biri ola bilər. Uca Tanrı Zəhranın (ə) nəslini o qədər çox etdi ki, heç bir nəsl onun tayı-bərabəri ola bilməz. Fatimənin (ə) nəslinin başına çoxlu

[1] Mahmud Şəhabi, Əl-İslam vəş-şiə, 1 c., s. 212
[2] Buxari, 2 c., s. 185
[3] Əbu Davud, Sünən, 2 c., s. 334

bəlalar gəlməsinə, bu nəsldən olan neçələrinin böyük qətllərdə yox olmasına baxmayaraq, yenə də bu pak və nəcib nəsl çox böyük sayda yaşamaqda davam edir."[1]

### 12. Fransız tədqiqatçısı Lui Masinyon

Məşhur fransız şərqşünası-tədqiqatçısı Lui Masinyon ömrünün bir müddətini həzrət Fatimeyi-Zəhranın (ə) tanınmasına həsr edərək bu sahədə böyük səylər göstərmiş və ciddi uğurlar qazanmışdır. Alim hicri tarixi ilə 10-cu (631-ci) ildə Mədinə şəhərində baş vermiş Nəcran xristianlarının İslam peyğəmbəri (s) ilə qarşılıqlı lənətləmə hadisəsi haqqında yazdığı dəyərli tədqiqat əsərində bir çox maraqlı mətləblərə toxunur. Lui Masinyon yazır:

"İbrahimin (ə) təkrar-təkrar söylədiyi dualar Fatimədən (ə) törəyəcək on iki nurun varlığından xəbər verir...

Musaya (ə) nazil olmuş Tövrat Məhəmməddən (s), Fatimədən (ə) və İsmayılla İshaqa bənzər iki ər oğlundan (Həsən(ə) və Hüseyndən (ə)) müjdə verir...

İsaya (ə) nazil olmuş İncillər də Əhmədin (s) gələcəyindən müjdə verir. Bu ilahi kitab həmçinin müjdə verir ki, o həzrətin bərəkət sahibi bir qızı olacaq və o da iki oğul dünyaya gətirəcək..."[2]

### 13. İmam Musa Sədr Zəhra (ə) haqqında

Görkəmli İslam mütəfəkkiri, siyasi xadimi imam Musa Sədr Fatimə (ə) haqqında yazır:

"Dini təlimlər və hökmlərin görkəmli şəxslərə ehtiyacı var. Belə şəxslər həmin təlim və hökmləri tərtib edib qaydaya salmağı və təbliğ etməyi öz öhdələrinə götürürlər ki, onları arzu və ideya mərhələsindən gerçəklik mərhələsinə gətirib çıxarsınlar. Belə olduqda insanların Allaha olan inamları artır və dinsizlik ortadan qalxır.

İslam peyğəmbəri (s) həqiqəti ortaya çıxarmaq üçün Nəcran xristianları ilə qarşılıqlı lənətləməyə çıxdı. Bu hərəkət o vaxt Peyğəmbərlərin öz dəvətlərində qələbə çalması üçün yeganə vasitə sayılırdı. Bu məsələ aşağıdakı şərif ayəyə görə elan edildi:

"Səninlə düşmənlik edən hər bir kəsə de ki, gəlin hamılıqla oğullarımızı, qadınlarımızı və qohumlarımızı çağıraq, sonra bir-birimizi lənətləyək. Və Allahın lənətini yalançılara yönəldək." Böyük İslam peyğəmbəri (s) öz övladları, xanımları və qohumları içərisindən Əlini, Fatiməni, Həsəni və Hüseyni seçib özü ilə həmin məsələnin həlli üçün apardı. Bu şəxslər İslam xadimlərinin, İslam qadınları və oğullarının təmsilçiləri idilər. İslam peyğəmbəri (s) bu yolla İslama olan öz kamil imanını göstərdi. İslamın kamil və həqiqi nümayəndələrinin kimlər olduğunu bildirdi. Hamıya elan etdi ki, məhz bu şəxslər həqiqi İslamın nümayəndələridir."[3]

### 14. Məşhur təfsirçi Fəxr Razi

Quranın ən böyük və məşhur təfsirlərindən birinin müəllifi Fəxr Razi "Kövsər" surəsinin təfsirində özünün bir çox fikir və mülahizələrini irəli sürmüşdür. Həmin fikirlərdən biri budur ki, "Kövsər" surəsinin nüzulundan məqsəd İslam peyğəmbərinin (s) övladlarına işarə etməkdir.

Müəllif yazır: "Bu surənin nüzuluna səbəb İslam peyğəmbərinin (s) düşmənlərinin o həzrətə vurduqları tənə və məzəmmətlər idi. Onlar deyirdilər ki, Peyğəmbər "əbtər"dir, yəni övladsız və arxasız, sonsuz və nəsli kəsilmiş bir adamdır. Elə buna görə də bu surədə məqsəd Allah-təalanın o həzrətə elə bir bərəkətli nəsl bəxş etməsidir ki, onlar zaman keçdikcə, yüzillər ötdükcə eləcə duracaq və daim yaşayacaq. Fikir ver, bax gör, Əhli-beyt (ə) ailəsindən neçələri öldürmüş olsalar da, yenə də yer üzü Peyğəmbərin (s) övladları, oğul-qızları ilə doludur. Lakin vaxtilə həddindən çox adamları olan Bəni Üməyyə nəslindən indi etibar sahibi, mötəbər və nüfuzlu bir şəxs də belə yoxdur. Əksinə, onlar isə (Allahın Rəsulunun nəsli, övladları) Baqir(ə), Sadiq (ə), Kazım (ə), Rza (ə)... kimi böyük alim və görkəmli şəxsiyyətlərdir. Həmin nəsldən bu kimi böyük şəxslər çox qalmışlar."[4]

### Fatimeyi-Zəhranın (ə) ictimai-siyasi işlərdə davranışı

[1] Təfsir Əl-Mizan, 20 c., s. 524
[2] Lui Masinyon. Şəxsiyyəti-Əbdürrəhman Bədəvi və zəmimeyi-an "əl-mübahilə", Milan, 1944, s. 179
[3] Süleyman Kətani. Göstərilən əsəri, s. 26
[4] Fəxr Razi. Quran təfsiri. 32 c., s. 144 (Misir çapı)

Bu, nə şairanə bir ilhamın məhsuludur, nə də qəhrəmanlıq dastanı. Nə dəli-divanə bir ürəyin həyəcanlı sözləri, nə də coşqun bir qələmdən qopmuş romantikadır. Əsla, bunların heç biri deyil. Əksinə, yalnız və yalnız belə bir böyük həqiqətin kiçik bir hissəsinin bəyanıdır ki, Fatimeyi-Zəhra (ə) İslam mədəniyyətinin bütün sahələrində Allahın və Quranın dini-məzhəbi və siyasi hökmləri ilə bağlı çoxşaxəli işlərin hamısında yorulmaq bilmədən, qəhrəmanlıqda hərtərəfli və fəal iştirak etmişdir. Elə bir qəti və həlledici bir iştirak ki, o bizim məktəb və məzhəbimizin hər bir guşəsində dönüş nöqtəsi kimi özünü göstərir və sönməz bir günəş kimi həmişə yolumuza işıq saçır...

Bəli, o pak və ismətli, məlul və məzlum qız, behişt xanımlarının xanımı, "atasının anası", əlləri qabarlı, çiyni yaralı, solğun bənizli qadın – Fatimə (ə) bütün günü ağır ev işlərini görməklə yanaşı, iki namuslu və cəsur oğlunu tərbiyə etməklə bərabər, dini, İslam qanun-qaydalarını qorumaq üçün mübarizə və cihad zərurəti ortaya çıxdıqda qorxu-hürkü bilmədən qəfildən mübarizə meydanına da atılır, qəhrəman oğulları, igid sərkərdələri arxada qoyaraq irəli çıxır, mübarizə bayrağını başı üzərində qaldırır, dini-məzhəbi və siyasi döyüşlərdə nərə çəkərək düşmənin bədəninə lərzə salır... Beləcə paklıq və saflıq nümunəsi olan bu qadın gözlənilmədən bir döyüşkən qəhrəmana – haqq və ədalət uğrunda İlahi bir mübarizənin yorulmaq bilməyən iştirakçısına çevrilir və həqiqi İslamda əsla bir-birindən ayrılmayan dini-siyasi mübarizə meydanında göstərdiyi rəşadətə görə əbədilik olaraq adını qorxmazlıq və igidlik zirvəsində həkk edir...

Həmişə "ana" olan, körpəlik və uşaqlıq çağlarından analıq vəzifəsini öhdəsinə götürən bu gənc qız – "atasının anası" deyə çağırılan mübariz İslam mücahidi, peyğəmbərlik və imamlıq nəslinin daşıyıcısı və davamçısı olan müqəddəs xanım İslamın başqa dini-siyasi məsələlərindən də əsla kənarda qalmırdı. İslam tarixində ən həlledici və mühüm ictimai-siyasi məsələlərin həllində bu müqəddəs qadının öz dəst-xətti və ictimai məktəbi var idi. Düşmənlərin rüsvayçılığına bais olan həmin dəst-xətt və davranış bu yeganə qadının "Kövsər" olmaq və Peyğəmbərin (s) pak nəslini doğru yolla aparmaq vəzifələrini şərəflə yerinə yetirməsində mühüm rol oynadı.

Ata evində atasının ən yaxın dostu və köməkçisi, sirdaşı və yardımçısı olan Fatimeyi-Zəhra (ə) Allahın Rəsulunun (s) vəfatından sonra alicənab və məsum ərinin evində də bu hərəkət və davranışını davam etdirdi. Fatimə (ə) burada da alicənab ərinin ən yaxın köməkçisi və sirdaşı oldu, möhtərəm atasına göstərdiyi qayğını başqa şəkildə davam etdirməyə başladı.

Əli (ə) ilə qoşa addımlamaq onun üçün doğrudan da, İslam dininə və Rəsulullahın (s) insan tərbiyə edən məktəbinə xidmət etməkdən başqa bir şey deyildi.

Tayı-bərabəri olmayan o xanım istər möhtərəm atasının bu dünyadan köçməsindən qabaq, istərsə də sonra həmişə xilafət və Peyğəmbərin (s) canişini haqqında qəti və dəqiq düşüncə ilə hərəkət etdi. Quranın və İlahi qanun-qaydalarının müdafiəsinə qalxdı və böyük cidd-cəhdlə çalışdı ki, dinin doğru yoluna və məktəbinə zərrə qədər zərər dəyməsin. Fatimə (ə) bu istiqamətdəki işini ömrünün axırınadək davam etdirdi və öz fikrindən, əqidəsindən əsla dönmədi.

Din və siyasət meydanının o aslan qadını bütün səmərəli həyatı boyu xilafətin mühüm və taleyüklü məsələlərini əsl məcrasına qaytarmaq yolunda yorulmadan çalışdı. Fatimə (ə) həmçinin xilafəti sarsıdan, dinin dayaqlarını qorxu altına alan amillərin – doğru yoldan sapmaların, əyintilərin, səhlənkarlığın və yalançılığın qarşısını almaq üçün mübarizə apardı. Bu işdə yalnız yaxını görənlər, zahirə diqqət yetirənlər üçün bir uğur qazana bilməsə də, öz fikrindən əsla dönmədi və ömrünün son anına kimi öz mövqeyini qoruyub saxlaya bildi. Fatimənin (ə) bütün həyatı boyu özünü qabarıq şəkildə göstərən bu qətiyyət və əzmkarlıq bu qəhrəman qadının pak övladları tərəfindən davam etdirildi və son nəticədə xilafət və vilayət məsələsini onun daha doğru və daha əzəmətli istiqamətinə, yəni imamlığa yönəltdi. Fatimənin (ə) pak nəsli tərəfindən davam etdirilən imamlıq artıq on dörd əsrdir ki, həqiqi, gerçək İslamı həmin istiqamətdə irəli aparır. Ona görə də aydın olur ki, zahiri görənlərin düşündüklərinin əksinə olaraq Fatimənin (ə) yorulmaq bilməyən o mübarizəsi nəinki uğursuzluqla nəticələndi, əksinə, İslam aləmində, haqq və ədalət dünyasında ən böyük nailiyyətlər və uğurlar qazandı.

Fatimeyi-Zəhra (ə) Allahın Elçisinin (s) bu dünyadan köçməsindən sonra ömrünün sonunadək Əli (ə) ilə - müsəlmanların birliyini və İslam nailiyyətlərini qorumaq üçün Əbubəkrin hakimiyyətini qəbul etməyən və Peyğəmbərin (s) həqiqi canişini olan alicənab həyat yoldaşı ilə bütün məsələlərdə həmfikir oldu. Fatimə (ə) bütün ömrü boyu o həzrətin ən yaxın köməkçisi və sirdaşı oldu, həmişə onun yanında qərar tutdu və onunla qoşa addımladı. Pakların pakı Zəhra (ə) əmin idi ki, xilafət və İslam dünyasına rəhbərlik İslam dünyasının ən layiqli, ən bacarıqlı, ən qabiliyyətli şəxsiyyətinə - Əli bin Əbu Talibə məxsusdur. Ona görə də, xilafətə namizədlər və iddiaçılar arasında İslam yolunu, İslam peyğəmbərinin (s) yolunu şərəflə davam etdirmək üçün o, daha bilikli və elmli, daha şücaətli və cəsarətli, daha ədalətli və insaflı, daha ləyaqətli və fəzilət sahibi idi...

Bəli, pakların pakı Zəhra (ə) – o ismətli və yorulmaq bilməyən mübariz qadın öz dini və siyasi baxışlarını daim inkişaf etdirir və çalışırdı ki, öz mübarizəsi və ictimai-siyasi fəaliyyəti, rəhbərliyi ilə müsəlmanları doğru

yola yönəltsin. Fatimə (ə) camaatın diqqətini saxta seçkilərə, xilafətdə öz mənafelərini güdən şəxslərin oyunlarına cəlb etdi ki, onlar öz fikirlərini dəyişdirsinlər, xilafəti o dövrün və məkanın, bütün zaman və məkanların ən layiqli şəxsinə tapşırsınlar, həzrət Əli (ə) ilə həmkar və həmfikir olsunlar və beləliklə də İslamın süqutunun – cahiliyyə dövrünə qayıtmağın qarşısını alsınlar.

Fatimə (ə) hətta o vaxtlar Mədinənin qəmli və qaranlıq gecələrində Əlinin (ə) səyi və təşəbbüsü ilə bəzi mühacirlərin və ənsarın evlərində keçirilən iclaslarda fəal iştirak edir, həqiqətləri camaata çatdırmaqda, İslama aid siyasi məsələlərin şərhi və izahında alicənab həyat yoldaşının həmkarı, həmfikri kimi çıxışlar edirdi. Fatimə (ə) hər vəchlə çalışırdı ki, İslam ümmətinə rəhbərlik bu işə həqiqətən layiq olan bir şəxsin öhdəsinə qoyulsun. Lakin əfsuslar olsun ki, fırıldaq və kələyin, əvvəlcən hazırlanmış fitnə və oyunların baş alıb getdiyi o dövrdə elə bir şərait yaranmış ki, bütün bunların nəticəsində camaat ya qorxduğuna, ya da qəflətdə olduğuna görə bu vacib həyati məsələdə etinasızlıq göstərdi. Məhz buna görə də İslam xilafəti öz həqiqi və təbii məcrasından çıxaraq elə bir yola düşdü ki, sürətlə tənəzzülə uğramağa başladı və İslamın, Rəsulullahın İlahi inqilabının nailiyyətlərini əldən verdi. Beləliklə, İslam dünyasında, müsəlman aləmində də cahiliyyə dövrünə oxşar bir şərait yarandı.

Belə bir zamanda Peyğəmbərin (s) həqiqi davamçılarının səyləri bir nəticə vermədikdə Fatimə (ə) siyasət aləmində yeni bir addım ataraq özünün tarixi və parlaq, müfəssəl və ətraflı xütbəsini oxudu. Bu dövrün siyasət və ideologiyasında yol verilmiş əyintilərin və sapmaların dəqiq və dərin şəkildə təhlil edildiyi bu xütbə o zaman bir çox pak və təmiz insanları qəflət yuxusundan ayıltdı və beləliklə, haqq və ədalət düşmənlərinin cəbhəsinə şiddətli zərbə endirdi. Bənzərsiz və tayı-bərabəri olmayan Fatimənin (ə) dərin düşüncə tərzini, zəngin mənəvi aləmini açıb göstərən bu tarixi xütbənin böyük əhəmiyyətini nəzərə alaraq onun tərcüməsini olduğu kimi veririk:

## Xütbənin mühüm mövzuları

Peyğəmbər (s) tərbiyəsini görmüş o böyük xanımın xütbəsində aşağıdakı dərin və mənalı mətləblər öz əksini tapmışdır:

- Yaradanın tərif və sitayişi;
- Yaradanın birliyinin dəlillərlə sübutu;
- Peyğəmbərlik məsələsi və onun zəruriliyi;
- Cahiliyyə əsrinin hadisələri və məsələlərinin bəyanı və şərhi;
- Peyğəmbərliyin böyük rolu və nicatverici xidmətləri;
- Quran və onun tarixi əhəmiyyətinə bir baxış;
- Şəriətin səbəbləri və fəlsəfəsi;
- Yüksək siyasi baxışların bəyanı üçün mövzuya giriş;
- Peyğəmbərlik ərəfəsində və peyğəmbərlik dövründə baş verən hadisələrin şərhi;
- Əlinin (ə) yüksək mövqeyi haqqında söz;
- Peyğəmbərin (s) Əhli-beytinə (ə) (ev əhlinə) qarşı qəsd və fitnələrin qısa şərhi;
- Dövrün zorla qəbul etdirilmiş dövlət başçısının ifşası;
- Qurani-Məciddən dəlil-sübutlar gətirilməsi;
- Dinləyicilərin nəzərinin cəlb edilməsi və onların həyəcana gətirilməsi;
- Üzləşdiyi əzab-əziyyətlərdən ulu atasına şikayət.

İslam tarixinin o qara günlərində Fatimənin (ə) ailəsindən çıxmış bu təkanverici və atəşin, dərin mənalı və dəyərli sözlər haqq və ədalət uğrunda böyük bir mübarizə üçün bünövrə idi. Bu xütbədə bəyan olunmuş dərin və incə mətləblər bir çox tarix kitablarında qeydə alınmışdır.

Bu xütbədə toxunulan məsələlərdən birini Abdulla bin Həsən öz atasından belə rəvayət etmişdir: "Əbubəkr Fatiməni (ə) Fədəkdəki əkin sahəsinə sahibliyindən – bu qanuni varisliyindən məhrum etdikdə o alicənab xanım hicabını başına salıb özünün ən yaxşı paltarını əyninə geyib Qüreyşin bir qrup qadını və öz xidmətçiləri ilə Əbubəkrin yanına getdi. Zəhra (ə) Əbubəkrin otağına daxil olduqda o, bir neçə ənsar və mühacirlə oturmuşdu. Həmin adamların yanında kamil İslam qadını hicabının arxasından sözə başladı. O həzrət özünün atəşin və təsirli sözləri ilə haqq və ədalətdən, özünün qanuni hüququndan elə alovlu danışdı ki, Əbubəkrin məclisində olanların hamısı mat-məəttəl qaldı və bu güclü dəlil-sübutlu sözlərə heyran oldu. Həmin günə qədər kimsə nə belə sözlər demiş, nə də eşitmişdi. Nə qadınlardan, nə də adi kişilərdən."

Bəli, doğrudan da, Fatimənin (ə) dənizlər qədər böyük şəxsiyyətinin, istedad və qabiliyyətinin bir damlasını belə təsvir etməkdə qələm gücsüzdür. Biz zəif insanların dilləri və qələmləri o həzrətin böyüklüyünün tərifində

doğrudan da acizdir. Həqiqətən də, Zəhranın (ə) bənzərsiz şəxsiyyəti haqqında yalnız Allah-təala söz deyə bilər, necə ki, buyurmuşdur: “(Ya Peyğəmbər) Həqiqətən, Biz sənə Kövsər (Cənnətdəki Kövsər suyunu və ya bol bir nemət, yaxud Quran, peyğəmbərlik) bəxş etdik! Ona görə də (bu nemətlərə şükr edərək) Rəbbin üçün namaz qıl və qurban kəs. (Ya Peyğəmbər! Oğlun Qasim, yaxud İbrahim vəfat etdiyi zaman sənə sonsuz, nəsli kəsilmiş deyən) düşməninin (As bin Validin) özü sonsuzdur. (Sənin nəslin Qiyamətə qədər törəyib artacaq, adına isə həmişə rəhmət oxunacaqdır).”[1]

Dünyanın bu böyük xanımının başdan-başa iftixarla dolu həyatı, bütün ictimai-siyasi sahələri əhatə edən mənalı ömrü bütün insanlığa nümunə olan kamil və bənzərsiz bir qadının həyat yoludur. Fatimə (ə) pak və ismətli bir qadın olmaqla yanaşı, eyni zamanda yorulmaq bilməyən bir mübariz, şücaətli və qəhrəman bir inqilabçıdır. Elə bir mübariz qadındır ki, həqiqət yolundan azmış zülmkarların, nifaq salanların, öz mənfəətlərini güdən siyasətbazların, İslama qarşı çıxanların qarşısında öz gur səsini ucaldaraq vilayət və imamlığın, Peyğəmbərin (s) Əhli-beytinin (ə) əlindən alınmış hüquqlarının müdafiəsinə qalxır. Fatimə (ə) bu yolda qorxmazcasına irəliləyir və hətta şirin canını belə qurban verməyə hazır olur.

Bəli, bu yolda son nəticədə özünü fəda edən Fatimə (ə) idi ki, hər bir hərəkət və addımı, hər bir kəlamı və sükutu, fəryadı və göz yaşları, pislik və yaramazlıqlara, haqsızlıq və ədalətsizliyə qarşı bir mübarizə üsulu idi. İslam inqilabı nailiyyətlərinin qorunması və peyğəmbərliyin davamı uğrunda mübarizə idi.

Fatimeyi-Zəhra (ə) alovlu və yorulmaz inqilabçı, ayıq və uzaqgörən siyasətçi, tarixi-siyasi və ictimai hadisələrə dərindən bələd olan bir şəxs olmaqla yanaşı, həm də kamil bir zahid, İlahi elmləri üzrə yetkin bir alim, nümunəvi bir ana, ən yüksək dərəcəli müəllim və ustad, sədaqətli və vəfalı həyat yoldaşı və ən nəhayət, həyatı ürəkdən sevən fədakar bir insan idi...

Bəli, o böyük və həqiqi imamların anası, din başçıları kimi övladların tərbiyəçisi idi. Elə övladların ki, Allah yolunun, İslam yolunun, əziz İslam peyğəmbərinin (s) yolunun davamı üçün fədakarlıq və qəhrəmanlıqlar göstərdilər. Bu müqəddəs yolda pak canlarını fəda etdilər ki, İslam şərəflə yaşasın...

## Zəhranın (ə) xütbəsinin əzəməti

İndi isə vəd etdiyimiz kimi, o məşhur və tarixi xütbənin tərcüməsini verir və Peyğəmbər (s) nəslinə, ismət və şərəf ailəsinə vurğun olanları həmin xütbədəki dərin mənalarla tanış edirik. Onlar aşağıdakılardan ibarətdir:

### ***Yaradanın tərif və sitayişi***

Şükürlər olsun o Allaha ki, bizə yer üzünün sonsuz nemətlərini bəxş etdi, həqiqətləri və mərifətləri üzə çıxardı və onları möhkəmlətdi. Şükürlər olsun o Yaradana ki, bəxş etdiyi bol nemətlər davamlı və sonsuz oldu, hamının ehtiyaclarını tam surətdə ödədi. Elə nemətlər bəxş etdi ki, saya-hesaba gəlmir, onların şükrü üçün tərifli söz tapılmır və davamlığını dərk etmək adi insan idrakının xaricindədir. Allah-təala bu nemətləri bəxş etməklə bəndələrini Ona şükr etməyə çağırdı. Və həmin nemətləri artırmaqla bəndələrini Yaradana dua və sitayiş etməklə onlara yiyələnməyə dəvət etdi.

### ***Həmd və sənadan sonra (tərif və şükrdən) sonra***

Şahidlik edirəm ki, bir olan, şəriki olmayan Allahdan başqa ibadət olunan (Allah) yoxdur. Bu elə bir kəlmədir ki, sədaqət və səmimiyyəti onun şərhi və izahı etmiş, onun dəlil-sübutunu bəşərin xasiyyətində, qəlbində əmanət qoymuş və onun mənasını, məfhumunu bəşərin fikir və düşüncəsində aydınlaşdırmışdır.

Şükrlər edirəm o Allaha ki, gözlər Onu görə bilmir, dillər tərifində aciz qalır və fikirlər, duyğular Onun varlığının yüksəkliyinə çatmaq iqtidarında deyil. şükrlər olsun o Allaha ki, bütün varlıqları bir-birinə bənzəməyən halda yaratdı.

### ***Allahın varlığının sübuta yetirilmiş birliyi (tovhidi)***

Allah-təala Öz qüdrət əlilə hamıya varlıq xələti geydirdi – Öz iradəsi ilə onları yaratdı. Allah-təalanın bu varlıqları yaratmağa heç bir ehtiyacı yox idi, bu işdə heç bir faydanı da nəzərdə tutmurdu. Əksinə, bu yaranışdan bircə məqsədi var idi: öz hikmətini üzə çıxarmaq, sonsuz qüdrətini göstərmək və bəndələrini Ona itaət və ibadət yoluna dəvət etmək və bu dəvətini həmin əlamət və nişanların dəlil-sübutları işığında zəfərlə sona yetirmək...

[1] Qurani-Kərim, Əl-Kövsər surəsi

Sonra isə Ona olan itaətin əvəzində bəndələrinə əcr və savab vermək və onlara günahlarına görə cəza göndərmək...

***Peyğəmbərlik və onun zəruriliyi***

Şahidlik edirəm ki, atam Məhəmməd (s) Onun bəndəsi və peyğəmbəridir. Onu peyğəmbər təyin etməmişdən öncə seçdi və bu namizədliyə seçməzdən əvvəl adını qabaqkı peyğəmbərlərin ruhlarına və mələklərə bildirdi. Onu öz dəvətinin təbliğinə sövq etməzdən əvvəl bu vəzifəni yerinə yetirmək üçün seçdi. Bəli, bütün bunları etdi, özü də elə bir zamanda ki, camaat hələ qeyb dövründə gizlənmiş , vahimələr zülmətinin pərdəsi ilə əhatə olunmuş və gizlinliklər aləmində qalmışdı.

Bu seçki Allahın elminin bütün işlərin son nəticəsindən xəbər verir. Onun bütün zamanları əhatə edən hadisələri bilməsini, bütün zaman və məkanlara bələd olmasını göstərir.

Allah Məhəmmədi (s) seçdi ki, onun peyğəmbərliyi ilə Öz hikmət və qüdrətini tam olduğu kimi nümayiş etdirsin, hökmünü icra etsin və qəti iradəsinin nüfuzu artsın. Allahın seçilmiş peyğəmbəri (s) elə bir vaxtda peyğəmbərliyə çatdı və öz dəvətini yaymağa başladı ki, dünya əhlinin çoxu ayrı-ayrı dinlərin davamçıları kimi atəşgahlarda, məbədgahlarda günlərini bütlərə pərəstişdə keçirir və Allahı danırdılar.

***Cahilliyə dövrünə bir nəzər***

Belə bir zamanda Uca və Qüdrətli Allah Öz nəfsinin bərəkəti və atam Məhəmmədin (s) varlığındakı nuru ilə bəşərin qaranlıq fikir dünyasına işıq saçdı, ürəklərin və ağılların üfüqlərindən şübhə buludlarını dağıtdı, uzaqgörənliklə xislətləri basmış ilham tozunu sildi. Və o – Məhəmməd (s) camaat arasında irəli çıxdı ki, onlara rəhbərlik etsin, azdıqları yoldan döndərsin, gözlərindəki pərdələri aradan qaldırsın, inadlarından döndərsin. Peyğəmbər (s) bunların əvəzində insanlara uzaqgörənlik və gözüaçıqlığı, həyatı dərk etməyi öyrətdi, onları möhkəm dinə dəvət etdi və doğru yola yönəltdi.

(Əzab-əziyyət və işkəncə günləri, təklik və kimsəsizlik dövrü ötdü. Bütün bu acılar şirinliyə qovuşdu və qələbə-uğur zamanı yetişdi. İslam Allahın vəd etdiyi yerə qədəm basdı və İslam cəmiyyəti yarandı. Peyğəmbərin (s) fədakar səy və təlaşları əbədiyaşar uğurlar qazandı, əzəmətli zəfərlə nəticələndi. Dünya dinləri tarixində İlahinin ən ali, ən yüksək məqamı öz hədəfinə çatdı, bəşərin əbədi və əzəli məqsədinə yol açıldı. Məhəmmədin (s) peyğəmbərliyi özünün ən yüksək mərhələsinə çatdı, arzular aşıb-daşdı, dünyanın gözləri Məhəmmədin (s) Mədinəsinə, fəth olunmuş Məkkəyə və Allahın Kəbəsinə dikildi, vəd olunmuş zaman gəlib çatdı.) Nəhayət, Allah-təala onu lütfü və mərhəməti üzündən Öz rəhmət ocağına çəkərək bu fani dünyanın müsibət və əzablarından qurtardı. Beləliklə, Məhəmməd (s) pak mələklərin mübarək dəstələrinə qoşuldu, Bağışlayan Tanrının yanına yetişdi və orada əbədi rahatlıq tapdı.

Atamın ruhuna Allahın salavat və salamı, rəhmət və bərəkəti olsun! O, Allahın dünya xalqları içərisindən bəşəriyyət üçün seçdiyi peyğəmbəri (s) idi...

Xütbənin bu yerində Fatiımənin (ə) həyəcanlı səsi titrədi, qəlbindən nalə və fəryad qopdu, Peyğəmbərin (s) - əziz atasının bu dünyadan köçməsinə görə ürəkdən acıdı, dərindən ah çəkdi. Sonra isə ürəkləri riqqətə gətirən bir tərzdə dedi:

“Əfsus! Ey Allahın bəndələri, ey İslam bayraqdarları, ey din və vəhy daşıyıcıları! Siz Allahın ən inanılmış bəndələrindən və Onun birliyini başqa xalqlara təbliğ edənlərdənsiniz. Baxın, düşünün və agah olun ki, Allahın o həqiqi rəhbəri indi də sizin aranızdadır. Ləyaqət və qabiliyyətdə heç kim onun tayı-bərabəri deyil. Bundan əvvəl də sizinlə razılaşdırılmış qərara əsasən peyğəmbərliyin böyük davamçısı olan kəs rəhbərliyə təyin olunmuşdur... Bəli, bu, Allahın kitabıdır, danışan kitabdır – Qurani-Sadiqdir, işıq saçan nurdur, yayılan şüadır. Onun bəyanı uzaqgörənliyi artıran, sirlər aşkarlayandır, zahiri əlamətləri parlaq və gözqamaşdırıcıdır...

Onun – bu müqəddəs kitabın ardıcılları dünya əhlinin həsədinə səbəb olmuşlar. Ona tabe olanları behiştə düşməyə yönəldir. Onun sözlərini eşidənlər bəlalardan xilas olur. Həmin Quran vasitəsilə Allahın nurani dəlil-sübutlarını, təsvir olunmuş fərmanları, aydın fikirləri dərk etmək mümkündür.”

***Allah hökmlərinin fəlsəfəsindən bir nümunə***

Allah-təala imanı dinsizlikdən qurtarmaq və mənəvi təmizlik üçün buyurdu. Namazı yersiz qürurdan, dikbaşlıqdan yaxa qurtarmaq üçün vacib saydı. Zəkatı ruhların paklığı və ruzini artırmaq üçün, orucluğu mənəvi təmizliyin sabitliyi üçün zəruri bildi. Həcci dinin əsaslarını möhkəmlətmək üçün, ədaləti səmimiliyi üçün, fərmanlara itaət etməyi İslam millətinin nizam-intizamı üçün, imamlıq və dini rəhbərliyi aramızda

təfriqənin qarşısını almaq və əmin-amanlıq üçün, cihadı İslamın izzət və şərəfi və kafirlərin – düşmənlərin zilləti üçün, səbr və dözümü xeyirxah işlərə kömək üçün, İslamın qoyduğu qadağaları doğru yola dəvət üçün, ata-anaya yaxşılıq və hörməti Allahın qəzəbindən qorunmaq üçün, nəzir-niyaz verməyi əcəlin təxirə salınması və ömrün uzanması üçün, qisası qana hörmət üçün, niyyətə vəfanı insanlıq və haqqın əfvi üçün, çəkidə düzlüyü (alıcıları aldatmamağı) başqalarının haqqına xor baxmamaq üçün, mey içməyin qadağan edilməsini yaramazlıqdan uzaq olmaq üçün, töhmətdən uzaqlığı lənət qazanmamaq üçün, oğurluğu tərk etməyi namusu və mənliyi qorumaq üçün buyurmuşdur.

İlahi qarşısında paklığın, əsl tovhidin və tovhidin sağlığının qəbulu üçün çoxallahlığı (bütpərəstliyi) insanlara rəva bilmədi. (Odur ki, Allahın buyurduqlarına tam ləyaqətlə əməl edin, Onun mömin bəndəsi olun. Olmaya-olmaya, qeyri-müsəlman kimi öləsiniz). Şərif ayədə deyildiyi kimi, "Allahın buyurduqlarına, qadağan etdiklərinə itaət göstərin ki, Allahın bəndələri arasında bilici və alimlər yalnız Ondan qorxanlardır."

### ***Əsl mətləbə giriş***

Dan ulduzunun parlaq işığına, yeni doğan günəş şüalarına bənzəyən bu təkanverici sözlərdən sonra o böyük xanım xütbəsinin əsl mətləbinə keçərək dedi:

"Ay camaat, bilin və agah olun ki, mən Fatiməyəm. Atam Məhəmməddir (s). Bir daha deyirəm, bundan qabaq da demişəm və dediyim sözlər doğrudur. Nə edirəmsə, qayda-qanundan xaric deyil. Ona görə ki, sizə öz aranızdan bir Peyğəmbər (s) gəldi. O, sizin əzabınızdan inciyirdi, sizi tərbiyə etmək üçün bərk çalışırdı. Möminlərə qarşı çox mərhəmətli və mehriban idi.

Odur ki, əgər bunu nəzərə alsanız, anlayacaqsınız ki, o mənim atamdır, sizin arvadlarınızın atası deyil. Və mənim əmim oğlunun qardaşıdır. Sizin kişilərdən deyil. Necə bir iftixara səbəbdir!

O, öz peyğəmbərliyini "xəbərdarlığı" ilə bildirdi və öz yolunu müşriklərin uçurumundan aralı saldı. Onların başlarını vurdu, boğazlarından yapışıb sıxdı və hikmət dili ilə, moizələri ilə Allah yoluna dəvət etdi. Bütləri dağıtdı, başçılarının başlarını elə əzdi ki, çoxu dağıldı və arxalarını meydana çevirərək qaçdı.

Sübh gecənin pərdəsini yarıb çıxdı və haqqın parlaq siması üzündəki niqabı yerə atdı. Mütləq həqiqət və əsl haqq-ədalət göründü. Din başçısı sözə başladı və şeytansifət azğınların boğazları quruyub susdu. Yolun ortasından nifaq tikanları dağıldı, küfr və nifaq düyünləri açıldı. Və nəhayət, hamı o açıqürəkli, qarnıac dəstəyə qoşulub sədaqətlə dil açdı. Halbuki siz yanar çalanın qırağında fürsət axtaran adamyeyənlərin bir tikəsi idiniz. Hər yetən sizə bir təpik vururdu. Küçədəki gölməçələrdən çirkli su içir, ağacların yarpaqlarını yeyirdiniz. Alçaqlıq və yaramazlıq kölgəsi üstünüzü bürümüşdü. Qorxurdunuz ki, olmaya-olmaya sizi bir göz qırpımında bu adamlar arasından tapalar.

Bütün bunlardan sonra (bu zillət və xiffətlərin, yolazma və dinsizliklərin arxasından) Allah-təala Öz iradəsilə sizləri atam Məhəmmədin (s) əlilə xilas etdi və doğru yola yönəltdi. Halbuki onun özü insansifət yırtıcılarla, canavar xislətli ərəblərlə və dikbaş Kitab əhli[1] ilə çarpışırdı. Onlar hər dəfə savaş alovunu qızışdırdıqda (o İlahi nurlarını söndürmək məqsədilə) Allah-təalanın Özü həmin atəşi söndürürdü.

Haqsızlıq və günahların baş alıb getdiyi, məlun şeytanın hər an göründüyü, dinsiz əjdahaların dil çıxararaq alov püskürdüyü o çağlarda atam – Allahın Rəsulu (ə) dərhal öz əmisi oğlu Əlini (ə) o od püskürən əjdahalarla mübarizə üçün qabağa verdi. O da (əmisi oğlunun – qardaşının, rəhbərinin və müəlliminin əmri ilə) igidcəsinə irəli çıxır və bir göz qırpımında möhkəm yumruğu ilə əjdahanı əzib suyunu çıxarırdı. Özünün iti qılıncını həmin atəşi susdurmadan yerə qoymur, rahatlıq nə olduğunu bilmirdi. Axı o, haqq yolunda əzab-əziyyətlər görmüşdü, İlahi fərmanını yerinə yetirməkdə çox sınaqlardan çıxmışdı. O, Allahın Elçisinin (s) ən yaxın (hamıdan yaxın) qohumu, İlahini sevənlərin, övliyaların başçısı idi.

Daim çalışıb-əlləşərdi. Eyni zamanda hər işə qarışar, ciddi öyüd-nəsihətlər verərdi. Siz isə o qorxulu çağlarda öz eyş-işrətinizlə məşğul idiniz. Rahatca, heç nəyə fikir vermədən gününüzü zarafat və keyfdə keçirirdiniz. Gözlərinizi zilləyib, qulaqlarınızı şəkləmişdiniz ki, nə vaxt bizim başımıza bir bədbəxtlik gələcəkdir. O məsuliyyətli günlərdə mübarizədən yayınır və haqq-ədalət, namus və şərəf uğrunda döyüşdən qaçırdınız.

### ***Allahın Rəsulunun (s) dünyadan köçməsindən sonra***

Allah-təala elə ki, peyğəmbərlərin əbədi evini – Öz seçilmişlərinin daimi məskənini sonuncu peyğəmbərin (s) ixtiyarına verdi, sizin gizli düşmənçilik və nifaqınız aşkara çıxdı, yolunu azmışların içindəki qəzəb dilə

[1] Yəhudilər və xristianlar nəzərdə tutulur. (Tərcüməçi)

gəldi. Heç bir adı-sanı olmayan adamlar dahilik iddiasına düşdülər. Azğın və günahkar adamlar səslərini başlarına ataraq küçələrdə meydan suladılar...

Bəli, şeytan başını deşikdən çıxarıb sizi özünə tərəf səslədi. Şeytan gördü ki, onun dəvətini canla-başla qəbul edir, sözünü eşidir və ona hörmət-izzətlə baxırsınız. Odur ki, sizdən ayağa durmağı xahiş etdi və gördü ki, nə tez ayağa qalxırsınız. Sizi dağlayıb gördü ki, necə də atəşsevərsiniz. Siz də qəzəblənib başqalarına daha yandırıcı dağlar vurdunuz. Allahın Peyğəmbəri (s) ilə əhd-peyman bağlamışdınız, lakin onu çox tez unutdunuz. Həmin əhdin mürəkkəbi quruyan kimi, hələ Allahın Rəsulunun (s) pak cismi torpağa tapşırılmamış özünüzü qabağa verib bəhanə etdiniz ki, bir fitnə olmasın deyə, qorxudan belə iş tutmusunuz (nəzərə alın ki, özünüz fitnə içindəsiniz və cəhənnəm hər tərəfdən kafirləri qoynuna almaqda davam edir).

Bəs necə oldu ki, bu cür iş tutdunuz? Bu cür hara gedib çıxacaqsınız? Halbuki, Allahın kitabı – Quran qarşınızdadır. Onun mətləblərini aşkar, hökmləri aydın, göstərişləri nurani, çatdırdıqları göz qabağında, əmrləri bəllidir. Bunlara baxmayaraq, Ona məhəl qoymadınız? Yoxsa, Ondan üz çevirmək istədiniz? Bəlkə Quran əvəzində başqa şey tapıb, onun hökmlərinə əməl edirsiniz? Bilin ki, Quranın əksinə olan hökm zülmkarlar üçün yaxşılıq əvəzi deyil. Hər kəs İslam dinindən başqasını axtarsa, əsla onu bağışlamayacaqlar və o, axirətdə ziyankarlardan olacaq."

## *Sonrakı dövrün hadisələri*

Sonra o qədər sakit durmadınız ki, bu nabələd minik heyvanı ram olsun, cilovunu ələ versin və sizə tabe olsun. Siz atəş kürələrini alovlandıraraq şeytanın sözlərinə qulaq asdınız, dinin parlaq nurlarını söndürdünüz və pak Peyğəmbərin (s) qayda-qanunlarını tapdaladınız.

Siz südün köpüyünü götürmək bəhanəsilə gizlicə südü içdiniz və Allahın Rəsulunun (s) ailəsini, övladlarını aradan götürmək üçün pusquda durdunuz. Biz də (bu zülmlər qarşısında) bədəninə xəncər saplanmış, ürəyinə nizə batmış bir adam kimi dözür, səbr edirik.

## *Məgər bizim irsimiz yoxdur?*

İndi yəqin ki, belə güman edirsiniz ki, bizə Allahın Rəsulundan (s) bir irs qalmayıbdır? "Olmaya, cahiliyyə dövrünün hökmlərinə tabe olursunuz? Kimdir o kəs ki, onun hökmü iman və etiqadı olanlar üçün Allahın hökmündən daha üstün və alidir?

Siz doğrudanmı, bu məsələdən xəbərsizsiniz, yoxsa əsl həqiqətə biganəsiniz? Yox, əsla belə deyil. Əksinə, sizin üçün bu həqiqət günorta çağı buludsuz səmada görünən parlaq günəş kimi aydın və aşkardır. Sizin hamınız yaxşı bilirsiniz ki, mən – Fatimə Allahın Rəsulunun (s) – bütün bəşəriyyət və aləmin sonuncu Peyğəmbəri Məhəmmədin (s) qızıyam, İslam peyğəmbərinin (s) qızıyam və bu məsələdə heç kimin şəkk-şübhəsi yoxdur. Ey müsəlmanlar, axırıncı Peyğəmbərin (s) davamçıları! Siz doğrudanmı, urəkdən razılıq verirsiniz ki, mən atamın irsindən məhrum qalım, öz qanuni haqqımı əldə etmək uğrunda apardığım mübarizədə məğlub olum və bu mübarizədə atamın irsini tapdalamaq niyyətində olanların zülmünə dözüm?..

Bax, ey Əbu Qihafənin oğlu! İndi mən cavab ver görüm, Allahın kitabında yazılıb ki, sənə atandan irs qazanmalısan, mən isə öz atamın irsindən məhrum qalmalıyam?"

## *Quran nə deyir?*

Quran və İslam hökmlərinin tapdalanmasından bədəni tir-tir əsən pakların pakı Zəhra (ə) xütbəsinin bu yerində həyəcanlı və titrək bir səslə, ürəkləri riqqətə gətirən bir tərzdə sözlərini belə davam etdirdi:

"Heyhat, əgər düşünürsən ki, Allahın Kitabının hökmlərinə görə sənin atandan qalma irsin var, mənə isə atamdan heç bir irs nəsib olmayıbdır, çox yanılırsan. Əgər belə güman edirsənsə, Allaha qarşı rəva bilinməyən bir işə qol qoymuşsan. Siz qəsdənmi, bilərəkdənmi Allahın Kitabına məhəl qoymur və Ondan əl çəkirsiniz? Məgər bilmirsiniz ki, Allah-təala Quranda buyurmuşdur: *"Süleyman Davuddan irs aldı."*

Məgər başqa bir yerdə buyurmamışdır: *"Allah övladlarınız haqqında belə hökm verir ki, hər bir oğlana iki qıza bərabər irs payı düşür."* Başqa bir yerdə də məgər Allah buyurmurmu: *"Göstəriş verilmişdir ki, sizlərdən birinizin ölümü çatarsa və əgər özünüzdən sonra malınız qalarsa, valideynləriniz və qohumlarınız üçün yaxşılıqla vəsiyyət edin. Sizin bu işiniz möminlərə yaraşan işdir."*

Sonra Fatimə (ə) ürəyinin dərinliklərindən qopan bir fəryadla ucadan dedi:

"Bəli, Allah kəlamının hər şeyi bu cür aydınlıqla açıb göstərməsinə və sizin də bundan xəbəriniz olmasına baxmayaraq, indi nə oldu ki, məni atamın (s) irsindən məhrum etmək fikrinə düşdünüz? Yoxsa Allah sizi Quranın ayəsinə aid edib və öz Rəsulu olan mənim atamı bu ayənin hökmündən xaric edibdir? Ona aid

etməyiblər?! Bir də siz deyirsiniz ki, iki məzhəbdən olanlar biri o birindən irs almırlar. Məgər mən və atam (s) bir məzhəbdən deyilik? Eyni bir din və ayindən deyilik?.. Yoxsa siz elə bilirsiniz ki, Quranın hökmlərinə atam Məhəmməddən (s), əmim oğlu Əlidən (ə) daha çox bələdsiniz?”

Xütbəsinin bu yerində Fatimə (ə) coşqun halda sözünə davam etdi:

“Heyhat, ey qəflət vadisinin yolazmışları, madam ki, vəziyyət belədir və belə düşünürsünüz, onda onu (mənim atalıq irsimi) götürün, minik heyvanı kimi cilovlayın, üstünə şey-mey yığın və öz malınız edin... Mənim bu zülmdən qorxum yoxdur. Amma sən də bil ki, doğrudan da Məhşər günü də var və o gün axırda gələcək və səninlə üz-üzə duracaq. Həmin gün özün başa düşəcəksən ki, Allah-təala nə gözəl hakim və Məhəmməd (s) nə yaxşı iddiaçı və haqqını istəyəndir. Qiyamət günü də nə yaxşı bir vaxtdır. “O zaman cinayətkarlar daha çox cinayət edəcəklər. Lakin artıq peşmançılığın xeyri olmayacaq. Hər bir xəbərin yayıldığı yer var və tezliklə biləcəksiniz ki, rüsvayedici əzabla əbədi və daimi işkəncə ilə əlləşən o kəs kimdir.”

Bu an Fatimə (ə) gözünün ucu ilə məclisdə olan ənsara baxıb sözünə belə davam etdi:

“Ay cavanlar, ay millətin güclü qolları, ay İslam tərbiyəsini öz öhdəsinə götürənlər! Mənim açıq-aşkar haqqıma sizin məhəl qoymamağınızı, heç bir əhəmiyyət verməməyinizi nə ilə izah etmək olar? Niyə ağzınıza su alıb durmusunuz? Allahın Rəsulu atam (s) sizə və hamıya dəfələrlə buyurmayıbmı ki: “Hər bir kəsin öz övladı barəsindəki haqqına riayət etməsini nəzərə alın.” Bəs yaxşı, nə tez Peyğəmbərin (s) kəlamını unudub doğru yoldan çıxdınız və Rəsulun övladından bu cür tələsik halda əl çəkərək onu bu əzab-əziyyət içində özbaşına buraxdınız? Halbuki, siz bu işdə mənə kömək edə və qanuni haqqımın əldə edilməsində yardımçı ola bilərsiniz.

Bəlkə fikirləşirsiniz ki, artıq Məhəmməd (s) ölübdür və bu fani dünyada olmadığı üçün də Əhli-beytinin (ə), övladının hüququnun qorunmasına da heç bir ehtiyac yoxdur və bu barədə heç bir ölçü götürülməyəcək. Əgər belə düşünürsünüzsə, vay sizlərin halına. Bəli, atamın bu rəzil dünyadan köçməsi (əslində atamın ona heç bir vurğunluğu və bağlılığı yox idi) doğrudan da, ən ağır bir faciə idi. Elə bir faciə ki, hər yerdə iz qoymalı, sizin üzünüzə qəm tozu qondurmalı idi. Onun yoxluğunu heç nə ilə əvəz etmək olmaz. Onun yoxa çıxması ilə yer üzü qaranlığa büründü, bu müsibətdə səmadakı ulduzlar da gizlinliklərə çəkildi. Ümidlər qırıldı, dağlar yerindən qopdu. Müqəddəs yerlər (hərimlər) aradan getdi, hörmət-izzət yoxa çıxdı.

Bəli, onun yoxluğu bizim üstünüzü bürüyən böyük bəla, ağır müsibət idi. Heç bir faciəni onunla müqayisə etmək olmaz. Lakin bu hadisədən öncə Uca Tanrının Quranı onu açıq-aşkar xatırlamış və qabaqcadan görmüşdü. Siz də bununla bağlı ayələri Qurani-Məcidin başqa ayələri kimi evinizdə gecə və gündüzlər müxtəlif tərzdə və dəfələrlə oxumusunuz. Qabaqlar başqa peyğəmbərlər də bu hadisə ilə (ölümlə) üzləşmiş və onun qabağında təslim olmuşlar. Çünki ölüm aydın həqiqət, qaçılmaz gerçəklik və tale, qəti bir hökmdür. Məhəmməd (s) də özündən qabaq gələn və vəfat edən peyğəmbərlər kimidir. Deməli, əgər ölsə, ya öldürülsə, məgər yenə (Allahın yolundan, İlahinin dinindən və qayda-qanunundan) dönməlisiniz? Və əgər kim bu yoldan dönsə, Allaha bir zərər verməyəcək (Onun sizə ehtiyacı yoxdur, o sizsiniz ki, hamınız Ona möhtacsınız).

Şükr edənlərə (möminlərə, haqq yolunu davam etdirənlərə) isə Allah-təala mükafat verəcək.”

## ***Mühacirlərdən və ənsardan yardım istəmə***

Ey Qilənin[1] xoşbəxt oğulları! Doğrudanmı, atamın (s) irsini tələb etdiyim üçün mənim döyülüb-əzilməyimə və bu qanuni hüququmdan məhrum olmağıma razısınız? Axı siz mənim qarşımdasınız. Mənim gözlərimə baxır, səsimi eşidirsiniz. Bir yerə toplaşır, cəmiyyətlər təşkil edir, mənim haqq səsimi eşidir və vəziyyətimin nə yerdə olduğunu bilirsiniz. Mənə kömək etmək üçün sizin kifayət qədər gücünüz də var, nüfuzunuz da. Haqq-ədalət yolunda mübarizə üçün silah və təchizatınız da kifayət qədərdir. Belə bir şəraitdə mənim öz haqqım uğrundakı fəryadım, xahişim qulağınıza çatır, lakin mənə bir cavab vermirsiniz. Yalvarışlı naləmi eşidirsiniz, lakin dadıma-fəryadıma yetmirsiniz...

Ey döyüşdə igidlikləri ilə ad çıxaranlar, xeyirxahlıqda, yaxşı işlərdə məşhur olanlar! Siz həmin seçilmiş qəhrəman adamlarsınız ki, yollarını azmış ərəb qəbilələri ilə, vəhşi təbiətli yaramaz insanlarla mübarizə aparıb döyüş meydanından qələbə ilə, başıuca geri döndünüz. Həmin o şərəfli günlərdə bizim hamımız eyni yolun yolçusu idik. Siz bir işə başlayan kimi, biz də ona qol qoyurduq. Siz də elə idiniz, həmişə dediklərimizlə oturub-dururdunuz. Buna görə də, o fərəhli çağlarda işlərimiz şərəflə davam edirdi. İçimizdə tam bir İslam ab-havası var idi. Bütün ruhumuzla İslamı müdafiə edirdik. Dinsizlərin səsi boğuldu, günah və fitnə-fəsad azaldı, küfr alovu püskürdüldü, hərc-mərcliyə dəvət nidaları kəsildi. Bir sözlə, o vaxt İlahi dini və ayini nizam-intizama düşdü...

[1] Qilə - Mədinədəki “Əvs” və “Xəzrəc” adlı iki tayfanın iftixar sahibi, ulu anasının adıdır.

Ey eşidənlər! Bir gözünüzü açın, özünüzə gəlin. İndi sizə nə olub ki, elə bir vəziyyətdən sonra yenə də avaralıq yoluna düşmüş və o cür açıq-aşkarlıqdan gizli işlərə üz tutmusunuz? Axı sizə nə olub ki, bir o qədər səmərəli, faydalı səy və təlaşdan sonra indi yenə geri çəkilirsiniz? Nəhayət, o cür iman və əqidə sahibi ola-ola, indi nəyə görə bir daha dinsizliyə qoşulursunuz? *"Niyə öz əhd-peymanlarına əməl etməyənlərə - Peyğəmbəri (s) öz yurd-yuvasından didərgin salanlara qarşı mübarizə aparmırsınız? Axı onlar əvvəlcə sizin özünüzdən başlamışdılar. Yoxsa onlardan qorxursunuz? Yaxşı olar ki, Qadir və Uca Allahdan çəkinəsiniz! Əlbəttə, əgər həqiqətən (səmimi qəlbdən) Ona iman gətirmişsinizsə."* (Quran ayəsi).

***<u>Əhli-beytin (ə) haqqını tapdalayanlara xəbərdarlıq</u>***

Sonra pakların pakı Zəhra (ə) cavanları təlatümə gətirən, ürəklərə od salan kəlamı ilə üzünü yolunu azmışlara tutaraq onları bu yoldan döndərmək üçün xəbərdarlıqla dedi:

"İndi isə bilin ki, haqdan üz döndərib əyriliyə doğru gedirsiniz. Görürəm ki, bu yolda durmadan irəli gedir və uçuruma yuvarlanırsınız. Siz cəmiyyətin öz işlərini öz öhdənizə götürməyə, bütün işləri və məsələləri Allahın qoyduğu qayda-qanunla yerinə yetirməyə açıq-aşkar haqqı olan bir kəsi hakimiyyətdən, rəhbərlikdən uzaqlaşdırdınız. Görürəm ki, tam rahatlıq və arxayınçılıqla bir qırağa çəkilib sakitcə durmusunuz. Həyatınızda olan o sıxıntılardan sonra indi rahatlığa çıxmısınız. Yalnız öz rahatlığınız haqqında düşünürsünüz. Ancaq görürəm ki, içinizi də ehtiyat üçün boşaltmısınız, iştaha ilə yediyinizi qurtarmısınız. *"Əgər siz yer üzündə və yer üzündə yaşayan hər bir kəs əgər hamılıqla kafir olub Allahdan və haqq yolundan üz döndərsəniz, bunun nə qorxusu?! Axı Allah ehtiyacsız və tərifəlayiqdir"* (Quran ayəsi). Nəzərə alın ki, mənim dediklərim vücudunuzu bürümüş süstlüyə və rüsvaylığa, qəlbinizdə hiss etdiyiniz kələk və hiylələrə görədir. Bu dediklərim qəlbimdə gizlin saxladığım sirlər idi. Yaralı qəlbimin dərdləri üzərindəki zəhər idi ki, bayıra tökdüm. Dəlil-sübutlar idi ki, söylədim.

Amma indi ki, bu qədər sirr açıb-tökməklə, dəlil-sübut gətirməklə yenə də işlər düzəlmir, onda bu qəzəbli dəvədən yapışın və onun ardınca atlı aparın. Amma bilin ki, bu minik heyvanının beli yağır və ayağı yoğundur. Ona həmişəlik sizin ətəyinizdə oturmaq eyibdir. O, Yaradanın qəzəbinə düçar olmuşdur. O öz ardınca elə bir od qoymuşdur ki, ürəkləri yandıracaq. Allahın gözü qabağında əlinizi belə bir işə necə bulamışsınız? Ancaq bilin ki, *"tezliklə zülmkarlar başa düşəcəklər ki (hamısı bir yerdə alt-üst olublar)"* (Quran ayəsi).

Və mən, Fatimə həmin o kəsin qızıyam ki, sizi gözləyən təhlükə haqqında xəbərdarlıq etmiş və əzabla qorxutmuşdu. Mən də sizinlə üz-üzə durmuşkən sizi gözləyən ağır əzabı hiss edirəm. İndi nə istəyirsinizsə, edin. Biz də nə etməliyiksə, edəcəyik. Odur ki, gözləyin, biz də haqq-ədalətin üzə çıxmasının intizarındayıq."

## Xütbənin mənbələri və sənədləri

Fatimənin (ə) bu dəyərli və parlaq xütbəsinin İslam tarixində, xüsusilə də şiə əhlinin zəngin tarix və mədəniyyətində olduqca böyük əhəmiyyətini nəzərə alaraq xütbəni qeydə almış, ya onu köçürmüş və istinad etmiş mənbələri və tarixi sənədləri Əhli-beyt (ə) aşiqlərinin diqqətinə çatdırırıq.

Həzrət Fatimeyi-Zəhranın (ə) xütbəsi ilk dəfə Abbasilər dövrünün alimlərindən Əhməd bin Əbu Tahirin (vəfat tarixi – 280/893-cü il) "Bəlağat-ən-nisa" adlı dəyərli əsərində qeydə alınmışdır.

Sonra sünnə əhlinin alimlərindən Əhməd bin Əbdüləziz Cövhəri 322/934-cü ildə onun özünə oxunmuş bu xütbəni "Əl-Səqifə" adlı kitabında qeyd etmişdir.

Bu iki alimdən başqa aşağıdakı alimlər də həmin xütbə haqqında öz əsərlərində söz açmışlar: 371(981-982)-ci ildə vəfat etmiş böyük İslam alimlərindən Şeyx Səduq, Şeyx Məfud (413/1022-ci ildə vəfat edib) "Məcalis" kitabında, Seyyid Mürtəza Ələm-ül-Huda (vəfat tarixi – 436/1044-cü il) "Şafi" kitabında, Əhməd bin Məhəmməd Məkki, İbn Tavus (644/1266-cı ildə vəfat edib) "Təraif" kitabında, hədisçi Ərbili (687/1288-ci ildə vəfat edib) "Kəşfül-ğəmmə" kitabında və Məsudi "Məruc-əz-zahib" kitabında.

İbn Təyfur "Bəlağat-ən-nisa" kitabında və Əbu Cəfər Məhəmməd bin Cərir bin Rüstəm Təbəri "Dəlail-əl-əimmə" adlı kitabında da bu xütbədən bəhs etmişlər.

## Sünnə əhlinin etirafı

İslam hökumətinə rəhbərlik edənlər və müsəlmanların başçıları həzrət Zəhranın (ə) qanuni atalıq varisini tapdalamaqla İslam tarixinə ən ləkəli bir səhifə yazdılar. Bu məsələdən təkcə şiələr və onların alimləri və tədqiqatçıları deyil, sünnə əhlinin də böyük alimləri bəhs etmişlər. Sonuncuların etirafları şiə aləmində mövcud olan bu gerçəkliyi bir daha təsdiq etdiyi üçün xüsusilə əhəmiyyətlidir.

Sünni əhlinin qəbul etdiyi həmin etiraflardan biri Buxarinin məşhur "Səhih" kitabında xümsün vacibliyi haqqında olan fəsildə Ayişənin dilindən söylənmiş bir rəvayətdə öz əksini tapmışdır. Həmin rəvayətdə Ayişənin dilindən deyilir:

"Rəsulullahın (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkr Siddiqdən xahiş etdi ki, atası tərəfindən məsrəfdən ona çatacaq irsi bölüb versin.

Əbu Bəkr cavabında dedi: "İslam peyğəmbəri (s) demişdir: "Bizim əsla irsimiz yoxdur. Bizdən nə qalsa sədəqədir."

Fatimə (ə) qəzəblənib Əbu Bəkri tərk etdi və vəfat edənədək bir daha onunla əsla danışmadı."[1]

## Fatimeyi-Zəhranın (ə) xütbəsinin təsiri

Fatimeyi-Zəhra (ə) o tarixi gündə bu həyəcanlı xütbəni bəyan edərkən çoxlu mühacir və ənsar orada idilər, onlar pak və odlu bir qəlbdən qoparaq gələn bu atəşin kəlmələri eşitdilər. Onlardan qəflətdə olanları və ya hədə-qorxu altında mövcud hökumətlə əməkdaşlıq edənlərdən bəziləri əlbəttə, sükut edərək susmuşdular. Amma əsl həqiqətdən hələ o qədər də uzaq düşməyən və ürəklərində Əhli-beytə (ə) məhəbbət bəsləyən bəziləri isə pakların pakı Zəhranın (ə) buyurduqlarının doğru olduğunu hiss edirdi. Lakin əfsuslar ki, onlar həmin zəhərlənmiş mühitdə susmaqdan başqa bir çarə tapmır və yalnız ürəklərinin dərinliyində Fatimənin (ə) haqlı olduğunu dərk edərək içlərində qovrula-qovrula qalırdılar.

Amma buna baxmayaraq, Peyğəmbərin (s) alicənab qızının həyəcanlı müraciəti orada olan çoxlu adamlar, eləcə də sonrakı insanlar – (istər pak hisslərlə yaşayan sədaqətli insanlar, istərsə də o zəhərli mühitin qəflət düşüncələri içərisində mat-mat bu təsirli sözləri dinləyən kəslər) tərəfindən diqqətlə qarşılandı, onlara öz təsirini göstərdi və böyük əks-səda doğurdu. Pakların pakı Zəhra (ə) həmin gün ora toplaşmış müxtəlif fikirli adamların qarşısında Rəsulullahın (s) İlahi məktəbində aldığı dərsi çox məharətlə nümayiş etdirdi. O həzrət öz haqqını və nəslinin hüququnu elə güclü məntiqlə müdafiə etdi və sözlərinin doğruluğu üçün elə danılmaz dəlil-sübutlar gətirdi ki, hamını hərəkətə gətirdi və kimsə bu alovlu çıxışa biganə qala bilmədi.

Bəli, Fatimə (ə) o hərarətli bəyanı ilə bir çox yatmış vicdanları ayıltdı, bir çox düşüncələri dəyişdirdi və camaatın rəyini öz müqəddəs amallarına cəlb edə bildi, Fatimə (ə) həmçinin alicənab atasının (s) doğru yolunun davamı olan həqiqət yolunu camaata göstərə bildi. O öz məqsəd və istəklərini xalq kütlələrinə işıqlandırmağa və aldanmış, ya qorxudulmuş beyinlərə bir çox məsələləri açıb göstərməyə nail oldu. Fatimə (ə) çoxlarına aydınlaşdırdı ki, hazırda İslam bir qrup şəxsi mənafeyini güdən mənsəbpərəstlərin əlində oyuncağa çevrilmişdir. Bu xütbəsilə Zəhra (ə) tarixin ixtiyarına mövcud həqiqətlərin təmsilçisi olan çox mühüm və dəyərli bir sənəd verdi.

Doğrudan da, pakların pakı Zəhranın (ə) bu alovlu və təsirli çıxışı tarixdə əbədi həkk olunan elə bir möhkəm dəlil-sübutlu sənəddir ki, Peyğəmbər (s) nəslinin – müsəlmanlarının birliyinin və Rəsulullahın (s) İlahi inqilabının nailiyyətlərini qorumaq və İslam ayinlərinə ehtiramı gözləmək xatirinə öz canlarından keçməyə hazır olan o müqəddəs şəxslərin – məzlumluğunu sübuta yetirir. Bu tarixi xütbənin hədəfi təkcə o dövrün siyasətbazları və hökumət harisləri deyildi, o eyni zamanda elə bir xəbərdaredici zərbədir ki, bütün zaman və məkanların ayıq başlarını, vicdanlı qəlbləri və İslam siyasətçilərini haqq və ədalətə səsləyir. Fatimənin (ə) bu çağırışı həm də bütün İslam millətləri üçün həmişə haqq və batilin tanınması üçün bir meyar və məhək daşı, dəlil-sübutlu sənədidir.

Bütün İslam məfhumlarını əhatə edən bu xütbədə həzrət Fatimə (ə) dinin namaz və orucluq, həcc və zəkat, ədalət və hökumət, imamlıq və cihad kimi əsas məsələlərindən də aydın və anlaşıqlı bir dildə söz açır. Fatimə (ə) bu xütbədə din yolunda səbr və dözüm, dini yasaq və qadağalar, mərhəmət və şəfqət, öhdəlik və məsuliyyət, başqalarının haqqını gözləmək, töhmətdən qaçmaq, mey içməkdən uzaq olmaq, Allahın birliyini qorumaq, ata-ana haqqında yaxşılığın əhəmiyyəti, ədalət və bərabərlik naminə qisasın yerinə yetirilməsi və bu kimi onlarca məsələyə toxunmuş, bu məsələlərdən hər birinin mahiyyət və əhəmiyyətini açıb göstərmişdir. Bütün bunlar o böyük şəxsiyyətin əzəmətli ruhunu göstərən əlamətlərdəndir. Həmin məsələlərdən bəhs olunmasının özü o böyük xanımın İslamın bütün əsas məsələlərinə dərindən bələdliyindən xəbər verir və göstərir ki, bu sözlərin sahibinin etiraz və tənqidləri şəxsi məsələlərlə bağlı deyil, əksinə, ictimai-siyasi və ümumi məsələlərə aid iradlardır. Şəxsi hisslərə əsaslanmayan həmin iradların zəmini, bünövrəsi, İlahi qanunları, Quran hökmləri; yeganə hədəfi isə - İslam mənafeyi, müsəlmanların mənafeyidir.

Bəli, bu parlaq və təsirli xütbə belə bir həqiqəti açıb göstərir ki, camaatın ümumi məsələlərində sükut və bir küncə çəkilmək, etinasızlıq və biganəlik nəinki rəva bilinmir, əksinə, etiraz səsini ucaltmaq, aydınlaşdırıcı və tənqidi çıxışlar etmək, camaatı oyatmaq və xəbərdar etmək müsəlmanlar üçün vacib sayılan borclardan,

---

[1] Buxari, "Səhih", 7 c., s. 5

vəzifələrdəndir. Xüsusilə də səlahiyyətli və layiqli şəxslərin bu məsələləri qaldırması onların mühüm vəzifələrindən sayılır.

Beləliklə, aydındır ki, paklarının pakı Zəhranın (ə) bu parlaq və tarixi xitabı təkcə bir neçə kilometr məsafəlik torpaq parçasını (həmin məşhur və tarixi Fədəki) əldə etmək üçün olmamış və deyildir. Əksinə, Peyğəmbərin (s) qızının əsl hədəfi hər hansı paltar və vəzifədə olursa olsun, bir təcavüzkar şəxsi pisləmək və ümumiyyətlə, təcavüz ruhunu – zülmü ifşa etmək, pisləmək olmuşdur.

O dövr müsəlmanlarının ən böyük toplantı yerlərindən birində - Mədinə məscidində belə bir misilsiz, təkanverici xütbə oxumağın özü göstərir ki, dövlət və hökumət başçısını sorğu-suala tutmaq, onun zəif cəhətlərini, zülm və zorakılığını açıb göstərmək, eləcə də başqa dövlət orqanlarının siyasi-ictimai fəaliyyətini tənqid etmək millətin hər bir üzvünün vəzifəsidir və müsəlmanlar əsla göz və qulaqları bağlı halda, mətləb və məsələləri öyrənmədən müti və itaətkar bir halda hər hansı bir səlahiyyətsiz hakimin düzgün olmayan qərarlarını (zahirən İslama uyğun olsa belə və ya İslam qanunlarına uyğunlaşdırılsa da) yerinə yetirməyə can atmamalıdırlar. Bəli, İslamda belə üzr və bəhanələr əsla qəbuledilməzdir. Burada yalnız bir məsələni nəzərə almaq lazımdır: Allah yolunda addımlamaq, İslam uğrunda irəliləmək, İslam cəmiyyətinə, bütün müsəlmanlara xidmət etmək.

Fatimə (ə) belə bir xüsusi yerdə və şəraitdə bu cür təkanverici xütbə oxumaqla bütün gələcək İslam nəsillərinə öyrətdi ki, haqqı, doğru sözü hər yerdə və necə olursa-olsun demək lazımdır. Hətta əmir, ya dövlət başçısı, zülmkar sultan və ya zahirən özünü müsəlman göstərən, Peyğəmbərin (s) xilafət məqamının başçısı, ya da pak imamların (ə) naibi kimi qələmə verən rəhbər qarşısında olsa belə, öz sözünü deməyi bacarmalıdır.

Bəli, həqiqət çox zaman acı və yandırıcı olsa da, hər bir əziz və şirin şeydən daha əziz və şirindir.

## Zəhranın (ə) xütbəsində söhbətin gerçəkliyi və səmimiliyi

İndi belə bir məsələdən danışmaq lazım gəlir: hamımız bilirik ki, Fatimənin (ə) sözlərinin səmimiliyi və doğruluğunda heç bir şəkk-şübhə yoxdur. Artıq incəliyi ilə sübuta yetirilmişdir ki, xütbədə bəhs olunan mövzunun hüquqi baxımdan doğruluğunu hamı etiraf edir. Bəs belə olan surətdə nəyə görə o həzrətin haqlı tələblərinə əhəmiyyət verilmədi? Necə oldu ki, bu həyəcanlı və təkanverici xütbədə qaldırılan məsələləri müvafiq şəxslər və siyasət pərdəsinin arxasında olan oyunçular yerinə yetirmədilər? Nə səbəbə o həzrətin hüquqlarını yerinə yetirmək üçün bir tədbir görülmədi? Niyə Zəhranın (ə) isti nəfəsi, haqq kəlamı dövrün hökumət başçılarının soyuq qəlblərinə təsir etmədi? Niyə o açıq-aşkar haqq, tapdalanmış hüquq bərpa olunmadı? Niyə tələb olunan torpaq sahibinə qaytarılmadı?

Bütün bunlar elə dəqiq və incə məsələlərdir ki, keçən əsrlər ərzində, İslam mədəniyyəti və tarixi boyu qızğın müzakirələrə səbəb olmuş və ayrı-ayrı sənədlərə əsasən onlar haqqında müxtəlif fikirlər söylənmişdir. Maraqlıdır ki, təkcə şiə alim və tədqiqatçıları deyil, eyni zamanda sünnə əhlinin böyükləri və alimləri də bu məsələ haqqında diqqətəlayiq fikirlər irəli sürmüşlər. Bu baxımdan yuxarıda qeyd olunmuş suallardan birinə verilmiş cavab xüsusilə diqqəti cəlb edir. Həmin cavab haqqında sünnə əhlindən olan bir mötəzili bəhs etmişdir. İbn Əbül-Hədid adlı bu insaf sahibi, dəyərli tədqiqatçı "Nəhcül-bəlağə"ni şərh etmiş məşhur alimlərdən biridir. Müəllif həmin şərhin bir yerində belə yazır:

"Bağdaddakı Ərəbiyyə mədrəsəsinin ustadı Əli bin Fareqiyə dedim: "Fatimə (ə) öz iddiasında haqlı idi yoxsa yox?"

O dedi: "Bəli, o haqlı idi."

Dedim: "Yaxşı bəs Fatimə (ə) öz iddiasında (Fədək torpağının atalıq irsi olması və ona sahibliyi haqqında) haqlı idisə, onda niyə Fədək ona verilmədi?"

Ustad bu sualın cavabında təbəssüm edib bir mətləbi açıb danışdı və mənə hər şey aydın oldu. O dedi: "Əgər o vaxt Fədək ona verilsəydi (belə olduqda o həzrətin iddiasının doğruluğu təsdiqlənmiş olurdu), həmin günün səhəri də qayıdıb xilafəti və hökuməti əri üçün tələb edər və dövrün xəlifəsini vəzifədən düşürərdi. Əvvəlcə (Fədək haqqında iddiasının doğruluğunda) haqlı olması təsdiq edilsəydi, onda onun üçün heç bir üzr, bəhanə gətirmək mümkün deyildi."[1]

Beləliklə aydın olur ki, o günlərin siyasət pərdəsinin arxasında necə məkrli oyunlar baş verirdi. Bir qanuni hüququ tapdalamaqla neçə başqa bir hüququn tapdalanmasına başlayırdılar. Əlinin (ə) hökumətinin, xəlifəliyinin qarşısını almaq üçün həyat yoldaşı Fatimənin (ə) atalıq irsini-mülkünü vermir və öz dünyəvi məqsədləri üçün hətta Allahın Elçisinin (s) vəsiyyət və sifarişini belə qulaqardına vurmağa hazır idilər!

## Uzun mübarizələr üçün nəsillərin dəlilləri

[1] İbn Əbül-Hədid, "Şərh Nəhcül-bəlağə", 16 c., s. 284

Fatimənin (ə) tarixi xütbəsinə diqqətlə nəzər saldıqca onda öz əksini tapmış dini və məzhəbi, siyasi və ictimai, tarixi və ideoloji məsələlərin necə dərindən təhlil edildiyinin şahidi oluruq.

Xütbədə ifadə olunmuş onlarca aydın həqiqətləri, ali və dərin məfhumlar onun böyük əhəmiyyətini göstərir. Bundan əlavə, Fatimənin (ə) xütbəsi özünün siyasi təsiri və bu təsirin İslam tarixində, şiə aləmində davamı baxımından da xüsusi əhəmiyyət kəsb edir. Belə ki, İslam tarixində bu xütbə elə bir möhkəm dəlil-sübutlu sənəddir ki, Fatimənin (ə) övladları uzun illər boyu apardıqları mübarizələrində Peyğəmbərin (s) ev əhlinin (ə) qanuni hüququnun tapdalandığını sübut etmək, onlara qarşı necə zülm və əzabların rəva görüldüyünü açıb göstərmək üçün bu xütbəyə istinad etmişlər.

Fatimənin (ə) bu mübariz və mücahid övladlarından biri Zeyd bin Əli bin Əl-Hüseyn bu barədə belə deyir:

"Mən gördüm ki, Əbu Talibin (ə) nəslindən olan şeyxlər bu xütbəni atalarından rəvayət edir və öz oğlanlarına öyrədirdilər."[1]

### Başqa bir xütbə

Qeyd etmək lazımdır ki, mənbələrdə, tarixi mətnlərdə Fatimənin (ə) başqa bir xütbəsi də qeydə alınmışdır. Bu xütbəni Zəhra (ə) onun görüşünə gələn xanımlara müraciətlə söyləmişdir.

Bu xütbə də açıq-aşkar göstərir ki, pakların pakı Zəhra (ə) son nəfəsinədək özünün və ailəsinin tapdalanmış hüququ barədə öz etirazında qalmış, hər dəfə imkan düşdükcə onu yada salmış, həqiqəti açıb demiş və müxalifləri ifşa etmişdir. Xilafətə satılmış bəzi yazıçıların yazdıqlarına görə guya həzrət Fatimə (ə) öz iddiasından əl çəkmiş və xilafətin çıxardığı hökmlə razılaşmışdır. Əslində isə belə deyildir, çünki əgər bu cür olsaydı, onda Fatimə (ə) yataqda son günlərini, ömrünün axır saatlarını yaşayarkən onu yoxlamağa gələn müsəlman xanımlarının yanında bir daha bu mövzu ilə bağlı şikayət və etirazını dilinə gətirməzdi.

Bəli, beləliklə aydın olur ki, o böyük qəhrəman qadın, yorulmaq bilməyən mübariz bir an belə haqsızlığa qarşı mübarizəsindən dönməmiş və son nəfəsinədək haqq-ədalətə düşmən çıxanlarla amansız mübarizə aparmışdır. Ustad Şəhriyar bu barədə belə yazır:

Şir ürəkli, qəhrəman və şücaətli o qadın
Öz hüququnu müdafiə etdi.
Qadın olsa da, mərdanə idi,
Yanar, atəşin qiyamdan alovlanardı,
Sinəsindən elə bir şölə qopdu ki, zülmün qara xırmanını yandırdı.
Dünyaya nə dünya əhlinə
Haqq-ədaləti qorumaq və zülmü dəf etmək dərsini öyrətdi.
Yatmış kişiləri yuxudan oyatdı,
Zülmkarların abrını ətəklərinə bükdü.

### Ümm Sələmənin Fatiməni (ə) müdafiə etməsi

Burada bir məsələni də qeyd etmək lazımdır: Zəhranın (ə) o həyəcanlı xütbəsi və zülmkarlardan öz haqqını tələb etməsi Allahın Elçisinin (s) nəslindən olanlara və o həzrətin qohumlarının həyat yoldaşlarına da öz dərin təsirini bağışladı. Fəqət o zəhərlənmiş mühitdə o həzrətə arxa durmaq asan iş deyildi. Buna baxmayaraq, həmin şəxslərdən biri – alicənab İslam peyğəmbərinin (s) Ümm Sələmə adlı fəzilətli həyat yoldaşı əsla qorxub çəkinmədən Əhli-beytin (ə) hüquqlarını müdafiə etmək üçün cəsarətlə irəli çıxıb Fatiməyə (ə) arxa durdu. O, pakların pakı Zəhranın (ə) dediklərini təsdiq edərək bildirdi ki, o həzrət öz tələblərində haqlıdır. O fəzilətli xanım Fatimənin (ə) hüququnun tapdalanmasına etiraz əlaməti olaraq müəyyən tədbirlər gördü və bu yolda əlindən gələni əsirgəmədi. Məsələn, o dövrün hökumətinin qərarına əsasən hökumət tərəfindən onun üçün də müəyyən hədiyyələr nəzərdə tutulmuşdu. Amma o fəzilət sahibi xanım bir il tamam həmin hədiyyələri qəbul etməkdən imtina etdi və bununla da Əhli-beytə (ə) qarşı rəva görülmüş zülmə öz etirazını bildirdi və bunu hamıya çatdırdı.[2]

### Əbədiyaşar sözlər

---

[1] Əhməd bin Əbu Tahir, "Bəlağat-ən-nisa"

[2] İbn Cərir, "Dəlail əl-imamət", s. 39

Əski mətnlərdə, qədim kitab və risalələrdə, mötəbər sənədlərdə böyük İslam qadınının - Peyğəmbərin (s) əziz yadigarının dilindən çıxmış sözlər, dəyərli kəlmələr və bəyanatlar qeydə alınmışdır. O həzrətin sözləri, kəlamları elə dərin mənalı və əhatəlidir ki, hər bir kəs üçün həyatın müxtəlif sahələrində olduqca faydalı, gərəkli ola bilər. Böyük tərbiyəvi əhəmiyyəti olan, insanları ayıldan, doğru yola dəvət edən bu kəlamlar mərifət əhlini kamalın son mənzilinə çatdıran bir rəhbərə bənzəyir.

Fatimənin (ə) gövhər kimi dəyərli həmin kəlamlarından bir neçəsini nümunə olaraq oxucuların nəzərinə çatdırırıq. Qoy oxucunun özü bu kəlamlarda öz əksini tapmış Fatimənin (ə) zəngin dünyagörüşü və dəyərli fikirləri ilə tanış olsun və o həzrətin dini, tərbiyəvi, ictimai-siyasi və başqa məsələlərlə bağlı baxışlarına diqqət yetirsin.

### 1. İslam başçısı və rəhbəri kimdir?

Allahın Peyğəmbəri (s) bu dünyadan köçdükdən sonra Fatimə (ə) acı və qəmli günlərini yaşayırdı. Kövrək qəlbini qəm-kədər bürümüş Fatimə (ə) xəstələnib yatağa düşdü. Həmin xəstəlik axırda o həzrətin (ə) vəfatı ilə nəticələndi. O vaxt İslam dünyasında böyük bir təlatüm var idi. Rəsulullahın (s) vəfatından sonra onun həqiqi canişinlik hüququ Əlinin (ə) əlindən zorla alınmış və başqalarına verilmişdi. Beləliklə də, İslamın aydın səmasını bürüyən qara buludlar ortaya çıxmışdı.

Belə bir qəmli dövrdə bir gün mühacir və ənsari qadınlardan bir neçəsi Fatiməni (ə) yoluxmaq üçün o həzrətin yanına gəldi. Onlar Fatimənin (ə) balışı yanında oturub o həzrətin vəziyyətini, əhvalını soruşdular. O həzrət həmin qadınların suallarına cavabında belə buyurdu:

“Mən sizin cəmiyyətinizdən narazıyam. Kişilərinizdən isə incimişəm. Kişilərinizin (xasiyyətini) öyrəndikdən sonra onları özümdən uzaqlaşdırdım. Onların əməl və davranışlarından sonra məyus olub incidim. Vay sizin kişilərin halına! Onlar niyə xilafəti peyğəmbərliyin mərkəzindən, peyğəmbərlik evindən, vəhylərin nüzul olduğu yerdən kənar etdilər? Niyə o ləyaqətli və elmli, dünya və din işlərinin bilicisi olan kişini (həzrət Əlini (ə)) vilayət işindən və ümmətə rəhbərlikdən uzaqlaşdırdılar? Şübhəsiz ki, bu aydınlığa və işıqlığa ziyan verən, zərər gətirən bir əməldir. Onlar Əbül-Həsən Əlidən (ə) nə pislik görmüşdülər, onda nə eyib tapmışdılar ki, belə bir iş tutdular? Bəli, doğrudan da, onlar Əlinin (ə) iti qılıncından, ölümdən qorxmamağından, Allah yolunda qətiyyət və mübarizliyindən narazı və nigaran olduqlarına görə onu ümmətə rəhbərlikdən kənarlaşdırıb uzaqda saxladılar.”[1]

Bu cazibəli və mənalı sözlər Fatimənin (ə) o dövr müsəlmanları, eləcə də İslamın gələcəyi üçün taleyüklü olan məsələlərdən birinə necə ürək yanğısı ilə və uzaqgörənliklə yanaşdığını göstərir. Bu kəlamlar həmçinin Fatimənin (ə) bu həssas məsələdə vilayəti və müsəlmanlara başçılığı layiqli şəxsə tapşırmaq məsələsində nə dərəcədə təmiz və səmimi olmasından da xəbər verir. Fatimənin (ə) bu xüsusiyyəti yuxarıda şərhini verdiyimiz xütbədə daha açıq-aydın şəkildə özünü göstərir. Yuxarıda qeyd etdiyimiz kimi, Fatimənin (ə) bütün mənalı həyatı üçün bu cür dəyərli sözlər olduqca səciyyəvidir. Bunlar haqqında yeri gəldikcə aşağıda da söz açacağıq.

### 2. Zəhranın (ə) sözlərində dua

Mərhum Seyyid Möhsün Əmin “Əyanuş-şiə” adlı çox qiymətli kitabında o böyük fəzilət sahibi kamil xanımın bir nitqində buyurduğu ən ali bir duanı vermişdir. Müəllifin “Məhüüd-dəvat” adlı bir kitabdan rəvayət etdiyi həmin dua belədir:

“Ya Rəbb, mənə verdiyin ruzi ilə məni qane et!”

“Ya Rəbb, mənim iffətimi (həya və namusumu) qoru və mənə sağlamlıq nəsib et!”

“Ya Rəbb, ölərkən məni Öz xüsusi rəhmət və mərhəmətinə qovuşdur!”

“Ya Rəbb, məni nəsibim etmədiyin bir şeyi arayıb-axtarmaq yolunda təlaşa və əziyyətə salma!”

“Ya Rəbb, mənə ata-anamı və üstümdə haqqı olan kəsləri çox görmə!”

“Ya Rəbb, mənə - tövbə (yolunda) və Sənə qayıtma yolunda olan bəndənə əzab vermə!”

“Ya Rəbb, nəfsimi öz içimdə öldür, öz böyüklüyünü daha da əzəmətli et. Ey bağışlayanların bağışlayanı, Səni sevindirən amillərə itaətimdə mənə ilham ver, qəzəb və narazılığına səbəb olan işlərdən məni çəkindir!”

### 3. Paxıllıqdan çəkinmə

Səxavət və kərəm sahiblərinin başçısı, fədakar oğul, peyğəmbərlik, vilayət və imamlıq məktəbinin yetirməsi, mübarək Siddiqənin pak ətəyində böyüyüb tərbiyə almış imam Hüseyn (ə) anası Zəhradan (ə) belə bir rəvayəti nağıl edir:

Allahın Rəsulu (s) bir dəfə öz əziz qızına müraciətlə buyurmuşdu:

---

[1] Ehticaci-Təbərsi, 1 c., s. 147

“Olmaya-olmaya, qəlbində paxıllığa yol verəsən. Paxıllıq elə bir bəladır ki, kərəm və mərhəmət sahiblərində əsla tapılmaz. Paxıllıq elə bir ağacdır ki, kökləri oddan (cəhənnəmdən) yaranır, budaqları isə (bu) dünyadadır. Onun hər hansı bir budağından asılan kəsi odla öldürür.”[1]

### 4. Nur duası

Bu duanı Salman Farsi böyük İslam xanımı Fatimədən (ə) nağıl etmişdir. Mərhum Məclisinin yazdığına görə, o həzrət Məkkədə və Mədinədə çoxlu xəstələri bu pak və bərəkətli duanın müqəddəs təsiri ilə sağaltmışdır. Duanın mətni belədir:

“Bismillahir-rəhmanir-rəhim. Bismillahin-nur. Bismillahi nurun əla nur. Bismillahil-ləzi huvə müdəbbül-umur. Bismillahil-ləzi xələqən-nurə minən-nur. Əlhəmdulillahil-ləzi xələqən nurə minən-nur və ənzələn-nurə əla tur fi kitabin məstur fi ruqqin-mənşur bi qədəri-məqdur əla nəbiyyin məhbur. Əlhəmdulillahil-ləzi huvə bil-izzi məşhur və ələs-sərrai vəz-zərrai məşkur və səlləlahu ələs-seyyidun-Muhəmməd və Alihit-tahirin.”

### 5. Fatimeyi-Zəhranın (ə) şerlərindən bir nümunə

Məlum olduğu kimi, həzrət Zəhra (ə) bütün hallarda güclü ruh sahibi idi. Hər bir ruhi vəziyyətdə dilindən güclü kəlam və zəngin bəyan qopardı. Hər hansı bir hal və vəziyyəti şərh etməkdə, müxtəlif mətləbləri açmaqda kamil bir bəlağət sahibi idi.

Bəli, demək olar ki, Peyğəmbərin (s) qızı bu cür güclü bəyanı ilə söz mülkünün də başçısı idi. Elə fəsahət və bəlağətlə danışardı ki, müraciət etdiyi şəxsi öz alovlu və dərin kəlamı ilə həyəcana gətirər, yerindən oynadardı.

Mühacir və ənsari qadınların hüzurunda dediyi sözlərin özü o həzrətin qüdrətli nitqinə, güclü kəlamına ən yaxşı bir nümunədir. Fatimə (ə) qabaqcadan hazırlaşmadan, bədahətən belə bir güclü kəlamı buyurmuşdur.

Bundan əlavə, o həzrətə məxsus bir sıra şerlər də gəlib çatmışdır. Ərəb ədəbiyyatında xüsusi yeri olan bu şerlərin sayı olduqca çoxdur. Maraqlı burasıdır ki, Fatiməyə (ə) məxsus olan bu şerlərin hamısı aydın və sadə, anlaşıqlı və canlı bir dildə qələmə alınmışdır.

Deyilənə görə, o həzrət alicənab atasının (s) vəfatından sonra bir gün Rəsulullahın (s) pak məqbərəsini ziyarət edərkən bir saat orada dayanmış, çox ağlamış və bu zaman dərdli ürəyinin dərinliyindən gələn bu beytləri söyləmişdir:

“Ey üzünü torpaq altında gizlədən kəs, de görüm,
Mənim nalə və fəğanımı eşidirsənmi? Əgər eşidirsənsə, bil:
Canıma o qədər dərd-bəla çöküb ki,
Əgər günlərin üstünə o bəlalar düşsə, qara gecələr kimi olar.
Bəli, həyatımın gözəlliyi və əzəməti olan Məhəmmədin (s)
kölgəsində keçirdiyim o zamanlar keçdi.
Onda bir kimsənin hücum və zülmündən əsla qorxum yox idi.
Amma bu gün, əfsus ki, yaramazlıqlara baş əyməliyəm ki,
Bu yolla özümü zülmdən qoruyum.
Zülmkar mənə məxsus yerə (hərəmimə) elə yaxınlaşıb ki,
Gərək onu əbamın ətəyi ilə qovam.
Qumru quşları yalnız gecələr ağaclara qonaraq fəğan etdikləri halda,
Mən gündüzlər də ağlayıram.
Səndən sonra qəm-kədər canıma elə hopub ki, o,
Artıq həyatımın mayasını, cövhərini təşkil edir.
Sənin qəminlə tökdüyüm göz yaşları artıq bər-bəzəyim olubdur.
Qorxuram ki, Məhəmmədin (s) məqbərəsinin ətri ilə
Nəfəs almağa layiq olan kəs bir daha bu müşk-ənbəri qoxulamaya
Və bütün bunlar haqqında düşünə bilməyə.”[2]

### 6. Fatimeyi-Zəhra (ə) və Məkkənin fəthi

---
[1] “Sirətül-əimmə ila isna əşər”, 1 c., s. 94
[2] Əyanüş-şiə, 1c., s. 314

Fatimeyi-Zəhra (ə) İslamın ilk çağlarında dünyaya göz açmışdı. Onun mübarək miladı elə bir zamanda dünyanı öz müqəddəs nurları ilə işıqlandırdı ki, əziz atası peyğəmbərliyə seçilmiş, pak canına, vücuduna peyğəmbərlik məhəbbəti hopmuş, üzərinə vəhy mələyi qonmuş və Quranın səma ayələri mübarək qəlbinə nazil olmuşdu. Bəli, Fatimə (ə) belə bir xoşbəxt dövrdə doğuldu. Bu zaman əziz atası Allahın sonuncu elçisi (s) kimi dünyaya rəhbərlik məşəlini əlinə götürmüş və bəşəriyyəti doğruluğa, nicat və uğura doğru irəli aparırdı...

Başqa sözlə desək, pakların pakı Zəhranın (ə) təvəllüdü müqəddəs İslam ayininin zühuru ilə eyni vaxta düşür. Əgər sünnə əhli ilə şiə əhlinin o həzrətin təvəllüd tarixi haqqındakı fikirlərində olan cəmi bir neçə ilə bərabər fərqi nəzərə almasaq, deyə bilərik ki, Fatimə (ə) və İslam təxminən eyni vaxtda doğulmuş, zühur etmiş və yanaşı, çiyin-çiyinə böyümüş, irəli getmişlər.

Beləliklə İslamla eyni vaxtda, onun qəlbində, İslam peyğəmbərinin (s) ətəyində, İslamın çiçəklənməsinin başlanğıcında dünyaya göz açan Fatimə (ə) qəlbi İslamın inkişafı ilə qoşa döyünür, nigaran gözləri atasının həyatında baş verən hadisələri görərək get-gedə bəsirət kəsb edir və gündən-günə biliyi, elmi artırdı. O, lap körpəlik çağından – dünyaya göz açan vaxtdan, xüsusilə də Şibi-Əbi Talibdə müşriklərin iqtisadi və siyasi mühasirəsində yaşayarkən Allah yolunda təlaşlarla bağlı üzləşdikləri müsibət və zülmləri görən zamandan başlayaraq dərk etdi ki, İlahi ayininin inkişafı fədakarlıq və cəsurluq, igidlik və qəhrəmanlıq tələb edir və bu yola qədəm qoyan kəs bir daha geri dönə bilməz.

Bəli, Fatimə (ə) belə öyrənmişdi və buna görə də həmişə və hər hansı bir halda İslam qanun- qaydası, həyati mənafeyi hesab edir, İslam sıxıntılarını, müsəlmanların çətinliklərini öz sıxıntısı sayır və İslamın tərəqqisi, inkişafı ilə sevinir, fərəhlənirdi.

İslam və müsəlmanlar üçün bir çətinlik, sıxıntı ortaya çıxdıqda və ya İlahi ayinlərinin həyata keçməsi yolunda bir əngəl olduqda ürəyi ağrıyırdı. İslamın öz inkişafı yolunda uğur qazandığı anlarda bütün vücudu, qəlbi sevinclə dolurdu. Hicaz məntəqəsinin əksər yerlərinin İslam hökumətinin tabeliyinə keçdiyini, İslam qüdrətinin Ərəbistan yarımadasında getdikcə nüfuz qazandığını, uğurla yeni-yeni yerləri fəth etdiyini və düşmənlərin də bu böyük qüvvə qarşısında baş əydiyini görüncə qəlbi köksünə sığmırdı. Fatimə (ə) aydınca görürdü ki, bir zaman lovğalıq və təkəbbürləri yerə-göyə sığmayan, zülm və haqsızlıqları baş alıb gedən qüreyşilər indi necə yumşalıb muma dönmüş və hər vəchlə İslam qüdrəti ilə barışmağa can atırlar. Qüreyşilərin müsəlmanların qəlbini ələ almaq cəhdlərini və bu məqsədlə öz böyüklərindən birini Mədinəyə göndərməsini də görürdü. Onu da bilirdi ki, qüreyşilərin bu elçisi peyğəmbərliyin altıncı ilində bağlanmış Hüdeybiyyə müqaviləsini uzatmaq və beləliklə də qısa bir müddət də olsa, asudə olmaq, bu qazanılmış vaxtdan öz məram və məqsədlərini yerinə yetirmək üçün öz başçılarından birini – Əbu Süfyanı Mədinəyə göndərir. Görürdü ki, Əbu Süfyan qüreyşilərin özünü Məkkədə müsəlmanların müttəfiqi xüzamlərə görə pozduqları bu müqaviləni uzatmağa gedir. Bilirdi ki, onlar artıq İslamın bu məntəqədə böyük bir qüdrətə çevrildiyini və onunla hesablaşmamağın mümkün olmadığını hiss edirdilər...

Bəli, Fatimə (ə) İslamla qoşa addımlayır, böyüyür və İslamla bağlı hadisələri, dəyişiklikləri görür, dərk edirdi.

Qüreyşilər bu tədbirə əl atıb öz nümayəndələrini müqavilənin uzadılması üçün Mədinəyə göndərərkən alicənab İslam peyğəmbəri (s) onların sui-qəsdlərindən, cızdıqları plandan yaxşıca xəbərdar idi. Məkkədə olan müttəfiqlərinə - müsəlmanlara qarşı onların törətdikləri cinayətləri də bilirdi. Onu da bilirdi ki, indi Əbu Süfyan Mədinəyə keçmiş barışığı uzatmaq üçün gəlir və bundan da məqsədi qüreyşilərin mənəviyyat və sədaqətdən uzaq olan maddi həyatlarını daha bir neçə gün artıq davam etdirməkdədir.

İndi isə İbn Hişamın (218/833-cü ildə vəfat etmişdir) "Sirətu-Nəbəviyyə" kitabında təfsilatı ilə verilmiş Əbu Süfyanın Mədinəyə səfəri haqqındakı rəvayətə nəzər salaq. Bu səfərdə diqqəti cəlb edən və düşündürücü məsələlər vardır. İbn Hişam həmin kitabında yazır:

"Əbu Süfyan Hüdeybiyyə müqaviləsinin müddətini uzatmaq adı altında İslam peyğəmbəri (s) ilə görüşmək niyyətilə Mədinəyə daxil oldu. Əvvəlcə öz qızı Ümm Həbibənin mənzilinə gəldi və İslam peyğəmbərinin oturduğu fərşin üstündə oturmaq istərkən qızı cəld fərşi onun altından çəkdi və qoymadı ki, atası orada otursun.

Əbu Süfyan heyrətlə dedi: "Qızım, məgər bu fərş mənə layiq deyil, yoxsa onun üzərində oturmağa mənim ləyaqətim yoxdur?"

Qızı cavabında dedi: "Bu fərş Allahın peyğəmbərinə (s) məxsusdur. Sən isə dinsiz və murdar bir kişisən. Mən də istəmirəm ki, sənin kimi imansız şəxs onun üstündə otursun."

Əbu Süfyan dedi: "Qızım, fikrimcə, mənim evimdən çıxdıqdan sonra sənə bir narahatlıq üz verməmişdir ki, belə rəftar edir, bu cür sözlər söyləyirsən?"

Əbu Süfyan bu sözləri dedikdən sonra ayağa qalxıb qızının evindən çıxdı və İslam peyğəmbərinin (s) hüzuruna tələsdi. Amma Peyğəmbərlə (s) söhbətə başlarkən o həzrət ona heç bir cavab vermədi.

Əbu Süfyan oradan Əbubəkrin ardınca gedib ondan xahiş etdi ki, köhnə tanışlıqlarının xatirinə ona kömək etsin, İslam peyğəmbərini (s) onunla danışmağa vadar etsin.

Əbubəkr də dedi: “Mən bu barədə heç bir iş görə bilmərəm.”

Əbu Süfyan Əbubəkrdən ümidsiz olduqdan sonra ondan ayrıldı və bu dəfə Ömər bin Xəttabın yanına getdi. Onu tapıb öz xahişini bildirdi.

Ömər də belə cavab verdi: “İstəyirsən ki, sənin əleyhinə olan bir iş haqqında Allahın Rəsulunun (s) yanında vasitəçilik edəm? Əsla!”

Hər yerdən ümidsiz, peşman qayıdan Əbu Süfyan bu dəfə Əli bin Əbu Talibi axtarmağa getdi. O həzrətin evinə daxil olanda Fatimə (ə) də orada idi. Uşaqlıq çağından yeniyetməlik dövrünə qədəm qoymağa hazırlaşan Həsən bin Əli (ə) də bu zaman ata-anasının yanında oynamaqla məşğul idi.

Əbu Süfyan dedi: “Ya Əli, bilirsənmi ki, sən mənim ən yaxın qohumumsan? Mən bir iş üçün sənin yanına gəlmişəm. Ümidvaram ki, məni məyus və ümidsiz qaytarmayacaqsan. Xahişim də budur ki, İslam peyğəmbərinin (s) yanında mənə vasitəçilik edəsən.”

Əli (ə) buyurdu: “Əbu Süfyan, vay sənin halına! Məgər bilmirsən ki, İslam peyğəmbərinin (s) bu barədə qərarı var? Mən əsla onun qərarları haqqında bir söz deyə bilmərəm.”

Əbu Süfyan üzünü Fatiməyə (ə) sarı çevirib dedi: “Ey Peyğəmbərin (s) qızı, bu kiçik oğluna *(həzrət Həsən bin Əli (ə) nəzərdə tutulur – Ə. B.)* de ki, Mədinə camaatına belə bir sözü elan etsin: “Mən Əbu Süfyana sığınacaq vermişəm.” Əgər o, belə bir iş görərsə, ömrünün sonuna kimi ərəb dünyasının başçısı olacaq.”

Peyğəmbərlik məktəbində tərbiyə almış Fatimə (ə) Əbu Süfyanın bu sözlərinin cavabında buyurdu: “ Mənim kiçikyaşlı oğlum hələ yaşının o həddinə çatmamışdır ki, kiməsə sığınacaq verə bilsin. O da ki, ola Allahın düşməni və Tanrının Elçisinin (s) düşməni.”[1]

Burada yalnız bir hissəsini verdiyimiz bu tarixi rəvayət – olduqca mənalı və düşündürücü olan bu hadisə Fatimənin (ə) İslamın ali məqsəd və prinsiplərinə necə vəfalı olduğunu açıq-aşkar göstərir. Bəli, bu hadisə sübut edir ki, İslam peyğəmbərinin (s) qızı o dövrün ictimai-siyasi hadisələrində tam diqqət mərkəzində olmuş və Allahın Rəsulunun (s) nəzərində İslam dünyasının əsas dayaqlarından biri sayılmışdır. Məhz buna görə də İslamın qatı düşmənləri öz məsələlərinin həlli üçün ona pənah gətirmiş və vasitəçiliyini xahiş etmişlər.

Bu rəvayətdən həmçinin aydın olur ki, Zəhranın (ə) sevimli oğlu Həsən bin Əli (ə) o zaman yeniyetməlik yaşında imiş (uşaqlıqla cavanlıq arasındakı yaş dövründə). Təbir (yozma) tarixinin dili ilə desək, bu vaxt o, “qulam” mərhələsinə qədəm qoymuş imiş. Ərəb tərbiyə (“ədəb”) tarixində bu yaş mərhələsi uşaqlıq dövründən yuxarıdır, yəni on iki, on üç, on dörd yaşları bildirir. İzahlı lüğətlərdə də “qulam” sözünün “növcavan” (yeniyetmə), “üzünə təzəcə tük gələn” mənaları göstərilir. Bu tarixi rəvayət Zəhranın (ə) ərə getmə, ailə qurma məsələsinə də aydınlıq gətirir və bu mövzu ilə bağlı bütün şübhələri aradan götürür. Beləliklə, aydın olur ki, o həzrətin ərə getməsi Mədinəyə köçməmişdən qabaq olmuşdur. Çünki Əbu Süfyan Fatimənin (ə) evinə hicrətin 7-ci ilinin günlərindən birində vasitəçilik xahişi ilə gəlmişdi və o zaman həzrətin on iki-on dörd yaşlarında yeniyetmə oğlu var idi. Yəni bu vaxt o həzrətin oğlu ömrünün elə bir çağını yaşayırdı ki, həmin dövrün ictimai həyatında da Əbu Süfyana sığınacaq verən bir şəxs kimi iştirak edə bilərdi. O fitnəkar kişi də məhz bunu nəzərə alaraq Fatimənin (ə) oğlundan siyasi sığınacaq istəyirdi. Lakin ağıllı və bilikli, gözüaçıq və uzaqgörən anası Fatimə (ə) bu işə razı olmadı. O həzrətin Əbu Süfyanın və havadarlarının gizli sui-qəsdlərindən, çirkin niyyətlərindən xəbəri var idi. Buna görə də həmin fitnə baş tutmadı və Əbu Süfyan öz hiyləgər məqsədinə - Həsən bin Əlidən (ə) sığınacaq almaq niyyətinə nail ola bilmədi.

Bu rəvayət Fatimənin (ə) ictimai-siyasi məsələlərdə mövqeyini bir daha açıq-aşkar göstərir və sübut edir ki, o həzrət necə ayıqlıq və uzaqgörənliklə düşmənlərin fitnə-fəsadlarını duyur, onların qarşısında böyük iradə və mətanətlə dayanırdı.

## Əziz ananın unudulmaz xatirəsi
## (Pak övladlarının dili ilə)

ANA...

Necə də əzəmətli və ürəkaçan səslənir bu söz...

Necə də gözəl və cazibəli həyəcan doğuran addır bu söz...

Necə də isti və hərarətli, doğma və səmimi ünvandır bu ünvan...

Parlaqlıqda günəşdir, bərəkətdə yağışdır, işıq saçmaqda ay və ulduzdur, əzəmətdə uca dağdır, dərinlikdə dənizdir, yaşıllıqda və bar verməkdə bağ və çiçəklikdir, sirr saxlamaqda qalın meşədir, zəriflikdə gecə şehidir, gözəllikdə ay işığıdır, ətir saçmaqda uzaq səhralarda bitən yağış vurmuş güldür...

[1] “Sirətu İbn Hişam”, 4 c., s. 39

Ana eşq simvoludur, eşqin mənasıdır, eşq məktəbinin birinci və sonuncu dərsidir. Əslində eşqin özüdür. Elə bir eşq ki, nağıla bənzəyir, lakin onu hər dəfə, hər kəsin dilindən eşitdikdə təzə və təravətlidir, bənzərsiz və təkrarsızdır...

Bəşər yaranandan bu günə kimi dünyanın hər yerində, hər bir insan irqində - istər ağ olsun, istər qara, istər sarı olsun, istər qırmızı – hər hansı bir dinə, məzhəbə, adət-ənənəyə məxsus olan, müxtəlif dillərdə danışan millətlər içərisində ana adı çəkilərkən kiçiyin də, böyüyün də, oğlanın da, qızın da qəlbi sevinc və fərəhlə, məhəbbət və mehribanlıqla dolur, ürəkləri riqqətə gələrək həyəcanla döyünür...

“Ana, sevirəm səni...”

Təzə dil açan hər bir uşaq ilk sözlərini bu cümlə ilə başlayır... Sonra da ömrünün son anınadək, hətta özü ata, ana və ya baba, nənə olduqda belə yenə də bu cümlə qəlbində və xatirəsində canlanır. Və hər dəfə canlandıqda gözləri həsrət və məhəbbət yaşları ilə dolur, ürəyi həyəcanla döyünür...

Nəinki insan, hətta heyvanlar və quşlar da ana məhəbbəti, ana nəvazişi ilə böyüyür, yaşa dolurlar. Bəli, yırtıcı şir və vəhşi pələnglərdən tutmuş ağqanadlı göyərçinlərə, zəhərli ilanlardan tutmuş bal arılarına kimi bütün canlıların hamısı isti ana nəvazişi ilə yaşayır, böyüyür və vücudları ana eşqi və məhəbbəti ilə dolu olur...

Bəli, ata-anaya məhəbbət və bağlılıq nə öyrənilәsidir, nə də öyrədilәsi, əksinə, ürəkdən gələn elə bir fitri hiss və duyğudur ki, onu Yaradanın qüdrətli əli dünyaya gələn hər bir övladın vücudunun dərinliyində doğurmuşdur. Hər bir övlad öz ata-anasını sevir və onlara sevgi – bağlılıq hissləri ilə, həm də onların sonsuz məhəbbətləri işığında böyüyür, yaşa dolur. Amma bəzi ata-analarla övladlar arasında olan məhəbbət və bağlılıq bu təbii hədləri də aşaraq qeyri-adilik və istisnalıq təşkil edir.

Belə hallarda övladla ata-ana arasındakı məhəbbət və bağlılıq eşq və vurğunluqdan da yuxarı həddə çatır və elə bir müqəddəslik, əzəmət və dərin ehtiram keyfiyyəti qazanır ki, Allahdan və Allahın peyğəmbərləri və övliyalarından başqa heç kəs ona layiq deyil. Bu müqəddəslik və əzəmət keyfiyyətinə görə əgər Allah behişti yaratdısa və peyğəmbərlər, imamlar həmin behiştə çatmaq yollarını göstərdilərsə, analar da behiştin lap uca yerində durmuş və əllərində onun qapılarının açarlarını tutmuşlar...

Bəli, o yerdə ki, övladın ata-anaya olan məhəbbəti xüsusi bir fövqəladə keyfiyyət qazanır, orada ki, bu bağlılıq xüsusi bir imtiyazdan bəhrələnir, artıq dil bu əzəməti tərif etməkdə acizdir...

Fatimeyi-Zəhra (ə) ilə məsum oğlanları (ə) arasındakı fövqəladə məhəbbət və əlaqəni, ruhi və mənəvi bağlılığı da bu cür yüksək eşq və əlaqə növündən hesab etmək olar. Onlar arasındakı məhəbbət bu qəbildən olan eşq və bağlılığın ən yüksək zirvəsində qərar tutur...

İndi kitabın bu qısa fəslində Fatimənin (ə) oğlanlarının əziz anaları, onun böyüklüyü və əzəməti haqqında söylədikləri şirin və unudulmaz xatirələrindən söz açmaq istəyirik. Böyük tərbiyəvi əhəmiyyəti olan bu xatirələr hər baxımdan diqqəti cəlb edir...

Qeyd etmək lazımdır ki, ümumiyyətlə Fatimeyi-Zəhranın (ə) – bu qəhrəman və fədakar İslam qadınının vücudu ruhi əzəmətdə, paklıq və möminlikdə tutduğu yüksək mövqeyinə görə “Kövsər” sayılmışdır. O həzrətin vücudu ən yüksək bəşəri-əxlaqi keyfiyyətlərinə görə xüsusi bir mənəvi-ruhi cazibədarlığa malik olmuş və buna görə də təkcə pak və məsum oğlanlarının sonsuz məhəbbətini qazanmamış, həm də çoxlarının, hətta əcnəbilərin də diqqətini özünə cəlb etmişdir.

Əlbəttə, öz-özlüyündə aydındır ki, Fatimənin (ə) oğlanları öz müqəddəs və əziz analarını xüsusi bir məhəbbət və vurğunluqla ürəkdən sevmişlər. Bu mənada onların pak dillərindən çıxmış kəlamlar və şirin xatirələr Zəhranın (ə) şəxsiyyətinin əzəməti ilə, bu qəhrəman qadının təbiətində olan müxtəlif ali keyfiyyətlərlə bir daha yaxından tanış olmağa imkan verir.

Qeyd edək ki, Zəhranın (ə) oğlanlarının xatirələrini verməklə biz heç də o həzrətin pak adından istifadə edərək ölkələr tutan, sərhədlərini, hökumətlərinin nüfuz dairələrini artıran, beləliklə də, nahaq qanlar axıdan ayrı-ayrı İslam xəlifələrini, dövlət başçılarını tənqid etmək və ya “Fatimiyyun” adlı hökumətlər qurmuş, “Əz-Zəhra” və “Əl-Əzhər” adlı cəmiyyətlər, universitetlər təşkil etmiş hökmdarları, şəxsləri pisləmək fikrində deyilik. Əksinə, məqsədimiz yalnız və yalnız Fatimənin (ə) cismani və ruhani oğlanlarının – məsum din başçılarının, həqiqi imamların, hökumətləri sərhəd və coğrafiya nə olduğunu bilməyən, dünyanın hər yerinə səpələnmiş əsl mömin, təmiz və agah insanların qəlbində əbədi yaşayan bu müqəddəs şəxslərin daxili hiss və duyğularını ifadə etməkdir. Məqsədimiz Fatimənin (ə) o oğlanlarıdır ki, həmişə səmərəli həyatlarında əziz analarının yolu ilə getməyə, onun xasiyyət və keyfiyyətlərini öz həyatlarında nümunə etməyə səy göstərmiş və buna nail olmuşlar. Məhz buna görə özləri də milyonlarla mömin insan üçün əbədi nümunəyə dönmüşlər.

Bəli, Fatimənin (ə) əziz oğlanları həmişə, hər yerdə bütün mümkün hallarda, müxtəlif münasibətlərdə əziz analarının müqəddəsliyi və əzəmətindən söz açmış, ona bəslədikləri güclü məhəbbətlərini, dərin ehtiramlarını ifadə etmişlər. Eyni zamanda əziz analarının məhəbbət və əlaqəsi də həmişə onların həyatlarına nur saçmışdır.

Fatimənin (ə) alicənab oğlanları həmişə analarının xatirəsini əziz tutmuş, onun mənalı sözlərini, qiymətli nəsihətlərini dönə-dönə yada salmışlar. Bu barədə onların qədim kitab və sənədlərdə, mötəbər məxəzlərdə qeydə alınmış gövhər kimi dəyərli sözləri və kəlamları vardır. İndi tarixin dərin qatlarından, hədis kitablarından və başqa qaynaqlardan əldə etdiyimiz və parlaq mirvari dənələrinə bənzər həmin qiymətli kəlamları pakların pakı Zəhranın (ə) yolunun davamçılarına ərməğan edirik...

## İmam Həsən Müctəba (ə) və əziz anasının xatirəsi

İkinci imam, şiələrin məsum rəhbəri, Fatimənin (ə) ilk övladı həzrət imam Həsənin (ə) əziz anasına dərin məhəbbət və əlaqəsi var idi. Bu məhəbbət və əlaqənin əlamət və izlərini o həzrətin həyatına aid müxtəlif sənədlərdə görmək olar. Həmin sənədlərin ən mühümləri o həzrətlə Müaviyə və onun hökumətinin valiləri, hakimləri və nümayəndələri arasında olan məktublar, yazışmalardır.

İmam Həsənin (ə) dilindən və qələmindən çıxmış bu sənəd və məktublarda dəfələrlə, böyük iftixarla pakların pakı Zəhra (ə) kimi bir ananın mübarək vücuduna istinad edilmişdir. Məsum imam belə bir müqəddəs ananın mübarək vücudunu öz yolu və məramının doğruluğuna dəlil gətirmiş, beləliklə də, tutduğu yolun doğruluğunu və möhkəmliyini sübut etmişdir.

Mərhum Seyyid Möhsün Amili "Əyanüş-şiə" əsərində bu məktubların bəzilərinə işarə etmişdir. İmam (ə) bu məktubların birində qəsbkar Müaviyənin zülmkar valilərindən biri olan Ziyad bin Əbiyəyə yazır:

"Fatimənin oğlu Həsəndən Səmiyyənin oğlu Ziyada!

Bil ki, Allahın Rəsulu (s) buyurmuşdur: "Övlad qanuni evlənmənin pak yorğan-döşəyinə məxsusdur. Kəbinsiz evlənənin (zinakarın) nəsibi isə (övlad əvəzinə) daşdır. Vəssəlam."

Bu məktub bir tarixi həqiqəti aşkar edir. Həqiqəti araşdıranlar, xüsusilə də həqiqəti arayan tarixçilər üçün bu, mötəbər bir sənəddir. İmam Həsən (ə) məktubda Übeydullahın arvadı Səmiyyənin yalançı, məkrli və hiyləgər Əbu Süfyanla qanunsuz əlaqəsini ifşa edirdi.

Bu məktub Ziyad tərəfindən imam Həsənin (ə) müqəddəs şəxsiyyətinə qarşı təkrar-təkrar rəva görülmüş təhqir və alçaqlıq, həyasızlıq və ədəbsizlik, boşboğazlıq və cəfəngiyyatdan sonra yazılmış və o həyasız boşboğazın həqiqi zatını aşkar etmiş, tarixə tapşırmışdır.

Bu sənəd və məktublardan əlavə imam Həsən (ə) dəfələrlə Müaviyə ilə mübahisə edərkən özünün pak zatına, əsl-nəsəbinə, əziz anasının təmizliyi və müqəddəsliyinə istinad etmişdir. Deməli, əziz anasının əzəməti və dərin nüfuzu, təsiri imam Həsən Müctəbanın (ə) qəlbində, ruhunda özünə möhkəm yer etmişdi. Bu nüfuz və təsir elə əhatəli idi ki, o böyük imam (ə) nəinki bütün pak və səmərəli həyatı boyu həmişə anasını düşünür, onun böyüklük və paklığını yad edir və Əhli-beyt (ə) aşiqlərinə ondan eşitdiyi bir neçə həqiqəti açıb söyləyirdi, həm də şəhidlik çağında, ömrünün son anlarında da əziz validəsinin adını, məhəbbət və xatirələrini dilinə gətirirdi.

## İmam Hüseyn (ə) və əziz anasının xatirəsi

Həzrət Seyyiddüş-Şühəda, azadlıqsevərlərin başçısı, haqq və ədalət uğrunda şəhid olanların əbədi karvanının öndəri, Fatimənin (ə) ikinci oğlu imam Hüseyn (ə) də böyük qardaşı kimi anasını böyük məhəbbətlə sevirdi. O həzrətin anasına olan sonsuz məhəbbət və əlaqəsi ana və övlad haqqında olan bir kitabın ən şanlı səhifələrindən biridir.

O həzrət dəfələrlə dərin və səmimi məhəbbətini özünün alovlu çıxışlarında, bəyanat və mübahisələrində ifadə etmiş, bununla da İslam tarixi və mədəniyyətində silinməz izlər qoymuşdur.

İmam Hüseynin (ə) əziz anasını dərin məhəbbətlə sevməsi qız övladlarına ad seçməsində əyani şəkildə özünü göstərir. Belə ki, o həzrət qızlarından bir neçəsinə əziz anasının xatirəsinə ehtiram əlaməti olaraq "Fatimə" adını qoymuşdur. Onları bir-birindən fərqləndirmək üçün yaşlarına görə adlarının sonuna "kübra" və "suğra" sözlərini də əlavə etdilər. Bu məsələnin özü imam Hüseynin (ə) əziz anasına bəslədiyi sonsuz məhəbbətin təzahürüdür.

Peyğəmbərin (s) nəvələri imam Həsən (ə) və imam Hüseyn (ə) müqəddəs analarına bəslədikləri məhəbbəti doğrudan da, vəsf etmək çətindir. Fatimə (ə) – o böyük ana övladları üçün hər şey idi. Ona görə də onun məhəbbəti işığında şadlıq və sevincləri daha da artır, qəm və kədərləri azalıb, yoxa çıxırdı. Elə buna görə də əziz babalarının vəfatı nə qədər ağır və dözülməz olsa da, əvəzsiz analarının sayəsində bu dərdi nisbətən az hiss edir və ona dözə bilirdilər. Çünki Fatimənin (ə) hər iki əziz oğlu bir hadisə baş verən kimi analarına pənah

gətirir, onunla ülfət bağlayır, ürəklərindəki sirri ona açıb deyirdilər. Ana ilə övladları arasındakı mənəvi və səmimi əlaqə - bağlılıq gündən-günə artır və qırılmaz olurdu...

Bu yaxınlıq o dəhşətli hadisə baş verən günə kimi beləcə davam etdi...

Bəli, onların bu sonsuz məhəbbət və əlaqələri əziz ananı əldən verdikləri o acı və qara gündə o qəmli və üzücü anlarda ən yüksək həddinə çatmışdı. Ananın son anlarını yaşadığını duyduqda nə qədər səbirli və təmkinli, mətin və iradəli olsalar da, özlərini saxlaya bilmədilər. Özlərini ölüm ayağında olan ananın ətirli və isti qucağına ataraq hıçqırıq və qəhər boğa-boğa onu əzizlədilər, ürəklərini yandırıb-yaxan dərdlərini bəyan etdilər...

O acı və qəmli anlarda yalnız Ümeysin qızı Əsma oğlanları analarından ayırıb əziz ataları Əlinin (ə) yanına göndərə bildi. Bu barədə kitablarda təfsilatı ilə və yanıqlı bir surətdə çox yazılmışdır.

Həmin o qəmli gündən sonra Fatimeyi-Zəhranın (ə) adı həmişə, hər an oğlanların dilindən düşmür, əziz xatirəsi yadlarından çıxmırdı...

İmam Hüseynin (ə) əziz anası haqqında ən yaddaqalan və həyəcanlı xatirəsi o həzrətin Kərbəlaya doğru hərəkət etdiyi günlərə aiddir. İslam tarixində ən qanlı faciənin baş verməsi ərəfəsində imam Hüseyn (ə) böyük mətanət və dözüm nümayiş etdirərək ən xoş, ən gözəl sözlərlə əziz anasını yad etdi, onun paklıq və təmizliyindən söz açdı. Həmin vaxt o həzrət belə buyurmuşdu: "Ey Abdulla bin Ziyad, mən iki yoldan birini seçməliyəm: ya qılınc qurşanıb ölməliyəm, ya da zillət yolunu tutub onun beyətini qəbul etməliyəm. Lakin mənim ətəyimə zillət əsla bulaşmayıbdır. Çünki məni tərbiyə etmiş pak ətəklər həmişə zilləti qəbul etməkdən çəkinmişdir. Mən pakların pakı Siddiqənin qucağında böyümüş, onun fəzilət və şərəf döşündən süd əmmişəm. Bizim kiçik evimiz həmişə fəzilət və şəxsiyyət ocağı olmuş və zillət, düşkünlük ona yol tapa bilməmişdir. Mən elə kəslərin yanında böyüyüb tərbiyə almışam ki, azadlıq və şərəflə ömür sürmüşlər. Onlar əsla razılıq verməzlər ki, mən zillət yükünün altına girim və Yezid kimi alçağın beyətini qəbul edim..."

Bəli, ölümlə həyatın çarpışdığı o günlərdə İmam (ə) yaxşı bilirdi ki, şəhidliyin tarixi anı yaxınlaşır. İmam (ə), həyatının o ağır anlarında belə əziz anasını düşünür, onun pak ətəyində böyüməsi ilə iftixar edirdi...

## İmam Səccad (ə) və anasının xatirəsi

Səcdə edənlərin fəxri imam Zeynəlabidin (ə) əziz anasını yaxından görməmişdi, amma onun vücudunun nurunu, təsirini bütün varlığında duymuş, dərindən hiss etmişdi. İmam (ə) yaxşı bilirdi ki, əziz anasının tərbiyə işığından, müqəddəs şəxsiyyətindən bəhrələnmiş, nurlar qazanmışdır. Ona görə də anası Fatimeyi-Zəhranın (ə) böyük şəxsiyyətinin müxtəlif cəhətlərini tam dəqiqliklə öyrənirdi. Həmişə çalışırdı ki, Fatimənin (ə) həyatı ilə bağlı bütün məsələləri incəliyi ilə bilsin və sonra onları müsəlman qadınları və qızları üçün nümunə olaraq göstərsin, əziz anasının həyat yolunu, əxlaq və davranışını İslam cəmiyyətində qadınların tərbiyə məktəbinə çevirsin və hamını ondan öyrənməyə, öyrəndiklərini həyata keçirməyə sövq etsin.

Ona görə də həmişə bu dəqiqlikləri daha yaxşı bilmək üçün pakların pakı anasını yaxından görüb tanıyanları, həyatından bəhrə görənləri arayıb axtarır, onların Fatimə (ə) haqqında söhbətlərinə heyranlıqla qulaq asırdı.

İmam Səccad (ə) bir gün Ümeysin qızı Əsmanın söhbətini dinləyirdi. Bir müddət Peyğəmbər (s) ailəsində xidmətçilik etmiş Əsmaya pakların pakı Zəhra (ə) ilə oturub-durmaq səadəti nəsib olmuşdu. Həmin gün o mömin qadın böyük şövq və həvəslə aşağıdakı hekayəti danışırdı:

"Bir gün hörmətli anan Zəhranın (ə) yanında oturmuşdum. Bu əsnada Allahın Rəsulu (s) qapıda görünüb içəri daxil oldu. Əziz ananız Zəhranın (ə) yaxasında qızıl boyunbağı var idi. Boyunbağını Əli (ə) təzəliklə şəxsi qazancından həyat yoldaşı üçün almış və onu dünya xanımlarının başçısına hədiyyə vermişdi.

O vaxtlar müsəlmanların qüdrəti gündən-günə artmış, həyatları get-gedə yaxşılaşmış, sıxıntı və çətinliklər arxada qalmışdı. İslam peyğəmbəri (s) əziz qızının yaxasındakı boyunbağını görüb xoşhal oldu. Buna baxmayaraq, o həzrət üzünü qızına tutub buyurdu:

"Qızım, olmaya-olmaya, camaatın "Fatimə - Rəsulullahın qızıdır" sözləri səni məğrur etmiş olsun və qürur hissinin təsiri ilə zülmkarların, zalımların geyimini əyninə geymiş olasan!"

Allahın Rəsulu (s) bu bir cümləni deyib bir an dayandı, sonra getdi. O həzrət evdən çıxan kimi Fatimeyi-Zəhra (ə) boyunbağını yaxasından çıxardı və onu bir daha taxmadı. Sonra isə boyunbağını satıb onun pulu ilə bir qulamı sahibindən aldı və Allah yolunda onu azad etdi. Bu xəbər Allah Elçisinin (s) qulağına çatdı və onun böyük sevincinə səbəb oldu. Peyğəmbər (s) qızı üçün Tanrıya çox dua edib onun bu xeyirxah əməlindən razılığını bildirdi. O həzrət bu hadisədən sonra qızı haqqında demişdi: "Belə qıza qurban olum."[1]

---

[1] "Cilaül-üyun", 1 c., s. 135

## İmam Baqir (ə) və anasının xatirəsi

Şiələrin başçısı, beşinci məsum rəhbər kimi imam Baqirin (ə) əziz anasına olan dərin məhəbbəti haqqında çoxlu rəvayətlər və hekayətlər var. Bu rəvayətlərdə imam Baqirin (ə) istəkli anasının xatirəsini necə əziz tutması dönə-dönə təkrar olunur. Fatimeyi-Zəhranın (ə) fəzilət və kəramətlərindən birər-birər danışırdı.

İmam Baqirin (ə) anasına olan bu əlaqəsini aşağıdakı kiçik parçanın nümunəsində açıq-aşkar görmək olar:

"Hədisdə gəlmişdir ki, imam Baqir (ə) həmişə bərk qızdırmalı olub yatağa düşərkən soyuq su istəyirdi. Elə ki, su gətirirdilər, ondan bir qurtum içir, sonra su içməyini kəsir və içindən gələn yanıqlı bir səslə ucadan anası Zəhranı (ə) çağıraraq deyərdi: "Anacan Fatimə, ey Rəsulullahın (s) qızı!"

İmam Baqir (ə) beləliklə ürəyi təşnə olan anlarda bu cür sözlərlə, əziz anasını yad etməklə qəlbinə rahatlıq verir, dərdinin üstünə məlhəm qoyur və canına, ruhuna istəkli validəsinin gözəl adını çəkməklə ətir səpirdi."[1]

## Fəzilətdə heç bir qadın Fatiməyə (ə) çatmaz

Fatimeyi-Zəhra (ə) həyatın bütün sahələrində pak və alicənab oğlanları üçün əbədi bir nümunə idi. Onlar çalışırdılar ki, bütün mömin və müsəlman qadınları əziz analarının yolu ilə getsinlər, onu özlərinə rəhbər və nümunə etsinlər. İmam Baqir (ə) də belə hərəkət edirdi. O həzrət də həmişə əziz anasını yad edir, onun həyat yolunu müsəlman xanımı üçün ən ali nümunə sayırdı.

Bir gün Əhli-beytin (ə) davamçı və vurğunlarından olan bir qadın imam Baqirin (ə) hüzuruna gəlib belə dedi: "Mən heç vaxt ərə getməyəcəm."

Həzrət buyurdu: "Bu sözü deməkdə məqsədin nədir?"

Qadın cavab verdi: "Belə qərara gəlmişəm ki, əsla ərə getməyəm. Bu sözdən də məqsədim elə budur. Fəzilət və kamala çatmaq üçün bu yolu seçmişəm. Bu dünyaya bağlılıqdan əl çəkmək və bütün ömrümü ibadətlə keçirmək istəyirəm. Bu yolda ailə məsələlərinin mane olmamasını istəyirəm."

İmam (ə) buyurdu: "Sənin bu qərarın düzgün deyil. İslam əsla kimsəni bu yola sövq etməmiş, həyati əlaqələrə göz yummağı düzgün saymamış və müsəlmanlara belə bir işi məsləhət görməmişdir. Əgər ərə getməkdən, ailə qurmaqdan əl çəkmək müsəlman qadını üçün fəzilət və üstünlük sayılsaydı, anam Zəhra (ə) bu fəziləti dərk etməkdə səndən və bütün dünya qadınlarından daha layiqli olardı. Amma anam əsla bu yolu tutmadı və həyatın qanunlarına, yaranışın təbiətinə, bəşər həyatının təamülünə uyğun olaraq özü üçün ər seçdi və onunla ailə qurdu. Sən özün bir müsəlman qadınsan və yaxşı bilirsən ki, heç bir qadın fəzilət və kamalda anam Zəhranı (ə) üstələməmişdir. Odur ki, əgər sən də fəzilət axtarırsansa, onda gərək onun yolunu davam edəsən."[2]

## İmam Sadiq (ə) və anasının xatirəsi

Şiələrin dini rəhbəri, Cəfəri məzhəbinin bünövrəsini qoyan imam Sadiq (ə) pakların pakı Zəhra (ə) haqqında elə çoxlu dərin mənalı kəlamlar buyurmuş, qiymətli fikirlər söyləmişdir ki, onların hər biri o həzrətin əziz anasına olan coşqun məhəbbətindən, saf etiqadından xəbər verir. İmam (ə) həmişə müsəlman qadınlarına tövsiyə etmişdir ki, Fatiməni (ə) özlərinə rəhbər sayıb, onun yolu ilə getsinlər. İmam Sadiqin (ə) bu barədə buyurduqları çoxlu qiymətli kəlamlardan yalnız ikisini nümunə olaraq verməklə kifayətlənirik:

"Mötəbər hədislərdə göstərilir ki, imam Sadiq (ə) Qurani-Kərimin "Ər-Rəhman" surəsindəki "İki dənizi O qovuşdurdu" şərif ayəsinin təfsirində belə buyurmuşdur: "İki dəniz cəddim Əli (ə) və anam Fatimədir (ə).

Hər ikisi elə dərin dənizdir ki, əsla bir-birinə zülm və sitəm rəva bilməmişdir. Bu şərif ayənin davamı olan "Onların arasında maneə vardır" İlahi kəlamı o iki dəniz arasında onları bir-birinə bağlayan vasitəni bildirir ki, o da Rəsulullahın (s) mübarək və müqəddəs varlığıdır. Bu şərif ayənin davamı olan "O iki dənizdən inci və mərcan çıxır" kəlamı isə Həsən (ə) və Hüseyni (ə) bildirir – hər ikisi İslam ümmətinin incisi və mərcanı sayılır, o ikisi həmin dənizdən hasil olmuş və İslam dünyasını inci ilə doldurmuşdur."[3]

Çox qiymətli "Vəsailüş-şiə" kitabındakı Sükuninin dilindən söylənmiş bir hədisdə isə deyilir:

"Qəmli-kədərli halda imam Sadiqin (ə) hüzuruna gəldim. İmam halımın pərişan olduğunu hiss edib buyurdu: "Belə qəmli-kədərli olmağının səbəbi nədir? Nə olubdur?"

Dedim: "Bir qız nəsibim olubdur."

İmam (ə) buyurdu: "Ona nə ad seçmisən?"

---

[1] "Səfinətül-bihar", 2 c., s. 379

[2] Biharül-ənvar, 23 c., s. 51

[3] Cilaül-üyun, 1 c., s. 141

Dedim: "Fatimə".

Bu sözü eşidən imam (ə) dərindən bir ah çəkdi və anasını yada salaraq bu adı üç dəfə dilinə gətirəndən sonra buyurdu: "İndi ki, qızına belə bir ad qoymusan, gərək ona əsla zülm rəva bilməyəsən. Onun adı əziz və möhtərəm addır, sən də gərək həmişə onun adına hörmət edəsən."[1]

## İmam Musa bin Cəfər (ə) və anasının xatirəsi

Vilayət və imamlıq səmasının yeddinci parlaq ulduzu, haqq-ədalət uğrunda mübarizənin qəhrəmanı, bu yolda olmazın əzab və işkəncələr görmüş, ömrünü zindanda keçirmiş imam Musa bin Cəfər (ə) anası Zəhraya (ə) coşqun və dərin məhəbbət bəsləmişdir.

Məsum imam (ə) həmişə əziz anasını, onun fədakarlıq və mübarizəsini, bu yolda çəkdiyi əzabları yadına salıb xatırlayırdı. O həzrət xüsusilə də İslam tarixinin qara səhifələrindən biri olan Fədək məsələsindən tez-tez danışar, onun həqiqətlərini təfsilatı ilə açıb deyər, şərh edərdi.

Aşağıdakı hekayət imamın (ə) əziz anasına olan bu məhəbbətini göstərməklə yanaşı, həmçinin sübut edir ki, pakların pakı Zəhranın (ə) tapdalanmış hüququ həmişə oğlunun diqqət mərkəzində olmuşdur.

Qeyd edək ki, Musa bin Cəfərin (ə) imamlığı zamanı xəlifə olmuş zalım Mehdi Abbasi öz qəsbkar hökumətinin başlanğıcında məsum imamla pis davranmırdı. Bir dəfə Mədinədə İmamla (ə) görüşərkən ona Abbasi xəlifələrinin sarayında işlənən spirtli içkilər barədə sual verdi. Bu yaramaz xəlifə imamdan (ə) elə dərin və dəqiq, ağıllı və qaneedici cavab eşitdi ki, qəlbinin qaranlığına və dünyagörüşünün darlığına baxmayaraq, yenə də öz heyrət və təəccübünü gizlədə və İmamın (ə) dərin biliyini, elm və zəkasını təsdiq etməyə bilmədi.

Mehdi Abbasi ilə məsum imamın (ə) ikinci görüşü elə bir vaxtda oldu ki, zahirən Mehdi guya atası Mənsurun etdiyi zülmlərə qarşı çıxırdı. Yəni onun imam Sadiqdən (ə) zəbt edib zorla aldığı malı oğlu Musa bin Cəfərə qaytarmaq istəyirdi. Ona görə də həmin görüşdə o, İmamdan (ə) soruşdu: "Anan Fatimədən (ə) zəbt olunmuş Fədək torpağı nə qədərdir? Onun sərhədləri hardan harayacandır? Onun hüdudlarını mənə bildir ki, geri qaytarım."

İmam (ə) Mehdinin cavabında Fədək üçün elə hədd və sərhədlər təyin etdi ki, eynilə onun xəlifəliyi dövründə İslam imperatorluğunun sərhədlərinə bərabər idi. Belə ki, İmam (ə) buyurdu:

"Deməli, sən istəyirsən Fədək torpağının sərhədlərini biləsən? Elə isə qulaq as, sənə deyim.

Onun bir tərəfi Ühüd dağı.
Bir tərəfi Misir,
Üçüncü sərhəddi Qırmızı dəniz,
Dördüncü sərhəddi isə Dümmətül-Cəndəl idi...

İmamın (ə) sözlərindən halı dəyişən Mehdi nigarançılıqla soruşdu:

"Bütün bu dediklərin Fədək torpaqlarının sərhədləridir?"

İmam (ə) buyurdu:

"Bəli, bütün bu torpaqlar elə yerdədir ki, qoşun çəkməklə, döyüşlə geri alınmamışdır."

Həmin gündən başlayaraq Mehdinin qəlbində İmama (ə) qarşı kin və düşmənçilik hissləri baş qaldırdı. Mehdi o həzrəti (ə) öldürmək qərarına gəldi, çünki onu özü üçün təhlükə hesab edirdi. Həmin gün başa düşdü ki, İmamın (ə) məqsədi təkcə boş Fədək torpağının sərhədlərini bəyan etmək və onu geri almaq yox, həm də Peyğəmbər (s) nəslinin, Əhli-beytin (ə) əlindən zorla alınmış hökumətə, xilafətə yiyə durmaqdır. O anladı ki, Əli (ə) və Zəhranın (ə) övladları öz haqlarını hələ unutmamışlar. Ona görə də təkcə Fədək torpağını yox, həm də zülm üstündə qurulmuş bu hökuməti yıxıb dağıtmaq istəyirlər. O zaman Mehdi məsum imama (ə) belə cavab vermişdi:

"Bu dediklərin olduqca çoxdur."[2]

Əlbəttə ki, o yaramaz xəlifə ismət və paklıq əhlinin hüquqlarını əsla qaytarmadı, əksinə, o gündən başlayaraq imamı öldürmək, ona azar vermək niyyətinə düşdü. Onu şəhid edənədək bu çirkin niyyətindən əl çəkmədi.

## İmam Rza (ə) və anası Zəhra (ə)

[1] Vəsailüş-şiə, 7 c., s. 73
[2] Kafi, 1 c., Sirətül-əimmə, s. 123

Səkkizinci rəhbər imam Rza (ə) da pakların pakı Zəhranın (ə) və Peyğəmbərin (s) pak nəslinin başqa övladları kimi, əziz anasının şəxsiyyətinə böyük hörmət bəsləyir, onun parlaq xatirəsini əziz tuturdu. Həmişə, hər dəfə fürsət düşdükcə behişt xanımlarının xanımını hörmətlə yad edir, onun adını böyük iftixarla dilinə gətirirdi.

Bu məhəbbət və əlaqə elə güclü idi ki, hətta müxaliflər və bədxahlar da bunu aydınca hiss edir və çalışırdılar ki, bu vasitə ilə imamla (ə) söhbətə, müzakirəyə girişsinlər və beləlikdə də, onun ürəyini yumşaltsınlar.

Bir gün imam Rza (ə) sevimli oğlu Cavadül-əimmə ilə oturmuşdu. Məmun Abbasi də bu iki alicənab şəxsin hüzurunda idi. Həmin gün imam (ə) anası Fatimənin (ə) tərifi haqqında bir hədis buyurdu. Məmun da hədisi eşidib dedi: "Atam Rəşid atası Mehdidən, o isə atası Mənsurdan, o da atasından, o isə ulu babası İbn Abbasdan belə bir rəvayət eşidibdir:

"Bir gün İbn Abbas Müaviyəyə deyib: Bilirsənmi Fatiməyə (ə) bu adı nəyə görə qoyublar?"

Müaviyə deyib: "Bilmirəm."

İbn Abbas deyib: "Fatiməyə (ə) bu adı ona görə veriblər ki, o və ardıcılları cəhənnəm odundan uzaqdırlar və ondan qorunurlar."

İbn Abbas sonra da əlavə edib ki, mən bu sözü Allahın Rəsulundan (s) eşitmişəm."[1]

Bu məsələ ilə bağlı o həzrətdən başqa bir hədis də gəlib çatmışdır. O həzrət həmin hədisdə belə buyurur: "Onlar elə kəslərdir ki, iman, tovhid və paklıqları ilə öz Allahının görüşünə tələsir və şiə olmaqlarını, Fatimənin (ə) yolu ilə getdiklərini əməli surətdə sübut edirlər. Zahirən özlərini Fatimənin (ə) davamçıları kimi qələmə verənlər isə belə kəslərdən deyillər."

## İmam Rzanın (ə) yaxın adamlarından birinin söylədiyi hekayət

Qumdakı əllaməlik məktəbinin istedadlı və bilikli tələbələrindən biri - əziz dostumuz öz həyatına aid belə bir olmuş əhvalatı danışırdı:

"Uzun müddət idi ki, bir ağır ruhi xəstəliyə tutulmuşdum. Elə bir kəsə ürəkdən bağlanmışdım ki, mənə əsla əhəmiyyət vermirdi (əslində bizim aramızda heç bir uyğunluq da yox idi). Bu məsələ mənə bərk əzab verir və günümü qara əskiyə döndərirdi. Hansı qapını döyürdümsə, dərdimi kimə açıb deyirdimsə, bir çarə olmurdu ki, olmurdu. Dərd də beləcə davam etməkdə idi. Axırda bir gün qərara gəldim ki, səkkizinci imamın (ə) mübarək ziyarətgahına gedib o həzrət vasitəsilə dərdimə bir çarə qılım.

Bir neçə il bundan qabaq yay fəslində bu məqsədlə müqəddəs Məşhəd şəhərinə getmək şərəfinə nail oldum. Xoş bir təsadüf nəticəsində imam Rza (ə) ziyarətgahına gedən böyük yolda mərhum ustad Əllamə Təbatəbainin ("Əl-Mizan" adlı böyük və qiymətli təfsirin müəllifi) nurani və cazibəli simasını gördüm. Bu böyük alim də imamın (ə) ziyarətinə gedirdi.

Bu xoş təsadüfü xeyir kimi qarşılayıb o qoca arifin hüzuruna tələsdim. Salam verib ətəyindən yapışdım və ondan mənə kömək etməsini dilədim. Bərk həyəcan keçirdiyimdən o alicənab şəxsin dayanıb durdum və bu sözləri dedim:

"Böyük ustad, xahiş edirəm, mənə elə bir dua öyrədin ki, onun vasitəsilə bütün duaların qəbul olunduğu bu müqəddəs ziyarət yerindən əliboş qayıtmayım, istədiyimə Allah-təala vasitəsilə çatım. Yoxsa, sizin yanınızdan getməyəcəyəm."

Arif ustad dərin və mənalı baxışları ilə halıma diqqətlə nəzər salıb pərişanlığımı duydu. Dərdimin nə olduğunu tam aydınlıqla bildirdi və onun əlacını söylədi. Mənə elə bir söz dedi ki, onu eşidərkən bütün vücudum əsməyə başladı. Mənə öyrətdiyi dua belə idi: "Övladım, ətirli hərəmə girib imam Rzanın (ə) ziyarəti şərəfinə nail olarkən ən təsirli və faydalı dualardan biri budur ki, o həzrəti anası Zəhraya (ə) and ver. Qoy o həzrət sənin istədiyini Allah-təaladan rica etsin. O həzrət anası Zəhranı (ə) çox sevdiyi üçün əziz anasına and verməк çox təsirli olacaqdır."

Sonra böyük ustad əlavə etdi: "Mən də sənə kömək edəcəyəm. Sənin üçün dua edəcəyəm. İnşaallah, hər ikimizin duası öz təsirini göstərəcək."

Ustad bu sözləri deyib hərəmə doğru yola düzəldi. Mən də ustaddan aldığım dərsi öyrənib ətirli hərəmə daxil oldum."

Əziz dostumuz sözünə davam edərək bildirdi ki, dediklərinə tam səmimiliklə inanır: "Həmin gün mahir ustadımın – müalicə həkimimin "nüsxəsinə" uyğun olaraq rəftar etdim... Həmin "nüsxəyə" əməl etməyimin nəticəsində neçə illik əzabverici dərdim müalicə olundu. Beləliklə, mən ana ilə oğlun – Zəhra (ə) ilə imam

[1] Biharül-ənvar, 1 c., s. 60

Rzanın (ə) məhəbbət və şəfqəti ilə şəfa tapdım və o zamandan bəri həmin anların ləzzətli xatirəsi daim qəlbimdə yaşayır."

İndiyə kimi minlərlə adam dərdli ürəklə imam Rzanın (ə) ətirli ziyarətgahına getmiş, dərdlərinə əlac üçün o həzrətə üz tutmuş və istədiklərinə nail olmuşlar. İndi cəsarətlə demək olar ki, bəlkə də həmin şəxslərdən çoxu əziz dostumuz kimi o həzrəti əziz anasına and vermişlər.

## İmam Cavad (ə) və anasının xatirəsi

İmam Cavad (ə) atası imam Rzanın (ə) tərbiyə məktəbində böyümüşdür və təbii ki, əziz anasına olan məhəbbət və əlaqəsini alicənab atasından əxz etmiş, ondan öyrənmişdir. Bəli, imam Cavadın əziz anasına qarşı olan coşqun məhəbbəti həmişə şölələnmiş və dillər əzbəri olmuşdur.

Bu sönməz eşq və məhəbbət haqqında çox deyilmişdir. Ona görə də burada bu mövzu ilə bağlı kiçik bir hədisi oxucuların nəzərinə çatdırmaqla kifayətlənirik. "Səfinətül-bihar" əsərində qeydə alınmış hadisədə deyilir:

"İmam Cavad (ə) həmişə günəş batarkən Mədinədəki Nəbiyyi-Əkrəm məscidinə gələr, İslam peyğəmbərinə (s) salavat və salam göndərər və beləliklə, ulu cəddini yad etməklə rahatlıq tapardı.

Sonra Peyğəmbərin (s) qəbrinin yaxınlığında uyuyan anası Fatimənin (ə) məqbərəsinin yanına gedərdi. Əvvəlcə, özünəməxsus nəzakət və ədəblə ayaqqabısını çıxarar, sonra isə böyük şövq və həvəslə o kiçik, lakin nurlu evə daxil olardı. Orada namaz qılar, dua edər və bir müddət sükut içində fikrə dalardı."

Bu məhəbbət və əlaqənin dərki üçün təkcə bunu qeyd etmək kifayətdir ki, İmam (ə) Nəbi məscidinə gedərkən bir dəfə də olsun, əziz anasını yoluxmadan evə dönməmişdi.

İmamın (ə) əziz anasına olan məhəbbət və əlaqəsinin dərinliyi o həzrətin evlənməsinə aid hekayətdə də əyani şəkildə özünü göstərir.

İmam Cavabın (ə) evlənmə qaydasına diqqət yetirdikdə hər şeydən əvvəl görürük ki, o həzrət anasına necə böyük bir ehtiram bəsləmiş və onun aliliyini, üstünlüyünü hər cəhətdən nəzərə almışdır. Məlum olduğu kimi, imam Cavad (ə) xəlifə Məmun Abbasinin kürəkəni olmuşdur. Ona görə də gözləmək olardı o həzrətin xəlifənin qızı Ümmül-Fəzllə toy mərasimində qızın atası minlərlə dirhəm və dinar xərcləyəcək. O zamanlar bu cür mərasimlərdə kəbin pulu gəlinin atasının imkanlarına uyğun olaraq böyük bir məbləği təşkil edirdi.

Ancaq imam Cavad (ə) anasına bəslədiyi dərin ehtiramın əlaməti olaraq həyat yoldaşının kəbin pulunun beş yüz dirhəmdən artıq təyin olunmasına razılıq vermədi. Axı o həzrətin əziz anasının kəbin pulu da eyni ilə beş yüz dirhəm idi.

Beləliklə, o həzrət heç bir vəchlə razı olmadı ki, həyat yoldaşının kəbin pulu möhtərəm anası Zəhranın (ə) kəbin pulundan artıq olsun və bu, bir növ üstünlük sayılsın.

## İmam Hadi (ə) və anasının xatirəsi

Vilayət və imamlıq səmasının onuncu parlaq ulduzu və İslam dünyasının pak rəhbəri imam Hadi (ə) də anası Zəhranın (ə) müqəddəs xatirəsini əziz tuturdu.

Məsum imam (ə) əziz anasına bəslədiyi sevgi və duyğularını Əhli-beytin (ə) düşmənləri ilə, müxalif qruplarla etdiyi mübahisələrində dönə-dönə gözəl sözlərlə bəyan etmişdir. O həzrət həmişə əziz anasının varlığı ilə fəxr etmişdir.

Bu böyük şəxsiyyətin çoxsaylı dua və öyrətmələri içərisində "Ziyarəti-came" öz dərin və gözəl mənası ilə seçilir. Məsum imam (ə) anası Zəhraya (ə) və pak Əhli-beytə (ə) qarşı olan ali duyğularını, dərin məhəbbətini həmin "Ziyarəti-came"sində olan əzəmətli dualarında dönə-dönə dilə gətirmişdir:

"Salam və alqış Sizə, Ey Peyğəmbər (s) nəsli!

Salam və alqış Sizə, ey səma mələklərinin gedib-gəlmə mərkəzləri və ey İlahi vəhyin nüzul olduğu yer!

Salam və alqış Sizə, ey millətlərin başçıları, pak siyasət xadimləri və tədbir sahibləri!

Salam və alqış Sizə, ey iman açarları, Allahın mötəbər bəndələri və peyğəmbərlərin qaymağı!

Salam və alqış Sizə, ey mərifət və möminlik mərkəzləri, ey İlahi hikmətlərinin xəzinələri və böyük sirr sahibləri!

Salam və alqış Sizə, ey İlahi Kitabının daşıyıcıları, Peyğəmbərin (s) hamiləri və Allahın Rəsulunun (s) nəsli, İlahi rəhməti və bərəkəti Sizə nəsib olsun!"

## İmam Həsən Əskəri (ə) və anasının xatirəsi

İslam dünyasının on birinci pak rəhbəri imam Həsən Əskəri (ə) həmişə əziz anasını böyük məhəbbətlə yad etmiş və hər bir fürsətdə ona qarşı olan səmimi sevgi və duyğularını dilə gətirmişdir.

"Mənaqib" kitabının müəllifi İbn Şəhraşub Əbu Haşimdən, o isə imam Həsən Əskəridən eşitdiyi aşağıdakı sözləri qələmə almışdır: "Bir gün Həsən Əskəri böyük bir məclisdə olanlara müraciətlə buyurdu: "Bilirsinizmi, anam Fatimə (ə) niyə Zəhra (ə) (parlaq üzlü) adını qazanmışdır?"

Məclisdəkilər dedilər: "Yaxşı olar ki, özünüz buyurasınız."

İmam bu gözəl adı belə şərh etdi: "Anamın sifəti gündüzlər günəş kimi, günbatan çağlara ay kimi, gecələr isə ay kimi ulu babam Əli (ə) üçün parladığı və işıq saçdığı üçün onun Zəhra, yəni "parlayan" adlandırdılar."[1]

**İmam Zaman (ə.c.) və anası Zəhra (ə)**

Ayətullah Seyyid Məhəmməd Hindinin oğlu böyük əllamə Seyyid Məhəmməd Baqir aşağıdakı hekayəti nağıl edir:

"Qədr gecəsi yuxu və röya aləmində İmam Zamanı (ə.c) gördüm. O çox qəmli və tutqun idi. Mübarək hüzuruna ərz etdim: "Rəsulullahın övladı, canım Sənə qurban olsun, belə əziz və mübarək gecədə niyə belə qəmli və tutqunsan?"

Cavabımda buyurdu: "Anam Zəhranın (ə) qəm və kədərini yadıma salıram. O məhdud və qısa həyatında anam necə dəhşətli və ağır müsibətlərə dözdü, bütün o əzab-əziyyətləri yadıma salıb qəmli oluram."

Ayətullah bu qəmli cavabı eşitcək yuxudan oyanır və dərhal qələmi əlinə alaraq bu ürəkaçan yuxunu şer qəlibinə salır. Həmin gecə bu münasibətlə yazdığı şerin mətləsi belədir:

"Beytül-əhzanda (qəm evində) gördüyüm bir belə müsibət və qəmdən sonra mənim əsla şadlıq və sevinc evim ola bilməz."

Bu mövzu ilə maraqlanan oxucuların nəzərinə çatdırırıq ki, həzrət Fatimeyi-Zəhranın (ə) oğlanları ilə bağlı hədislərdə, İslam mədəniyyəti və tarixinə aid kitablarda çoxlu məlumat var və onların incələnməsi xüsusi araşdırma tələb edir. bunu da qeyd etməyi lazım bilirik ki, bu sətirlərin müəllifi pakların pakı Zəhranın (ə) oğlanları haqqında ayrıca iki kitab yazmışdır və həmin kitablarda bu məsələlər geniş şərh olunmuşdur. Ona görə də bu kitabımızda Zəhranın (ə) oğlanlarına aid məsələlərin ətraflı izahından çəkinməli olduq. Maraqlanan oxucuları həmin iki kitabı oxumağa dəvət edirik.

***

**Fatimənin (ə) vəfatı**

Fatimeyi-Zəhranın (ə) canlar yaxan vəfatı İslam tarixində ən qəmli, ən dərdli səhnələr yaratmış və zəif-gücsüz bəşərin, özünü sevmə, mənfəət güdmə, şöhrətpərəstlik və vəzifəpərəstlik kitabında qaranlıq və qara səhifələr əmələ gətirmişdir. O bəşər ki, əhd-peymanını tez unudur, dostluğu ayaq altına alır, mənəviyyatı dünya malına qurban verir və bütün bunları qüdrət taxt-tacına iki gün də artıq söykənmək, vəzifəpərəstlik arzusuna çatmaq xatirinə edir... O bəşər ki, dünyəvi məqsədlər üçün bəzən elə qəlbiqara və yaramaz olur ki, hətta Peyğəmbərin (s) buyurduqlarını, tövsiyələrini də yaddan çıxarır və o həzrətin nəslinə, Əhli-beytə (ə) və Allahın Elçisinin (s) sevimli yadigarına olmazın cəfa və zülmlərini rəva görür...

Fatimə (ə) cavanlığının çiçəklənən dövründə, İslam peyğəmbərinin (s) vəfatından azacıq sonra vəfat etdi. Fatimənin (ə) vəfatı nə qədər ağır olsa da, gözlənilməz deyildi, çünki Peyğəmbər (s) yatağa düşərkən Zəhranın (ə) tezliklə bu dünyadan köçəcəyini və ona qovuşacağını mübarək dili ilə əziz qızına xəbər vermişdi. Bəlkə də bu səbəbdən idi ki, Fatimə (ə) atasından ayrı düşdüyü o qara və əzablı günlərə nə qədər ağır və əzabverici olsa da, dözdü və ömrünün həmin qısa, dərdli dövrünü başa vura bildi...

Fatimənin (ə) vəfat səhnəsinə nəzər salmaq üçün bir qədər geriyə qayıdaq...

**Peyğəmbərlik günəşinin sönməsi**

Hicrətin 10-cu ilinin səfər ayının iyirmi səkkizinci (miladi tarixlə 631-ci ilin mayı) İslam tarixində ən çətin və dərdli gün idi. Həmin gün Fatimənin (ə) həyatında da ən dərdli gün idi. Bu ağır gündə bəşəriyyətin böyük rəhbəri və xilaskarı, rəhmət və mərhəmət Peyğəmbəri, Allahın sonuncu elçisi, peyğəmbərlik silsiləsini başa vuran, İlahi vəhyin Əmini, dinsizlik və bütpərəstliyin kökünü kəsən – həzrət Məhəmməd bin Abdullah (s) dünyasını dəyişdi...

Həmin gün bütün Mədinəni iztirab və təşviş bürümüşdü. Peyğəmbərin (s) dostları, yaxınları gözləri yaşlı, qəlbləri yaralı halda Peyğəmbərin (s) evinin ətrafında toplaşmışdılar. Onlar qəmli, kədərli halda gözlərini

[1] Cilaül-üyun, 1c., s. 138

qapıya dikərək Allahın Elçisinin (s) xəstəliyindən xəbər tutmaq istəyirdilər. Peyğəmbərin (s) dostları, yaxınlarının qəlbi ağır əzab və iztirabla döyünürdü. Onların narahatlıq və nigaranlığı hər an artırdı. Peyğəmbərin (s) halı və xəstəliyi ilə bağlı xəbərlər hər an bayırdakılara çatdırılırdı. Bu xəbərlər o həzrətin (s) halının get-gedə pisləşdiyini və sağalmasına heç bir ümidin qalmadığını bildirirdi.

Evin ətrafında dövrə vurub gözləri yaşlı halda, qəhərdən boğulanlar içəridən gələn xəbərləri eşitdikcə bilirdilər ki, Peyğəmbərin (s) həyatının son şölələrindən cəmi bir neçə saat qalıbdır. Peyğəmbərlik günəşi bir an sonra sönüb batacaqdır...

Allahın Rəsulunun (s) yataqda uzandığı otaq balaca idi. Müsəlmanların ora toplaşması və Peyğəmbərin (s) yaxın adamlarının gedib-gəlməsi mümkün deyildi. Ona görə də Peyğəmbərin (s) ev əhlindən başqa heç kəs həmin otağa get-gəl etmirdi. Peyğəmbərin (s) əziz qızı və yeganə sevimli yadigarı Fatimə (ə) atasının yatağının kənarında dizlərini qucaqlayaraq oturmuşdu. Yaşlı gözləri atasının nurani sifətinə dikilmişdi. Fatimə (ə) görürdü ki, mirvari danələrinə bənzər ölüm təri atasının alnından süzülərək mələk sifətinə damcılayır...

O qəmli anlarda Fatimə (ə) qəlbi hüznlü, gözləri yaşlı və boğazı qəhərdən tutulmuş halda Əbu Talibin alicənab İslam peyğəmbəri (s) haqqında qoşduğu nəğmələrdən birini zümzümə edirdi:

“O cazibəli və parlaq sifətin ehtiramına
Buluddan yağış yağdırması istəyi dilə gəlir,
O, yetimlərin pənah yeridir, dul qadınları
Qoruyan şəxsiyyətdir.”

Peyğəmbər (s) üçün həmişə ən gözəl və ürəkaçan səslərdən olan Fatimənin (ə) tutulmuş və qəmli avazı o həzrətin qulağına çatdı. Bu tanış səsi eşitcək qapalı gözlərini açıb yavaş səslə qızına buyurdu:

“Bu Əbu Talibin mənə qoşduğu şerdir. Amma yaxşı olar ki, o şerin əvəzinə Quranın bu ayəsini ucadan oxuyasan:

“Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (“Dininizdən dönəcək və ya döyüşdən qayıdacaqsınız?”) Halbuki geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükr edənlərə mükafat verir.”[1]

Allahın Rəsulunun (s) həyatının o son dəqiqələrində şer əvəzinə Quran oxutmasından məqsədi, mətləbi nə ola bilərdi? Bəlkə Peyğəmbərin (s) məqsədi camaatın diqqətini şerdən Quran ayəsinə, ədəbiyyatdan mənəviyyat və ilahiyyata yönəltmək idi? Yoxsa, Peyğəmbər (s) ifratçıların o zamankı şişirtmə və ifratlarına nəzarət etmək və Quranın, İslamın doğru yolundan çıxmasının qarşısını almaq istəyirdi? Bəlkə də müsəlman ümmətini xəbərdar etmək istəyirdi ki, ayıq və diqqətli olsunlar və ölümündən sonra onun haqqında şişirtmə sözləri dillərinə gətirməsinlər, mübaliğə etməsinlər, doğru yoldan sapmasınlar?.. Və nəhayət, onlarla, yüzlərlə başqa “bəlkələr”, “yoxsalar”... Bizim ağıl və dərrakəmiz həmin zənnlərə - “bəlkələrə” çatmaqda acizdir və onlar haqqında həqiqi, doğru məlumat yalnız və yalnız uca Tanrının yanındadır, vəssalam...

Olan oldu, keçən keçdi... Hər halda bir şey açıq-aşkar aydındır ki, İslam peyğəmbərinin (s) yataqda olduğu o günlərdə Fatimə (ə) ürəyi qəmlə dolu, yana-yana atasının yatağının yanında oturmuşdu. Nə ondan uzaqlaşır, nə də gözünü onun mübarək sifətindən və ağzından çəkirdi...

Və həmin axırıncı gün birdən Peyğəmbər (s) gözünü açdı və sevimli qızına işarə etdi ki, daha yaxın gəlsin. Bu işarədən məlum idi ki, Peyğəmbərin (s) yeganə yadigarına bəlkə də son sözü var. Fatimə (ə) tez aşağı əyildi və başını lap atasının yanına dikdi. Beləcə ata ilə bala bir an bir-biri ilə pıçıltı ilə elə danışdılar ki, kimsə onların sözlərini eşidə bilməsin...

Peyğəmbərin (s) otağında, o həzrətin yatağının yanında olanlar o ikisinin nə haqqında danışdıqlarından xəbər tutmadılar. Yalnız Peyğəmbərin (s) sözləri sona çatanda gördülər ki, Zəhra (ə) bərk ağlayır və pak gözlərindən yaşlar axır.

Fatimənin (ə) hələ göz yaşlarını axıtdığı bu anda Peyğəmbər (s) bir də ona işarə etdi ki, yaxın otursun. Peyğəmbər (s) yenə də ona nəsə dedi. Otaqdakılar bu dəfə gördülər ki, Zəhra (ə) açıq sifətlə, gülər üzlə, dodaqlarında təbəssüm başını qaldırdı və nurani simasına şadlıq, sevinc rəngi qondu...

Fatimənin (ə) sifətindəki bu iki bir-birinə zidd, həm də dalbadal yaranan, dəyişkən hala oradakılar təəccüb etdilər. Heyrət və maraqla Peyğəmbərin (s) qızından xahiş etdilər ki, Allahın Rəsulunun (s) buyurduğunu onlara da desin və bu iki müxtəlif və dəyişkən halının səbəbini açıb söyləsin. Amma həmin gün Fatimeyi-Zəhra (ə) o sirri açıb deməkdən çəkindi və otaqdakılara buyurdu: “Mən Allahın Rəsulunun (s) sirrini aça bilmərəm.”

Lakin Peyğəmbərin (s) vəfatından sonra bu sirr haqqında eşidən Ayişənin dönə-dönə, israrla xahişindən sonra Zəhra (ə) həmin sirri açıb ona danışdı:

---

[1] Ali-İmran surəsi, 144-cü ayə

“O günü atam birinci dəfə məni yanına çağırarkən mənə acı bir xəbər verdi – yaxınlaşmaqda olan və qaçılmaz ölümünü açıb dedi. Buyurdu ki, bu xəstəlikdən sağalmayacaq və axirət dünyasına tələsəcək. Bərk ağlamağıma səbəb də elə bu xəbər oldu. Lakin ikinci dəfə mənə işarə edərkən şirin bir xəbər verdi. Atam buyurdu: “Sən ev əhlimdən mənə qovuşacaq ilk şəxssən.” Bu xəbər mənə şadlıq və sevinc bəxş etdi, çünki anladım ki, bir azdan əziz atama qovuşacağam. Buna görə də o cür bərk ağlamağımdan sonra birdən dodaqlarıma sevinc təbəssümü qondu.”[1]

### Bu şadlığa səbəb nə idi?

Pakların pakı Zəhra (ə) əziz atasına qovuşmaq xəbərini – özünün yaxınlaşan ölüm xəbərini eşidəndən sonra elə sevindi ki, ömrünün ən dərdli və acı anında belə gülümsədi.

Öz ölümünü eşidən bir kəsin belə heyrətli sevincinə nə səbəb ola bilərdi?

Bəli, bu qəribə və mənalı hal yalnız müqəddəs Zəhranın (ə) vücudundan gələn xüsusi ruhi şəraitlə arxada qoymuş və onu ayaqlamışdır. Fatimənin (ə) bu xüsusi halından tam aydınlıqla aşkar olur ki, onun kimi müqəddəs varlıq özünün ruhi təkamülü istiqamətində ali və bənzərsiz yüksəkliklərə baş vurmuşdur. Həmin təkamül nəticəsində Fatimə (ə) üçün dünyəvi həyatın heç bir əhəmiyyəti yoxdur, əksinə, o, Allaha, Onun behiştinə qovuşmağı və İlahi ilə yaxınlığı dərk etməyi zahiri amillərdən çox-çox sevir və bu yolda hər şeyə dözür. Bəli, o belə bir mərhələdir ki, əsl həyatı və həqiqi sevinci axirət dünyasında və İlahi rəhmətinin yanında axtarır və ona çatmaq üçün dəqiqələri, saniyələri sayır. O, mələklər bağının quşudur və qol-qanad açaraq bu dar və məhdud dünya qəfəsindən qurtulub, əsl və əbədi yuvasına qonmaq və yüksək ənginliklərdə - özünə müvafiq və sevimli yoldaşının yanında – alicənab atasının, rəhmət və mərhəmət Peyğəmbərinin (s) hüzurunda olmaq fikrindədir.

Məhz bu səbəbdən də haqqa qovuşmaq vədini gerçək bir xəbər kimi Peyğəmbərin (s) mübarək dilindən eşitdikdə onun belə bir dərd-qəm içində ola-ola sevinməsi, təbəssümlə gülümsəməsi əsla təəccüblü deyil...

### Hədisçi alim İrbilinin bu barədə dedikləri

Hicri tarixi ilə VII (miladi VlII) əsrin məşhur alimlərindən biri, “Kəşfül-ğəmmə fi mərifətil-əimmə” adlı dəyərli əsərin müəllifi, hədisçi İrbilinin İslamın alicənab peyğəmbərinin (s) əziz və fəzilətli qızının ürəyində, canında olan ölüm arzusu haqqında aydın fikri və faydalı izahatları vardır. Bir çox incə mətləbləri işıqlandıran bu fikirlərin böyük tərbiyəvi əhəmiyyəti vardır. Onlardan qısa bir hissəsini burada ixtisarla veririk. İrbili yazır:

“Bəşər təbiətinin zatında, daxilində öz həyatını davam etdirməyə bir məhəbbət və əlaqə var. Ümumiyyətlə, bəşər ölümdən qaçır və öz həyatını sevir. İlahinin peyğəmbərləri də o cür əzəmət və cəlallarına baxmayaraq, yenə də bu məsələdə istisnalıq təşkil etmirlər. Onlar da həyata bağlılıq məsələsində ümumi camaatla şərik və birdirlər. Həzrət Adəm (ə) də bir o qədər çox ömür sürməsinə baxmayaraq, yenə də yaşamaq arzusunda idi və həmişə Allah-təaladan onun ömrünü uzatmasını xahiş edirdi. O həzrətin bu arzusu dediyimizə aydın bir dəlil-sübutdur.

Həzrət Nuh (ə) da Qurani-Məcidin aydın buyurduğu kimi, təkcə öz tayfası içərisində doqquz yüz əlli il yaşamış və camaatı haqqa, bir olan Allaha inanmağa dəvət etmişdi. Lakin buna baxmayaraq, Nuh (ə) da əcəli yetişərkən hələ həyatdan doymamışdı, çünki ömrünün son anlarında ondan soruşanda ki: “Dünyanı necə tapdın?” - belə cavab vermişdi:

“Dünyanı iki qapısı olan elə bir ev şəklində gördüm ki, bir qapısından içəri daxil olur, o biri qapısından isə çölə çıxırlar.”

Bu cümlədəki məna o uzunömürlü peyğəmbərin (ə) həyata bərk əlaqəsini və bu dünyadan ayrılmağın çətinliyini göstərir.

Və ya həzrət İbrahim (ə) Haqq-təaladan xahiş etmişdi ki, özü ölüm arzusuna düşməyincə onu bu dünyadan aparmasın.

Başqa bir misal: həzrət Musa (ə) bu dünyadan ayrılarkən – ömrünün son anları yetişən zaman Əzraillə (mələkul-mövtlə) mübahisə edirdi. O həzrət (ə) də dünyadan ayrılmaq istəmirdi.

Bəli, bütün bunlar ulu peyğəmbərlərin həyatına aid əhvalatlardan kiçik hissələrdir. Və bu deyilənlər əyani şəkildə göstərir ki, həmin əzəmətli və qüdrətli peyğəmbərlər də dünyadan, yaşamaqdan doymur və həyatla əlaqələrini kəsmək istəmirdilər...

Lakin Fatimeyi-Zəhra (ə) kiçik yaşına, həyatınının çiçəklənən çağına baxmayaraq, elə böyük bir şövq və həvəslə bu dünyadan ayrılmağın, onu tərk etməyin intizarında idi ki, özünün ölüm xəbərini atasından eşidərkən

[1] İbn Səd, Təbəqat, 2 c., s. 247; İbn Əsir, Kamil, 2 c., s. 219

bunu bir bayram və şadlıq kimi qarşıladı. O, tezliklə alicənab atasına qovuşmağına çox sevinirdi və bu incə məsələ Əhli-beytin (ə) vücudunda əmanət qoyulmuş ruhi və mənəvi əzəmətin sirlərindən biridir. Bu cür ali hisslər yalnız onlara məxsusdur.”[1]

### Zəhranın (ə) özünün təsdiqi

Bu incə mətləbi Fatimənin (ə) özü də Mədinə məscidində izdihamlı camaatın qarşısında söylədiyi həmin həyəcanlı xütbəsində bəyan etmişdir. O həzrət həmin kəskin və alovlu sözlərində möhtərəm atasının vəfatı ilə bağlı belə buyurmuşdu:

“Allah-təala onu Öz rəhmət və lütfü ilə öz yanına buyurmuş, bu dünyanın məşəqqət və əzabından, dərd və qəmindən qurtarmış və cənnətə yetirməklə əbədi sevinc bəxş etmişdir.”

Bu dərin mənalı cümlənin özü Zəhranın (ə) ölüm və bu dünyadan köçmə məsələlərinə olan ümumi baxışlarını əks etdirir. Əslində bu mənalı sözlər Fatimeyi-Zəhranın (ə) dünyagörüşünü açıb göstərir. Aydın olur ki, onun nəzərində bu dünyadan əl çəkib, axirət aləminə tələsmək dünya məşəqqətlərindən xilas olmağın və İlahi rəhmətinə qovuşmağın ən ali yoludur. Çünki ölümə bu cür münasibət bəsləyən kəs aydındır ki, öz ölümünə də eyni nəzərlə baxır. Beləliklə Zəhrənın (ə) alicənab atasının ölümü haqqında buyurduğu sözlər əslində onun özünün ölüm xəbərini eşitməklə qəlbində baş qaldıran sevinc hissinin səbəbini də açıq-aşkar təsdiq edir. Bunun səbəbi o həzrətin təbiətdə əsası qoyulmş mənəvi zənginlikdir.

### Zəhranın (ə) məzlumcasına ölümü

Nəhayət, zaman gəlib çatdı və ölüm mələyi ədəb-ərkanla Fatimənin (ə) evinin astanasında durdu. Əzrayil, Zəhranı (ə) uca göylərdəki mələklərin yanına aparmağa, orada onun İlahi rəhmətinə qovuşdurmağa gəlmişdi...

Bəli, Fatimeyi-Zəhra (ə) – o misilsiz qəhrəman iş və mübarizə, inqilab və siyasət xanımı, paklıq və təmizlik, namus və iman, ilahi möminlik və saflıq nümunəsi, bir sözlə, İslam peyğəmbərinin (s) qiymətli və əziz yadigarı bu qədər əzab-əziyyətə dözdükdə, atasının bəzi yaramaz və vəfasız ümməti tərəfindən rəva görülmüş zülm və cəfalar gördükdən sonra alicənab atasının vəfatından bir müddət keçmiş o həzrətin ardınca özü bu fani dünya ilə vidalaşdı...

Fatimə (ə) öz Pərvərdigarına qovuşmağa tələsdi və bu dar və dəyərsiz dünyadan özü ilə qəlbindəki bir yığın dərd-qəmini də apardı. Bununla da çoxdankı arzusuna çatdı. Axı Fatimə (ə) həmişə atasının yanında olmağı arzulamışdı və indi bu arzusu da həqiqətə çevrildi.

Ayişə deyir: “İslam peyğəmbəri (s) ölüm yatağında olarkən bir gün Fatimə (ə) onun hüzuruna gəldi. Yerişi eynilə atasının yerişi kimi idi. İslam peyğəmbəri (s) ona salam verib “mərhəba” dedi və sağ tərəfdə oturdu. Sonra yavaşca pıçıltı ilə qulağına nəsə dedi və Zəhra (ə) birdən ağlamağa başladı. Sonra Peyğəmbər (s) onun qulağına başqa bir mətləb pıçıldadı və Zəhra (ə) sevindi. Ona dedim: “Belə tez bir vaxtda içində və belə dalbadal əvvəl ağlamağının, sonra isə gülməyinin səbəbi nədir?”

Fatimə (ə) dedi: “Mən Peyğəmbərin (s) aça bilmərəm.”

İslam peyğəmbəri (s) axirət dünyasına tələsdikdən sonra yenə də Fatimədən (ə) o ağlamağının və gülməyinin sirrini soruşdum. Cavabında dedi: “Atam o vaxtı mənə buyurdu:

“Cəbrayil hər il bir dəfə Quranı mənə göstərdi, lakin bu il Onu iki dəfə mənə nazil etdi. Yəqin etdim ki, mənim əcəlim sona çatmışdır və bu il bu dünyadan köçəcəyəm.”

Mən bu sözləri eşidib ağlamağa başladım. Sonra isə atam buyurdu:

“Sən ilk şəxssən ki (mənim Əhli-beytimdən (ə)), mənə qovuşacaqsan. İslam ümməti qadınlarının başçısı olmaq istəyirsənmi?”

Mən bu sözləri eşidib sevindim və sevindiyimdən güldüm.”

Fatimənin (ə) bu səmimi arzusu tez həyata keçdi. O behişt xanımlarının xanımı çox tez (bir fikrə görə Peyğəmbərin (s) vəfatından 75 gün sonra) Haqqın dəvətini qəbul edib, sevimli Yaradanına qovuşdu. Amma Fatimənin (ə) vəfatı ilə bağlı iki məsələ dərdli və yanıqlıdır: biri odur ki, o həzrət ömrünün lap cavan çağında bu dünyadan köçdü. İkincisi isə, bu dünyadan yaxşı yola salınmadı. Uşaq salandan sonra mübarək qabırğası sındı. Torpağa tapşırılması da ürəkyandırıcıdır: o həzrət qürbətdə və təkcə, qara gecədə, nəzərlərdən uzaq halda torpağa tapşırıldı. Onu sevənlərin çoxu hətta məzarına göz yaşları da çiləyə bilmədilər...

### Fatiməni (ə) gecə qoynunda yola aparanlar

[1] Kəşfül-ğəmmə, 2 c., s. 82

Fatimeyi-Zəhra (ə) vəfat etməmişdən qabaq bir müddət qabırğası sınmış halda, yaralı bədəni ilə qızdırma içində yatağa düşdü. Ona bərk əziyyət verən dərdlə, əzabla əlləşdi, çəkişdi. Sonra isə öz vəziyyətinə görə gecə ikən, pis niyyətli kinli düşmənlərinin nəzərlərindən uzaq bir halda dəfn olundu. Onun cənazəsini yola salanlar arasında alicənab əri Əlidən (ə), sevimli oğlanları Həsən (ə) və Hüseyndən (ə), Əmmar, Əqil, Zübeyr, Salmandan və Bəni-Haşimdən olan bir neçə nəfərdən başqa heç kim yox idi. Fatimənin (ə) cənazəsini bu cür sükutla və bir növ gizli şəkildə yola salınması İslam aləmində görünməmiş bir hal idi və Allahın Rəsulunun (s) vəfatından keçən qısa bir müddət ərzində bir qrup vəzifəpərəst və mənfəətpərəst adamlar tərəfindən Bəni-Haşimə rəva görülmüş zülm və əziyyətlərdən xəbər verirdi. Fatimənin (ə) bu cür səs-küysüz və məzlumcasına yola salınmasını öz bu zülm və əziyyətlərin əlaməti idi. Bu mərasim açıqca göstərirdi ki, Allahın Rəsulunun (s) ailəsinə rəva görülən zülm və sitəm nə dərəcəyə çatmışdır. O həzrətin əziz qızını sakitcə və xəlvətcə torpağa tapşırdılar ki, düşmənlər tərəfindən yeni bir fitnə baş qaldırmasın...

### Əlinin (ə) dərdli ürəyini Allahın Rəsuluna (s) açması

Əli (ə) əziz həyat yoldaşını torpağa tapşırarkən dərdli və hüznlü bir halda yaralı sinəsindən bir yanıqlı ah çəkərək üzünü Allahın Rəsulunun (s) məqbərəsinə tutdu və bu kəlmələri dilinə gətirdi:

"Ey Allahın Rəsulu! Məndən və yanında yerə enmiş, belə tez özünə qovuşmuş qızından sənə salam olsun! Ey Allahın Rəsulu! Sənin ayrılığınla (özünün seçdiyin ayrılığınla) bağlı səbr-dözümüm daha sona yetdi. Onun vəfatından sonra gücüm-taqətim əlimdən getdi. Lakin sənin ayrılığını, görəndən, ölümünün müsibət və kədərinin ağırlığını çəkəndən sonra bu müsibətə də dözməyə mənim gücüm çatar. Halbuki, başını mən özüm məqbərəndəki ləhəd daşına qoydum. Mənim qucağımda canın bədənindən çıxdı və bu cür müsibətə dözə bildim. Bizim hamımız Allahın bəndələriyik və Ona doğru dönəcəyik.

İndi budur, bu əmanətin də (Fatimeyi-Zəhra(ə)) geri alındı və girov yerinə qaytarıldı. İndən belə günlərim həmişə qəm içində keçəcək, gecələr gözümə yuxu getməyəcək. Və bu halım Allah-təala məni də oturduğun saraya aparana kimi beləcə davam edəcək. Tezliklə qızın ümmətinin çoxunun o yazığa etdiyi zülmlərdən sənə xəbər verəcək.

Bütün olub keçənləri ondan soruş və onların bizimlə etdiyi rəftardan sual et. Onlardan bizə bu qədər zülüm yetdi, halbu ki, sənin vəfatından çox vaxt keçməmiş xatirən yadlardan silinməmişdir.

Hər ikinizə salam və alqış olsun. Bu qəzəbli incik və cansıxıcı bu salam və alqış deyil, əksinə, vidaedici, ağlar və hüznlü salamdır. Əgər qayıtsam, ya getsəm, bu, etinasızlıqdan deyil. Və əgər qalsam, bu, bədgümanlıqdan deyil. Allahın dözümlülərlə və səbirlilərə verdiyi vədə görədir."[1]

### Məsudi Fatimə (ə) ölümü haqqında

"Mərvəcüz-zəhəb" kitabının müəllifi Məsudi yazır: "Fatimənin (ə) vəfatı hicrətin 11-ci (632) ildə oldu. Əli (ə) onun ayrılığının kədərindən bu şeri zümzümə edirdi:

"Hər iki dostun qovuşmasının ayrılığı da var,
Fəraq və ayrılığı dadmayan çox nadir halda olur,
Dostum və qardaşım Əhmədin ölümündən sonra
Fatiməni də əldən verməyim
Dostun əbədi qalmayacağına ən yaxşı dəlildir."[2]

### Buxarinin dediklərindən

.

Məhəmməd İsmayıl Buxari "Səhih" adlı kitabında bu barədə belə yazır:

"Zəhra (ə) Əbubəkr tərəfindən malının zəbt edilməsinə və Fədəkin əlindən alınmasına görə onunla küsülü idi. Ölənə qədər əsla onu danışdırmadı. Onun ölümü atasının vəfatından 6 ay sonra oldu. Həyat yoldaşı Əli (ə) onu gecə ikən dəfn etdi, ona namaz qıldı və bu barədə Əbubəkrə heç bir xəbər vermədi. Əli (ə) nə qədər ki, Fatimə (ə) sağ idi, Əbubəkrə beyət etmədi və onunla barışmadı."[3]

---

[1] "Nəhcül-bəlağə feyzül-İslam", s. 663, kəlam 193
[2] Mərvəcüz-zəhəb, 2 c., s. 298
[3] Buxari, Səhih, 5 c., s. 159 (Məkkə çapı)

***

Peyğəmbərin (s) qiymətli yadigarı Fatimeyi-Zəhra (ə) haqqında sözümüz burada başa çatır. Amma Fatimə (ə) haqqında söz ümumiyyətlə sona yetməyəcək. Fatimeyi-Zəhranın (ə) həyatı, mübarizələri və yüksək təlimləri haqqında olan kitab həmişə açılır, amma əsla bağlanmır.

Bu elə bir kitabdır ki, mavi səma altında nə qədər ki, insan nəfəs alır və iman şölə saçır, açılacaqdır və onun hər bir sətrində deyilməmiş sözlər, eşidilməmiş sirlər yazılacaqdır. Bu kitab parlaq günəş kimi Əhli-beytin (ə) yolunu davam etdirənlərin yoluna, xüsusilə də mömin və müsəlman qadın və qızların yoluna nur saçıb işıqlandıracaqdır...

Bəli, sözü sona yetiririk. Amma etiraf edirik ki, Fatimədən (ə) danışdıqlarımız və Fatimə (ə) haqqında yazdıqlamız coşqun dənizlərin bir damlasına bənzəyir. Odur ki, bu sonuncu sətirlərdə sözümüzü bir şerlə bitirmək istəyirik.

Müəllifin qəlbinin ən dərinliklərindən gələn, kitaba xoş bir sonluq bəxş edən şerlə:

Əgər bütün xanımlar bu yüksək tərbiyəli və inkişaf etmiş İslam xanımı kimi olsaydılar,
Yəqin ki, qadınlar kişilərdən qat-qat yüksək olardılar...

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

## Mənbələr


1. Əyanüş-şiə - Ayətullah Seyyid Möhsün Əmin Amili
2. Əl-ğədir – Əllamə Şeyx Əbdülhüseyn Əmini Nəcəfi
3. Əl-İslam vəş-şiə - Ustad Mahmud Şəhabi Xorasani
4. Əsrarül-bəlağə - Cürcani
5. Bəlağat ən-nisa – Əhməd bin Əbi Tahir
6. Biharül-ənvar – Məhəmməd Baqir Məclisi
7. Banuyi-nümuneyi-İslam – Ustad İbrahim Əmini
8. Təzkirətül-xəvas – İbn Cövzi
9. Tarixi-Bağdad – Xətib Bağdadi
10. Cilaül-üyun – Məclisi
11. Dəlailül-imamət – Cəzri
12. Rövzətül-vaizin – İbn Fəttah Nişaburi
13. Səfinətül-bihar – Şeyx Abbas Mühəddis Qumi
14. Sirəti-İbn Hişam – Məhəmməd bin Hişam
15. Sünəni-Əbi Davud – Əbu Davud
16. Sirətül-əimmə əl-isna əşər – Şərif Seyyid Məhəmməd Qoreşi
17. Süruş (jurnal) – Vəzarəti-irşadın bir qrup yazıçısı
18. Seçilmişlərin seçilmiş sözləri (Soxəne-bərqozide əz bərqozideqan) – Seyyid Rəsul Məhəllati
19. Şəxsiyyəti-qəlisqə - Ustad Əbdürrəhman Bədəvi
20. Səhihi-Müslim – Müslim
21. Səhihi-Əbi Davud – Əbu Davud
22. Səhihi-Tirmizi – Tirmizi
23. Səhihi-Buxari – Buxari
24. Təbəqati-İbn Səd (tarix) – İbn Səd
25. Həyati-Məhəmməd və risalət – Münir Bəlbəki
26. İmam Cəfər Sadiq (ə) pişva və rəise-məzhəb – Əqiqi Bəxşayeşi
27. İmam Musa bin Cəfər qəhrəmane irade və təsmim – Əqiqi Bəxşayeşi
28. Fatimətüz-Zəhra (ə) və tərr fi ğimmid – Süleyman Kətani Lobnani
29. Fatimətüz-Zəhra (ə) min əl-məhd iləl-ləhd – Seyyid Məhəmməd Kazım Qəzvini
30. Fatimeyi-Zəhra (ə) – Ustad Tovfiq Ələm
31. Fateme Fateme əst – Doktor Şəriəti
32. Əl-füsul əl-mühimmə - Seyyid Şərəfuddin Cəbəl Amili
33. Mənbətül-mürid fi adabül-müfid vəl-müstəfid – Zeynəddin Şəhid Sani
34. Mənbərül-İslam (jurnal) - Tofiq Ələmin məqaləsi
35. Mərvəcüz-zəhəb – Məsudi

36. Mənaqib – İbn Şəhraşub
37. Məcməül-bəyan – Təbərsi
38. Əl-mizan fi təfsiril-Quran –Əllamə Təbatəbai
39. Məktəbi-İslam (jurnal) – kollektiv müəllif (Qumdan)
40. Nəfsül-məhmum – Mühəddis Qumi
41. Müstədrək – Hakim
42. Nəhcül-bəlağə - Feyzül-İslamın tərcüməsi
43. Şərhi-Nəhcül-bəlağə - Məhəmməd Əbduh və İbn Əbil-Hədid Mötəzili
44. Kəşfül-ğəmmə - İrbili
45. Kamil – İbn Əsir
46. Kafi – Kuleyni
47. Vəfat əs-Siddiqə ət-Tahirə - Əbdürrəzzaq əl-Məqrəm
48. Nezame-hoquqe-zən dər Eslam – Ustad Şəhid Motəhhəri
49. Vəsailüş-şiə - Şeyx Hürr Amili
50. Fərhəngi-Muin – Doktor Məhəmməd Muin

**Kitabın içindəkilər:**

İslamın bərəkətli məktəbində.........
Canlı nümunə..........
Tarixdə qadının etibar və dəyərinin başlanğıcı.....
“Kişilərə məxsus” cəmiyyətdə cahiliyyə qadını........
Uzaq keçmişlərə bir baxış.........1
Fatimənin (ə) yaşadığı dövr .....1
Tovhid (təkallahlıq) məktəbləri tarixində qadın.....
Müasir inqilabçı müsəlman qadın.......
İran İslam İnqilabında qadının rolu........
İran qadını bir neçə əsrin zülm və haqsızlığının canlı şahididir.......
İslam qayda-qanununda qadının layiqli yeri.........
İslam örtüyü qadın üçün təhqirdir, yoxsa qadının şəxsiyyətinə verilən qiymətdir?...
Kitabın yazılmasının məqsədi...........
Səadətli təvəllüd............
Fatimeyi-Zəhranın (ə) anası..........
Xədicənin qanuni ticarəti və sonsuz sərvəti..........
Kəramətli Peyğəmbərlə (s) evlənmə........
Fəzilətlər və yüksək bəşəri keyfiyyətlər qarşısında qadının boyun əyməsi, itaətkarlıq göstərməsi təəccüblü deyil..........
Xədicənin fədakarlığı və canından keçməsi...........
Xədicənin tərifli keyfiyyətləri və fəzilətləri........
Bilikli qadın və kamal sahibi........
Tərcümeyi-hal kitablarını yazan müəlliflərin Xədicə haqqında dedikləri.......
Xədicənin övladları.......
Fatimeyi-Zəhranın (ə) səadətli təvəllüdü...........
Fatimənin adları və İslamda adqoyma................
Fatimə adı haqqında............
Mübarəkə.............
Zəhranın (ə) 40 milyon nəsli..........
Kövsər haqqında daha bir neçə söz..................
Siddiqə - “tamamilə doğru danışan” deməkdir...........
Zəhra – “üzü parlayan”, “nur saçan” deməkdir..........
O həzrətin künyələri..................
Fatimənin (ə) ləqəbləri...............
Fatimənin (ə) uşaqlıq dövrü...........
Ölüm ayağında ikən Fatimənin (ə) gələcəyindən nigaran olan Xədicə.......

Əbu Talibin vəfatı..........
Qorxulu gecə............
Mədinəyə köçmə..............
Bədr döyüşü.................
Ögey ana sıxıntısı – daha bir dərd..........
Ərəgetmə astanasında................
Fatimə (ə) ilə Əlinin (ə) evlənməsi, iki nurun qovuşması.............
Fatimeyi-Zəhranın (ə) Əlinin (ə) elçiliyinə cavabı................
Sadə və kiçik cehiz..............
Əlinin (ə) evinin əşyaları..................
Kirayə mənzil...............
Ailənin rahatlığı üçün evdə çalışma.............
Evin-ocağın idarəsi................
Fatimənin (ə) fəzilətləri və əxlaqi keyfiyyətləri................
Fatimeyi-Zəhra (ə) Quran ayələri baxımından.............
Fatimeyi-Zəhra (ə) rəvayətlərin dili ilə............
Fatimə - bədənimin bir parçası.................
Görkəmli alim (Əllamə) Əmininin geniş şərhi...........
İslam fiqhində Fatimeyi-Zəhranın (ə) şəxsiyyətinə böyük ehtiram..................
Fatimeyi-Zəhra (ə) başqalarının gözü ilə................
Əbədiyaşar sözlər....................
Əziz ananın unudulmaz xatirəsi (pak övladlarının dili ilə)..................
İmam Həsən Müctəba (ə) və əziz anasının xatirəsi ..................
İmam Hüseyn (ə) və əziz anasının xatirəsi..................
İmam Səccad (ə) və anasının xatirəsi................
İmam Baqir (ə) və anasının xatirəsi................
Fəzilətdə heç bir qadın Fatiməyə (ə) çatmaz............
İmam Sadiq (ə) və anasının xatirəsi.................
İmam Musa bin Cəfər (ə) və anasının xatirəsi..............
İmam Rza (ə) və anası Zəhra (ə)....................
İmam Rzanın (ə) yaxın adamlarından birinin söylədiyi hekayət............
İmam Cavad (ə) və anasının xatirəsi....................
İmam Hadi (ə) və anasının xatirəsi.................
İmam Həsən Əskəri (ə) və anasının xatirəsi..................
İmam Zaman (ə.c.) və anası Zəhra (ə) .....................
Fatimənin (ə) vəfatı.......................
Peyğəmbərlik günəşinin sönməsi.......................
Bu şadlığa səbəb nə idi?.............................
Hədisçi alim İrbilinin bu barədə dedikləri.....................
Zəhranın (ə) özünün təsdiqi.....................
Zəhranın (ə) məzlumcasına ölümü..............
Fatimənin (ə) gecə qoynunda yola salanlar........................
Əlinin (ə) dərdli ürəyini Allahın Rəsuluna (s) açması.............
Məsudi Fatimənin (ə) ölümü haqqında...................
Buxarinin dediklərindən........................
Mənbələr.......................................................